**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜASİR AZƏRBAYCAN VƏ TÜRKİYƏ HEKAYƏLƏRİNDƏ MİLLİ XARAKTER PROBLEMİ (1995-2015-Cİ İL)

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı
5717.01 – Türk xalqları ədəbiyyatı

Elm sahəsi: Filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş

**DİSSERTASİYA**


İddiaçı: ________ **Sima Tofik qızı Şəfizadə**

Elmi rəhbər: ________Filologiya elmləri doktoru, professor
**Məhəmməd İrac oğlu Əliyev**


**BAKI – 2022**

## MÜNDƏRİCAT

**GİRİŞ............................................................................................................ 3**

**I FƏSİL**

**MÜASİR AZƏRBAYCAN VƏ TÜRKİYƏ HEKAYƏLƏRİNƏ MİLLİ XARAKTER KONTEKSTİNDƏ BAXIŞ**

**1.1**. Azərbaycan və Türkiyə hekayələrində milli xarakter anlayışı ............................. 12

**1.2**. Hekayələrin mövzu və ideyasının formalaşmasında milli xarakterin rolu .......... 25

**1.3**. Hekayələrdə milli xarakterin ifadə vasitələri........................................................ 45

**II FƏSİL**

**AZƏRBAYCAN VƏ TÜRKİYƏ HEKAYƏLƏRİNDƏ OBRAZLARIN MƏNƏVİ ALƏMİ VƏ XARAKTER**

**2.1.** Milli xarakterin formalaşmasında müharibə və ictimai-siyasi amillərin rolu ..... 63

**2.2**. Hekayələrdə milli psixologiya və qloballaşma prosesinin əksi........................... 91

**2.3**. Milli xarakter sosial problemlər müstəvisində................................................. 112

**NƏTİCƏ ........................................................................................................ 134**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT................................................................ 138**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Milli xarakter problemi Azərbaycan və Türkiyə ədəbiyyatşünaslığında tədqiqata cəlb edilsə də, bu problem indiyə qədər əsasən roman və povest hadisəsi kimi araşdırılmışdır. Azərbaycan ədəbiyyatşünaslığında Akif Hüseynov, Qasım Qasımzadə, Türkiyə ədəbiyyatşünaslığında isə Semih Gümüş, Nəcib Tosun bu problemlə bağlı fundamental araşdırma aparmışdır.

Xarakterin bədii mətn daxilində formalaşması və təsviri mürəkkəb və mərhələli proses olduğundan onun hekayə janrının məhdud hüdudları və imkanları daxilində yaradılması çətindir. Halbuki həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatında yaradılan hekayələrdə milli xarakterlərin mövcudluğunu, eyni zamanda da bütün dünyada gedən qloballaşma prosesinin təsiri altında buna əks prosesin getdiyini, yəni xarakterlərdə millilikdən uzaqlaşmanın müşahidə edildiyini görə bilərik. Bu səbəbdən də əminliklə demək olar ki, hekayə janrında milli xarakter problemi hazırda ədəbiyyatşünaslıq üçün də aktuallıq kəsb edir. Eyni kökə, ortaq mədəniyyətə, dilə, dinə və adət-ənənələrə malik iki xalqın yaratdığı Azərbaycan və Türkiyə ədəbiyyatında bu problemin araşdırılması dissertasiyanın aktuallığını təmin edir. Xüsusilə problemin araşdırılması zamanı ona fərqli kontekstlərdən yanaşılma bir sıra ümumi tendensiyalarla bərabər, müxtəlif özünəməxsus xüsusiyyətləri də aşkara çıxarır. Fərqliliyi yaradan səbəblər hər iki xalqın tarixində baş vermiş ictimai, siyasi, sosial proseslərin müxtəlifliyi və cəmiyyətdə qloballaşma prosesinə dirənişin özünəməxsusluğudur.

Bu prosesdə meydana çıxan yeni ədəbi tendensiyaların da yaradılan mətnlərə təsiri və rolu danılmazdır. Qloballaşma prosesində iştirak edən, "dünya insanı" modelinin yaradılmasını vacib bilən bu təmayüllərin təsiri ilə müasir ədəbiyyatda meydana çıxan xarakterlərdə milli cizgilərin deqradasiyaya uğradığı da açıq şəkildə müşahidə edilir.

Məlum olduğu kimi, 1995–2015-ci illərdə həm Azərbaycan, həm də Türkiyə xalqının ictimai-siyasi, ədəbi-mədəni həyatında aktuallıq kəsb edən hadisələr baş

vermişdir. Bu zaman kəsiyində yazılmış Azərbaycan və Türkiyə hekayələrində qloballaşma, müasir cəmiyyətin və müasir insanın Şərq-Qərb kontekstində təhlili, milli xarakterin ictimai-siyasi və sosial problemlər kontekstində həlli açıq şəkildə özünü göstərə bilmişdir. Qeyd edilən hadisələrin təsiri altında bədii mətnlərə gətirilən milli xarakterlərin dəyərləndirilməsi, təhlili və onlarda müşahidə edilən ümumi xüsusiyyətlərin müəyyənləşdirilməsi tədqiqatımızın elmi-nəzəri aktuallığını təmin etməklə bərabər, yeniliyini də şərtləndirir.

12 sentyabr 1980-ci ildə Türkiyədə baş verən "Askeri darbe" (hərbi çevriliş) hadisəsinin təsiri 1990-cı illərdən sonra bütün sahələrdə olduğu kimi, ədəbiyyatda da hiss edilmişdir. Məhz bu hadisənin təsiri ilə yaranan özgələşmə, biganəlik, yadlaşma kimi psixoloji problemlərin bədii mətnə gətirilməsi, təsviri və araşdırılması hekayə janrında da özünü göstərmişdir. Bununla Türkiyə ədəbiyyatında insanın daxili dünyasını təsvir etməyə istiqamətlənən psixoloji hekayələrin sayı artmağa başladı, həyata və mövcudluğa ekzistensialist, sürrealist ədəbi-fəlsəfi yanaşma hekayə janrının ideya-məzmun xəttinə də güclü təsir göstərdi. Müasir ədəbi prosesi öz təsiri altına alan qloballaşmanın gətirdiyi yeniliklər və köklü ideoloji dəyişikliklər 2000-ci illərdən sonra yazılan Türkiyə hekayələrində də görünməyə başladı. Bu hadisələrin təsiri ilə bədii mətnlərdə "qlobal dünya insanı" modeli yaradıldı ki, o, da millilikdən, milli özünüdərkdən və özünüifadədən, milli xarakterik cizgilərdən uzaq idi. Həm hərbi çevrilişin, həm də qlobalizmin təsiri Aykut Ərtoğrul, Ayşə Kulin, Camal Şakar, Akif Kaya, Güray Süngü kimi hekayə ustalarının əsərlərində öz əksini tapdı. Hekayələrdə milli cizgilərdən, milli xüsusiyyətlərdən və kimlikdən uzaqlaşan xarakterlər sosial və psixoloji problemlər fonunda təsvir edildiyi üçün mətn daxilində bunu doğuran səbəblərə də toxunulub.

Milli xarakter, milli kimlik, milli özünüməxsusluq kimi xüsusiyyətlərin bədii mətnlərdə tənəzzülə uğraması problemi, xarakterlərin milli xüsusiyyətlərdən uzaqlaşması prosesi 1995–2015-ci illərdə yaradılan Azərbaycan hekayələrində də müşahidə edildi. Bu cür xarakterlərin yaradılması və bədii mətnlərə yol tapmasının səbəbləri kimi, 1990-cı illərdən sonra Azərbaycanda yaşanan ictimai-siyasi

hadisələr, I Qarabağ müharibəsində məğlubiyyət, torpaq itkisi, qaçqınların paytaxta axını, sosial-iqtisadi problemlər və bunun nəticəsi olaraq yaranan mənəvi çətinliklər, az qala, kütləvi halda yaşanan psixoloji sarsıntılar və s. hadisələri göstərmək olar. Müharibə sonrası yazılan hekayələrin əsas ideyası, əsasən, mənəvi ruh yüksəkliyinin, döyüş ruhunun, yenilməzliyin qorunmasına xidmət etsə də, yaradılan xarakterlərdə məlum hadisələrdən qaynaqlanan ruh düşgünlüyü, özünəqapanma, biganəlik, millilikdən uzaqlaşma, mənəvi tənəzzül kimi psixoloji problemlər özünü daha qabarıq şəkildə göstərdi. Hekayələrin yazı texnikasında orijinallıq, eksperiment cəhdi, forma və strukturunda müxtəliflik, çoxçalarlıq müşahidə edilsə də, hekayə janrı mövzu baxımından dekadens əhvaldan uzaqlaşa bilmədi. Bu tarixi mərhələdə yaradılan xarakterlərdə diqqəti cəlb edən əsas xüsusiyyət onların bədbin əhvali-ruhiyyəsi, qeyri-müəyyənlik içərisində çabalamaları, gələcəyə bədbin baxışları, qələbə ilə bağlı ümidsizlikləri idi. Bütün bunların təsdiqini Elçin, Orxan Fikrətoğlu, Şəmil Sadiq, Vəfa Mürsəlqızı, Şərif Ağayar, Kamil Əfsəroğlu, Eyvaz Zeynalov və bu kimi bir çox yazıçıların hekayələrində görə bilərik.

Bütün dünyada qloballaşma prosesinin başlaması, onun dünya mədəniyyətinə və ədəbiyyatına təsiri, "dünya insanı" modeli üçün müəyyən etdiyi "dəyərlər" Azərbaycan ədəbiyyatında da bədii mətnlərə və yaradılan xarakterlərə yeni xüsusiyyətlər qazandırdı. Bu isə öz növbəsində əsərlərdə Şərq və Qərb dəyərlərinin qarşı-qarşıya gətirilməsi ilə bərabər, xarakterləri millilikdən, millik kimlikdən uzaqlaşdırdı. Bu səbəbdən də biz müasir hekayələrdə daha çox mənəvi-psixoloji tənəzzül içərisində özünü tanıya bilməyən, ətrafına və doğmalarına laqeydləşən insan modeli ilə qarşılaşırıq. Xarakterin cılızlaşması problemini, cəmiyyətdən uzaqlaşma və yadlaşma kimi bir sıra psixoloji sarsıntların təsvirini müşahidə edirik. 2000-ci illərdən sonra Yaqub Əlioğlu, Azər Qismət, Firuz Mustafa, Mirmehdi Ağaoğlu, Afaq Məsud və başqalarının hekayələrində bütün bu sadalanan xüsusiyyətlər daha qabarıq şəkildə müşahidə edildi.

Dissertasiyada ictimai-siyasi amillərin təsiri ilə yaradılan xarakterlerdə baş verən dəyişikliklər, milli-mənəvi və sosial problemlərin təsiri altında meydana

çıxan yeni xüsusiyyətlər və onların ifadəsi elmi-nəzəri aspektdən araşdırılmışdır. İctimai-siyasi amillərin milli xarakterlərin yaradılmasında rolu və onlardakı təzahürü müasir Azərbaycan və Türkiyə hekayələri əsasında tədqiqata cəlb edilmişdir.

Dissertasiyada milli xarakter sosial problemlər kontekstində, milli dəyərlər və adət-ənənələrlə birlikdə, milli-mənəvi özünüdərk hadisəsi olaraq, xalqın etno-psixoloji xüsusiyyətinin daşıyıcısı və təmsilçisi kimi tədqiqatın təhlil obyektinə çevrilmişdir. Bu baxımından sosial problemləri yaradan səbəblər, bu problemlərin xarakterin formalaşmasına, həyat tərzinə, daxili dünyasına təsiri, onun mənəvi dünyasında buraxdığı izlər və bütün bunların da hekayələrdə hansı şəkildə təsvir edildiyi tədqiqatda geniş şəkildə araşdırılmışdır.

Dissertasiyada həm Azərbaycan, həm də Türkiyə nəsrində xarakter probleminin tədqiqinə həsr edilmiş elmi məqalələr, monoqrafiyalar, dissertasiyalar da təhlilə cəlb olunmuşdur. Azərbaycan ədəbiyyatşünaslığında Sərvinaz Həsənovanın "Müasir Azərbaycan hekayəsində psixoloji təhlil: (1970-80-ci illər)" [43], Dilbər Zeynalovanın "İsmayıl Şıxlının yaradıcılığında milli özünüifadənin bədii inikası (yazıçı və folklor problemi əsasında)" [112], Leyla Həsənzadənin "50–60-cı illər Azərbaycan nəsrinin poetikası (İsa Hüseynovun yaradıcılığı əsasında)" [46], Cəsarət Valehovun "XIX əsrin sonu XX əsrin əvvəllərində Türkiyə ədəbiyyatında milli məfkurə" [104] və s. adlı dissertasiya işləri, Səidə Nağıyevanın "Müasir ədəbiyyatda mövzu müxtəlifliyi və milli xarakter" [71], Vahid Xələfovun "Xarakter və dil" [51] və s. məqalələri tədqiqata cəlb edilmişdir. Həmçinin bu problemin araşdırılmasında Məmməd Arifin "Sənətkar qocalmır" [62], Elçin Əfəndiyevin "Tənqid və ədəbiyyatımızın problemləri" [20], Qasım Qasımzadənin "Ədəbiyyatda millilik və beynəlmiləllik" [57], İsa Həbibbəylinin "Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri" [38], Sədaqət Qasımlının "Türkiyə ədəbiyyatında yeni hekayəçilik (XIX əsrin ikinci yarısı-XX əsr) [58], Tehran Əlişanoğlunun "Müstəqillik illəri Azərbaycan ədəbiyyatı" [28], Məmməd Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" [31], Akif Hüseynovun "Müxtəlifliyin birliyi" [48], Bədirxan Əhmədovun "XX yüzil

Azərbaycan ədəbiyyatı: Mərhələlər, istiqamətlər, problemlər" [23], Nərgiz Cabbarlının "Yeni nəsil ədəbiyyatı" üçcildliyinin I cildi [14], Lalə Həsənovanın "Çağdaş ədəbi paradiqma: İcmallar, Məqalələr, Düşüncələr" [44] və s. kitablarına istinad edilmiş, bu elmi mətnlərdə ifadə olunmuş elmi-nəzəri qənaətlər diqqətlə təhlildən keçirilmişdir.

Tədqiqatda həmçinin Türkiyə tədqiqatçıları və alimlərindən Ziya Göyalpın "Türkçülüyün əsasları" [37], Yusif Akçuranın "Türkçülüyün tarixi" [6], Nəcib Tosunun "Müasir hekayə nəzəriyyəsi" [170], Semih Gümüşün "Hekayənin pişik gözü" [125] və s. kitablarına istinad edilmiş, Bulud Süməyyanın "Camal Şakar hekayələrində struktur və mövzu" [158], Kayaoğlu İdilin "Fərd və cəmiyyət münasibətləri ardıcıllığında Camal Şakarın hekayələri və hekayəçiliyi" [134], Esra Poladın "Qurtuluş savaşı dövrü hekayələrində dedi-qodunun funksiyası və "başqası"nın əhvalatı" [152] adlı dissertasiya işləri də təhlilə cəlb edilmişdir. Bütün bunlar "Müasir Azərbaycan və Türkiyə hekayələrində milli xarakter problemi (1995-2015-ci il)" mövzusunda dissertasiya işinin yazılmasının həm türk, həm Azərbaycan ədəbi-nəzəri fikri üçün əhəmiyyətliyini və bir problem kimi aktuallığını şərtləndirir. Ölkəmiz müstəqillik qazandıqdan sonra bu kimi elmi araşdırmaların əhəmiyyəti artmış, Türkiyə ilə ədəbi əlaqələrin dinamikası daha da sürətlənmişdir. Ədəbi əlaqələrin inkişafında, türk xalqları, o cümlədən qardaş Türkiyə ədəbiyyatının aktual problemləri ilə bağlı xeyli sayda analitik məqalə, dissertasiya və monoqrafiya müəllifləri olan İ.Həbibbəyli, N.Cəfərov, Q.Paşayev, T.Məlikli, A.Abıyev, M.Əliyev, Ə.Rəsulov, R.Əskər, F.Ağayeva, N.Tağısoy, A.Musayeva, E.Quliyev, T.Məmməd, M.Hacıyeva, N.Araslı, J.Əliyeva, Ş.Qədimova, F.Bayat, X.Hümmətova, F.Vəliyeva, A.Ülvi, Y.Qasımbəyli, R.Əhmədov, İ.Osmanlı, S.Gündoğdu, A.Xəndan, N.Mustafayeva, F.Dursunova, A.Turan, Ə.Şamil, S.Sadiyev, T.Teymurov, M.Həsənov, T.Talıbova, M.Gözəlova, E.Məmmədova, X.Qafqazlı, S.Qasımlı, R.Quliyev, A.Məmmədxanlı, B.Osmanova, E.Babayeva, A.Rüstəmova, M.Dəyər, K.Nəcəfova, E.Xəlilova, V.Musalı, L.Qasımova, O.Babayeva, C.Valehov, L.Kərimova, T.Əliyeva, Ü.Səmədova, A.Şükürov, Ü.Babayev və başqalarının diqqətəlayiq xidmətlərini də qeyd etmək istərdik.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin əsas obyektini 1995–2015-ci illərdə qələmə alınan Azərbaycan və Türkiyə hekayə nümunələri təşkil edir. Dissertasiyada ümumilikdə 40-dan artıq Azərbaycan və Türkiyə yazıçısının 70-dən çox hekayəsi tədqiqata cəlb edilmişdir. Tədqiqatın digər bir mühüm istiqaməti bu əsərlərin mövzu rəngarəngliyinin, ideya-məzmun xüsusiyyətlərinin təhlili və bu mətnlərdə yaradılan milli xarakterin tədqiqi və öyrənilməsidir. Dissertasiyada 1995-2015-ci illərdə qələmə alınmış Azərbaycan və Türkiyə hekayələri ilə bərabər onlar haqqında yazılmış ədəbi-nəzəri və ədəbi tənqidi əsərlər də tədqiqatın obyekti olaraq müəyyən edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiyanın əsas elmi məqsədi 1995–2015-ci illərdə yazılmış Azərbaycan və Türkiyə hekayələrində milli xarakter probleminə müasir zaman, qloballaşan dünya, Şərq və Qərb kontekstindən yanaşmaq, ictimai-siyasi, sosial-psixoloji problemlər fonunda milli xarakterdə meydana çıxan dəyişiklikləri, diqqəti çəkən tənəzzül prosesinin səviyyəsini, formalaşmaqda olan fərqlilikləri təhlilə cəlb etməkdir. Buna nail olmaq üçün aşağıdakı elmi-nəzəri vəzifələrin həll edilməsi nəzərdə tutulmuşdur.

- Hər iki ölkədə tədqiq edilən dövrün ictimai-siyasi, ədəbi-mədəni mənzərəsinin təhlil edilməsi və bunun milli mədəniyyətə, ədəbiyyata, hekayəyə və milli xarakterin yaradılmasına təsirini araşdırmaq;
- Milli xarakter anlayışına ümumtürk ideologiyası, təfəkkür və düşüncəsi aspektindən necə yanaşıldığını göstərmək;
- Müasir ədəbi prosesdə milli xarakterin yaradılmasının aktuallıq səviyyəsini müəyyənləşdirmək, yaradılan milli xarakterlərlə bağlı ümumiləşdirilmələr aparmaq, bu prosesdə hər iki ədəbiyyatda müşahidə edilən oxşar və fərqli xüsusiyyətləri üzə çıxarmaq;
- Hekayələrdə milli xarakterin yaradılması prosesində milli özünəməxsusluğu müəyyənləşdirmək və milli xarakterin ifadə vasitələrini təyin etmək;
- Qloballaşmanın, yeni fikir və düşüncələrin hər iki xalqın hekayələrində milli xarakterə təsirini müəyyən etmək;

- İctimai, siyasi, sosial, mənəvi problemlər fonunda milli xarakterin itirilmiş cizgilərini, milli-mənəvi deqradasiya probleminin səbəb və nəticələrini, hekayələrdə təsvir forma və metodunu təhlilə cəlb etmək;
- Milli xarakterik cizgilər, milli-mənəvi, dini-əxlaqi dəyərlər, "milli mənlik", "milli kimlik" kimi anlayışların hekayələrdəki təzahürünü dəyərləndirmək.

**Tədqiqat metodları**. Tədqiqat işi tarixi-müqayisəli metod əsasında yazılmışdır. Müasir ədəbi-nəzəri fikrin əldə etdiyi nailiyyətlər problemin öyrənilməsində elmi əsas rolunu oynamışdır. Tədqiqatın metodoloji və nəzəri əsaslarını filologiya elmi sahəsindəki milli və ümumbəşəri dəyərlər, ədəbi-bədii materialın sistemli şəkildə araşdırılması təşkil edir. Dissertasiya işində Azərbaycan və Türkiyə tədqiqatçılarının elmi-nəzəri fikir və mülahizələrinə istinad edilmiş, hər iki ədəbiyyatın 1995–2015-ci illər ərzində qələmə alınan və ya dərc edilən hekayələri təhlilə cəlb edilmişdir. Təhlilə cəlb edilən hekayələrin orijinal mətnləri üzərində araşdırma aparılmış, yeri gəldikcə Azərbaycan dilinə tərcümə olunmuş materiallara da diqqət yetirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** Müasir Azərbaycan və Türkiyə hekayələrində milli xarakter problemini tədqiq etmək və mövzunu tam şəkildə əhatə etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar bunlardır;

- 1995–2015-ci illər Azərbaycan və Türkiyə hekayələrinin tarixi inkişafının mühüm mərhələsi kimi dəyərləndirilmişdir;
- 1995–2015-ci illər Azərbaycan və Türkiyə hekayələrində təsvir edilən milli xarakterin uğradığı keyfiyyət dəyişikliklərini, milli xarakterin tənəzzülünü, yaradılan xarakterlərin əsasən "qloballaşan dünya insanı" modelinə yaxınlaşmasını müəyyənləşdirmişdir;
- Hər iki xalqın hekayələrində iki tip xarakter müşahidə edilmiş, milli xarakterlərlə yanaşı, yeni dünya insanı modelinə çevrilmiş xarakterlərin də mövcudluğu aşkara çıxarılmışdır;
- Dövrün ictimai-siyasi hadisələri ilə bərabər, qloballaşma prosesinin də hekayələrdə yaradılan milli xarakterlərin təsvirinə və xarakterik

xüsusiyyətlərinə təsir göstərməsi və əks prosesin mövcudluğu müşahidə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Milli xarakter anlayışı roman janrında öz bədii ifadəsini yüksək şəkildə tapdığından hər zaman roman faktı olaraq müəyyənləşdirilmiş və araşdırılmışdır. Hekayə janrının məhdud ədəbi imkanlarına görə milli xarakter anlayışı indiyə qədər bu janr daxilində tədqiqat predmeti kimi müəyyən edilməmiş və işlənməmişdir. Bu mövzu ilk dəfədir ki, dissertasiya işində sistemli şəkildə tədqiq edilir. Və bu problemin Azərbaycan və Türkiyə hekayələri kontekstində müqayisəli şəkildə təhlilə cəlb edilməsi də işin elmi yeniliyini təmin edən cəhətlərdəndir.

- Tədqiqatın elmi yeniliklərindən biri Camal Şakar, Ayşə Kulin, Behzet Çelik, Sevin Sezgin və s. Türkiyə yazıçılarının Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfə tədqiqata cəlb olunmasıdır;
- İlk dəfə olaraq Azərbaycan və Türkiyə hekayələrində milli xarakter anlayışı paralel olaraq təhlilə cəlb edilmişdir;
- Dissertasiyada qeyd edilən fikir və mülahizələr hər iki xalqın müasir ədəbi prosesi üçün yenilik hesab edilə bilər;
- İlk dəfə olaraq Azərbaycan və Türkiyə hekayələrində milli xarakter anlayışı ümumtürk ideologiyası, fəlsəfə və düşüncəsi, ümumtürk mədəniyyəti fonunda araşdırılmışdır;
- Araşdırmada hər iki xalqın hekayə janrı daxilində milli xarakter problemi müasir zamanın və ədəbiyyatşünaslığın yeni nailiyyətləri və yenilikləri çərçivəsində nəzərdən keçirilmişdir;
- İlk dəfə olaraq milli xarakter hekayə janrı çərçivəsində qloballaşmaqda olan dünyanın sosial, ictimai, siyasi problemləri kontekstində müqayisəli metod əsasında tədqiqata cəlb edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Dissertasiya işi hər iki xalqın ədəbiyyatında müasir hekayə janrının yeri və inkişafı ilə bağlı tədqiqat aparan mütəxəssislər üçün elmi əhəmiyyət kəsb edir. Tədqiqatda milli xarakter problemi ümumtürk ideologiyası, tarixi-milli kimlik, milli-mənəvi dəyərlərin bədii mətndə

ifadəsi və s. məsələlər kontekstində araşdırıldığı üçün Azərbaycan-Türkiyə ədəbi əlaqələrini tədqiq edən mütəxəssislər, müasir Azərbaycan və Türkiyə ədəbiyyatını tədris edən müəllimlər və tələbələr tərəfindən əlavə vəsait kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiyanın mövzusu AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində müəyyən edilmişdir. Tədqiqatın əsas müddəa və nəticələri iddiaçının Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, həmçinin xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında, o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan (ResearchGate, OAJI.net, Copernicus, ESJİ, Google Scholar və s.) dövrü elmi nəşrlərdə, xarici və ölkədaxili beynəlxalq konfransın materiallarında öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Türk xalqları ədəbiyyatı şöbəsində yerinə yetirilmiş, şöbənin tədqiqat istiqamətinə uyğun olaraq tamamlanmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (16 242 şərti işarə), iki fəsil (birinci fəsil üç paraqraf – 104 871 şərti işarə, ikinci fəsil üç paraqraf – 145 484 şərti işarə), nəticə (6 481 şərti işarə) və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 273 078 şərti işarədir.

# I FƏSİL
# MÜASİR AZƏRBAYCAN VƏ TÜRKİYƏ HEKAYƏLƏRİNƏ MİLLİ XARAKTER KONTEKSTİNDƏ BAXIŞ

## 1.1. Azərbaycan və Türkiyə hekayələrində milli xarakter anlayışı

Hekayə ədəbiyyatda özünəməxsus yeri olan və davamlı dinamik inkişaf və dəyişim yolu keçən bir janrdır. Bütün dünya ədəbiyyatında əhəmiyyətli çəkiyə malik bu janrı fərqləndirən, ona milli kolorit və keyfiyyət bəxş edən bir neçə xüsusiyyət var ki, bunlardan biri də milli xarakterin mövcudluğudur. Milli xarakterdəki millilik isə *"estetik kateqoriya olaraq milli mövcudluğun bədii düşüncədəki təzahürüdür. Bəşəriliyə gedən yol bütün tarixi zamanlarda millilikdən keçmişdir"* [81, s.118]. Ona görə də milli xarakterin varlığı (eyni zamanda da bir sıra digər milli keyfiyyətlər) dünya ədəbiyyatında da ən oxunaqlı, ən dəyərli hekayələrdə müşahidə edilən əsas estetik keyfiyyətdir.

Bu gün əminliklə söyləmək olar ki, nəinki Azərbaycan və Türkiyədə, eləcə də bütün dünyada hekayə janrında milli xarakter problemi öz aktuallığını qoruyub saxlaya bilmişdir. Ernest Heminquey, Mixail Şoloxov, Gi de Mopassan, Çingiz Aytmatov və b. yazıçılar öz hekayələrində xalqın taleyini, tarixini, etnoqrafiyasını, milli ruhunu, psixologiyasını təsvir etməklə kifayətlənməmiş, milli dəyərləri bəşəri problemlərlə paralel şəkildə işləmişlər. Məsələn, Dmitri Lixaçov yazırdı: *"Milli xüsusiyyətlər – mötəbər bir faktdır. Hansısa bir xalqa, hansısa bir millətə, hansısa bir ölkəyə məxsus olan elə bir xüsusi keyfiyyətlər mövcud deyildir. Bütün məsələ onların hansısa məcmusunda və bu milli və ümummilli cizgilərin təkrarolunmaz düzülüşündədir*" [177, s.3].

Hekayə bir janr olaraq Azərbaycan ədəbiyyatı üçün hər zaman böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycanın görkəmli yazıçısı və tənqidçisi Elçin Əfəndiyevin "*Xalq Mirzə Cəlilin hekayələri ilə bu janrı öz milli ədəbiyyatının faktı kimi dərhal qəbul etdi*" [20, s.81] fikri milli xarakterlərin göründüyü ilk

hekayələrimizi yada salır. Bununla bərabər, İsmayıl Şıxlı, İsa Hüseynov, Fərman Kərimzadə, İsi Məlikzadə və b. yazıçılar bu tendensiyanı davam etdirmiş, Türkiyə ədəbiyyatında isə Yaqub Qədri Qaraosmanoğlu, Ömər Seyfəddin, Memduh Şevkət Əsəndal, Səbahaddin Əli və başqalarının hekayələri "Bizi "Biz" edən hekayələr" adı altında milli-mənəvi özünüdərk ideyasını milli xarakterin yaradılması aspektindən əsaslı bir şəkildə reallaşdırmışlar. Bu isə bir daha sübut edir ki, milli yaddaşa, tarixi keçmişə, ümumtürk psixologiyasına bağlı olan mətnlər (hekayələr) özlərində mənəvi-əxlaqi, ideoloji və kultoroloji mövqeyi də müəyyənləşdirə bilir.

Xarakter anlayışı insanın bütün fərdi-psixoloji xüsusiyyətlərinin deyil, mühüm və davamlı fərdi xüsusiyyətlərinin məcmusu olaraq təyin edilir. Bu xüsusiyyətlər isə fərdin dünyagörüşü və əqidəsi ilə bağlı olduğundan xarakter bir məfhum kimi bir çox sahələr (sosiologiya, psixologiya, ədəbiyyat) tərəfindən tədqiqat obyekti olaraq müəyyən edilmişdir. Lakin dissertasiyada tədqiqat obyekti xarakter yox, məhz milli xarakter anlayışı olduğu üçün problemə milli, etnik, tarixi dəyərlər kontekstindən yanaşılmışdır.

Azərbaycan və Türkiyə ədəbiyyatında milli xarakter həm də ümumbəşəriliyin göstəricisi olaraq müasir dövr ədəbiyyatı üçün aktuallıq kəsb edir. Onu da qeyd edək ki, bədii mətnə özünəməxsusluq, orijinallıq, fərqlilik qazandıran əsas xüsusiyyətlərdən biri onda təsvir edilən xarakterlərdə olan millilikdir. Bu, bəzən yazıçıların bilərəkdən, bəzən isə bilməyərəkdən, təhtəlşüur olaraq xarakterə gətirdiyi bir xüsusiyyət olaraq dəyərləndirilə bilər. Milli xarakter, ilk növbədə, insanın milli özünüdərkinin, mənliyinin, şəxsiyyətinin milli-mənəvi dəyərlərə sadiqliyinin, milli ənənələrə bağlılığının göstəricisidir. Biz də milli xarakterə məhz bu aspektdən yanaşaraq, onu hekayə faktı kimi tədqiqata cəlb etməyi vacib bildik. Ədəbiyyatşünas Qasım Qasımzadə:*"Şəxsin milli özünüdərki, əslində, milli xarakterin başlıca əlamətlərindəndir. Bu özünü ən çox milli mənsubiyyətin müəyyənləşdirilməsi lazım gələndə göstərir"* [57, s.115-116], – deyə qeyd edir. Həm də o da məlumdur ki, milli xarakterdə ifadə olunan meyarlar hər bir xalqın milli özünəməxsusluğunu, özünüdərkini canlandırmağa və təsdiq etməyə xidmət edir. Milli özünəməxsusluq isə milli ideologiyaya bağlı olmaq, onun daşıyıcısı və təbliğatçısı kimi davranmaq və

millətin özünü təsdiqi yolunda millətin dəyərlərinə uyğun şəkildə davranmaqdır. Nəticə etibarilə bu xüsusiyyətlər (milli xarakter, milli hisslər, milli özünüdərk) birlikdə millətin milli təfəkkürünü və milli psixologiyasını formalaşdırır. Milli xarakterin ideologiya ilə qarşılıqlı əlaqəsini vurğulayan Vahid Ömərov isə "*milli xarakter, milli mentalitet, adət-ənənələr xalqın özünümühafizə və özünütəsdiq forması kimi əsrlərlə yaşamış, ən dəyərli milli amillərdən biri – millətin varlığının ayrılmaz ünsürü olan milliyətçilik, milli məfkurə ilə qarşılıqlı təsirdə inkişaf etmişdir"* [78] fikrini də irəli sürür.

Cəmiyyət içərisində, kütlə arasında milli xarakterli şəxslər yalnız və yalnız digər insanlarla müqayisədə öz fərqini görür, dərk edir, milli-genetik yaddaşı oyaq olan, özündə milli mənlik və milli özünüdərk hisslərini formalaşdırmağı bacaran insanlar olaraq meydana çıxır. Bu xarakter bir parçası, nümayəndəsi olduğu toplumun – millətin bütün inanclarını, dilini, mədəniyyətini, adət-ənənələrini, yaddaşını özündə daşıyır. Həm də təkcə daşımaqla kifayətlənmir, eyni zamanda da yaşadır və gələcək nəsillərə ötürür. Türkçülük ideologiyasının yaradıcılarından biri, böyük mütəfəkkir Yusif Akçura "millət nədir?" sualını belə cavablandırır: "*Millət irq və dilin əsasən birliyindən dolayı sosial vicdanında birlik və bərabərlik meydana gəlmiş bir insan toplumudur*" [6, s.21]. Digər görkəmli türkşünas Ziya Göyalp isə milli kimliyi formalaşdıran amillər kimi müəyyən mənəvi dəyərlərin mövcudluğunu vurğulayaraq onları bir-bir sadalayır: "*Millət nə irqə, nə qövmə, nə coğrafiyaya, nə siyasətə, nə də iradəyə bağlı bir toplum deyildir. Millət dil, din, əxlaq və bütün gözəl sənətlər – estetika baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət bir zümrədir*" [37, s.35]. Çünki milli kimlik həm də estetik anlayış olaraq nəinki genetik-milli yaddaşın, ideologiyanın daşıyıcısı funksiyasını yerinə yetirir, eyni zamanda da illərlə formalaşan, nəsillərdən-nəsillərə ötürülən ədəbi-mədəni dəyərləri, estetik zənginliyi, milli hissləri də özündə ehtiva edir. Milli kimliyin formalaşmasında dil, mədəniyyət, ədəbiyyat faktoru əhəmiyyətli rol oynayır. Məsələn, Lev Anninski *"dili milli xarakterin ifadəsində əhəmiyyətli bir "açar" adlandırır"* [175, s.876]. Çünki mədəniyyət və ədəbiyyat, ilk növbədə, dillə bağlıdır və dil hadisəsidir. Xalqın, millətin bütün koloritini və xüsusiyyətlərini özündə qoruyub saxlayan dil üzərində

qərar tutmuş mədəniyyət isə milli özünüdərkin ifadəçisi olaraq milli xarakter kimi təkcə milli keyfiyyətləri özündə ifadə etmir, eyni zamanda da yaşadır və gələcəyə ötürmək kimi bir missiya daşıyır. Onu da qeyd edək ki, milli kimliyi formalaşdıran amillər sırasına coğrafi, demoqrafik, etnoqrafik, tarixi-iqtisadi, ictimai-siyasi amilləri də əlavə etmək olar. Türk xalqının formalaşmasında kənar amillərin (Avropa fikirlərinin) təsirinin Türkiyədə hələ XVIII yüzillikdən başlayaraq hiss olunduğunu söyləyən türkoloq Yusif Akçura bu dövrü belə səciyyələndirir: "*Bəzi gənclərin Avropaya getməsi, bəzilərinin Avropadan gəlməsi, bizə sığınanların Osmanlı əsgərləri və məmurlarının arasına girməsi osmanlılarda – savadlı, elm adamı, əsgər və məmur təbəqələri arasında Avropa fikirlərinin yayılmasına xidmət edir*" [6, s.25]. XIX yüzillikdən başlayaraq Tənzimatın təsiri nəticəsində Türkiyə xalqının dünyaya baxışının, mədəni inkişafının dəyişməsi müşahidə edildi. Tənzimat bu prosesdə əhəmiyyətli rol oynadı. Bu barədə yazılır: "*Tənzimatın başqa bir özəlliyi də təqliddir. Tənzimat ilə Avropa təqlid edilmək istənmişdi*r" [6, s.31]. Məhz bu dövrdə Türkiyədə "millətçilik" məfhumu zəifləmiş, bu, bir çox sahələrdə, xüsusilə ictimai-siyasi arenada, mədəniyyət və ədəbiyyat sahəsində özünü əhəmiyyətli dərəcədə göstərə bilmişdir. Əlbəttə, bu hadisələr həm bilərəkdən, həm də düşünülmüş olaraq milli kimliyin, milli özünüdərk bacarığının zədələnməsinə yönəldilmiş proses idi. Buna qarşı çıxan, onun əleyhinə mübarizə aparan qüvvələr də az deyildir. Elə bunun nəticəsi olaraq beyinlərə nüfuz etməyə çalışan və millilik anlayışını cidd-cəhdlə müdafiə edən ziyalılar dayanmadan mübarizə aparır, onu mühafizə etməyə çalışırdılar. Məsələn, Yusif Akçuranın "Üçtərzi-siyasət" adlı əsərində "osmanlılıq, islamlıq, türklük" anlayışları açıq şəkildə bəyan edilir, eyni modeli Azərbaycan cəmiyyəti üçün də Əli bəy Hüseynzadə "türkləşmək, islamlaşmaq, avropalaşmaq" şəklində təqdim və təbliğ edirdi. Və Əli bəy özünün təklif etdiyi bu formulu avropalaşmağa, qərbləşməyə meyilli olan, inkişaf etməyə çalışan cəmiyyət üçün daha optimal variant hesab edirdi. Elə bu səbəbdəndir ki, bu gün də nəinki Türkiyə ümumiyyətlə, Türk dünyası bu modelə əsaslanan ideologiya formalaşdırmağa çalışır. Milli ədəbiyyatın nümayəndəsi, türkçülük ideologiyasının ədəbi və mədəni aləmdə yaradıcısı olan Ömər Seyfəddin də "Hürriyyət", "Primo türk çoçuğu", "Hürriyyət

bayraqları" adlı hekayələrindəki obrazlarda milli tipin, milli xarakterin, milli simanın, milliliyin bir çox xüsusiyyətlərini, milli psixologiyanın ifadə vasitələrini əks etdirə bilmişdir.

Azərbaycanlıların isə keçdiyi tarixi inkişaf prosesindən də göründüyü kimi, kənar qüvvələr milli kimliyin "yatırdılması", hətta "unutdurulması" kimi bir məqsədə xidmət etməklə bir çox hallarda müəyyən nəticələr də əldə edə bilmişlər. Baxmayaraq ki, erkən azərbaycançılıq düşüncəsi Azərbaycan mədəniyyəti üçün qədim və orta əsrlərdən formalaşmağa başlamışdır. Nəzəriyyəçi Məmməd Əliyevin də dediyi kimi, "*Qədim və orta əsrlərdə Azərbaycan bədii-fəlsəfi, dini-əxlaqi düşüncəsində əks olunan erkən Azərbaycançılıq düşüncəsinin yaranması və inkişaf etməsi mürəkkəb ictimai-siyasi, mədəni-kulturoloji münasibətlər burulğanından keçmişdir"* [30, s.108]. Beləliklə əsrlərlə, illərlə formalaşan bu ideya tarixin müxtəlif dövrlərində, xüsusilə XIX əsrin əvvəllərindən başlayaraq mütəmadi olaraq təzyiqlərə məruz qalmış, millət ideologiya və millətçilik anlayışlarının, milli özünüdərk hissinin sıxışdırılması problemini yaşamışdır. Azərbaycanda bu problemə qarşı bir direniş, milli özünüdərk, milli xarakterin güclənməsi, milli maraqların qorunmasına cəhdlər müşahidə edilsə də, elə o dövrdən başlayaraq bir ərazi və toplum daima kənar qüvvələrin təsiri altında olmuşdur. Danılmaz faktdır ki, XX əsrin sonlarına kimi Rusiyanın idarəçiliyi altında azərbaycanlılara qarşı milli kimliyin unutdurulması, toplumun bütünlüklə manqurtlaşdırılması kimi xüsusi siyasət yürüdülmüşdür. Bu dövrün təhlili verilmiş "Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları" adlı kitabda qeyd edilir: "*Osmanlının idarəçilik mədəniyyətindən fərqli olaraq (burada etnik qohumluq da münasibətlərə təsir etməmiş deyildi) İran və Rusiyanın idarəçiliyi, əsasən müstəmləkəçiliyə əsaslanır, Azərbaycan xalqının azadlıq (müstəqillik) idealları qarşısında nəinki sədd çəkir, hətta onun ruhunu sıxırdı..*" [16, s.23-24]. Azərbaycanlıların belə bir milli-ideoloji təzyiqlər altında yaşaması, təbii ki, parçalanmaya, milli kimliyin unudulmasına hesablanmışdır. Lakin istər o zaman, istərsə də indi göstərilən təzyiq və təqiblərə baxmayaraq, azərbaycanlılar hər zaman öz milli kimliyini unutmamağa, qorumağa çalışmışlar. Gizli aparılan mübarizələr, müxtəlif dövrlərdə milli kimliyin göstəricisi, qoruyucusu və yaşadıcısı olan

mədəniyyət və ədəbiyyatın yaradılması və qorunması, bir sözlə bu istiqamətdə aparılan açıq çarpışmalar bunun sübutudur. Təsadüfi deyil ki, hətta sovet rejiminin kəskin olduğu zamanlarda belə, Azərbaycan mədəniyyətində (musiqisində, teatrında, ədəbiyyatında və s.) həm milli xüsusiyyətləri olan obrazlar, həm də milli xarakterlər yaradılırdı. Biz istər romanlarda (məsələn, "Dəli Kür" – Cahandar ağa, "Böyük dayaq" – Rüstəm kişi kimi obrazlar və s.), istərsə də hekayələrdə (məsələn, Maqsud İbrahimbəyovun "Bağçada rahat güşə" adlı hekayəsində Ağasəf, Elçinin "Baladadaşın ilk məhəbbəti" adlı hekayəsində Baladadaş) milli xarakterlərin yaradıldığını müşahidə edirik. Bu klassik Azərbaycan hekayəsi üçün xarakterik haldır. Məsələn, Əbdürrəhim bəy Haqverdiyevin "Pristav və oğru", "Müsibət" hekayələrində bütöv bir milli xarakter və obrazlar qalereyası yaradılmışdır. Seyid Hüseynin "Uzundərə", Qantəmirin "İntelligent" adlı hekayələrində istifadə edilən milli atributlar, milli musiqi, milli yeməklər, milli mühit və onun incəliklə işlənmiş detalları milli xarakterlərin dəqiq təsvirini yaratmaqla bərabər, milli mühit amilinin mövcudluğunu da xatırlatmış olur. Milli kimliyin və onun ifadəçisi olan milli xarakterin milli özünüdərk hadisəsi olaraq ən real və dəqiq ifadəsi həm folklorda, həm də yazılı ədəbiyyatda müşahidə edilməkdədir. Ümumiyyətlə, ədəbiyyat və sənət milli ideologiyanın ən gözəl yaradıcısı və daşıyıcısıdır. Biz ədəbiyyatın inkişaf mərhələlərini, müxtəlif tarixi etaplarda yaradılmış nümunələrini izləməklə milli xarakterin keçdiyi inkişaf yolunu, mübarizəsini, məğlubiyyətini, uğradığı dəyişiklikləri, qəbul etdiyi və itirdiyi xüsusiyyətləri və s. müşahidə edə bilərik. Çünki hər bir ədəbiyyat nümunəsində yaradılan xarakter təsvir etdiyi dövrün milli xüsusiyyətlərini də özündə daşıya bilir. Milli xarakterin bir spesifik cəhəti də ondan ibarətdir ki, millətin tarixində yaşanmış hadisələri, dövlətçilik, millətçilik və ideologiya mübarizəsini özündə, düşüncəsində, mübarizə metodunda, fikirlərində və s. təcəssüm etdirmək imkanına malikdir. Ona görə də bədii mətnlərdə, o cümlədən də hekayələrdə yaradılan milli xarakterlər öz dünyagörüşü, dünyaduyumu, psixologiyası, mübarizəsi və düşdüyü vəziyyətlərdə davranışı ilə təmsil etdiyi dövr, ideologiya, bu ideologiya uğrunda mübarizə və s. haqqında çox söz deyə bilir. Vahid Ömərov yazır: "*...milli inkişaf ideologiyası milli dövlətçiliyin, milli varlığımızın*

*qorunmasına xidmət etdiyi kimi, birləşdirici ideyatək bu ideologiyanın əsasını – milli özünəməxsus ənənə, milli xarakter, milli özünəməxsusluq və milli mentalitetə malik azərbaycançılıq təşkil edir”* [78]. Hakan Poyraz isə Türkiyə milliyətçiliyini milli təfəkkür hadisəsi olaraq dəyərləndirir: “*İstər yaşam/yaratmaq tərzi, istər yaşadığı fərqli coğrafiyalar, istərsə də mənəvi dəyərləri və bütün bunları yaradan tarix təcrübəsi etibarilə Türk bu yaşayışı mənimsəyən, özününküləşdirən və paylaşan topluluğun/millətin adıdır*” [154, c.32, s.277]. Bu səbəbdən də milli xarakter ideologiya ilə bağlı olduğundan milli-mədəni şüuru hərəkətə gətirən mexanizm də sayıla bilir. Onu da qeyd edək ki, eyni və oxşar xarakterik keyfiyyətləri və cizgiləri özündə daşıyan Azərbaycan və Türkiyə xalqlarının ədəbi əsərlərdə yaradılan milli xarakteri vahid ümumtürk ideologiyasından, psixologiyasından, fəlsəfəsindən qaynaqlanır və onun xarakterik əlamətlərini daşıyır. Onun bu xüsusiyyəti həm tədqiqatçılar, həm də nəzəriyyəçilər tərəfindən elmi araşdırmalara cəlb edilmişdir. “Türk millətinin psixologiyası barədə” adlı məqalənin müəllifi öz fikirlərini ciddi tədqiqat materialı deyil, subyektiv mülahizələr kimi nəzərə alınmasını qeyd etməklə, məqaləsində ümumtürk ümummilli xarakterinin çox əhəmiyyətli xüsusiyyətlərini sadalaya bilmişdir: “*1. Mərdlik, cəngavərlik, 2. Kosmopolitizm, 3.Qadına hörmət”* [64]. Sadalanan və milli cizgilər olaraq müəyyənləşdirilən bu keyfiyyətlər ümumtürk təhtəlşüurunda zaman keçsə də, mahiyyətini itirmir, ümumtürk milli kimliyinin göstəricisi olaraq qeyd edilir. Bu keyfiyyətləri özündə birləşdirən “təməl xüsusiyyətlər” isə ailəyə, dinə, soykökə, milli mənəvi dəyərlərə, adət-ənənələrə bağlılıq kimi dəyişməyən keyfiyyətlərdir. Dəyişkən olan digər xüsusiyyətlərdən fərqli olaraq, təməl kimliklər *“çox yavaş və yüz illərlə davam etdiyindən əsla dəyişməmiş kimi görünməkdədirlər”* [132, s.23] kimi təhlil edilir və türk kimliyi məhz “təməl kimlik” olaraq müəyyənləşdirilir. Böyük türk mütəfəkkiri Ziya Göyalp da “Türkçülüyün əsasları” kitabının “Əxlaqda türkçülük” adlı hissəsində türklərin milliliyə bağlılığını xüsusi vurğulamaqla, ümumtürk milli xarakterində sezilən vətən əxlaqı, məslək əxlaqı, ailə əxlaqı, mədəni əxlaq (şəxsi əxlaq), beynəlmiləl əxlaq adlandırdığı türk insanının əxlaqını bütün millətlərin əxlaqından üstün tutmuş və bu cəhətləri fərqləndirici xüsusiyyət olaraq qeyd etmişdir: “*Türk tarixi başdan-başa*

*əxlaq üstünlüklərinin sərgisidir. Türklərin məğlub-yenilmiş millətlərə, onların milli və dini varlıqlarına dini və ictimai muxtariyyətlər verməsi hər cür təqdirdən yüksəkdə durur*" [37, s.113]. O sadaladığı keyfiyyətləri Türkiyə xalqının, bir sözlə, türk xalqının həm də milli özünüifadə və təqdimetmə göstəricisi olaraq dəyərləndirmişdir. Vahid türk düşüncə sistemindən qaynaqlanan, vahid türk təfəkküründən doğan eyni mədəniyyətin, eyni adət-ənənənin, mənəvi dəyərlərin daşıyıcı olan Azərbaycan xalqının da milli xüsusiyyətləri xalqın özünüdərk və milli özünəməxsusluğunun göstəricisidir. Həmçinin bu, öz ifadəsini bütün zamanlarda ədəbi mətnlərdə tapmışdır. Bunun sübutunu biz müxtəlif siyasi-ideoloji mərhələlərdə yaranmış romanlarda, həmçinin daha kiçik həcmli əsərlərdə yaddaqalan milli xarakterlərin yaradılması ilə müşahidə edirik. "Azərbaycan ideologiyasının etnoqrafik əsasları" adlı kitabda bu xüsusiyyətlər geniş izah edilmiş, qruplaşdırılmışdır: "1. *Ailəyə sadiqlik, namus-qeyrət, övladlara qayğı, ata-anaya ehtiram; 2. El-obaya, yurda (Vətənə) bağlılıq, qohum-qonşunun dərdinə problemlərinə şərik olmaq (həm kədərini, həm də sevincini bölüşmək); 3. Qoçaqlıq, mərdlik, qəhrəmanlıq, zülmə baş əyməmək, istilaya, müdaxiləyə müqavimət göstərmək (ancaq qonağa hörmət etmək); 4. Adət-ənənəyə, qayda-qanuna, ağsaqqal (böyük) sözünə qulaq asmaq, həddini aşmamaq və s.və i. Bu kanonlaşmış və ya modelləşmiş xüsusiyyətlər etnosun etnik (milli) ideal axtarışlarının xarakterinə, heç şübhəsiz, əhəmiyyətli təsir etmişdir"* [16, s.49-50]. Bəs bədii mətnlərdə, xüsusilə də hekayələrdə milli xarakteri fərqləndirən bu xüsusiyyətlər necə seçilir? Türkiyəli tədqiqatçı Erol Güngör "Mədəniyyətin dəyişməsi və milliyətçilik (milli xarakter 1)" adlı araşdırmasında yazır: "*Bu an yaşayan yetkin türk əhalisində bütün əhaliyə nümunə ola biləcək bir qrup seçilir və onlardakı "model" şəxsiyyət araşdırılır. Bu şəxslərdə ən çox təkrarlanan xarakterik xüsusiyyətlər, bütün türklərdə də həmçinin, ortalama olaraq, var deməkdir"* [126]. Bu fikirdən çıxış edərək belə qənaətə gəlmək olar ki, milliliyi formalaşdıran dil, din birliyi ilə yanaşı, digər millətlərin mədəniyyətinə hörmət, soya-kökə bağlılıq, böyüyə hörmət, ailəyə bağlılıq, ailəni, qadını həyatda ən dəyərli varlıq hesab etmək kimi xüsusiyyətlər ümumtürk psixologiyasının bir göstəricisidir. Milli xarakteri səciyyələndirən sadalanmış bu keyfiyyətlərin hamısı bütövlükdə hər bir xalqın milli özünüifadəsini reallaşdırır.

Göründüyü kimi, bu proses, demək olar ki, zəncirvari xarakter daşıyır. Mənəvi dəyərlər (inanclar, adət-ənənələr) milli mədəniyyəti yaradır, milli mədəniyyət isə milli kimliyin formalaşmasında əhəmiyyətli rol oynayır. Milli kimliyini dərk edən fərd isə bədii mətnə gətirilərək milli xarakter səviyyəsinə qədər yüksəldilə bilir. Və bu həm Azərbaycan, həm də Türkiyə xalqlarının ədəbiyyatlarında oxşar şəkildə meydana çıxır. Erol Güngör "Mədəniyyət dəyişməsi və milliyyətçilik (milli xarakter 2)" adlı digər ikinci tədqiqat işində "*insan xarakteri, sadəcə, mədəniyyət nümunələri ilə deyil, eyni zamanda hər bir fərdə xas olan yaşantılara (experience) görə də təşəkkül edər; o ki qaldı mədəniyyət adlandırdığımız şeyə, insan fərdlərindən kənarda müstəqil bir varlığa sahib deyildir, onu yaradan və dəyişdirən yenə də insandır*" [127] – yazaraq insanı bu prosesdə həm yaradıcı, həm də dəyişdirici amil adlandırır. Beləliklə, millət, onun formalaşdırdığı və əsas xüsusiyyətlərinin daşıyıcısı olduğu milli xarakter və mədəniyyət bir-birləri ilə əlaqəlidir, hər üçünün mövcudluğu bir-birindən asılıdır. Milli xarakterin qeyd edilən xüsusiyyətləri onu deməyə əsas verir ki, bu anlayış daha geniş tədqiqat predmetidir. "Hekayə kimi kiçik və lokanik bir janrda bu problemin həlli hansı səviyyədədir?" və "Milli xarakter romanın, yoxsa hekayənin predmetidir?" kimi sualları ədəbiyyatşünaslar fərqli aspektlərdən cavablandırsa da, onların hər birinin gəldiyi ümumi nəticə bundan ibarətdir ki, hekayələrdəki milli xarakter romandakı kimi bütöv və bitkin deyildir. Ədəbiyyatşünas Məmməd Arif "hekayənin imkanları" adlı məqaləsində "*Hekayənin həyatı özünəməxsus vasitələrlə geniş əks etdirmək imkanı vardır. Bunun üçün onun bədii imkanlarını açmaq, onu lazımı yüksəkliyə qaldırmağa çalışmaq lazımdır*" [62, s.97], – deməklə hekayənin janr imkanlarından daha çox yazıçı istedadının vacibliyini xüsusi vurğulayır. Bu düşüncədən çıxış edərək deyə bilərik ki, hekayənin məhdud çərçivəyə salınmasına baxmayaraq, onda da milli xarakter yaratmaq mümkündür. Romanları cəmiyyətimizin böyük bir dövrünün bitkin bədii tarixi hesab edən Yaşar Qarayev isə "*Hər şeyi və ən geniş səpkidə təsvir etmək hüququ hamıdan çox romana məxsusdur*" [55, c.2, s.173], – deyə qeyd edir. Fidanə Musayevanın hekayənin məhdud janr imkanları haqqında fikirləri də maraq doğurur. *"Böyük sənətkarlar öz hekayələrində*

*saysız-hesabsız mükəmməl işlənmiş bədii xarakterlər yaratmışlar. Lakin hekayədəki xarakterlərin mükəmməl işlənməsi dar mənadadır"* [66, s.42].

Türkiyə ədəbiyyatında bu məsələyə yanaşma bir qədər fərqlidir. Ədəbiyyatşünas Semih Gümüş "Hekayənin pişik gözü" adlı kitabında "*Hekayəyə gəlincə, onun öz-özlüyündə heç bir problemi yoxdur: onunki ağır, qərarlı, özünəməxsus bir səyahətdir və bəzən dayanacaqlarda gözləyərək, bəzən də sürətlənərək getdiyi bu yolda qarşısına roman çıxarsa, öz təbiəti üzündən onu keçməyə çalışmır*" [125, s.132], – yazmaqla hekayə janrını məhz müasir dövrün ən aparıcı və perspektivli janrı hesab edir. Amma hekayənin zəngin bədii ifadə vasitələrindən yararlanmaq cəhdinə, güclü milli xarakter yaratmaq bacarığına şübhə ilə yanaşır. Nəcib Tosun isə "Müasir hekayə nəzəriyyəsi" adlı kitabında müasir Türkiyə ədəbi prosesinin mənzərəsini xarakterzə edərək bu qənaətə gəlir: "*Romanın tarixi inkişaf prosesinə baxdığımızda qəhrəman/xarakter hər zaman əhəmiyyət daşımışdır. Hətta bir çox roman, haqlı olaraq, onda olan xarakterləri ilə yada salınır. Çünki bu xarakteri yaratmaq ən çox romanın xarakterinə uyğundur"* [170, s.115]. Tədqiqatçı nəzəriyyəyə əsaslanaraq hekayə janrı üçün "xarakter"in özünü lazımsız detal hesab edərək qeyd edir: "*Xarakter hekayənin ən vacib xüsusiyyəti deyildir. Hətta hekayə bəzən bir xarakterə ehtiyac belə duymaz. Onun işi bir hava, bir atmosfer, bir dünya yaratmaqdır. Çünki hekayədə, sadəcə, xarakter axtarmırıq. İnsani bir məna, hiss, coşqu, kədər axtarırıq*" [170, s.117]. Bu fikirlə razılaşmaq ona görə mümkünsüzdür ki, bütün janrlarda olduğu kimi, hekayə üçün də xarakterin mövcudluğu daha çox maraq kəsb edir. Yalnız hiss və düşüncədən ibarət bədii mətnin yaddaşlarda qalmaq imkanı və düşüncəyə təsiri azdır. Bu mənada, *"xarakter ictimai mühitin mənfi və müsbət, zəif və qüvvətli cəhətlərinin aynasına çevrilmişdir"* [82] fikri müəyyən dərəcədə öz təsdiqini tapır. Milli xarakterin cizgilər və atributlarla ifadəsi bədii mətndə, xüsusilə hekayədə millilik, xalq ruhunun təsviri baxımından hər zaman önəmlidir. Gülrux Əlibəyova "Xarakter və tip" adlı məqaləsində xarakteri "*İnsanın müxtəlif şəraitdə davranışında, adamlara münasibətlərində, müxtəlif cəmiyyət hadisələrini qiymətləndirməsində təzahür edən ruhi və psixi xüsusiyyətlərinin məcmusu*" [24, s.196] adlandırmışdır. Belə nəticəyə gəlmək olur ki,

hekayə milli xarakterin yaradılmasında roman janrındakı kimi böyük və genişmiqyaslı imkanlara malik olmasa da, milli xarakterin hekayədə öz ifadəsini tapması müəyyən məqamlarda rast gəlinə bilinən haldır. Bunun üçün yazıçı istedadı, milli özünüdərki, bu dərkə münasibəti, özünü və təmsil etdiyi xalqı tanıması və sevməsi, milli təəssübkeşliyi önəmli rol oynayır. Ona görə də xarakterdən fərqli olaraq, milli xarakter anlayışı daha təzadlıdır və təhlilinə müxtəlif aspektlərdən yanaşmaq mümkündür. Böyük ədəbiyyatşünas alim, tənqidçi Akif Hüseynov "Müxtəlifliyin birliyi" adlı kitabında milli xarakteri xalqın milli siması hesab edərək ictimai-tarixi aspektdə izlənilən həyatla şərtlənən, millilik problemini ən tutumlu məsələ kimi ortaya çıxaran bir kateqoriya hesab edir və əsas mübahisəli məqama – ümumbəşərilik probleminə toxunur: "*Milli xarakterin təkamül yolu – ümumbəşəriliyi, beynəlmiləl mahiyyəti daha dərin, daha vüsətli şəkildə özünə qovuşdurmaq yoludur. Ola bilsin ki, milli kollektivin ayrı-ayrı üzvlərində bütün ümumbəşəri cəhətlərə rast gələk, ancaq unutmamalıyıq ki, söhbət milli xarakterdən, yəni bütünlükdə millətin psixologiyasını səciyyələndirən əlamətlərdən gedir*" [48, s.156]. Əslində, müasir Azərbaycan hekayələrində milli xarakter hər zaman olmuşdur. Sadəcə, bəzən bu xarakterlərin qəhrəman səviyyəsinə qalxmasını tələb edən ədəbiyyatşünaslıq onlardan cəmiyyətin öndə getməsini, cəsarət, mübarizlik və s. tələb etmişdir. Halbuki öz qayəsi, ideyası, düşüncəsi ilə, bəlkə də, cəmiyyətin öndə getməyən bir nümayəndəsini də milli xarakter kimi xarakterizə etmək mümkündür. Və bu məqamda milli xarakter və milli qəhrəman anlayışları arasında maraqlı bir fərqlilik də ortaya çıxır. Milli xarakter əsərdə xarakterik, özünəməxsus xüsusiyyətlər daşıyan obrazın mənsub olduğu millətin ən bariz, ən üzdə olan xüsusiyyətlərini təcəssüm etdirən şəxsdir. Milli qəhrəman isə bununla bərabər, milli ideoloji zəmində mübarizəyə atılmış bir şəxsiyyətdir. Birincidə müəyyən bir ideologiyaya mənsubluq, onun daşıyıcılığı, digərində isə o ideologiya uğrunda mübarizlik, göstərilən şücaət əsas xüsusiyyətdir. Həm də milli xarakter tarixi prosesin məhsulu olaraq ortaya çıxmaqla, zamanla dəyişikliyə uğrayan psixoloji hadisə hesab edilirsə, o zaman müasir dövr üçün də "xarakterdə millilik cizgiləri" ifadəsi bu mənada daha düzgün hesab olunmalıdır. Hətta son dövrdə qloballaşmanın gətirdiyi yeniliklərə baxmayaraq, xarakterində milli

cizgilərə, milli özünüdərkə sadiq qalan, ruhunda, genetik yaddaşında qoruduğu, yaşatdığı millilik çalarları olan obrazlar yenə də yaradılmaqdadır. Etiraf etməliyik ki, bu tip obrazlar artıq müasir dövrdə nisbət etibarilə azlıq təşkil edir. Buna baxmayaraq, onların xarakterlərini dəyişən, millilikdən uzaqlaşdıran səbəblər və milli-mənəvi tənəzzülün ağır nəticələri tədqiqatımızın təhlil obyekti olaraq seçilmişdir. Qasım Qasımzadə bu problemi xüsusi olaraq vurğulayır: "*Əlbəttə, hər hansı milli xarakteri konkret bir cizginin sərhədi ilə digərindən ayırmaq müşküldür. İgidlik, xeyirxahlıq, dözümlülük, həssaslıq, nikbinlik, bədbinlik, qonaqpərəstlik, təvazökarlıq, əliaçıqlıq, qadın namusu, ailə namusu, böyüyə hörmət və s. keyfiyyətlər bütün xalqlarda var. Lakin bunların dərəcəsi və ifadə formaları arasında, şübhəsiz ki, fərqlər az deyildir*" [57, s.127]. Çox haqlı olan bu fikirlərə onu əlavə edə bilərik ki, milli xarakteri oxucu dərhal tanıyır və onun timsalında özünü görə bilir. Belə bir obrazla qarşılaşdıqda mütləq onunla bir doğmalığı olduğunu hiss edir. Milli qəhrəman isə daha çox oxucunun tanıya bildiyi, lakin eyni zamanda da olmağı arzuladığı biridir. Azərbaycan ədəbiyyatında "Milli xarakter" məfhumu hər zaman çox aktuallıq kəsb etmişdir. Çox güman ki, bu məsələdə də Azərbaycan xalqının tarixən dəfələrlə müstəmləkəyə çevrilməsi, öz azadlığı, milli kimliyi uğrunda saysız-hesabsız mübarizələrə qalxması kimi amillər əhəmiyyətli rol oynamışdır. Bu səbəbdən də milli xarakter problemi istər ədəbiyyatımızın, istərsə də ədəbiyyatşünaslığımızın ən vacib problemlərindən biri kimi aktuallığını qorumuşdur. Azərbaycanda olmuş məlum siyasi hadisələr həm "milli xarakterlərin", həm də "milli xüsusiyyətli obrazların" yaradılmasını da, araşdırılmasını da şərtləndirmişdir. Müəyyən hadisələrin qlobal xarakter alması (SSRİ-nın dağılması kimi) və dünyada bu hadisələrin geniş təsir imkanına malik olması bir çox dövlətlərdə, o cümlədən tədqiqatımızın əsas obyekti olan Azərbaycanda da özünü göstərə bilmişdir. Daha çox azadlığın müsbət nəticəsini yaşayan Azərbaycanda müstəqillik illərinin ab-havası bütün sahələr kimi ədəbiyyata da öz təsirini göstərdi. Bu zaman hekayələrdə yaradılan obrazlarda millətçilik, qələbə ruhu, türkçülük, azərbaycançılıq, milli-etnik kökə qayıdış istəyi daha artıq hiss olunmağa başladı. Lakin Birinci Qarabağ müharibəsi və onun ağır nəticələri cəmiyyətdə sosial, mənəvi, psixoloji problemlərin

miqyasını daha da artırdı. Yenidən yüksələn milliyətçilik ruhuna sosial çarəsizliyə etiraz, məğlubiyyət amilinin qəbuledilməzliyi, üsyan, ağrı-acı kimi mənəvi-psixoloji problemlər əlavə olundu. "*1990-ci illərin ortalarından başlayaraq, Qarabağ savaşı, Qarabağ müharibəsindən bəhs açan əsərlər ədəbiyyatımızda ayrıca bir vurğu ilə seçilməyə, fərqlənməyə başlayır"* [28, s.114]. Və bu hadisələr hekayələrdə öz əksini tapırdı. Torpaq itkisi yaşayan obrazlar həm də ictimai-sosial problemlərin təsiri altında mənəvi dəyərlərin tənəzzülü ilə üzləşdilər. Belə obrazlara sonralar Orxan Fikrətoğlunun "Əbədi yol", Şəmil Sadiqin "Qazinin ayağı", Elçinin "Qarabağ şikəstəsi", Vəfa Mürsəlqızının "Namus" kimi hekayələrində rast gəlindi. Bu obrazlar həm də sosial problemlər, ailə-məişət çətinlikləri, maddi çətinliklərlə sınağa çəkilmiş, milli-mənəvi dəyərlərdən uzaqlaşmağa məcbur edilmiş və yaxud məruz qalmış obrazlar idi.

Amma Türkiyənin daha böyük gücə malik olması və bütün siyasi müstəvidə bu günə kimi qazandığı üstünlüklər (xüsusilə müstəmləkə taleyi yaşamaması) nəticəsində "milli xarakter" məfhumunun ədəbiyyatda qabardılmasına xüsusi ehtiyac olmamış, onun ədəbiyyatda təqdimi isə Azərbaycan ədəbiyyatındakı qədər aktuallıq kəsb etməmişdir. Bunun da bir sıra siyasi, tarixi səbəbləri var. Onlardan biri milli xarakterin milli özünüifadənin göstəricisi olaraq, siyasi hadisələr, siyasi təzyiqlər dövründə, bir sözlə, dövlət öz mövcudluğunu təsdiq edən zaman özünü daha çox büruzə verməsidir. Ona görə də müxtəlif məzmunlu Türkiyə hekayələrində milli xarakter məfhumu birbaşa hekayəyə predmet olaraq daxil edilməmiş, sadəcə, hekayələrin poetik ruhunda və modelində saxlanmış, ümumtürk düşüncəsi, türk kimliyi aspektindən "düz xarakterli" obraz funksiyasını yerinə yetirmişdir. 1980-ci illərdən sonra belə obrazları daha çox "yuvarlaq qəhrəmanlar" adlandırılan, qloballaşmaya qucaq açan obrazlar əvəz etmişdir. "*Forster iki cür xarakterdən bəhs edir. Xarakter hadisələrin əvvəlindən sonuna qədər dəyişmirsə, "düz xarakter", əgər bu müddət ərzində dəyişirsə, "yuvarlaq xarakter" adlandırılır*" [173, s.596]. Məsələn, Ayşə Kulinin "Gülizar" hekayəsində usta Artur "düz xarakter", Gülizar isə "yuvarlaq xarakter"dir. Forsterin fikrinə əsaslanaraq bütün qənaətlərini bu fikir üzərində quran Əhməd Uslu da xarakter dəyişikliyinə səbəb olan hadisələrdən biri

kimi 1980-ci ildə baş vermiş “12 sentyabr hərbi çevrilişi”ni belə xarakterzə edir: “*Keçmişdən uzaqlaşma, yeniyə alışamamaq səbəbi ilə boşluq, boşluğun gətirdiyi tənhalıq, böhran və yeni axtarışlar ortaq mövzular kimi görülməkdədir”* [173, s.581]. Jalə Sancağın “Sevda ilə Alişan”, Zəyyad Səlimoğlunun “Daş İskələ üzərində ayaqlar və...”, Güray Süngünün “Qaçmağa yer yoxdur” kimi hekayələrində hərbi çevrilişin mahiyyətindən doğan ictimai-sosial problemlər, bu hadisədən sonra qloballaşmaya qucaq açan qəhrəmanların yaşadığı psixoloji çətinlik, tənhalıq, intihara cəhd kimi bir sıra problemlər bədii mətndə diqqət mərkəzinə gətirildi. Adları çəkilən hekayələrdəki obrazların yaşadığı psixoloji sarsıntılar və milli-mənəvi tənəzzülün səbəb və nəticələri tədqiqatın digər fəsillərində ətraflı şəkildə təhlilə cəlb edilmişdir.

Onu da qeyd etmək istərdik ki, həm Azərbaycan, həm də Türkiyə dövləti üçün qeyd edilən siyasi hadisələrlə zəngin olan dövrü “milli xarakterlərin dəyişikliyə uğrama dövrü” də adlandırmaq mümkündür. Məhz bu hadisələrin təsiri ilə sarsıntı keçirən, psixoloji problemlər yaşayan obrazların millilikdən uzaqlaşması ədəbiyyatda mövzu və ideyaya təsir göstərən əsas amil oldu. Obrazlar bu problemlərin təsirindən həm milli, mənəvi-əxlaqi dəyərlərə biganə, yadlaşmış, özgələşmiş oldular, həm də millilikdən uzaqlaşaraq fərqli davranış nümayiş etdirmiş kimi göründülər. Nəticə isə bundan ibarətdir ki, milli xarakteri formalaşdıran amillər nə qədər də milli kimliyə, milli mənlik və özünüdərkə əsaslansa da, yenə də hər bir xalqın davranış normaları, əxlaqi-etik adət və ənənələri ictimai-siyasi hadisələrin təsirindən dəyişə və əhəmiyyətliliyini itirə bilir.

## 1.2. Hekayələrin mövzu və ideyasının formalaşmasında milli xarakterin rolu

Hekayə janrı həcmcə kiçik, formaca lakonik olmasına baxmayaraq, müasir həyatın reallıqlarını, insanın sosial mühitdə inkişafını və yaxud tənəzzülünü, bu mühitlə münasibətdə yaşadığı ziddiyyətli məqamları, psixoloji dəyişiklikləri işıqlandırmaq üçün bir çox imkanlara malikdir. 1995–2015-ci illərdə yazılmış Azərbaycan və Türkiyə hekayələrinin mövzu və ideya baxımından təsnifatı

aparılarkən bu fikir bir daha öz təsdiqini tapmış oldu. Eyni zamanda o da müəyyən edildi ki, tədqiq edilən dövrün ictimai-siyasi hadisələrlə zəngin olması da hekayələrin ideya-məzmununa təsirsiz qalmadı. Bu dinamik dəyişikliklərin insan ruhuna, düşüncəsinə, sosial statusuna və münasibətlərinə olan təsiri mütləq şəkildə hekayələrdə təsvir edilən hadisələrə, yaradılan xarakterlərin millilik cizgilərinə öz izini qoydu. Dövrün hekayələrində estetik planda da müəyyən xarakterik xüsusiyyətlər müşahidə edildi. Belə ki dünya ədəbiyyatı ilə qarşılıqlı əlaqələrin inkişafı və yaranan yeni kommunikasiya imkanları, dünya ədəbiyyatında gedən proseslərdən təsirlənmə və nəzəri-estetik yeniliklərin yeni yaranan mətnlərə tətbiqi bu dövrdə yazılan hekayələrdə öz təzahürünü tapdı. Bu yeniliklərdən qaynaqlanan fərqli ictimai təfəkkürün ifadəsi, qeyri-standart düşüncə tərzlərinin mətnə gətirilməsi, müxtəlif ideya-estetik təmayüllərin ifadəsi həm Azərbaycan, həm də Türkiyə hekayələrində nəzərə çarpdı.

Məlumdur ki, müasir dövrdə Azərbaycan və Türkiyə ədəbiyyatında bədii nəsr sürətlə inkişaf etməkdədir. Hekayə janrı da ən çox yayılan və yenilik axtarışında olan daha çevik bir janr kimi istər Azərbaycan ədəbiyyatında, istərsə də Türkiyə ədəbiyyatında heç vaxt millilikdən və zəngin ümumtürk ənənələrindən kənarda mövcud olmamışdır. Lakin araşdırma apardıqda görürük ki, son dövrlərdə, xüsusilə də XX əsrin sonlarından başlayaraq, bir-birini əvəz edən ictimai-siyasi proseslərin ziddiyyətli və gözlənilməz dəyişim dinamikasının təsiri altında, ədəbiyyatlararası kommunikasiya imkanlarının çoxalması şəraitində Qərb və Avropa ədəbiyyatında mövcud ədəbi-estetik xüsusiyyətlər, dəyişimlər nəsrimizə və xüsusilə hekayəyə çox təsir edib. Ümumiyyətlə, hekayə janrı hər zaman dinamik inkişaf etmiş və dünya ədəbiyyatşünaslarının diqqət mərkəzində olmuşdur. “Anlayışlar və terminlər lüğəti”ndə yazılır: “*Müasir ədəbiyyatda bu janr lirik, fəlsəfi və publisistik istiqamətlərdə inkişaf etməkdədir”* [176, s.231] və bu inkişaf, həmçinin, Azərbaycan və Türkiyə hekayələrində də özünü göstərə bilmişdir. Görkəmli hekayə ustası olan Elçin Əfəndiyev: *“Hekayə həyatdan gəlməlidir”* [20, s.95], – yazır və yaxud ədəbiyyatşünas Salidə Şərifova: “*Hekayə məzmunun bir problemə həsr olunması, bədii “vaxt-məkan”ın qısalığı ilə səciyyələnir”* [96, s.142], – deyə qeyd edir.

Həqiqətən də, hekayə janrı məhdud imkanlarına rəğmən, gerçək həyatla, ictimai mühitlə, sosial, siyasi proseslərlə, müasir insan yaşantıları ilə sıx bağlıdır. Bu janr özündə böyük estetik-nəzəri, mənəvi-psixoloji incəliklər gizləyən və çox hallarda bunu reallaşdırmağa çalışan həyatla və onun gerçəkliyi ilə əlaqədardır. *"Hekayə ən çevik və geniş yayılan forma kimi real həyat hadisələrinin kiçik bir epizodunu əks etdirmək baxımından fərqlənir"* [31, s.110] – yazan Məmməd Əliyev isə hekayəni obrazın daxili aləmini açmaq üçün bir vasitə hesab edir. Hekayə janrını hərtərəfli təhlil edən Türkiyə tədqiqatçısı Nəcib Tosun "Müasir hekayə nəzəriyyəsi" kitabında "Hekayəmizin macərası" adlı məqaləsində bu janra olan marağı tarixi köklərə bağlayıb, şərq insanının düşüncə tərzinə təsir edən hekayə haqqında fikirlərini bu kitabda toplaya bilmişdir. "*Dövrün tələblərinə uyğun olaraq, hekayəni yalnız ədəbi bir yazı janrı kimi qəbul etməmiş, sadəcə, bu formanın insanlara təsir göstərməkdə ən təsirli yol olduğuna inanmışdır"* [170, s.36] fikri də "Müasir hekayə nəzəriyyəsi" kitabındandır.

Bildiyimiz kimi, digər janrlarla müqayisədə hekayə janrında müasirlik meyilləri daha tez özünü büruzə verir. Buna da səbəb nəsr yaradıcılığına yeni başlayan yazıçıların bu janra daha çox müraciət etməsi, eyni zamanda da müasir yazıçının dövrünün hadisələrinə münasibətini ifadə etmək, çevik reaksiya vermək üçün bu formanın daha optimal variant olaraq seçməsidir. Məmməd Arif hekayə janrı ilə yazıçı istedadını qarşılaşdıraraq qeyd edir: *"Hekayənin həyatı özünəməxsus vasitələrlə geniş əks etdirmək imkanı vardır. Bunun üçün onun bədii imkanlarını açmaq, onu lazımi yüksəkliyə qaldırmağa çalışmaq lazımdır"* [62, s.97]. Azərbaycan hekayəçiliyinin tədqiqi sahəsində çox işlər görülmüş, bu mövzuda bir sıra məqalələr yazılmış, tədqiqatlar aparılmış, monoqrafiyalar yaradılmışdır. Belə bir nəticəyə gəlinmişdir ki, Cəlil Məmmədquluzadə, Seyid Hüseyn, Əbdürrəhim bəy Haqverdiyev və başqalarının hekayə yaradıcılığı ilə bu janr mill, bədii-estetik səviyyə qazanmışdır. Ona görə də 1920–1930-cu illər həm hekayə janrının inkişaf dövrü, həm də onun publisistik məzmun kəsb etməsi kimi mühüm cəhətləri özündə birləşdirir. 30-cu illərdən başlayaraq isə sovet nəsrinin inqilabi tələbləri, yeni cəmiyyət quruculuğu kimi ideya-bədii keyfiyyətləri ""*hekayədən romana" güclü bir axın diqqəti cəlb*

*edir”* [43, s.11-12] kimi fikrin formalaşmasına səbəb olmuşdur. 50-ci illərdə ədəbiyyata gələn yazıçıların (məsələn, İsa Hüseynov) hekayələrindəki keyfiyyət dəyişikliklərinin izlənməsi (xüsusilə psixoloji detalların əlavə olunması prosesi) onu deməyə əsas verir ki, 50-ci illərdən sonra hekayəyə psixoloji detalların daxil edilməsi təcrübəsi əvvəlcə 60-70-ci illər nəsrində, daha sonra 90-cı illərdən sonra yazılan hekayələrdə özünü açıq-aşkar göstərmişdir. Səidə Nağıyeva özünün “Müasir ədəbiyyatda mövzu müxtəlifliyi və milli xarakter” adlı məqaləsində nəinki tarixi mövzulu əsərlərdə, ümumiyyətlə, müasir mövzulu mətnlərdə də milli xarakterin mövcudluğuna ehtiyacı vurğulayır, həmçinin “*zamanın təkamülü bütün məqamlarda milli dəyərlərin, o cümlədən onun mühüm atributlarından biri olan milli xarakterin sürətli deformasiya prosesi ilə müşayiət olunmaqdadır”* [71, s.188] fikrini qeyd edir. 90-cı illərdən sonra psixoloji detalların ictimai-siyasi hadisələr, qloballaşma prosesi konteksində yenidən tədqiqata cəlb edilməsi dissertasiyada müəyyən edilən əsas yeniliklərindən biri hesab olunur. 60-70-ci illər, həmçinin 80-ci illərin hekayə yaradıcılığının əsas yaradıcılıq istiqaməti hesab olunan “İnsan və onun daxili dünyası”, “insana qayıdış” problemi 90-cı illər hekayəsinin də əsas predmetidir. Hekayənin təkamül prosesində bu mərhələni “yenilikçi mərhələ” adlandıranlar çoxdur. Bu mərhələni xarakterizə edən əsas xüsusiyyət sovet ideoloji basqısının mətnlərdən uzaqlaşdırılması, azad insan modelinin, müstəqil düşüncəli şəxsiyyət xarakterinin mətnlərə gətirilməsi idi. İsa Həbibbəyli qeyd edilən dövrün nəsri haqqında yazır: “*Məhz altmışıncı illərdən başlayaraq, bədii əsərlərdə insan və zaman problemi ön mövqeyə çıxmış, ədəbiyyatda milli-mənəvi özünüdərk və istiqlalçılıq ideyaları qüvvətlənmişdir. Bunlar isə, öz növbəsində, Azərbaycan ədəbiyyatında yeni bir tarixi mərhələnin başlanmasından xəbər verən mühüm əlamətlər idi”* [38, s.323]. Bu mərhələnin diqqət cəlb edən əsas cəhətlərindən biri, azadlıq və müstəqil şəxsiyyət anlayışlarının şüuraltı və yaxud açıq formada mətnə daxil edilməməsi, bunun aktual mövzu olaraq işlənməməsi, əvəzində dəyişikliklərin daha çox yaradılan obraz və situasiyalarda, təsvir edilən hadisələrin xarakterində, keyfiyyətində görünməsi idi. Bundan başqa, bu mərhələdə yaranan hekayələrin obrazları və qəhrəmanları öz daxili dünyalarına, “mən”lərinə boylanmağı, onun dərinliklərinə varmağı daha çox

sevirdilər ki, bu da həmin nümunələrə psixoloji mətn çaları bağışlayırdı. Ona görə də bu dövrü milli-mənəvi dəyərlərə bağlılıq, etnik köklərə qayıdış baxımından "*məhz 60-cı illərdə Azərbaycanda milli-mənəvi oyanma müşahidə edilirdi ki, bu da ədəbi-bədii düşüncənin ritminə, intonasiyasına öz təsirini göstərirdi"* [43, s.28] kimi səciyyələndirənlər də var. 60-cı illər hekayə formasının təkamülündə və öz xarakterik xüsusiyyətlərini əldə etməsində İsa Hüseynov, İsmayıl Şıxlı, Mövlud Süleymanlı, Əkrəm Əylisli, Anar, Elçin kimi yazıçıların yaradıcılıq eksperimentlərinin rolunu xüsusi qeyd etmək lazımdır. Onların hər biri bədii nəsrə lirik-psixoloji üslub gətirmiş, mənəvi-əxlaqi problemlərin bədii həllini hekayə forması daxilində uğurla ifadə etmişlər. *"Onların hər birinə məxsus fərdi yazıçı üslubu, bədii təhkiyə orijinallığı, bədii-psixoloji təhlillər, oxucuya yönəlik səmimiyyət, hadisələrin dramatizmi və sürətlə dəyişimi və s. yeni nəsrin ilkin mərhələsində nəzərə çarpır və ənənəvi nəsrdən fərqləndirirdi*" [23, s.455]. 1990-cı illərdən başlayaraq ölkədə cərəyan edən siyasi proseslər, Birinci Qarabağ müharibəsinin gedişatı və onun ictimai-siyasi, sosial, mənəvi, psixoloji fəsadları cəmiyyətlə bərabər, ədəbiyyatdan da yan keçmədi. Bu proses hekayələrin mövzu və problematikasına birbaşa təsir göstərdi. Hekayə bir forma kimi daha çevik və dinamik olduğundan 1990-cı illər ədəbiyyatında da ən çox istifadə edilən və nəsr yaradıcılarının daha çox müraciət etdiyi formaya çevrildi. Hətta silsilə şəklində "Qarabağ hekayələri" qələmə alındı. *"1990-cı illərin böhran havasından çıxan janr əsrin əvvəllərindən potensialını gerçəkləşdirməyə, prosesdə məsul və layiq olduğu çevik yeri tutmağa başladı"* [27, c.2 s.272]. Bu mərhələnin ən aktiv qələm sahibləri Elçin, Aqil Abbas, Sabir Əhmədli, Fəxri Uğurlu, Şərif Ağayar, Əlibala Hacızadə, Firuzə Məmmədli, Orxan Fikrətoğlu, Hədiyyə Şəfaqət və başqaları idi. Onların hekayələrində müharibə, müharibədən sonrakı həyat və müharibə insanının psixologiyası müxtəlif bədii-estetik rakurslardan qiymətləndirildi, təhlil edildi. Ümumiyyətlə, psixologizm hekayənin əsas xüsusiyyəti olaraq meydana çıxdı. Hələ B.O.Eyxenbaum O.Henrinin yaradıcılığı haqqında yazarkən "*hekayənin novella ilə müqayisədə daha psixoloji və daha refleksiz olduğu"na* [180, s.172] diqqəti yönəltmiş və bu fikri söyləməklə hekayə janrının imkanlarını bir qədər artırmış olmuşdu. 1990-cı illər ədəbiyyatını müstəqillik dövrünün ədəbiyyatı kimi xarakterzə

edən İsa Həbibbəyli isə bu dövrü iki mərhələyə bölür: “*1. Sovet ədəbiyyatı düşüncəsindən müstəqillik dövrünə “keçid ədəbiyyatı” kimi xarakterzə olunan 1990-cı illər; 2. XXI əsrdən başlayaraq müstəqillik zəminində tam ifadəsini tapan müasir dövr ədəbiyyatı”* [41, c.2, s.837-838]. XX əsrin doxsanıncı illərini keçid dövrü olaraq dəyərləndirən İsa Həbibbəyli bu dövr haqqında*“Azərbaycan ədəbiyyatında dekadans proseslər də yaşanmaqdadır”* [41, c.2, s.850] qənaətini də vurğulayır. Əslində, dekadans əhvali-ruhiyyənin nəsrdə, xüsusilə hekayədə ifadəsi, istərsə də müxtəlif təmayüllərə meyillənmə bu mərhələnin bütün janr və formaları üçün xarakterik xüsusiyyət idi. Çünki yazıçı qarşısında tamamlanmamış müharibədən məğlub çıxmış Vətən, məğlub əsgər, itirilmiş, düşmən tapdağında qalan torpaqlar obraz-modeli və ondan qaynaqlanan psixoloji durum var idi. Yazıçı, istəsə belə, bu obraz-modeldən uzaqlaşa bilməzdi. Bu səbəbdən də dekadans əhvali-ruhiyyə bu mərhələnin, demək olar ki, bütün janr və formaları üçün xarakterik oldu. Məhz buna görə 1990-cı illərdən başlayaraq, son dövrlərə kimi yazılan hekayələrdə mənəvi böhran, ümidsizliklə bərabər, milli dəyərlərin tənəzzülü probleminə çox rast gəlindi. Şəmil Sadiq “Qazinin ayağı”, Elçin “Qarabağ şikəstəsi”, Orxan Fikrətoğlu “Əbədi yol” və s. hekayələr məhz bu tendensiyanın nümunələridir. O dövrdə digər janrlarla müqayisədə hekayənin həm kəmiyyət, həm də keyfiyyət baxımından yüksək templə inkişaf etməsinə baxmayaraq, janrlar arasında o, milli xüsusiyyətlərin yüksək pafoslu tərənnümünə, xilaskar və qəhrəman obrazlarının təsvirinə görə çox geridə qalırdı. Hətta belə təsvirlər az olsa belə, məlum səbəblərə görə bu cür nümunələrdə bədii sənətkarlıq səviyyəsi və inandırıcılıq dərəcəsi çox aşağı olurdu. XXI əsrin əvvəllərindən etibarən hekayələrdə müşahidə edilən “kosmopolitizm və milli düşüncə tərzinin qarşıdurması”nın tətbiqi mərhələsi əslində, XX əsrin sonlarında, müstəqillik tam ifadəsini tapdığı dövrdən, 90-cı illərdən etibarən müşahidə edildi. Bu mərhələdə hekayələrdə Şərq və Qərb dünyagörüşü və mədəniyyətlərinin, düşüncə tərzlərinin mübarizəsi, kosmopolitizmlə milli düşüncənin ifadəsinin gizli qarşıdurması diqqət çəkməyə başladı. Lakin bu “düşüncə mübarizəsi”nin XXI əsrin əvvəllərində daha açıq bir hal aldığını söyləmək mümkündür. Hətta bəzən bu, dünya ədəbiyyatında mövcud ədəbi cərəyanların manifest və ideyalarının hekayə mətnlərinə düşünülmüş

şəkildə tətbiqi kimi də özünü göstərməyə başladı. Müasir dünyada gedən qlobal hadisələr 2000-ci illərdən sonra yaranan hekayələrin mövzu və problematikasına modernizm, sürrealizm kimi ədəbi cərəyanların, hətta feminizm kimi sosioloji-ideoloji meyillərin belə izlərini sala bildi. Bu mətnlərdə dəyişkən xarakterli insanlar, kosmopolitik düşüncəli xarakterlər meydana çıxaraq fərqli, müxtəlif dünyagörüşləri qarşı-qarşıya qoydu. Azərbaycan hekayəsində bu tendensiya Afaq Məsudun, Kamal Abdullanın, Şərif Ağayarın, Qanturalın, Həmid Herisçinin, İlqar Fəhminin, Nərmin Kamalın və başqalarının yaradıcılığında qabarıq şəkildə müşahidə edildi. Bu yazıçıların hekayələrində ironik, çoxqatlı dil, metaforik, obrazlı təfəkkür daha çox üstünlük təşkil etdi. Bunun səbəbini arayan tədqiqatçıların qənaətləri bir məqamda xüsusi olaraq ümumiləşir, eyniləşir: "*Yeni əsrin diktə elədiyi qloballaşma amili artıq milli mədəniyyətin zirvə məqamına təsadüf edir. Ona görə də milli amil qlobal çərçivəyə sığışmır*" [8, s.4]. Və həqiqətən də, Afaq Məsudun "Qəza", Azər Qismətin "Amerikasayağı arzu", Mirmehdi Ağaoğlunun "Alman malı" və s. kimi bədii mətnlərdən də müşahidə edildiyi kimi, milli amil, milli düşüncə və milli kimlik indi daha çox qloballaşan, müasirləşən, mövcud dünya sivilizasiyasında yeniləşən qlobal insanın fərdi əxlaqi-mənəvi dəyərlərinin deqradasiyasında, insanlararası, cəmiyyətlərarası münasibətlərin psixoloji qarşıdurmasında əriməkdə, dağılmaqda, hətta yox olmaqdaymış kimi görünməkdədir. Və bu proses ümumi yaradıcılıq axınında daha qabarıq şəkildə özünü təzahür etdirir. Hərçənd ki, bunun əksini iddia etmək üçün də əlimizdə bədii mətnlər mövcuddur. Lakin onlar birincilərlə müqayisədə daha azdır.

İndi isə Türkiyə ədəbiyyatında hekayə janrının inkişaf mərhələsinə nəzər salaq. Türkiyə ədəbiyyatının məşhur simalarından olan Ömər Seyfəddin yaradıcılığı ilə 1940-cı illərdə hekayəyə gətirilən psixoloji detallar, xüsusilə bu dövrü əhatə edən siyasi qarşıdurmalar, daxili və xarici çəkişmələr və onları sadə və təsirli şəkildə ədəbiyyatda ifadə etmək cəhdi hekayə janrına olan tələbatı daha da artırmışdır. Psixoloji detallar fonunda vətən, dil sevgisi və bir çox milli-mənəvi dəyərlər, xalq ədəbiyyatının xüsusiyyət və ənənələrindən yararlanma, insanın psixoloji vəziyyətinin və ruh halının ifadəsi, qəhrəmanların daxili dünyasının siyasi-ictimai qarşıdurma

kontekstində açılması və s. hekayələrin əsas mövzusu idi. Bu tendensiya son dövrlərdə yazılan hekayələrdə də öz əksini tapa bilmişdir. Məsələn, Zəhra Yamakın "Vətən sevgisi", Sevin Sezginin "Qızıl şəfəqlər" Camal Şakarın "Öncə Vətən" hekayələrində obrazların qəhrəmanlıq, milliyətçilik ruhu milli kult səviyyəsində təqdim olunmuşdur. Bu tendensiya nəinki 1940-cı illərdən 1960-1970-ci illərə qədər davam etmiş, həmçinin adları qeyd edilən və müasir dövrdə yazılmış digər hekayələrdə də məqsədli şəkildə davam etdirilmişdir. Bu mərhələdə getdikcə avropalaşmaya meyil edən Türkiyənin qazandığı müsbət və mənfi xüsusiyyətlər, İkinci Dünya müharibəsinin bütün dünya dövlətləri və cəmiyyətlərinə olduğu kimi Türkiyə dövləti, cəmiyyəti və İnsanına yaşatdığı maddi və mənəvi sarsıntılar o dövrün hekayəsinin ən aktual mövzularına çevrilmişdir. Bu hekayələrdə İkinci Dünya müharibəsinin dəhşətləri ilə bərabər, ayrı-ayrı fərdlərin taleyi canlandırılır, dövrün sosial, mənəvi, psixoloji gerçəkliklərinin təsviri ilə yanaşı, müharibə insanının həm daxildən, həm də cəmiyyət içərisində, onunla üz-üzə təsvir edilməsi cəhdi aktuallıq kəsb etməyə başlayır. Bu dövr hekayələrdə vətənə sevgi hissinin təbliği, qəhrəmanlığın, mübarizliyin təsviri və təqdiminin əvəzinə 1980-ci ildə baş verən 12 sentyabr hərbi çevrilişindən sonra yaranan psixoloji gərginlik, narahatlıq, ziddiyyətli münasibətlərin çarpışması kimi amillər daxil olur. Maraq kəsb edən cəhət ondan ibarətdir ki, son dövrdə (2000-ci illərdən sonra) yazılmış hekayələrdə də bu psixoloji sarsıntının izlərini ara-sıra görmək mümkündür. Hətta ədəbiyyatşünaslıqda *"12 sentyabr 1980-ci il hərbi çevrilişi də Türkiyə siyasi tarixində olduğu qədər ədəbiyyat tarixi baxımından da əhəmiyyətlidir"* [173, s.581] kimi açıq düşüncələr də mövcuddur. Danılmaz həqiqətdir ki, məhz bu mərhələdə meydana çıxan cərəyanların təsiri altında yaradılan müxtəlif xarakterlərdə ənənəvi türk insanının düşüncəsindən fərqli düşüncələr müşahidə edilməyə başlandı. Hekayələrə gətirilən xarakterlərdə daha çox tənhalaşma, özgələşmə, yalnızlıq kimi mənəvi-psixoloji vəziyyətlər təsvir edildi. Və bu özgələşmə təkcə insanın daxili sarsıntısı nəticəsində və sadəcə, özünə qarşı duyduğu hiss deyildi. Eyni zamanda da yaşadığı cəmiyyətə, vətənə, məxsus olduğu millətə qarşı olan özgələşmə idi. Müasir dövrdə yazılmış Zəyyad Səlimoğlu "Daş İskələ üzərində ayaqlar və...", Güray Süngü "Qaçacaq yer yoxdur" və s.

hekayələrdəki obrazların daxili dünyasında da bu hadisənin izlərini görmək mümkündür. 2000-ci illərdən başlayaraq Türkiyə hekayələrində modern baxış, modern dünya və insanlararası münasibətlərin ifadəsi, röya, xəyal kimi abstrakt anlayışları gerçəkliklə bağlamaq cəhdləri, mətnlərdə fantastik ünsürlərin artması, sürrealizm və ekzistensializm təsiri daha geniş müşahidə edildi. Ömər Ləkəsiz bu dövrü belə səciyyələndirir: *"Bu dövr "necə anlatmaq" sualı daxilində anladılan qədər anlatmaq və üslubu, metodları şübhə altına alan hekayəçilərin yer aldıqları bir mərhələ olaraq "Yeni axtarışlar mərhələsi" başlığını da özündə ifadə etməkdədir"* [143, s.25]. Nazlı Erayın "Hardayam mən, hardayam?", Emin Güzəlin "Bir həyat, üç gün və ölüm", Camal Şakarın "Pıçıltı", "Bir tip" adlı hekayələrində millilikdən uzaqlaşma və daha çox qloballaşan, insani, mənəvi bağlardan qopan və qlobal dünyanın qurbanlarına çevrilən xarakterlər təsvir edilir. Bu xarakterlər həm də "Yeni axtarışlar mərhələsi"nin obrazlarıdır. Bu da hər dövr üçün aktual olan hekayə janrının yeni ideya-məzmun qazanması, yeni insan modeli və onların timsalında dünyaya yeni baxış tərzi əldə etməsi demək idi. Məlumdur ki, müasirliyin ifadəsi və yeni eksperimentlərə, ədəbi təmayüllərə meyillənmək cəhdi hekayəçiliyi hər zaman inkişafda saxlayır. İnsan psixologiyasının dərinliklərinə enmək, müasir insanın ruh halını, düşüncələrini, həyata ənənəvi, bu günə qədər qəbul edilmiş çərçivələr və tələblər daxilindən baxışını təsvir etmək, kənar basqıların təsiri altında necə dəyişdiyini göstərmək müasir hekayəçilikdə əsas tendensiyalardan biri kimi görünür. Təsadüfi deyil ki, bu bir çox tədqiqatçıların da diqqət yetirdiyi əsas cəhətdir. Məsələn, Semih Gümüş hekayə janrının hər zaman dəyişməz qalan əsas xüsusiyyətini bu formada xarakterzə edir: *"Hekayə həyata elə bir ölçü ilə yaxınlaşır ki, bütün toplumu əks etdirən münasibətlərin insanın düşüncəsindəki qarşılığını, şüurun ən dərinliklərində yaşayan saysız-hesabsız xırdalıqlarla oxşarlığını axtarıb tapır"* [125, s.48].

Göründüyü kimi, Azərbaycan və Türkiyə hekayəçiliyinin keçdiyi tarixi inkişaf yolunda zaman və ədəbiyyat arasındakı qarşılıqlı münasibət əsas faktor olaraq janrın inkişaf mərhələlərini müəyyən edən amil rolunu oynayır. Zamanın gedişatı, hər iki ölkədə baş vermiş ictimai-siyasi hadisələr, qlobal problemlər onunla qarşılıqlı

ünsiyyətdə və münasibətdə olan ədəbiyyatda – hekayədə fərqli obrazların, dəyişkən xarakterlərin meydana gəlməsinə rəvac vermişdir. Həm Azərbaycan, həm də Türkiyə hekayəçiliyinin tarixən keçdiyi inkişaf mərhələlərini məhz bu qarşılıqlı münasibət fonunda izləmək, fərqli və oxşar cəhətlərini müəyyənləşdirmək tədqiqatda qarşımıza qoyduğumuz əsas məqsəddir. Bu mərhələlər içərisində bizim xüsusilə araşdırmaq niyyətində olduğumuz mərhələ (1995-2015-ci illər) öz spesifik xüsusiyyətləri ilə diqqət çəkir. Hər iki xalqın tarixində hadisələr 1980-ci ildən başlasa da, ümumi mənzərənin nəsrdə əksi 1990-ci ildən sonrakı mərhələyə daha çox təsadüf edir.

**Azərbaycan hekayəçiliyi 1990-2000-ci illər; 2000-2015-ci illərdə.** Bu tarixi mərhələdə yazılan Azərbaycan hekayələrinin mövzu və ideyasını aşağıdakı şəkildə qruplaşdırmaq olar:

a) Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin təsvirinə həsr edilmiş hekayələr (Kamil Əfsəroğlu "Axşambazarı", Kamran Nəzirli "Gülə bilməyən adam" və s.);

b) Birinci Qarabağ müharibəsinin təsvirinə həsr edilmiş hekayələr (Şəmil Sadiq "Qazinin ayağı", Elçin "Qarabağ şikəstəsi", Şərif Ağayar "Şəkil" və s.);

c) Dövrün ictimai-siyasi hadisələri və müharibədə məğlubiyyət faktı qarşısında əzilmiş qəhrəmanların mənəvi dünyasının, psixoloji yaşantılarının təsvirinə həsr edilmiş hekayələr (Kamil Əfsəroğlu "Nırx", Vəfa Mürsəlqızı "Namus" və s.);

d) Ailə, məişət, sosial problemlər məngənəsində boğulan müasir insanın çətinliklərinin təsvirinə həsr edilmiş hekayələr (Gülşən Lətifxan "Pıspısa", Firuz Mustafa "Ağır yük", Eyvaz Zeynalov "Gilas ağacı" və s.);

e) Yeni ədəbi tendensiyaların təsiri altında qələmə alınmış çaşqın, özünü axtaran modern insan obrazı ilə diqqət çəkən hekayələr (Afaq Məsud "Qəza", Azər Qismət "Amerikasayağı arzu" və s.).

Qeyd edilən ictimai-siyasi hadisələrin və real şəraitin problemləri fonunda yaradılmış xarakterlərin əksəriyyəti milli cizgilərdən uzaqlaşmış xarakterlərdir. Onların qarşılaşdığı psixoloji sarsıntılar, yaşadıqları mənəvi böhran nəticəsində inandıqları dəyərlərdən, doğmalardan, cəmiyyətdən uzaqlaşması, özünə və

inandıqlarına xəyanət hissinə qədər gedib çıxması qeyd edilən bir çox hekayədə qaldırılan ən aktual problem olaraq görünməkdədir.

a) Azərbaycanda baş verən siyasi hadisələr, əslində, postsovet respublikalarının əksəriyyətində baş verən və zəncirvari şəkildə bir-biri ilə əlaqəli hadisələr idi. Bu səbəbdən də müstəqillik uğrunda mübarizə aparan, azad insan, azad şəxsiyyət, sovet ideologiyasından qurtulmuş vətəndaş obrazı, əgər diqqətlə müşahidə edilərsə, o xalqların hər birinin ədəbiyyatında az və ya çox dərəcədə yaradılmışdır. Azərbaycan hekayəsində də, əsasən, 1990-cı illərin sonlarında görünən bu cür xarakterlər və onların sosial-siyasi dəyişimi 2000-ci illər hekayələrində bir qədər fərqli xüsusiyyətlər qazanmağa başlamışdır. Bu nümunələrdə artıq "Azadlıq!" deyə bağıran insan öz coşqun emosional vəziyyəti ilə deyil, sönmüş, öləzimiş, sosial problemlərin məngənəsində zəifləmiş, emosiyasız laqeydliyi ilə diqqət çəkməkdədir. İndi bu obrazlar azad vətənin övladları olsalar da, dəyişmiş sosial quruluşun – kapitalizmin alışa bilmədikləri problemlərinin ağırlığı altında əzilməkdədirlər. Hətta sosial problemlər onlara o qədər mənəvi və psixoloji yük kimi ağırlıq edir ki, cəmi bir neçə il əvvəl apardıqları mübarizə, azadlıq və döyüş çağırışları belə mənasız görünür. Bu xarakterlər öz düşgün, ruhsuz, mənən ölgün xüsusiyyətləri ilə diqqət çəkir. Bu hekayələrdə o da təsvir edilir ki, dövrün "damarını tutmaq" istəyənlər və bundan uğurla istifadə edənlər özlərinə gün-güzəran qurub, öz həyatlarını yaşamaqdadırlar. "İtirilmiş nəslin nümayəndəsi"nə çevrilən bu cür qəhrəmanlar isə hələ də cəmiyyətdə özlərinə yer tuta bilmədən həyat sürürlər. Bu və ya digər yaxın taleyi yaşayan hekayə qəhrəmanları milli xarakterin cizgilərini, milli düşüncənin, milli ideyanın yükünü daşımağa çalışsalar da, bu dövr üçün daha çox sınmış, əzilmiş, xəyal qırıqlığına uğramış xarakterlərdilər (məsələn, Kamil Əfsəroğlunun "Axşambazarı", Kamran Nəzirli "Gülə bilməyən adam" hekayələrindəki xarakterlər kimi).

b*)* Birinci Qarabağ müharibəsi 2000-ci illərin əvvəllərində də hekayələrin ən aktual mövzusu olaraq qalırdı. Çünki Azərbaycan insanı üçün tamamlanmamış müharibə həll edilməmiş problem kimi həm altşüurda, həm şüurda əsas yer tutur, öz həllini gözləyən məsələtək onu öz həyatını dolğun şəkildə yaşamağa aman vermirdi. Bu səbəbdən də bu mövzuda yazılan hekayələrin sayında azalma müşahidə edilmədi

və bu, əslində, çox qanunauyğun hal idi. Bu hekayələrdə Qarabağ və ətraf bölgələrin işğalı, qaçqınlıq, bundan qaynaqlanan sosial, mənəvi, psixoloji problemlər, iqtisadi və mənəvi çətinliklərin yaşanması əks edilmişdir. Bu hekayələrin qəhrəmanlarında milli özünüdərk hissi nə qədər oyaq olsa da, milli oyanışın təbliği nə dərəcədə qabarıq təsvir edilsə də, mətnlərdə milli ruh yüksəkliyinin mövcudluğunun olmasını birmənalı şəkildə söyləmək çətindir. Çünki təsvir olunan obrazlarda I Qarabağ müharibəsindən dolayı yaranan nisgil, qəm-kədər, psixoloji sarsıntı, cəmiyyətə və özünə qarşı güvənsizlik, özünəqapanma, biganəlik daha çox müşahidə edilirdi. Hekayələr yazı texnikasına, forma və srukturuna görə bir-birindən fərqli olsalar da, milli xarakterlərdəki eyni və ya bir-birinə bənzər mənəvi-psixoloji sarsıntılardan yaranan xüsusiyyətlər, xarakter cılızlaşmasına səbəb olan ağır gerçək sarsıntılar mühitlə birbaşa bağlı olan ümumi bir "dövr insanı" modelini yaradır ki, bu model də o dövr üçün ümumilikdə Azərbaycan hekayəsində ən çox müşahidə edilən və yaradılan insan modeli kimi tipiklik qazanır. Məsələn, Şəmil Sadiqin "Qazinin ayağı", Elçinin "Qarabağ şikəstəsi", Orxan Fikrətoğlunun "Sonuncu əsgər" hekayələrindəki xarakterlər kimi. Müharibə insanı modeli və müharibə mövzusu haqqında danışan bu hekayələrin keçmiş əsgər, keçmiş döyüşçü olan milli xarakterləri qələbə arzusu ilə yaşayan, amma müəyyən siyasi amillər səbəbindən silahını qaldıra bilməyən xarakterlərdir.

c) Dövrün ictimai-siyasi hadisələri və müharibədə məğlubiyyət faktı qarşısında əzilmiş qəhrəmanların mənəvi dünyasının, psixoloji yaşantılarının təsvirinə həsr edilmiş hekayələr çoxluq təşkil edir. Bu cür hekayələrdə təsvir edilənlər və qəhrəmanların mənəvi sarsıntıları müharibədən qaynaqlanan problemlərlə bağlı olsa da, hadisələrin üst qatı deyil, onun təsiri, mənəvi dünyalarda yaratdığı təbəddülatlar daha çox təsvir obyektinə çevrilir. Bu cür hekayələri fərqli edən xüsusiyyət də məhz budur – mənəvi-psixoloji təsvirin dərinliyi. Ümumiyyətlə, bu hekayələrdə 1990-cı illərdən sonra cəmiyyətdə baş verən bir çox problemlər, xüsusilə Birinci Qarabağ müharibəsinin nəticəsi olaraq yaranan psixoloji, sosial, mənəvi-maddi problemlər ədəbiyyatın tədqiqat obyektinə çevrilmişdir. Məsələn, Xanverdi Turaboğlu bu hekayələrdə sosial problemlərə diqqət çəkildiyini xüsusilə vurğulayır: "*Hekayədə*

*yenə də yazıçı problemlər qaldırır, toplumun yaşayış tərzi, fərdin, şəxsiyyətin daxili aləmi, onun mühitlə əlaqəsi və ya mühitin, cəmiyyətin fərdə, şəxsiyyətə münasibəti qarşılıqlı əlaqədə təsvir və təhlil olunur*” [99, c.2. s.325]. Kamil Əfsəroğlunun “Nırx” hekayəsindəki Temir, Vəfa Mürsəlqızının “Namus” hekayəsində Nazilə adlı xarakterlər dövrün ictimai-siyasi hadisələrinin məngənəsində, mənəvi-sosial problemlərin içərisində xaraktercə zədələnərək, milli özünüdərkdən uzaqlaşaraq təsvir edilmişlər.

d) Ailə, məişət, sosial problemlər məngənəsində boğulan müasir düşüncəli insanların təsvirinə həsr edilmiş hekayələrdə də milli xarakterin dəyişməsi, milli cizgilərdən uzaqlaşma, adət-ənənələrə və mənəvi dəyərlərə biganəlik müşahidə edilməkdədir. Gülşən Lətifxanın “Pıspısa”, Firuz Mustafanın “Ağır yük”, Eyvaz Zeynalovun “Gilas ağacı” adlı hekayələrində müxtəlif səbəblərdən sosial problemlərin qurbanına çevrilmiş xarakterlər müşahidə edilir ki, bu da qeyd edilən dövrün hekayəçiliyində xarakterik bir xüsusiyyət kimi görünməkdədir.

e) Bu bölmədə haqqında bəhs edilən xüsusiyyətlər daha çox 2000-2015-ci illər Azərbaycan hekayəsinə aiddir. Dünyada gedən qlobal proseslərin Azərbaycan ədəbiyyatına təsiri bu mərhələdə daha aktiv şəkil aldı. Məmməd Əliyevin fikrinə istinad etsək, *“Ədəbi ənənəyə, ədəbi bünövrəyə söykənməyən ədəbiyyat yaratmaq meyilləri XX əsr Azərbaycan ədəbiyyatında, ədəbiyyatşünaslığımızda, xüsusən poeziyamızda özünü göstərirdi”* [31, s.445]. Bu fikrə əlavə olaraq onu da qeyd etmək istərdik ki, qlobal proseslərin təsiri ilə formalaşan yeni ədəbi təmayyülər və nəzəri istiqamətlər XX əsrin ikinci yarısından bütün ədəbi janrlara olduğu kimi, hekayələrin də məzmun və mahiyyətinə təsir etməyə başladı. Və bu təsir dəyişən, qlobal dünyanın insanına çevrilən, millilikdən uzaqlaşmaqda olan xarakterlərin təsvirində də özünü göstərdi. Xüsusilə, onların dəyişkən düşüncələrində, seçdikləri həyat tərzində, dünyaya fərqli baxışında öz ifadəsini tapdı. Qlobal hadisələrin təsiri nəinki ayrı-ayrı obrazlarda, həm də yazıçıların ümumi yaradıcılığında hiss olundu. Fəxri Uğurlu, Afaq Məsud, Kamal Abdulla, Həmid Herisçi və b. yazıçıların yaradıcılığı buna misal ola bilər. Bu proses Azərbaycan hekayəçiliyində 60–80-ci illərdən başlasa da, 90-cı illərdə bir qədər də aktivləşdi, 2000-ci illərdə isə ən yüksək zirvəsinə çatdı. Və bu

proses özündə modernist dünyagörüşünün izlərini qorumaqdadır. Bununla da, müasir Azərbaycan ədəbiyyatı dünya ədəbiyyatına da təsir göstərən qloballaşma prosesindən kənarda qalmayaraq, daha çox forma yeniliyinə can atsa da, məzmunda əsasən yeni xarakter tipinin yaradılmasına nail oldu. Həddindən artıq modernləşməyə meyilli olan, özünü mənsub olduğu millətdən, milli düşüncə tərzindən, milli özünüdərk hissindən uzaqda görən, milləti üçün vacib və həyati əhəmiyyətli hadisələrə yad olan bu xarakter tipi qeyd etdiyimiz dövrün diqqət çəkən əsas xarakter tipi olaraq görünməkdədir. Bu cür hekayələrdə, əsasən bu xarakterlər üçün vətən – dünya, həmvətən – dünya insanı və s. anlayış əvəzlənməsi baş verdi. Bu cür xarakterlər üçün millilik anlayışının özü belə öz əhəmiyyətini itirmiş oldu. Beləliklə, qloballaşan dünyanın bədii mətnə təsiri araşdırılarkən yazıçıların daha bir məqsədi meydana çıxır: "dünya insanı", "dünya evi", "dünyəvi düşüncə", "dünyəvi fikir" ideyasını reallaşdırmaq. Özünü və yaratdığı xarakterləri "ortaq mədəni dəyərlər" ideyasının daşıyıcısı kimi təqdim edən yazıçılar milli mədəniyyətdən, milli tipli xarakterlərdən uzaqlaşaraq qlobalizmi "ortaq mədəni dəyərləri"in vahid ideyası kimi təqdim və təbliğ edirlər. 2000-2015-ci illərdə yazılan hekayələr müstəqil Azərbaycan ədəbiyyatında yeni mərhələnin nümunələri olmaqla yanaşı, milli ədəbiyyatımızı yeni xarakterlər toplusu ilə zənginləşdirmiş, dünya ədəbi nümunələrinə bir qədər də yaxınlaşdırmış, yeni mövzulara müraciət etməklə bərabər, fərqli, dəyişkən xarakterlər qalereyası formalaşdırmışdır. Bu dəyişkən xarakterlər isə "dünya insanı", "qlobal insan" olaraq milli cizgilərdən məhrum edilmiş, qlobal dünyanın, müasir zamanın və onun tələblərinin daşıyıcısı kimi meydana çıxmış, bütləşdirilmiş milli xüsusiyyətlərdən uzaqlaşdırılmış, özgələşmə, tənhalaşma kimi ruhi-psixoloji vəziyyətin təmsilçisi kimi yaradılmışlar. Bu tendensiya özünü daha çox Afaq Məsudun "Qəza" hekayəsindəki ana, Azər Qismətin "Amerikasayağı arzu" adlı hekayəsindəki qadın xarakterində təsdiq etmişdir.

**Türkiyə hekayəçiliyi 1980 - 2000-ci illər; 2000 - 2015-ci illərdə.** Bu tarixi mərhələlərdə Türkiyə hekayələrinin inkişaf dinamikasına nəzər saldıqda mövzu və ideya üzrə aşağıdakı kimi bir qruplaşmanı müəyyən etmək olar. Hərbi çevriliş

hadisəsi 1980-ci ildə baş versə də, onun təsirləri 1990-ci illərdən sonra daha çox özünü büruzə verməyə başladı.

a) İctimai-siyasi hadisələrin, xüsusilə 12 sentyabr 1980-ci il hərbi çevrilişinin təsiri ilə formalaşan, yaxud dəyişən xarakterin psixoloji, daxili dünyasının təsvirinə həsr edilən hekayələr (1980-2000-ci illər); Müzəyyən Çelik "Gəlin", Zəyyad Səlimoğlu "Daş İskələ üzərində ayaqlar və....", Güray Süngü "Qaçacaq yer yoxdur" və s.

b) Qloballaşma və yeni ədəbi tendensiyaların təsiri altında yaradılan xarakter dəyişikliklərinin təsviri (2000-2015-ci illər); Camal Şakar "Bir tip", "Pıçıltı", Mustafa Akgün "Türksayağı sevgi") və s.

Təsnifatda adları qeyd edilən hekayələrdə ideyaca modernist, sürrealist və ekzistensialist meyillərin təsirini, formaca xatirə, memuar, müşahidə, təsvir, daxili duyğu və düşüncə axınına müraciətin aktuallığını müşahidə etmək mümkündür. Bu nümunələrdə milli xarakterdən uzaqlaşmanın müşahidə edildiyini, hadisənin və təhkiyənin daha öndə olduğunu qeyd etmək olar. Bu xüsusiyyətlər 2000–2015-ci illərdə qələmə alınmış hekayələrdə daha çox müşahidə edilir (Məsələn, Nazlı Erayın "Hardayam mən, hardayam?", Emin Güzəlin "Bir həyat, üç gün və ölüm" hekayələrindəki kimi).

a) İctimai-siyasi hadisələrin, xüsusilə 12 sentyabr 1980-ci il hərbi çevrilişinin təsiri ilə psixoloji problemləri yaranan xarakterlərin təsvirinə həsr edilən hekayələr. Bu hekayələrdə 1980-ci il 12 sentyabr hərbi çevrilişinin izləri çox bariz şəkildə müşahidə edilir.*"İstər ölkədə yaşanan cəmiyyət dəyişiklikləri, çevrilişlər (12 sentyabr), istərsə də bütün dünyada gerçəkləşən dəyişikliklər (soyuq müharibənin bitməsi, qloballaşma) ideologiyalara olan inancın sarsılmasına, özü ilə bərabər, şəxsiyyət böhranına və özünü axtarmağa səbəb oldu"* [170, s.56]. Bu hadisə ədəbiyyata da təsirsiz ötüşmədi. Məhz bu hadisədən sonra hekayələrdə iqtisadi, siyasi, sosial, mənəvi, psixoloji problemlərin təsviri daha da aktivləşdi. Hərbi çevriliş faktının təsviri isə öz növbəsində hekayə janrına yalnızlıq, güvənsizlik, özünəqapanma kimi sosial və psixoloji problemli xarakterlərin gətirilməsinə səbəb oldu. 1980-ci il hadisəsini müasir dövrdə "Bunalım ədəbiyyatı"nı (böhran ədəbiyyatı)

yaradan və formalaşdıran bir hadisə hesab edirlər. Türkiyə ədəbiyyatı üçün önəmli tarixi dövrlərdən biri sayılan və son zamanlara qədər yaranan ədəbi əsərlərə təsir göstərən "böhran" mərhələsi haqqında Türkiyə tədqiqatçısı Nəcati Mərd yazır: "*Böhran ədəbiyyatı İkinci Dünya müharibəsinin ağrıları və sənayeləşmənin göstərdiyi təzyiqlərlə sıx bağlıdır. Dünyanın hər yerində insan həyata olan inamını itirir, bununla bağlı olaraq Tanrıya bağlılıqdan uzaqlaşar, inamsızlığa sürüklənir, sonra da özgələşmə prosesi başlayır*" [145, s.102]. Tədqiqatçı böhran ədəbiyyatının yaranmasında məhz İkinci Dünya müharibəsinin əhəmiyyətli rol oynadığını qeyd etmişdir. İllər sonra bu tendensiya 1980-ci il hərbi çevrilişindən sonra da müşahidə edildi və daha da aktuallaşdı. Çünki həm İkinci Dünya müharibəsindən sonra yaranan böhran ədəbiyyatında, həm də 1980-ci il hərbi çevrilişindən sonra yaranan ədəbiyyatda müraciət olunan mövzular, yaradılan obrazlar, xarakterlər, onların psixoloji və mənəvi vəziyyəti eyni şəkildə depressiv və ziddiyyətli idi. Ədəbiyyat hər iki mərhələdə insanın – xarakterin bu halına maraq göstərmiş, onu öz predmeti olaraq tədqiq etməyə çalışmışdı. Bu cür bədii nümunələrin müəllifləri sırasında birinci olaraq adı qeyd edilən Türkiyə yazıçısı Fərid Edgünü xatırlamaq olar. O, "böhran ədəbiyyatı"nın nümayəndəsi kimi qeyd edilə biləcək yaddaqalan hekayələr yaratmışdır. Onun qəhrəmanları özünə, cəmiyyətə yadlaşmış insan taleyi yaşayırlar. Bu cür fərqli insanların daxili aləmini işıqlandırmaq, sərbəst düşüncəli, müstəqil mövqeli xarakterlər yaratmaq qeyd edilən mərhələdə xüsusi olaraq diqqəti çəkir. Türkiyə ədəbiyyatının Azərbaycanda tədqiqatçısı olmuş Sədaqət Qasımlı böhran ədəbiyyatının yaranması dövrünü 1960-cı illərlə bağlayır. Səbəb kimi isə qeyd edir: "*Bunalım ədəbiyyatı İkinci Dünya müharibəsinin törətdiyi acı nəticələrin və sənayeləşmənin təzyiqi ilə əlaqədardır*" [58, s.127]. Türkiyə tədqiqatçısı Ayşənur Külahlıoğlu isə "1945–1960: Savaş sonu hekayələr" adlı məqaləsində hekayənin 1940–50-ci illərdən sonra sürətlə inkişaf etdiyini və bu inkişafın 1960-cı illərdən sonra daha çox hiss olunduğunu, bu dövrün hekayə janrı üçün xüsusilə əhəmiyyət kəsb etdiyini qeyd edir: *"1920–1960-cı illər Cümhuriyyət dövrü Türkiyə hekayəçiliyinin prespektiv, təhkiyə və üslub baxımından da təsnif edilərək təhlil olunmağa layiq bir rəngarəngliyə malik bir dövr olduğu da nəzərdən qaçmamalıdır*"

[139, s.455]. Gəldiyimiz ümumi nəticə belədir ki, Türkiyədə 1980-ci il hərbi çevrilişi 1960-cı illərdə baş vermiş siyasi-iqtisadi dəyişikliklərin, 1970-ci ildə reallaşmış ölkədaxili siyasi çəkişmələrin nəticəsinin davamı olaraq baş vermişdir. Ona görə də 1980-ci ildən 2000-ci illərə qədərki dövrü Türkiyə ədəbiyyatında sosial, mənəvi, psixoloji aspektli hekayələrin aktual olduğu dövr kimi xarakterzə etmək olar. Bu hadisələri yaşamış insanların hekayələrdə yaradılmış prototipləri dünyadan təcrid olunmuş, cəmiyyətdə tənhalaşmış, rastlaşdığı problemləri həll edə bilmədikdə öz daxili dünyalarına qapanmış xarakterlərdir (Məsələn, Emin Güzəlin "Bir hayat, üç gün və ölüm" adlı hekayəsinin qəhrəmanı həyatın rəngarəngliyindən uzaq olan, ətrafdakı hadisələri və özünü doğru-düzgün qiymətləndirmədən uzaqlaşmış bir obraz olaraq özünü dərk edə bilmir və suallar axtarışındadır). Və yazıçı məhz xarakterin bu proses daxilində özgələşməsini mühüm bir hadisə olaraq işıqlandırmağa çalışmış, hər şeyə yadlaşmış birinin daxili məni həm yazıçı, həm də oxucu üçün maraqlı olmuşdur. Yazıçı Dəmir Özlü isə belə obrazlar haqqında yazmışdır: "*Həqiqətən də, günümüzün insanı bir böhran içərisindədir. Birinci Dünya müharibəsinin təcrübəsi onu xoşbəxt etmədi. Ardınca özünü xoşbəxt hiss etməyən insanın düşdüyü boşluq, heçlik duyğusu gəldi. Dəyərlərini, inanclarını, məsuliyyətlərini, bağlarını, yaxşılıq duyğusunu itirmək təhlükəsi ilə qarşı-qarşıya gələn bu insan hətta zaman-zaman sahib olduqlarını da itirir*" [58, s.128]. Həqiqətən də, obrazların öz-özündən uzaqlaşması, özgələşməsi halları bir çox hekayələrdə yaradılan xarakterlərin milli keyfiyyətləri itirməsi, milli simasızlığa yetişməsi ilə nəticələnmişdir. Bu itkinin fərqində belə olmayan xarakter öz böhran halı ilə hal-hazırda da diqqət mərkəzindədir. Böhran ədəbiyyatının məşhur nümayəndələri sırasında Dəmir Özlü, Orxan Duru, Ərdal Öz, Nəcati Tosunər və başqalarının adlarını sadalaya bilərik. Böhran ədəbiyyatında yaradılan xarakterləri isə qeyd edilənlərə əsasən belə xarakterzə etmək olar: *"Daha çox mənfi bir dəyişimin girdabında yolunu tapmağa çətinlik çəkən adi insanlar inanc və ideallar, sosial və mədəni dəyərlər kontekstində şəxsiyyətləri formalaşmış deyil, tamamlanmış bir şəxsiyyət xarakterinə sahib olmadıqları üçün şəxsiyyət böhranı yaşayırlar*" [122, s.274].

Türkiyə hekayəçiliyində sosial, mənəvi, psixoloji məzmunlu hekayələrin əsası Said Faiq Abasyanıq və Əhməd Həmdi Tanpinar tərəfindən qoyulsa da, hal-hazırda bu mövzulu hekayələr hələ də Türkiyə ədəbiyyatında üstünlük təşkil etməkdədir. Yazıçıların, əsasən, 1990-cı illərdən başlayaraq istənilən bir mövzunun işlənməsi zamanı problemə psixoloji aspektdən yanaşmaya daha çox üstünlük verdiyi müşahidə edilir. Xüsusilə ailə-məişət mövzusunda yazılmış hekayələrdə xarakterlərin yaradılmasında sosial, mənəvi, psixoloji mahiyyət daha böyük aktuallıq daşıyır. Bu hekayələrdə həyatın sevinci ağrıları ilə birlikdə təsvir edilir. *"Hekayəçiliyimizin 1990-cı illərin ikinci yarısından başlayan yüksəlişi o qədər sürətli oldu ki, hekayənin kəmiyyət artımı ilə bərabər, bu enerjidən yeni nəsillər tərəfindən yaradılan başqa bir keyfiyyəti də ortaya çıxdı ki, bu da hekayəni öz problemlərini müzakirəyə qoyan bir forma kimi də önə çıxardı"* [125, s.141]. Hekayələrdə tənha insan, sonsuzluq, zaman kimi məfhumlar özü-özlüyündə təsvir obyektinə çevrildi. Yazıçılar bu zaman, əsasən, diqqətli müşahidəçi rolunu oynamağa çalışdılar (məsələn, Nazlı Erayın "Hardayam mən, hardayam?", Emin Güzəlin "Bir həyat, üç gün və ölüm" hekayəsinin qəhrəmanlarının təsvirində olduğu kimi). Əvvəlki illərdən fərqli olaraq, müasir dövrə münasibətdə yazıçıların dünyagörüşündə və hekayə anlayışına yanaşmasında fərqli baxışlar müşahidə edildi. Bu hekayələrdə insan, ailə problemləri, ənənəçiliklə yeniliyin mübarizəsi, insan xarakterinin dəyişməsi, milli dəyərlərinin tamamilə yoxa çıxmasının təhtəlşüur olaraq hiss edilməsi, bundan yaranan faciələr və s. bu dövrdəki hekayə janrının əsas mövzusu kimi görünür. 1980-ci ildən sonra daha da aktuallaşan bu mövzuya özgələşmə, tənhalıq, biganəlik kimi psixoloji problemlər də əlavə olundu. Ömər Ləkəsiz tərəfindən "yeni arayışlar dönəmi" sayılan bu dövr hekayələrdə mövzu və forma baxımından da dönüş dövrü hesab edilir. *"1980-ci illərin hekayələrində itirilənlər, həyatla mübarizə, qaçışlar, getmələr, tərk etmələr, yalnızlaşma, özgələşmə, nostalji və uşaqlıq üçün darıxmaq kimi bir çox əsas mövzular önə çıxmışdır. Yenilikçi bir arayışın hakim olduğu bu dövrdə həm əsər, həm də yazıçı baxımından fərqlilik və müxtəliflik gözə çarpmaqdadır*" [158, s.23].

b) Türk hekayəçiliyinin inkişaf dinamikasının ikinci dövrünü əhatə edən 2000–2015-ci illər hekayələrində isə 80-ci illərdən sonra bir çox siyasi hadisələrin,

çəkişmələrin qurbanına çevrilən, həyatı bu hadisələrlə xaosa dönən, özgələşən, cəmiyyətdən və özü-özündən uzaqlaşan xarakterlər, üstəlik, etnik-milli dəyərlərlə qlobal maraqların sərhədində yaradılmış psixoloji atmosferin predmetinə də çevrildilər. Qlobal hadisə və proseslərin izlərini isə yazıçılar öz yaradıcılıqlarında bir sıra ədəbi cərəyanların təsirinə qapılmaqla göstərdilər. Nəticədə, dünya ədəbiyyatında gedən proseslərin inteqrasiyası Türkiyə ədəbiyyatında ədəbi cərəyanlarla tanışlığın başlanğıcını qoydu. Bu prosesin təsiri ilə modernizm, ekzistensializm, sürrealizm kimi ədəbi cərəyanların izi hekayəçilikdə də görünməyə başladı. Hekayələrdə bununla bağlı aparılan eksperiment və axtarışların dinamik inkişafı da məhz bu dövrə təsadüf etdi. Bu proses 80-ci illərdən sonra başlasa da, 90-cı illərdə daha da aktivləşdi. 2000-ci illər ərzində ən yüksək dinamikasını yaşadı. Türkiyə tədqiqatçısı Nəcib Tosun cərəyanların axınının məhz 80-ci illər hadisəsindən sonra daha da aktivləşdiyini qeyd edərək yazır: *"Ədəbiyyatda belə bir dəyişim izləndi: dərin bir qırılma və bu qırılmadan doğan çaşqınlıq... Keçmişlə hesablaşma... Əvvəlcə keçmiş üçün darıxmaq, yas saxlamaq, nostalji... Sonra yalnızlaşma, ətrafın boşalması... Ardınca da axtarma və boşluq duyğusu"* [171, s.59]. Ədəbi prosesdə milli xarakteri dəyişikliyə uğradan ədəbi cərəyanların təsiri ilə "qlobal insan"ın yaranması prosesinin reallaşması 2000-ci illərdən sonra yazılan hekayələrin mövzu və ideyasını da müəyyənləşdirdi. Camal Şakarın "Bir tip", Mustafa Akgünün "Türksayağı sevgi" adlı hekayələrindəki xarakterlər arzuları, yaşayış tərzləri və davranışları ilə qlobal dünyanın obrazlarıdır. Qərb dünyasının vədlərinə inanmaq, praqmatizm, özünü yuxarılarda görmək istəyi Qərb fəlsəfəsinin və məntiqinin onlara aşıladığı mənfi cəhətlərdir ki, sonunda bu xarakterləri milli kökdən ayıraraq mənəvi tənəzzülə uğradır. Beləliklə, hekayələrdə artıq, sadəcə, türk insanı deyil, dünya vətəndaşı, qlobal dünyanın qlobal problemləri ilə üz-üzə duran xarakter tipi meydana çıxır. Ekzistensializmdə (Türkiyə ədəbiyyatında "varoluşçuluq" deyə adlanır) əgər obraz qəlb dünyasına yol tapmaq cəhdinin uğursuzluğunu yaşayıb cəmiyyətə və özünə biganələşirsə, sürrealizmdə obraz qəribəliyi, irrosionalist qeyri-standart düşüncə tərzi və hərəkətləri ilə insanlıq halından, gerçəklikdən uzaqlaşaraq ümidsizliyə düşmə, qapanma halları keçirərək hər şeyin mənasızlığı fonunda özünüdərkdən uzaqlaşır,

xaraktersizliyə düçar olur. Məhz qlobalizmdə elmin yeni inkişaf mərhələsinə qədəm qoyması, yeni texnoloji yeniliklər həyatın qeyri-standartlığının nəticəsi olaraq milli dəyərlərə biganəliyi meydana çıxardı. Bu biganəliyi həm özü yaşayıb, həm də yaşadan xarakterlər və bu biganəliyə "hüquqların bərpa olunması" donunu geyindirən feministlər belə qadını mental dəyərlərdən uzaqlaşdırıb "qlobal qadın"a çevirdilər. Bu məqsədin psixoloji və ideoloji səbəbi isə milli dəyərlərdən uzaqlaşmış dünya insanı yaratmaq idi. Sosial, mənəvi, psixoloji hekayələrdə aktuallıq qazanan, xarakterlərdə milli mənəvi dəyərlərin tənəzzülünü yaradan, milli-mənəvi özünüdərkdən uzaqlaşdıran problemlər sırasında aşağıdakı problemlər də var və onlar digər yarımfəsillərdə daha ətraflı işıqlandırılmışdır:

a) Dəyərlərə biganəlik (Jalə Sancaq "Sevda ilə Alişan", Zəyyad Səlimoğlu "Daş İskələ üzərində ayaqlar və...")

b) Feminizm fikir axınının mövcudluğu, ya da çatışmazlığı (Camal Şakar "Bir tip" (modern qadın), Zeynəb Yalçın "Qəhvə fasiləsi" (sterotiplərin ağır nəticələri), Coşqun Mutlu "Hüzndür şəhərin küçələri" (savadsızlıq, qadına qarşı zorakılıq);

c) Milli kimliyin itməsi (Ayşə Kulin "Gülizar").

Qeyd etdiyimiz kimi, qlobalizmin yaratdığı bu yenilik və fərqliliklər nəinki Türkiyə hekayələrinin, həmçinin Azərbaycan hekayələrinin də mövzu və ideyasında müşahidə edildi. Fərqliliklər daha çox yazıçı üslubunda nəzərə çarpdı. Amma cərəyan və mövzu paralelliyi axtarışların eyni istiqamətdə getdiyini göstərir. Dünya ədəbi proseslərinin inteqrasiyası dünya ədəbiyyatı ilə əlaqə yaratmaq və tanışlıq kimi mədəni ədəbi birliklər yaratdı. Bu hadisə həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatının ədəbi cərəyanlarla tanışlığının başlanğıcını qoydu.

Nəticə olaraq qeyd edək ki, 1995–2015-ci illər üzrə həm Azərbaycan, həm də Türkiyə hekayələrinin mövzu və ideya üzrə təhlili onu göstərdi ki, bu ölkələrin daxilində baş vermiş ictimai-siyasi hadisələr, qlobal dünya proseslər hekayələrdə milli xarakterlərin keyfiyyət dəyişikliyinə uğramasına, bu isə öz növbəsində hekayələrin mövzu və ideyasının müəyyən edilməsinə təsir göstərə bilmişdir.

## 1.3. Hekayələrdə milli xarakterin ifadə vasitələri

Milli xarakterin formalaşması, gerçək mahiyyətinin açılması nəinki xarakteri ifadə edən düşüncələr və milli dəyərlər sisteminin müxtəlifliyində, həmçinin onun yaşadığı tarixi şərait, ailə, mühitlə qarşılıqlı münasibətlərdə öz mahiyyətini ortaya qoyur. Bunlardan əlavə, milli xarakterin ifadə vasitələri həm də onun daxili dünyasını tamamlayan zahiri detallarda, geyim tərzində, davranış qaydalarında, müəyyən atribut və simvollarda təcəssüm etdirilir. "*Əgər bədii sənətdə milli kolorit güclü və vüsətlidirsə, obrazlar milli dəyərlər və adət-ənənələrlə möhkəm bağlıdırsa, onlar milli təfəkkürə, canlı duyğu və təxəyyülə malik insanlar kimi yadda qalırlarsa, bunun başlıca səbəblərindən biri folklorla əlaqələrin qırılmaz və dərin olmasıdır"* [112, s.54]. Müasir dövrdə yazılmış hekayələrdə də xalq yaradıcılığından, folklor ənənələrindən bəhrələnərək milli cizgilərin qorunması həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatında xalqın milli-mənəvi dəyərlərə bağlılığının göstəricisidir. Bu məqamda yazıçı təhkiyəsi tarixi yaddaşa, əxlaqa, mənəviyyata əsaslanan komponentlərin mövcudluğu sayəsində bədii-estetik düşüncəyə xidmətin ifadəçisi kimi özünü göstərə bilir. Yazıçının milli xarakterə, milli özünəməxsusluğa münasibətinin bədii mətnə gətirilməsi ilk olaraq tarixi-milli dəyərlərin qabardılması və obrazların canlandırılmasının əsas göstəricisi kimi təqdim edilir.

Varis "Zalımlar, babam və əncir ağacı" hekayəsində də milliliyi təhkiyədə, xarakterlərin davranış və geyim tərzlərində nümayiş etdirmiş, həmçinin dini və mənəvi dəyərlərə identikləşdirilmiş və məsələyə kultoroloji nöqteyi-nəzərdən yanaşmışdır. Yazıçı hekayədə köhnə Azərbaycan kişisinə məxsus geyim və davranış detallarını süjetə gətirməklə hadisələrin canlı və təsirli alınmasına nail olmuşdur. *"Babam .. ..Ağ saqqalı sifətinə nurani görkəm verir. Başında daim araqçın gəzdirir. Bütün günü təsbeh çevirir, dilindən duası əksik olmur. Babam bu yaşında evə qazanc gətirməsə də, sözün əsl mənasında, evimizin dirəyidir"* [105, s.13]. Bu təsvirdə yazıçı obrazın xarici və daxili aləmini işıqlandıraraq nağıl simvolikasına söykənən təhkiyəsi ilə milliliyi bir qədər də artırmış və yaxud *"Babam əsl türk kişisi kimi torpağa və ailəsinə bağlı adamdır. Türk kişisi əkdiyi ağacla və dünyaya gətirdiyi övladla həmişə*

*qürur duyur. Bol-bəhrəli sağlam ağac və ağıllı, güclü övlad türk kişisinin qürur mənbəyi sayılır"* [105, s.14] fikirləri ilə babasının torpağa, el-obaya bağlılığını, qədimdən süzülüb gələn türk kimliyinin və təfəkkürünün canlı mənzərəsini yaratmışdır. Hekayədə yazıçı təhkiyəsi öz orijinallığı ilə seçilir, təbii və təsirli alınır. Təhkiyədəki milliliklə yanaşı, milli atributlar olan təsbeh və araxçının təsviri yazıçının ümumtürk adət-ənənəsindən, yaddaş və etnoqrafiyasından çıxış etməsi, bunu milli-mənəvi özünüdərkin bir əlaməti kimi göstərməsidir. Ona görə ki, milli geyimin bir hissəsi sayılan araqçın təkcə xalqın tarixi keçmişi ilə əlaqəli deyil və geyim tərzindəki milli xüsusiyyətləri əks etdirmir, həm də öz mahiyyətində bir çox milli-etnik əlamətləri daşıyır. Babanın araqçın və əlində təsbehlə təsviri həm də onun yaşını, ailə və ictimai vəziyyətini göstərir. Bir sözlə, bu atributlar eyni zamanda da babanın milli imicini formalaşdırır. Tahirə Məmməd yazır: "*Milli imic dəyərlərin ümumiləşdirilmiş təqdimi olduğundan milli kimlik anlayışı ilə sıx əlaqədədir. Milli kimlik hər hansı millətin sahib olduğu xarakterik xüsusiyyətləri bildirirsə, milli imic həmin xüsusiyyətləri müxtəlif üsullarla çatdırıb təsəvvür formalaşdırır*" [63, s.13]. Məhz həmin müxtəlif üsullardan biri də milli atributlardır. Behçet Çelikin "Qaldığımız yer" adlı kitabındakı "Lori…Lori" adlı hekayəsində ölümündən sonra həyatı yas məclisinə gələnlərin müzakirə obyektinə çevrilən dəyişkən xarakterli baba obrazının simasında keçmişə qayıdış, etnopsixoloji yaddaşı xatırlatma, milliliyi əks etdirən cizgi və atributlara müraciət hiss olunur. *"Bəzən əlində təsbeh, dodaqlarının sürətli hərəkətləri, bəzən də əlindəki metal bardaqdan nəsə içir"* [118, s. 74] və yaxud "*evdən çıxmayıb özünü duaya, namaza verdiyi illərmi əvvəldi, səhər tezdəndən içməyə başladığı illərmi? Başqası olsa, "əvvəlcə içmiş, sonra tövbə etmişdir", – deyib çıxarıq vəziyyətdən, amma babam haqqında danışırıq, mənim tanıdığım ən qapalı, ən qəribə insan haqqında"* [118, s.75]. Bu kimi təsvirlərdə dini dəyərlərə söykənən milliliyi əks etdirən atributlarda (təsbeh) və milli dəyərlərdə ümumtürk milli həyat tərzinin ifadəsini görmək mümkündür. Hətta yasa gələn qadınların geyim tərzinin təsvirində yazıçı kiçik bir detalla milli xüsusiyyətləri daha etnoqrafik və estetik şəkildə ifadə etməyi bacarmışdır. *"Başlarındakı örtülər, qapının önündən sürətlə keçib getmələri, harasa nəsə çatdırmağa çalışırlarsa artıq – bilmirəm, kimin*

*kim olduğunu anlamağıma mane olurdu. Onsuz da, çoxunu, illərdir ki, görmürdüm"* [118, s.73]. Hekayədə baş örtüyünün milli geyim, eyni zamanda da milli xarakteri (ar, namus, ismət, hörmət əlaməti kimi) müəyyənləşdirən bir atribut, simvoltək qeyd edilməsi, həm də milli-etnik mənsubiyyətin, ümumtürk düşüncə tərzinin, islam-şəriət normalarının göstəricisi olaraq hekayədə öz əksini tapmışdır. Mənzər Niyarlının da bir çox hekayələrindəki kimi "Ağbəniz qarıyla Qarabəniz qarının əhvalatı" adlı hekayəsində də Azərbaycan etnoqrafiyasına məxsus milli detalların (kəlağayı, toy günü əllərin xına ilə bəzədilməsi, ər evinə cehiz aparılması) hekayədə xatırlanması ümumtürk ənənələrinə bağlılığı, ümumtürk düşüncəsinə qayıdışı xarakterzə edərək, xarakterin genetikadan qopmayan milli xüsusiyyətlərə sadiqliyini yada salır. *"Gəlin gedəndə də qırağı ağ yelənli qırmızı kəlağayını atdılar başıma. Əlim-ayağım xınalı faytona mindirib oğlan evinə göndərdilər"* [74, s.104]**.**

Türkiyə yazıçısı Rasim Özdənörən " İlk ev" adlı hekayəsində yer üzündə ilk ev olaraq təsvir etdiyi "Kəbəni", "Məkkə şəhərini" nəinki Allahın evi, insanın ilk səcdəgahı kimi təsvir etmiş, həm də insanın isti ocağı, ilk məskən saldığı məkan kimi səciyyələndirmişdir. *"Bütün şəhərlərdən öncə bu ev inşa edilmişdir. Bu yeganə evin "şəhərlərin anası" adlandırılması böyük məna kəsb edir. Şəhər bu yeganə evdən yaranmışdır"* [150, s.122-123]. Bu təsvirlərdə insanı var edən müqəddəs dəyərlərin mövcudluğu insanı etnik köklərə, dinə və mənəviyyata bağlayan vasitə rolunu oynamışdır. Bu mənada, insanın özünüdərki, etnik kimliyi, etnik köklərə qayıdışı "Kəbə"nin mövcudluğu fonunda özünü büruzə vermişdir. Bu etnik özünüdərk milli özünüdərkdən kənarda qalmamaqla milli xarakteri müəyyənləşdirən komponent kimi çıxış edə bilir. Səlvigül Şahinin "Əmimin evi" adlı hekayəsində də "ev, isti ocaq" kimi milli simvolik mənalandırmalar qədim mifik təsəvvürdə formalaşan, etnopsixoloji əhəmiyyət kəsb edən bir anlayışın işıqlandırılması deməkdir. Bu hekayədəki obrazları da xarakterə çevirən məhz bu evə, ocağa olan münasibəti, sevgidir. Elə ona görə də hekayədə uşağın özünü sevimli, güvənli hiss etdiyi ev həm də ona daxili sakitlik, mənəvi rahatlıq gətirən bir məkan – ocaq kimi təsvir edilir. Yanan ocağın istisi və ətrafa yayılan yemək qoxusu onu bu evə bağlayan əsas vasitədir. "*Əllərim titrəyərdi. Udqunub qalardım. Bu halım əmimlə əmim arvadının*

*diqqətini çəkər, "Mətinciyim, çəkinmə, bura da sənin evin sayılır", – deyərdi əmim"* [161, s.49]. Hekayədə ümumtürk etnopsixoloji təfəkkürünü, fəlsəfəsini işıqlandıran "ev və ocaq" simvollarının fonunda ailə üzvlərinə həssas münasibət, qohumluq əlaqələrinə bağlılıq, mənəvi saflıq və humanist addım ümumtürk milli xüsusiyyəti ilə bərabər, humanizm əlaqələrinin varlığını nümayiş etdirmək üçün vasitə seçilmişdir. *"Şəxsiyyətin sosial mahiyyətini əks etdirən mənəvi strukturunda milli-mənəvi özünüdərk kimi, humanizm də müstəsna dərəcədə böyük rol oynayır"* [79, s.114].

*"Obrazı canlandırmaq, onun xarakterini, xarici portretini çəkməkdə sənətkarın müraciət etdiyi vasitələrdən biri də qəhrəmanın xüsusiyyətlərini yerli şəraitlə bağlamaqdır. Bu cəhət xarakterə bir kolorit aşılayır, onun milli keyfiyyətlərinin tamamlanmasına kömək edir"* [57, s.153] fikri öz mahiyyətini Ələsgər Davudoğlunun "Qumru" hekayəsinin baş qəhrəmanı Rövşənlə atı "Qumru"nun arasındakı mənəvi bağlılıqda, həm də milli koloritə, kökə, yuvaya bağlılığı əks etdirən ifadələrdə, yaradılan simvollarda gerçəkləşdirir. Hekayədəki yuxu yozumu, yuxunun reallaşacağına bağlı olan inam hissi onun bədii-simvolik təsirini artırır. *"O, yuxuda atını çaparaq qatarla yarışdığını görmüşdü. Oğlan atını nə qədər qamçılayıb qovmuşdusa da, sərnişin qatarını ötə bilməmişdi. Gecənin bir aləmində gördüyü o yuxu səhər erkən oyanan kimi yadına düşmüşdü"* [17, s.78]. Hekayədə qəhrəmanın əhvali-ruhiyyəsi, atla insanın həmahəngliyi də folklor üçün səciyyəvi etnopsixoloji hadisədir. Bildiyimiz kimi, folklordan gələn estetik düşüncənin və genetikada daşlaşmış mənəvi dəyərlərin təcəssümü olan at hekayədə həm milliliyi, atla insanın mövcud milli-mənəvi bağlılığını, həm də atla bağlı görülən yuxuya inancın etnik yaddaşda qalması və yaşaması həqiqətini özündə əks etdirir. Bütün bu ümumiləşdirmələr hekayədə və obrazda milli xarakterin mahiyyətini ortaya çıxarmaq üçün yardımçı rol oynayır. At milli atribut, dastançılıq ənənəsinə görə ulu babalardan qalan mənəvi miras, igidlik simvolu olaraq milli xarakterin təqdimində və təsvirində hələ də əsaslı yer tutur. Bu gün də at kultu müasir hekayələrdə öz əksini tapmaqdadır. Türk dünyasının inancına görə, at, ilk növbədə, arzuya, murada yetməyin rəmzidir. *"Qədim zamanlarda atlar mifik dünya ilə bağlı olmuş, ağ və boz rəngli atlar kutsallıq, uğur simvolu sayılmışdır"* [4, s.47]. Atın uğur müjdəçisi olması, insan

məskənlərini bəd ruhlardan qoruması, gənc sevgililərin bir-birinə qovuşmasında yardımçı olması və digər bu kimi keyfiyyətləri çeşidli folklor mətnlərində öz təzahürünü tapmışdır ki, bu da at kultunun mahiyyətini açmağa imkan verən faktlardandır. Firuz Mustafanın "At günü" adlı hekayəsində at insanlığını itirmiş "insan"ın namussuzluğunun qurbanına çevrilir. Hekayədə kökə, mənəvi dəyərlərə qayıdış meyli güclü işlənmiş, xalq ruhunun, mənəviyyatının ifadə çalarları və özəllikləri qorunub saxlanmışdır. Firuz Mustafa "At günü" hekayəsində insan xarakterinin zəifliyini çox maraqlı və ziddiyyətli bir situasiyada açıb göstərərək yazır: *" – Bura bax… Səndən bir şey soruşum: görəsən, bunu bizim kəhərə yaxınlaşdırsaq, nə olar?.. Bizimki də son vaxtlar yaman yerikləyir. Deyirəm, bəlkə, onun gözünün odunu sizin bu göylə əlləşən dayça ala. – "Sizinki" deyəndə ki… Axı elə o da "bizimki"dir: bunun dost doğmaca anasıdır… Ananın baladan döl götürməsi… Yox… Bu dayça… O kəhərə... Heç elə şey olar? Günaha batarıq…"* [67, s.272-273]. Söz verib sözündən dönməyən bu zəif xarakterli obraz sözünü geri götürərsə, acizliyini və gücsüzlüyünü göstərmiş olacaq düşünməklə, hekayənin sonunda elə acizliyinin də uğursuzluğunu yaşayır. Sözün gücü, məna yükü qarşılığında qazandığı günah hissi ilə yaşaya bilməyən qəhrəman sonda dayçası ilə birlikdə öz ölümünə də bais olur. Bu hadisənin fonunda milli dəyərlərə, atributlara qarşı insan laqeydliyi tənqid edilir, insanla onun milli ruhu, təbiəti arasında ziddiyyətin və uçurumun yaranmasının nəticələri göstərilir. Bu nəticəni göstərmək yazıçıdan xüsusi bir bacarıq tələb edir ki, buna da Firuz Mustafa nail ola bilir. Bu hekayədə daha bir mənəvi dəyərin (söz, onun poetik məğzi və gücü) məna yükünun açılması diqqət çəkir. Firuz Mustafanın hekayəsində dayçanın sahibi dərdini oxucularla bölüşərkən günah əməlinə bais və səbəbkar olan qonşusundan şikayət edərək dilə gətirdiyi hər kəlməni milli-əxlaqi dəyərlər aspektindən təhlilə cəlb edir. *"Sən nə qanırsan məhəbbət nədir? Əgər qansaydın, ona – o qadına bu qədər zülm etməzdin. Sən onu evdə eşikdə at əvəzinə, lap elə at kimi işlədirsən. Axı mən yaxşı görürəm bunları. O da məni görür. Görür ki, mən öz arvadımı – hətta onu istəyib almasam belə – necə bəsləyirəm. Qoymuram onu əlini ağdan-qaraya vursun. Evlənəndə aramızda istək, məhəbbət olmasa da, mən onu indi uşaqlarımın anası kimi istəyirəm. Bunu bilmək üçün heç*

*oxumaq da lazım deyil. Belə şeylər gərək adamın qanında olsun”* [67, s.280]. Axırıncı cümlədə qeyd olunan ifadələr, xüsusilə “qan”, daha dəqiqi, “türkün qanı” obrazın xarakterində olan qadına hörmət xüsusiyyətini də özündə ehtiva edir. Qadın məfhumu özlüyündə müəyyən dəyər və anlayışları ehtiva etdiyindən namus, müqəddəslik, ailənin əhəmiyyəti, toxunulmazlığı və s. mühafizəkar dəyərlər bu məfhumda toplanır. Ona görə ki, türk dünyasında qadın hər zaman xanım-xatınlığı ilə dəyərli olmuş, türk millətində qadına verilən qiymət başqa heç bir millətdə bu qədər qabarıq şəkildə müşahidə edilməmişdir. Bunun da səbəblərindən biri odur ki, türk dünyasında qadın həm ailənin təməlidir, həm də ərinə, igidinə sahib çıxan, arxa duran, ona  mənəvi güc, ilham verən şəxsdir. Qədim türk dastanlarından başlayaraq, bu gün yaradılan ədəbiyyat nümunələrində də bu xüsusiyyəti hələ də izləmək mümkündür. Yazıçı hekayədə insanın şəxsiyyəti və mənliyi kimi keyfiyyətləri qabartmaqla vurğulamaq istəyir ki, əgər bu keyfiyyətlər bir insanda cəmlənibsə, deməli, o, hər kəsə, hətta heyvana da eyni münasibət bəsləyəcəkdir. Yox, əgər əksinə, həmin şəxs milli özünüdərkdən, əxlaq prinsiplərindən, milli-mənəvi dəyərlərdən uzaqlaşaraq humanizm prinsiplərini dərk edə bilmirsə, o, gec və ya tez mənəvi tənəzzülə uğrayacaq və mənəvi ruh halının təkmilləşməsindən məhrum olacaqdır. Beləliklə, bu hekayədə də “at” kult olaraq “üst” məzmundan “alt” məzmuna (mənəvi dəyərin açılmasına) keçidi reallaşdırır və bu reallıq bədii formada öz əksini tapa bilir. Mənəvi atribut olaraq gördüyümüz at kultu həm də insanların ruh həyatını simvolizə edən milli-mənəvi sərvət olaraq müzakirə obyektinə çevrilir. Məsələn, Şərif Ağayarın “Şəkil” hekayəsindəki “baba” ilə Əhməd Bükenin “Su-Qovğa-Su” hekayəsindəki “ata” obrazının atla birgə təsviri də insanla təbiətin bağlılığına işarədir. Bu, eynilə insanın ruhi mövcudluğunu şərtləndirən amil kimi görünür. “Şəkil” hekayəsində babanın “at”a namus, etibar simvolu olaraq yanaşması *“Bəli, ağ atımız gəldi, əmim yox. Babamı ilk dəfə onda ağlayan gördüm. Atın boynunu qucaqlayıb alnını yalmanına söykədi: Ay bivəfa, oğlumu neylədin? Mən onu sənə etibar eləmişdim...” – dedi və həzin-həzin ağladı. Atımız əvvəlcə səsini boğazında incik-incik qaynadıb etiraz eləsə də, babamın ağladığını görüb susdu, qulaqlarını salladı. Elə bil babamın üzünə baxmağa xəcalət çəkirdi”* [2], Əhməd Bükenin “Su-Qovğa-Su” hekayəsində

isə qəhrəmanın at belində *"Babam yağız donlu atıyla ortaya çıxdı"* [117, s.69] təhkiyəsində atın əzəmətli təsviri və "at" atributunun əski türk dastanlarındakı kimi bir səcdə, etibar, namus, hünər simvolu olaraq təsvir edilməsi, müasir mövzulu hekayələrdə də son dərəcə qürurlu və təsiredici göstərilmişdir. Həmçinin milli xarakteri müəyyənləşdirən bir xüsusiyyət kimi də görünməkdədir.

Qeyd etdiyimiz kimi, hər bir xalqın milli psixologiyasının, adət-ənənəsinin, mənəvi dəyərlərinin nəsildən-nəsilə ötürülərək mühafizə edilməsində atributlar mühüm element kimi çıxış edir. Tədqiqata cəlb etdiyimiz türk xalqlarının tarixi yaddaşından süzülüb gələn mənəvi dəyərlər və həmin dəyərləri simvolizə edən atributlara olan ehtiram və onları qorumaq instinkti hekayələrdə də milli xarakteri müəyyən edən əsas xüsusiyyət kimi görünməkdə və müşahidə edilməkdədir. Tənqidçi Akif Hüseynov milli xüsusiyyətlərin ifadəsini iki qrupa bölmüşdür: "*Təsvirin zahiri mənzərəsində əyani şəkildə görünən milli kolorit, bir də xalqın ruhi aləminin, əxlaqi-psixoloji dünyasının, qənaətlərinin özünəməxsusluğu. Birinci qismə, məsələn, etnoqrafik xüsusiyyətləri aid etmək olar*" [48, s.122]. Bu mənada, Azərbaycan və Türkiyə ədəbiyyatında milli xarakteri ənənəvi atributlar və simvollarla (papaq, at, bığ, çadra, ev, yanan ocaq, dini atributlar ("Quran", tesbeh və s.)), yaxud mənəvi keyfiyyətlərlə (mərdlik, dosta sədaqət, namus təəssübkeşliyi, ağsaqqala hörmət, qadının və atın namus hesab edilməsi və s.) dəyərləndirmək mümkündür. Mənəvi keyfiyyət adlandırdığımız milli-mənəvi dəyərlər də özlüyündə həssas yanaşma tələb edir. Elçin bu yanaşmada Mirzə İbrahimovun fikrini əsas gətirərək yazır: "*Mənə elə gəlir ki, qəhrəmanın milli səciyyəsinə, milli xüsusiyyətlərinə xalqın ruhunu, humanizmini, nəcibliyini, müdrikliyini əks etdirən keyfiyyətləri daxil etmək lazımdır. Hər bir vərdişi və ya adəti milli xüsusiyyət adlandırmaq və onlardan yapışmaq olmaz*" [20, s.179]. Hər halda, qeyd edilən bu milli-mənəvi meyarlar əsrlərdən bəri xalqın mənəvi həyatına, psixologiyasına hopmuş genetik kodlardır. Zaman-zaman bir çox şey dəyişsə də, onlar dəyişməz olaraq qalır. Ədəbi təcrübə həm də onu göstərir ki, hər bir milli ədəbiyyat məhz xalq xarakterinin bədii təcəssümü ilə qiymətlidir. Ədəbiyyat nəinki xalqın milli düşüncəsini işıqlandırmaq mövqeyindən çıxış edir, həmçinin dövrün inkişafını, sosial həyatını, etnogenizisini, milli-mənəvi

dəyərlərə münasibətini əks etdirir. Ən başlıca qayə isə bütün dəyərlərin bir xalqın düşüncə və genetikasının süzgəcindən keçirilərək nəsildən-nəsilə ötürülməsidir. Dünya və zaman dəyişir, onun tələbləri və perspektivləri də dəyişməkdədir. Vacib olan və dəyişməyən isə bir nəticədir: milli-mənəvi dəyərlər türk mədəniyyətinin və ədəbiyyatının bir parçası olaraq qiymətləndirilməlidir. Ona görə ki, qloballaşan dünyada milli xarakter etnopsixoloji hadisə olaraq xalqın tarixi və təbii mühiti ilə bərabər inkişafda olan xüsusiyyətidir.

Bildiyimiz qədərilə böyüyə hörmət cəmiyyəti yaşadan əsas prinsiplərdən biridir və hər kəsin mənəvi borcu olaraq qiymətləndirilir. İslam dini hər zaman insanları böyüklərə qayğı göstərməyə çağırır. Ümumtürk düşüncəsinin əsas özəyi hesab olunan islami qaydalar insanların bir-birinə qarşı münasibətdə önəm verdiyi ən vacib mənəvi dəyər kimi hörmət və qayğı hisslərini qabardır. Türkiyə hekayələrində də bu xüsusiyyətlərə xüsusi olaraq diqqət yetirilir. Məsələn, Ömər Faruk Dönməzin "Yol" hekayəsinin başlıca mövzusu böyük, ağsaqqal sözünü dinləmək, onun fikrinə hörmətlə yanaşmaqdır. Hekayə məhz bu mənəvi dəyərin oxucuya çatdırılması səhnəsi ilə başlayır. Üstəlik, dini dəyərlər fonunda məscidi anmaq, ona hörmət edib "Allahın evidir", – deyib kiçik xoşagəlməz bir hərəkəti də özünə qadağa qoymuş obrazın simasında dini-milli dünyagörüşün əlamətləri ümumtürk düşüncə sisteminin vacib əlaməti olaraq xarakterizə olunur. *"İkindi oxundu.... Ürəyim dəhşətli dərəcədə siqaret çəkmək istəyirdi. Ustadımın yanında çəkmirəm. Hətta bu məkanın bağçasında belə çəkmərəm. ...Xalqın bura bir münasibəti var axı; onu kirlədə bilmərəm"* [119, s.14]. Hekayədə aşılanan ibrətamız fikirlər, məsciddə ağsaqqalın cavanlarla etdiyi dini söhbətlər və cavanın məscidi müqəddəs, hörmətə və diqqətə layiq bir yer kimi dəyərləndirən düşüncələri və hərəkəti hekayənin məzmununu daha da zənginləşdirir. Hekayə ilə yanaşı, təhkiyə də dini-milli yaddaşın diriliyinə, mühafizəkarlığına sadiqliyi nümayiş etdirir. Qeyd edilən mənəvi dəyərlərin xarakterin etnopsixoloji dünyasında təzahür etməsi, milli cizgilərin təşəkkül tapıb getdikcə formalaşması türk xalqının milli mentalitetinə çevrilir. Mentalitet isə xalqın, millətin dəyərlər sistemidir və daha geniş anlayışdır. Ailəyə sadiqlik, namus-qeyrətin qorunması, adət-ənənəyə, qayda-qanuna əməl edilməsi, hərəkətdə və sözdə həddini aşmamaq türk kişisini

xarakterizə edən əsas xüsusiyyətlərdir. Ən ali və vacib cizgilərdir. Firuz Mustafanın "İşıq" hekayəsində qəhrəman İsgəndərin simasında da bu dəyərlərə münasibət qadının xəyanəti ilə qarşılaşma situasiyasında, psixoloji sarsıntı aspektindən işlənmişdir. Hekayədə İsgəndərin formalaşmış xarakterinin möhkəmliyi yaşadığı psixoloji durumun əks təsirindən daha güclüdür. *"Öldürəcəyəm, ...Doğram-doğram doğrayacağam. İkisinin də sağ tikələrini qulaqları boyda eləyəcəm. Nə olur olsun. Qoy tutub damlasınlar. Dost-düşmən rişxəndindən ölüncə hökumət əlində ölmək daha yaxşıdır"* [67, s.9] düşünən İsgəndərin bu anda qarşılaşdığı səhnə (həyat yoldaşının yeni, mehriban ailəsinin olması) onu öz fikrini dəyişdirməyə məcbur edir. O, bu vəziyyətdə gərgin psixoloji-emosional qüvvəni özündən uzaqlaşdıra bilir. Güclü xarakterə sahib olan biri kimi yeni yaranan və hələ sonu bilinməyən bu ailənin mehribanlığını görüb onların bədbəxtliyinə səbəb olmaq istəmir. Yazıçı hekayəsində bu ziddiyyətli səhnənin fonunda insanın mənəvi-iradi gücünün hara qədər, hansı həddədək dayanıqlı olduğunu uğurla təsvir etməyi, oxucunu buna inandırmağı bacarır. Əslində, Firuz Mustafanın yaratdığı bu xarakter həm də milli xarakterin daşlaşmış modelinin sındırılması deməkdir (məsələn, "Dəli Kür"də arvadının qaçırılmasına dözə bilməyən və qisas üçün çırpınan Allahyarı xatırlayaq). Və o da maraqlıdır ki, bu sındırılma xarakterə bir çox müasir hekayələrdə baş verən "sındırılmalar" kimi mənfi xüsusiyyət qazandırmır. Milli özünüdərk hissinin ifadəsi hər zaman olduğu kimi bu gün də dini dəyərlərə sadiqlik prinsiplərindən kənara çıxmır. Amma Firuz Mustafanın "Vəsiyyət" adlı hekayəsində iki fərqli dinə (xristian və müsəlman) və  müxtəlif  inanca malik olan dostların həyat hekayəsində milliliyə bağlılıq ümumbəşəri dəyərlər kontekstindən təsvirə cəlb edilir. Bu dostlar üçün onları birləşdirən uşaqlıq, gənclik, tələbəlik illəri, qonşuluq əlaqələrinin mənəvi bağlılığı mənsub olduqları fərqli adət-ənənə, din, dil və inancdan daha üstündür. *"Malakanların çoxluq  təşkil etdiyi kənddə Yeqorla Əflatunun dostluğu dillər əzbəri idi.... Kənd əhli onları zarafatla "davakar qardaşlar" adlandırardılar"* [67, s.220]. Maddi çətinliklər, daha yaxşı yaşamaq, ailəni dolandırmaq istəyi bu dostları bir-birindən ayırmış, illər sonra isə  tale bir təsadüf nəticəsində onları yenidən başqa bir ölkədə üz-üzə gətirmişdir. Uzun illərdən sonra Rusiyanın uzaq bir əyalətində görüşən

dostlar əvvəlki günləri yada salıb bir-birinə vəsiyyətlərini edirlər. Yeqor onun müsalmansayağı basdırılmasını istəyərək deyir: *"Qonşu qəsəbədə tatar məscidi var, öləndə qoy məni müsəlmansayağı basdırsınlar... Malakan da elə müsəlman kimi bir şeydi... Mən ölüm, düz demirəm?"* [67, s.223]. Əflatunun vəsiyyətindəki ruhi və mənəvi dirçəliş isə dini inanclara bağlılıq şəklində öz ifadəsini tapmaqdadır. *"Yeqor ...Bəri, bax, Mixaylıç... Eşidirsən? Ölüm-itim dünyasıdır. İşdi-şayəd, buralarda öləsi olsam, xərcə-zada düşüb məni heç yerə göndərmə. Çətin zamanadır, Yeqor ... Allaha şükür, özün kəlmeyi-şəhadəti əzbərdən bilirsən. Yox, əgər unudubsansa, eybi yoxdur. Elə malakan qaydasıyca da basdırarsan məni. Niçevo, pust proklyanut... Doğrudur, dinlər müxtəlifdir, Mixayliç... Amma unutma ki, əsas məsələ Allahdır. Allah birdir"* [67, s.224]. Beləliklə, Yeqorun müsəlman, Əflatunun isə malakan dini qaydalarıyla basdırılması vəsiyyətində əsas amal tək olan Allaha inam, insanın mənəvi-ruhi dünyasına, insanlar arasında mənəvi bağların möhkəmlənməsinə xidmət edir. Əslində, müasir hekayələrdə (həm Azərbaycan, həm də Türkiyə) qloballaşan dünyanın qlobal İnsan modelinin yaradılmasına, milli xarakterdən Dünya insanı modelinə üz tutma bu hekayədə də öz ifadəsini tapmışdır. Hekayənin əsas ideyası insanları ayıran dinlər, birləşdirən isə ilahi gücə inamdır. Dinlər (və insanlar) müxtəlif olsalar da, hər kəsi bir güc – ölüm, torpaq birləşdirir. Bir sözlə, qlobalistlərin "Yer üzü evimizdir" ideyası burada öz əksini tapmış olur. Bu ideyadan əlavə hər iki obrazın dini dəyərlərə deyil, mənəviyyata, bəşəri prinsiplərə bağlı olan mənsubiyyət, kimlik, şəxsiyyət, özünüdərk prinsiplərinə bağlılığı daha çox diqqət çəkir və alqışa layiq səslənir. Ona görə ki, milli xarakterin vacib ünsürlərindən biri də ümumbəşərilik prinsipidir. Bu prinsip, göründüyü kimi, mədəniyyətlərarası əlaqələrin möhkəmləsində mühüm rol oynayır. Vahid Allaha inam bu hekayədə ümumbəşərilik ideyasını doğruldur. Eyni motiv, lakin fərqli aspektlərdən Türkiyə yazıçısı Müzəffər Buyruqçunun "Bir günün hekayəti" hekayəsində də təsvir edilməkdədir. Yazıçı hekayədə Allaha inamı, onun istəklərinə və buyurduqlarına əməl edilməsini təsvir edə, təsiredici ifadə və fikirlərlə oxucuya çatdıra bilir. Müzəffər Buyruqçu "Bir günün hekayəti" hekayəsində də milli xarakterin mahiyyətini, dini dəyərlərə bağlılığını ümumtürk milli mədəniyyətinin, adət-ənənəsinin nəticəsi olaraq işıqlandırır. Burada

da türk xalqının mədəniyyətinə, tarixi və etnik düşüncə tərzinə məxsus davranış və dəyərlər milli psixologiya və etnik simanı müəyyənləşdirməyə kömək edir. Yazıçı insanların bəyəndiyi və tərifəlayiq əxlaq xüsusiyyətlərini, davranış formalarını dində, əxlaqda, inancda axtarmaqla, əslində, milli türk düşüncə sistemini bu istiqamətdən incələmiş olur. *"Fəhlələrin yığışdıqları otaq suvaqsız və boş idi. Yerə yaylıq salmışdılar. Çörək doğranıb süfrəyə yığılmış, qaşıqlar düzülmüşdü... Qazanı gətirib ortaya qoymuşdular...Osman dayı şapkasını tərs qoyub bir kənarda namaz qılırdı"* [12, s.297]. Evindən uzaqda, ailələrini dolandırmaq məqsədilə pul qazanmağa gələn bir qrup fəhlənin çətin iş şəraitində belə milli-mənəvi, dini dəyərlərə bağlılıqlarını Müzəffər Buyruqçu bədii mətnin əsas ideyasına çevirməklə yanaşı, böyüyə hörməti, ümumtürk mədəniyyətinin tərkib hissəsi olan süfrə mədəniyyətini də təqdim edir: *"Fəhlələr Osman dayıya yanlarında yer verdilər. Ağızlardan "bismillah"lar töküldü. Qaşığı qazana ilk salan Osman dayı oldu. Sonra o birilər"* [12, s.298]. Bu təsvirlərlə yazıçılar həm də əxlaqi-mənəvi, insani keyfiyyətlərin yüksəlməsi və möhkəmlənməsi üçün ümumtürk düşüncə sisteminin əsasını milli mentalitet, adət-ənənələr aspektindən təsvir etməyə çalışırlar. Göründüyü kimi, hər iki hekayədə türk millətinə məxsus ailə psixologiyası, onun etnoxüsusiyyətləri, milli-mədəni dəyərlərin mahiyyəti, mədəni-tərbiyəvi çalarların ustalıqla çatdırılması mətnin bədii-estetik cəhətdən zənginləşməsində mühüm rol oynayır. Ona görə də "zaman dəyişsə də, milli dəyərlər itmir" prinsipi hər zaman bütün tarixi dövrlər üçün aktual olaraq qalır. Məhz bu əxlaqi dəyərlər türk dünyası insanlarının böyük bir mədəniyyət daşıyıcısı olduqlarından xəbər verən əlamətlər kimi dəyərləndirməkdədir.

Məlumdur ki, əxlaqi-mənəvi dəyərlərin özəyini təşkil edən dini dəyərlər həm də xarakterdəki millilik cizgilərini aşkara çıxaran vasitələrdəndir. Dini dəyərlər ümumbəşəri dəyərlərin bir hissəsi olaraq həm də ümumtürk ideologiyasının, ümumtürk fəlsəfəsinin, milli-mənəvi kimliyimizin göstəricisidir. *"Axirətə inam Allaha və Peyğəmbərə imanla birlikdə islamın təməlini təşkil edir. Allaha və axirətə inanan hər kəs digər islamın inanclarına da inanmış sayılır. Duyğularla bilinməyən, varlığı vəhylə çatdırılan axirət həyatına inanmaq böyüklük istəyir. Bu səbəbdən də axirətə inanmaq iman əsasları arasında xüsusi yer tutur"* [5]. Türkiyə yazıçısı

Güzidə Ərtürkün "Ölüm-qalım məsələsi" adlı hekayəsində islami dəyərlər, islami dəyərlərin bu istiqamətdən təbliği təhkiyədə hiss olunan milliliklə birlikdə bədii-estetik harmoniya yaradır. Hekayədə ölən şəxs o biri dünyanın, əbədi aləmin gözəllikləri haqqında düşüncə və hisslərini monoloq vasitəsilə əks etdirməyə nail olur. Hər şey o qədər canlı və əsrarəngiz görünür ki, obraz ölümünə belə hərdən inanmır. *"Çaşdım qaldım. O biri dünyanı belə təsəvvür etməmişdim. Halbuki burada da bir həyat varmış. Çay bağçası kimi insanların bir müddət oturub dincəldiyi bir yerdir"* [124, s.40]. Hekayədə tez-tez xatırlanan inam məsələsi, dini hökmlər oxucunu dərindən düşündürür. Yazıçı burada qəhrəmanından daha çox oxucularının daxili dünyasına, xarakterindəki milli-mənəvi, dini dəyərlərə təsir etməyə çalışır. Çünki axirət inancı olmadan halal və haram kimi dini hökmlər, doğru və yanlış kimi davranışlar, gözəl və çirkin kimi dünya nemətlərinin dəyəri, anlamı qalmaz. İnsanlar bu balansı qoruya-qoruya milli xarakter səviyyəsinə yetişə bilir. Məhz bu dəyərləri özündə birləşdirən kəs həm Allah qarşısında kamil bəndəyə, həm də cəmiyyət içində hörmətli şəxsiyyətə çevrilir. Bu amalın təbliği hər zaman bədii ədəbiyyatın diqqət mərkəzindədir. Eyni zamanda da məhz bu xüsusiyyət milli xarakteri səciyyələndirən əsas göstəricilərindən biri kimi meydana çıxır. Talıb Apaydın "Övliya qəbri" adlı satirik hekayəsində isə adı çəkilməyən hansısa bir övliyanın qəbrini həm mifoloji, həm də dini dəyərlər baxımından hekayənin mərkəzinə gətirərək ondan ümumtürk, ümumislam simvolu olaraq istifadə edir. Hekayədə molla və adları çəkilməyən digər obrazlar tərəfindən qızıl küpün əldə edilməsi məqsədilə övliya qəbrinin açılması və bu proses boyu cərəyan edən hadisələr həm dini dəyərlər baxımından, həm ümumtürk inama, milli-mənəvi dəyərlərə, atributlara hörmətsizlik aspektindən tənqid atəşinə məruz qalır. Yalnız şərab içməklə, özünü, kimliyini unudaraq övliya qəbrinin açılmasına razılıq verən və sonda da heç bir xəzinə tapa bilməyən molla obrazı hekayədə gülüş və qınaq obyektinə çevrilir. *"– Bizim övliya bu diyarın ən böyük piridir. Bu övliya qəbri xəstələrə şəfa verir, qısır arvadlara övlad bəşx edir, bir dua ilə yağış yağdırır, kimin nə diləyi olsa, yerinə yetirir. Bu cür övliya qəbrini qazmalıyıq, eləmi?– Qorxma. Biz özümüzlə bir dərman gətirmişik. Bunu içəndə adam cəsarətlənir. Adamın gözünə övliya-mövliya görünmür. Haydı, gəl bura"* [9, s.284].

Onu da qeyd edək ki, ailə və məişətimizin digər adət-ənənələrindən fərqli olaraq, dinə bağlı olan dəyərlər ta qədimdən bu günə kimi daha mühafizəkardır və daha az dəyişikliyə məruz qalır. Bu hekayədəki xurafatın və inancın tənqidə məruz qalması (məsələn, Cəlil Məmmədquluzadə və Əziz Nesin hekayələrində olduğu kimi), həm də dini etiqada az bağlı olan mistik inamın zəif xarakterlə kəsişməsi problemini ortaya qoyur.

Hekayələrdə təsvir edilən milli xarakterin əsas xüsusiyyətlərindən biri də qonaqpərvərlik, qonaqla bağlı inanclara sadiqlikdir. "*Heç şübhəsiz, əsrlərin, nəsillərin sınağından keçərək bizim bu günlərədək gəlib çatmış milli-mənəvi dəyərlərimiz arasından qonaqla, qonaqpərvərliklə bağlı ibrətamiz, yaşarlı adət və ənənələr azərbaycanlılar arasında da özünə möhkəm yer tapmış və onları dünyanın qonaqpərvər xalqı kimi şöhrətləndirmişdir*" [11, s.7]. Qonaqpərvərlik xalqın milli kimliyini mənəvi insanlıq keyfiyyətlərini, xalqın adət-ənənəsini nümayiş etdirdiyindən Qasım Qasımzadə onun mənəvi dəyərini maddi amillərə bağlayanlara qarşı çıxaraq qeyd edir: "*Bizcə, məsələni bu şəkildə qoymaq, milli xarakterlərin üzə çıxmasını xüsusilə qonaqpərvərlik kimi dəyəri maddiyyatla ölçmək, əslində, bu amilin tam mənəvi-psixoloji proses olduğunu unutmaqdır*" [57, s.147]. Milli-etnik varlığımızı, xalqın əxlaqi-etik normalara inancını və bu inanca əməl etməsini əks etdirən "Kitabi-Dədə Qorqud"dan ta bu günə kimi ümumtürk dünyasına məxsus bir çox bədii mətnlərdən məlumdur ki, qonaqpərvərlikdə milli özünəməxsusluq, milli dəyərlər daha tez özünü büruzə verir. Mahmud Əhmədin "Aldanmış çalğıçılar" adlı hekayəsində də İsmixan kişinin simasında Azərbaycan xalqının yüksək əxlaqi xüsusiyyətləri qonaqpərvərlikdə daha dolğun şəkildə özünü ifadə edir. Belə ki İsmixan kişinin evinə səhvən bir qrup toy çalğıçılarının təşrif buyurması onu təəccübləndirsə də, o, necə deyərlər, "Allaha da qurban olum, qonağına da" deyiminə sadiq qalaraq qonağı bərəkət simvolu hesab edir, onları hörmət və ehtiramla qarşılamağı özünə borc bilir. Azərbaycan xalqının qonaqpərvərliyi, qonağı qarşılama, yola salma, qulluq etmə, ona xoş münasibət göstərmək kimi mənəvi dəyərlər hekayədə İsmixan obrazının simasında, davranış və hərəkətlərində öz əksini tapır. *"Bunlar kimdi, ay İsmi? Badam arvad lap cavan yaşlarından əri İsmixana "İsmi"*

*deyirdi və hiss eləyirdi ki, bu ərinin də xoşuna gəlir. İsmixan kişi astadan, az qala, pıçıltıyla cavab verdi:*

– M*ən nə bilim, bəlkə də, həyati səhv salıblar, – dedi, – sən qaç, çay dəmlə, xörək hazırla, qonaq Allahındı!"* [22, s.153] – deyən İsmixanın simasında Azərbaycan xalqının xarakterində olan qonaqpərvərlik yüksək əxlaqi meyar kimi görünür və onun milli xarakterinin bir çaları kimi təsvir edilir. Düzdür, qonaqpərvərlik və onunla bağlı bir sıra ənənələr digər ölkələrdə də var, amma hekayədəki kimi qonağı "Allah adamı" kimi qiymətləndirmək yalnız ümumtürk dünyasına, xüsusilə də Azərbaycan xalqına məxsus milli-mənəvi dəyər olaraq qiymətləndirilir. Bu da əbəs yerə qeyd edilən nüans deyildir, çünki folklorumuzda, dastanlarımızda rast gəlinən bütün nümunələr qonaqpərvərliyin azərbaycanlılarda daha dərin və daha əsaslı şəkildə olması fikrini sübut edir. "*Məsələn, qonağa qarşı olan qayğı, heç şübhəsiz, qonşu ruslar və farslarda da var. Amma azərbaycanlı folklorunda, məişətində qonağı tərənnüm edən saysız-hesabsız nümunələr də çoxdur. Yalnız qonağa aid olan məişət avadanlıqları saxlamaq, heç şübhəsiz, qonaqpərvərliyin azərbaycanlıların milli xarakter olmasını sübut edir"* [19, s.61]. Qasım Qasımzadənin də fikri bu məqamda tam yerinə düşür və qənaətimizi təsdiq edir: "*Deməli, qonaqpərəstlik məişətə elə daxil olmuşdur ki, bu milli zehniyyətdə də xoşbəxtlik, bərəkət simvolu sayılmaqdadır. Qonağı qarşılamaq, ona ləyaqətlə xidmət etmək üçün görülən tədbirlər də milli etnik məişətdə əlahiddə adətə çevrilmişdir"* [57, s.149].

Genetik-milli xüsusiyyətlər kök, nəsil şəcərəsi insanın kimliyi baxımından müstəsna əhəmiyyətə malikdir. Ümumtürk təfəkkürünün adət-ənənə və vərdişlər sistemindən biri olan "yeddi dönəmi"ini yaxşı tanımaq bacarığı gənc yazar İkinci Mahmudun "Tanımal" hekayəsinin qəhrəmanı olan Mustafa kişinin fitri istedadıdır. *"Mustafa kişinin tanımallığı, sözsüz ki, bu adamların ən maraqlı əyləncəsi idi. Hamı gözləyirdi ki, indicə Mustafa kişi darvazanın qabağında dayanacaq, gələn qonaqların bir-bir üzünə baxıb kimlərdən olduğunu müəyyənləşdirəcək. Onlar da qonaqların bu işə mat qalmalarına baxıb həzz alacaqlar"* [52, s.14]. Hekayənin mahiyyətindəki əsas mətləb, əslində, yazıçının qələmi ilə bir qədər yumoristik, bir qədər də ciddi

aspektdən təsvir edilsə də, ümumtürk təfəkküründə, yaşayış tərzində insanın kimliyi məsələsinə xüsusi yanaşma milli mənsubiyyəti, türk milli xarakterini xarakterzə edən dəyər kimi səciyyələndirilir. Hekayəni oxuduqca Mustafa kişinin bu istedadına, yaddaşına təəccüblənsən də, sonunda şahid olursan ki, o heç vaxt yanılmayıb, indi də yanılmır. Mustafa kişinin bircə baxışı ilə Abdulla müəllimin nəslinin, əsl atasının kimliyi məsələsinin üstünün açılması hekayədə həm gülüş, həm də maraq doğurur. Amma bu şübhənin haradan qaynaqlandığı və heç kimə məlum olmayan sevgi tarixçəsi yalnız oxucuya agah olur. Onu da qeyd edək ki, Mustafa kişi kimliyi müəyyənləşdirərkən yalnız oxşatma, bənzətmə bacarığına və yaddaş mükəmməliyinə arxalanmır, buna həm də şəxsi hisslərinə, öz fitri istedadına güvənməklə nail olur. Hekayədə yadddaş bu baxımından milli özünüadlandırma, tanıtma, milli özünüdərk, milli mənlik şüuru olaraq dəyərləndirilmişdir. Həm də “Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları” kitabında azərbaycanlıların kanonlaşmış vərdiş sütunlarından biri “yaddaş (xüsusilə şifahi!) mükəmməlliyi, “yeddi dönən”ini yaxşı tanımaq və s. və i.” [16, s.50] etnosun, azərbaycanlıların milli xarakterinin əhəmiyyətli xüsusiyyəti kimi qeyd edilmişdir. Milli xarakterlərin yaradıldığı hekayələrdə tarixi yaddaşa, əxlaqa, mənəviyyata, etnosa, adət-ənənələrə, davranışa əsaslanan komponentlər həm də bədii-estetik düşüncənin inkişafına xidmət edir. Burada yazıçı təhkiyəsi də mühüm rola malikdir. Təhkiyə yazıçının şəxsiyyətinə, daxili dünyasına, istedadına əsaslanır və yaradıcı mənini ortaya qoyan bir sistem kimi çıxış edir. Bu amillərin sırasında, təbii ki, yazıçının özünün milli kimliyə, milli özünəməxsusluğa münasibəti də xüsusilə vurğulanır.

1995-2015-ci illərdə yazılmış həm Azərbaycan, həm də Türkiyə hekayələrində bu cəhətlərə xüsusi həssaqlıqla yanaşma, yazıçıların təsvirin və təhkiyəsindəki milli şüura və milli duyğuların ifadəsinə marağın güclənməsi qənaətini ortaya qoya bilir. Bu meyillər isə yaradıcılıq prosesinin müəyyən məqamlarında gizli, bəzi hallarda isə açıq şəkildə özünü göstərə bilir. Novruz Nəcəfoğlunun “Səhra gəmisi”, Firuz Mustafanın “Yaşıllıq” adlı hekayələri ilə Türkiyənin məşhur hekayə ustadlarından biri olan Ender Halukun “Çobanyastığı iyli hekayələr” adlı kitabında toplanan hekayələrdə yazıçı təhkiyəsi öz orijinallığı ilə seçilir, milli ruhun çalarları təbii və

təsirli alınır. Bəs milli ruh nədir? Yazıçı Elçin hekayədə milli ruhun vacibliyi haqqında danışaraq onun mahiyyətini belə açır: *"Milli ruh dedikdə biz həm forma milliliyini, həm də məzmun doğmalığını nəzərdə tuturuq, yəni forma milliliyindən əlavə, qaldırılan məsələ də oxucu üçün doğma olmalıdır və bunu əldə etmək üçün ən başlıca şərt odur ki, təsvir olunan xarakter – istər mənfi, istər müsbət – milli xarakter olsun, eləcə də bəhs olunan hadisənin, yaxud situasiyanın inkişaf atmosferində də bu millilik hiss edilsin"* [20, s.335]. Azərbaycan yazıçısı Firuz Mustafa ilə Türkiyə yazıçısı Ender Halukun təhkiyəsindəki obrazlılıq, axıcılıq ünsürləri ilə yanaşı, onların mənsub olduğu xalqın düşüncə və duyğu tərzindən irəli gələn milli kimliyə sadiqlik amilləri açıq bir şəkildə özünü büruzə verir. Onların hekayələrində həm məlum, məşhur folklor, mifoloji süjet xətlərinin motivlərini, həm də xalqların xarakterindəki millilik əlamətlərini görmək mümkündür. Məsələn, Firuz Mustafa "Yaşıllıq" adlı hekayəsində Alxan obrazının simasında Azərbaycan kişisinə məxsus millilik əlamət və keyfiyyətlərinin cəmləşməsini, bir zamanlar bütün kəndi dolandıran dəyirmanın indi lazımsız binaya çevrilməsinin ağrılı-acılı görünüşünü, onun yanından şırıltı ilə axan Qaraçayın əzəmətini özünün zəngin təxəyyül və düşüncəsinə söykənərək milli çalarlarla, koloritlə, hiss və həyəcanla təsvir edə bilmişdir. *"Beş-altı addımlıqdan suyu yamyaşıl bir çay axırdı. Alxan kişi doğradığı kağızlardan birini götürüb tənbəki eşdi. Çuxura batmış balaca, iti gözlərini o yaşıl sulu çaya zillədi. Bu çayın adı Qaraçay idi. Bu sısqa yaşıl çay dənizə tökülməzdən əvvəl iri, qara bir novdan Alxan kişinin dədə-babadan qalma kiçik dəyirmanına axır, o dəyirmanın araba təkəri şinindən düzəldilmiş pərini hərəkətə gətirirdi. Alxan kişi üçün bu dünyada Qaraçaydan bərəkətli, dədə-babadan qalma köhnə dəyirmandan qiymətli heç bir şey yox idi"* [67, s.53-54]. Bu təhkiyədə həmçinin yazıçı şəxsiyyəti öz milli varlığını, torpağının hər qarışına olan sevgisini, etnopsixoloji yaddaşa olan sadiqliyini mətndə hiss etdirə bilmişdir. Ona görə də təhkiyədə milli xüsusiyyətin inikası yazıçının obrazlı təfəkkürünün xalq ruhuna və milli təfəkkürə nə dərəcədə yaxın olmasından xəbər verə bilir. Türkiyə yazıçısı Ender Halukun da *"Çobanyastığı iyli hekayələr"* adlı kitabında olan hekayələr özünün psixoloji-estetik, düşündürücü və maarifləndirici məqsədi ilə oxucunu yazıçıya bir addım da yaxınlaşdırır. Hekayələrindən hiss olunur

ki, yazıçı bədii mətndə türk milli adət-ənənəsini, məişət vərdişlərini əks etdirməyə çalışmasa da, millilik abu-havasının mahiyyətini axıcı və koloritli təhkiyəsində təsvir etməyi bacarmışdır. Ümumtürk milli xarakterinin etnoqrafik cizgilərini, milli-mənəvi dəyərləri və ümumtürk psixologiyasının ünsürlərini etnopsixoloji aspektdən hekayələrinə ötürən Ender Haluk ailəyə bağlılığı "Böyük bir xəta" [129, s.19-27], övlad-ana sevgisini "Həyatı gecikdirməyə dəyməz" [129, s.13-19], yaxşılığın təbliğini "Doğum günü" [129, s.75-81], səadət, xeyirxahlıq kimi mənəvi keyfiyyətlərin təcəssümünü "Xoşbəxtlik" [129, s.39-45], sözə sadiqliyi "Sədaqət andı" [129, s.93-101] adlı hekayələrində canlı dilin rəngarəngliyini də obrazların davranışlarındakı türkçülük və millətçilik ideyaları ilə birlikdə ortaya qoya bilmişdir. Zəngin etnoyaddaşa, folklor əlamətlərinə malik olan *"Səhra gəmisi"* hekayəsində Novruz Nəcəfoğlu da milli dəyərlərə söykənən, axıcı, aydın olan təhkiyəsinə zəngin milli-etnik ünsürləri əlavə etmişdir. *"– Bənövşə, şükür olsun ki, builki ot yığımı xəta-bəlasız, qəzasız ötüşdü. Tamam yığıb-yığışdırdıq, əl-ayağımızı salamatlıqla çöldən üzüldü. Yeməyə nəyin var? Acından ürəyim üzülür, bir əl-ayaq elə.*

*Bənövşə çölçü qadınlara xas səliqə-sahmanla yerə süfrə açdı. Əvvəl güllü sinidə stəkan-nəlbəkini, qəndqabı və dəm çaynikini, sonra da həyətdə pıqhapıqla qaynayan samovarı içəri gətirib ərinin əli çatan yerdə qoydu"* [72, s.131].

Hekayənin başlanğıcında verilən bu dioloqda Azərbaycan xalqına məxsus zəhmətkeşlik, hər fəslin tədarükünün vaxtında hesaba alınması, türk elat oturaq həyat tərzinə uyğun olaraq gündəlik vərdişlər, qadının evdəki vəzifələri, ailə ocağının mühafizəsi, süfrə mədəniyyətinin təsviri, və s. milli dəyərlərin ünsürləri təhkiyənin folklor, etnos, milli ruhuna yeni çalarlar və rəngli boyalar əlavə etməklə çatdırılır. "Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları" kitabında Azərbaycan xalqının həyat tərzinə çevrilmiş bu vərdiş belə səciyyələndirilir: "*Adət-ənənə, vərdişlər sistemi hər bir xalqın həm maddi, həm də mənəvi dünyasının göstəricisidir. Elə bir kontekstdir ki, orada etnosun kimliyi barədə əsas suallara cavab tapmaq mümkündür. Azərbaycan xalqının adət-ənənələrinin böyük bir hissəsi təbiətlə, yaxud təbiətin müxtəli mövsümləri ilə bağlıdır*" [16, s.36]. Milli cizgili təsvir və təhkiyədə isə yazıçı şəxsiyyəti mühüm rol oynayır. Ona görə ki, hər misrada yazıçının qəlbinin,

ruhununun sadiq qaldığı milli özünəməxsusluq detalları milli əxlaqa və yaddaşa söykənir. Qasım Qasımzadə də yaradıcılıq prosesində yazıçı şəxsiyyətinin rolunu vurğulayaraq qeyd edir: *"Yazıçı ürəyinin ilk hərarəti onun milli duyğuları ilə bağlıdır, onun şəxsiyyəti ilə müəyyyənləşir ki, bu keyfiyyətlər yaradıcılıq prosesində özünü göstərir, qəhrəmanlara nəfəs verir, onları oxucunun gözündə sevimli, doğma, yaxud mənfur, yabançı adamlar kimi canlandırır"* [57, s.81-82]. Bir sözlə, hekayələrdə milli xarakterlərin uğurlu alınmasında onları ifadə edən bir sıra atributların, simvolik detalların təsviri ilə bərabər, yazıçı təhkiyəsi və şəxsiyyəti, onun milli təfəkkürə bağlılığı da əhəmiyyətli rol oynayır.

Nəticə olaraq onu qeyd etmək istəyirik ki, qeyd edilən milli xarakterin ifadə vasitələri (simvollar, atributlar) bir çox xalqlara xas olan bir əlamət olaraq götürülə bilər. Amma burada əsas məsələ bu əlamətlərin hansı xalqda daha qabarıq olması, həm yazılı, həm də şifahi mədəniyyətdə əsaslı yer tutmasıdır. Hekayələri tədqiqata cəlb edilən hər iki xalqın həm Azərbaycan, həm də Türkiyənin bədii yaradıcılığında qədimdən bəri bu vasitələr müşahidə edilir və çox güman ki, bundan sonra da müşahidə ediləcəkdir. Çünki onlar daha çox genetik yaddaş və milli təfəkkürlə, milli inancla bağlı məsələlərdir.

Bu fəsildə əldə olunan əsas müddəalar Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komisiyasının tövsiyə etdiyi elmi jurnallarda [83, s.57-61; 92, s.309-311; 94, s.361-368], həmçinin ölkədaxili [84, s.229-230; 87, s.155-156; 88, s.1323-1324;] və xaricində [164, s.144-165; 167, s.149-151] ] keçirilən beynəlxalq konfransın materiallarında öz əksini tapmışdır.

# II FƏSİL

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ HEKAYƏLƏRİNDƏ OBRAZLARIN MƏNƏVİ ALƏMİ VƏ XARAKTER

## 2.1. Milli xarakterin formalaşmasında müharibə və ictimai-siyasi amillərin rolu

Bildiyimiz kimi, hekayə janrı bir şəxsin və yaxud bir ailənin taleyinin istər tarixi şəraitdə, istərsə də müasir dövrün problemləri kontekstindən əhatəli şəkildə əks etdirmək baxımından çox az imkanlara malikdir. Buna baxmayaraq, müasir tarixi gedişatda baş vermiş ictimai-siyasi hadisələri müəyyən aspektlərdən təsvir edə bilən, ümumi siyasi vəziyyəti açıqlayan, tarixi faktlar və yaxud hadisələrdən doğan təəssüratları dəqiqliklə ifadə edərək oxuculara çatdıran müasir hekayələr də mövcuddur. Hər iki ölkənin mühitində baş verən ictimai-siyasi hadisələr bədii mətndə, xüsusilə də hekayələrdə təhlilə cəlb olunmuş, bu mətnlərdə tarixi hadisələrə münasibət, onların hər iki xalqın milli ruhuna, psixologiyasına təsiri fərqli prizmalardan təhlil edilərək diqqət mərkəzinə gətirilmişdir. İctimai-siyasi proseslərin hekayələrdə təsviri zamanı diqqət edilən əsas məsələ bu vəziyyətə obyektiv yanaşmanın ifadə edilməsi, ictimai-siyasi proseslərin bədii mətnlərdə təsvir formasıdır. Son dövrün yazıçılarının yaradıcılığına nəzər yetirdikdə belə bir mənzərə müşahidə edilir ki, müharibə dövrü və müharibədən sonrakı mərhələdə yazıçılar yaratdıqları bədii mətnlərdə ya ruh yüksəkliyini məqsədli şəkildə qorumağa çalışır, qələbəyə inamı və qəhrəmanlığı təbliğ edir (bu fikir daha çox Türkiyə ədəbiyyatı üçün xarakterikdir), ya da müharibədən sonra yaşanan üzüntünü, kin və intiqam hissini xarakterlərin yaradılması zamanı kənara qoya bilmir, bununla da psixologiyası dəyişmiş hansısa obrazı canlandırmaqla müharibə faktorunun insan ruhuna, mənəviyyatına təsirini araşdırmağa çalışırlar (bu fikir isə Azərbaycan ədəbiyyatı üçün xarakterikdir). Bu isə, istər-istəməz, tədqiq etdiyimiz dövrdə Azərbaycan və Türkiyə hekayələrində yaradılan ya qalib, ya da məğlub ruhlu milli xarakterlərin bizə təqdim edilməsinə gətirib çıxarır. Məlum olduğu kimi, 1988-1994-cü illərdə Azərbaycan

dövləti üçün çətin və unudulmaz mərhələ təşkil edən hadisələrin baş verməsi, Birinci Qarabağ müharibəsinin ağrı-acısı, sonrakı illərdə baş vermiş ictimai-siyasi, sosial-mənəvi hadisələr hekayələrin mövzu və ideyasına təsir göstərmiş, torpaq itkisi, bu hadisələri yaşayan insanların keçirdiyi psixoloji sarsıntılar və bundan qaynaqlanan milli özünüdərk və mənəviyyat problemləri müasir dövrün hekayələrinin başlıca mövzusuna çevrilmişdir. Kəmiyyətcə çoxluq təşkil edən bu hekayələrdə itirilmiş torpaq, yarımçıq qalmış arzular, ədalətsizliyə qarşı üsyan hissi, zəifləmiş millətçilik duyğusu əsaslı şəkildə təhlil edilmiş, müharibə faktı isə bu hadisələrin və problemlərin fonu olaraq göstərilmişdir. Amma Azərbaycanda 2020-ci il, 27 sentyabrdan başlamış və 10 noyabra kimi davam edən Vətən müharibəsinin qələbə ilə bitməsi, Azərbaycan xalqında milli ruh yüksəkliyini daha da dirçəltmiş, ədəbiyyatımızda müharibə mövzusuna müraciətin yenidən, lakin bu dəfə tam fərqli rakursdan təhlilə cəlb edilməsinə səbəb olmuşdur. Məsələn, Azad Qaradərilinin 2021-ci ildə çap etdirdiyi qəhrəman şəhidimiz Cəbrayıl Dövlətzadə haqqında "Cəbrayıl əfsanəsi" adlı romanı, "Sevgilim vətən" kitabındakı hekayələr toplusu 44 günlük Vətən müharibəsində canları, qanları bahasına düşməndən qisas alan igidlərimizin qəhrəmanlığını təsvir etmişdir. Onu da qeyd edək ki, Tehran Əlişanoğlu "Zəfər günü"nün bir illiyi münasibətilə "Ədəbiyyat qəzeti"ndə (02.10.2021-ci il) çap etdirdiyi "Qalibiyyət zamanı: çağdaş ədəbiyyatda diskursun dəyişməsi" adlı məqaləsində 44 günlük Vətən müharibəsinə həsr olunmuş, qələbə ilə bağlı silsilə ədəbi, publisistik yazıların illik hesabatını da təqdim etmişdir. Bu məqalə "müharibə ədəbiyyatı" haqqında ümumi mənzərəni yarada bilir. Tənqidçi Nərgiz Cabbarlı "Azərbaycan ədəbiyyatında müharibə mövzusu və yaxud müharibə haqqında yazılan əsər necə olmalıdır?" sualına "Müharibə və ədəbiyyat" adlı məqaləsində ətraflı cavab vermişdir. "*Söhbət yalnız müharibə səhnələrinin canlı təsvirindən, döyüşlərdəki gərginliyin və ölümün canlandırılması zamanı istifadə edilən çalarlardan getmir. Söhbət, ilk növbədə, döyüşən insanın psixologiyasını təsvir etmək, müharibənin dəhşətlərini onun üzünü görmüş insanların yaddaşında və zehnində yaratdığı emosiyaların dərinliyinə varmaq, qəhrəman adlandırılan insanların iç dünyasını və yaşantılarını əks etdirmək bacarığından gedir"* [14, c.1, s.229]. Bir vacib məsələni

qeyd edək ki, müharibə ədəbiyyatı əgər müharibə dövründə yaradılırsa, bu dövrdə artıq insanları hərbi qəhrəmanlığa təşviq edən bədii mətnlər yazılır, düşməni təhqir edən həcvlər, uğuru vəsf edən mahnılar və yaxud şeirlər meydana çıxır. Müharibədən sonra yaradılan ədəbiyyat isə müharibə dəhşətlərinin təsviri ilə bərabər, obrazların yaşam və iç dünyasının ifadəsinə, milli ruhun təbliğatına daha çox diqqət yetirir. Sanki müharibə sonrası ədəbiyyatın missiyalarından biri də "Biz nələrdən və hansı itkilərin bahasına keçdik" sualına cavab verməkdir. 1950-60-cı illər, xüsusilə Stalinin ölümündən sonra İsmayıl Şıxlının yaradıcılığı ilə Azərbaycan milli ədəbiyyatı yenidən dirçəlmiş, Elçin, Anar, Fərman Kərimzadə, İsa Muğannanın hekayələri ilə ədəbiyyatda ədəbi-bədii düşüncənin milli dəyərlər baxımından formalaşması prosesinin başlanğıcı qoyulmuşdur. Birinci Qarabağ müharibəsindən sonra bu proses daha da güclənmişdir. Amma milli ədəbiyyat yaratmaq ideyasında müharibədən sonra məğlub dövlət faktorunu, mənəvi tənəzzülə uğramış zəif xarakterli obrazları obyektiv qiymətləndirmədən keçirməyi öz üzərinə vəzifə borcu olaraq qoyan yazıçının, bir çox hallarda belə obrazlardan daha çox aciz, həyatdan küsmüş, mənəviyyatca zəifləmiş, "qaçqın" statusu"nu daşıyan xarakterlərə qarşı, üstəlik, ikrah doğuran yazıqlıq hissini də əlavə etməsi, xüsusilə "qaçqın statusu" daşıyan obrazların aşırı dərəcədə zavallı xarakterlə ədəbiyyata daxil olması birmənalı qarşılanmamışdır. Ümumiyyətlə, müharibə mövzusunun bədii mətndə ifadəsi məsələsi dünya ədəbiyyatşünaslığının da hər zaman diqqət mərkəzində olmuşdur. Məsələn, İ.Çekaşkina bu problemi təhlil edərək yazır: *"Əgər müharibə illərində ədəbiyyatın əsas vəzifəsi xalq qüvvələrini düşmənlə mübarizəyə səsləmək idisə, müharibədən sonrakı illərdə əsgərlərin göstərdiyi hünərin tərənnüm edilməsi idi*" [178, s.3].

Müharibə mövzusuna yanaşmada Türkiyə ədəbi prosesində vəziyyət bir qədər fərqlidir. Bu da ondan irəli gəlir ki, Türkiyə dövlətinin tarixi və mövcud siyasi durumu, türk xalqının ideoloji və dövlətçilik prinsipləri, türk insanını formalaşdıran milli-mənəvi özünüdərk hissi müasir dövrdə yazılan hekayələrdə tamam başqa rakursdan işlənmişdir. Türkçülük ideologiyasına söykənən "Güclü dövlət" qurucusu olan türk xarakteri, qalibiyyətlərlə zəngin şanlı türk ordusunun döyüşkən ruhunu daşıyan müasir insan tipi son dövrdə yazılmış hekayələrin də əsas qəhrəmanına

çevrilmişdir. Müharibə ədəbiyyatının tədqiqatçısı olan Harun Duman "Müharibə ədəbiyyatı necə olmalıdır?" sualını belə cavablandırır: *"Xüsusilə estetik məqsəd güdülərək qələmə alınan ədəbi əsərlər arasında mövzusunu müharibədən alanlar əsl müharibə ədəbiyyatını yaradır"* [120, s.105]. Onun bu fikri, həqiqətən də, müasir dövrdə yazılmış müharibə mövzulu hekayələr üçün də keçərlidir. Ona görə ki, həqiqətən də, müasir dövrdə yazılmış müharibə hekayələrində real müharibə səhnələrindən uzaq, daha çox obrazın mənəvi dünyasını işıqlandırmağa maraqlı olan süjet xətləri diqqət mərkəzindədir. Belə hekayələrdə türk qəhrəmanlığının təqdimi və təsviri yüksək səviyyədədir. Xüsusilə qəhrəmanlığın kult səviyyəsində təqdimi hekayənin poetik ruhunda və estetik cəzbediciliyində hiss olunur. Harun Duman bunları nəzərə alaraq müharibə ədəbiyyatına olan baxışları iki istiqamətə bölür: *"Bir qism yazıçılarımız belə bir ədəbiyyatın türklərdə mövcud olmadığı düşüncəsindədir. Digərləri isə bu düşüncənin tam əksinə olaraq, türklərin çox zəngin bir müharibə ədəbiyyatına sahib olduğu fikrindədirlər"* [120, s.105].

Tədqiqat işində bizi maraqlandıran və təhlilə cəlb etdiyimiz əsas məsələ isə müharibə faktorunun milli düşüncəyə, özünüdərkə, xarakterə təsiri amilidir. Hər iki dövlət üçün məlum olan tarixi hadisələr təhlilləri ayrı-ayrılıqda aparmağı şərtləndirir. Çünki Türkiyə və Azərbaycanın məlum fərqli ictimai-siyasi hadisələr girdabından keçməsi təhlilləri paralel şəkildə aparmaq imkanı yaratmır. Dövründən fərqli olmayaraq müharibə mövzusunda yazılmış, demək olar ki, bütün Türkiyə hekayələrində qəhrəmanlığın, milli kimliyin, xarakterin yüksək səviyyədə təqdiminə rast gəliriksə, məlum (1990-cı illər) dövrü təsvir edən Azərbaycan hekayələrində mənəvi tənəzzülə uğramış, məğlubiyyətin yaşatdığı depressiv halda çırpınan xarakterlərlə qarşılaşmış oluruq.

Hekayə janrının ədəbi imkanlarının məhdudluğuna baxmayaraq, müharibə mövzusu Azərbaycan hekayəsində Birinci Qarabağ müharibəsindən sonra daha çox aktuallaşdı. Amma bu hekayələrdə çox zaman müharibə bütöv ölkənin deyil, bir fərdin və yaxud, sadəcə, kütlənin bir hissəsinin başına gələn hadisə kimi göründü. Ədəbiyyatda isə bu problemin həlli yalnız bir yoldan – milli düşüncənin ədəbiyyata gətirilməsindən keçir. Çünki müharibə nəinki insanlığa maddi, fiziki zərbə vurur,

eyni zamanda da bu gün və sabah xalqın, millətin milli-mənəvi aşınmasına da səbəb ola bilir. Bu mənada, ədəbiyyat insan ruhunu, mənəviyyatını oxşamaqdan, estetik zövqünü formalaşdırmaqdan əlavə, millətin vahid ideologiyasını, milli mənliyini və xarakterini əks etdirmək baxımından da böyük bir missiyanın daşıyıcısıdır.

Əvvəlcə 1990-cı illərdə baş vermiş I Qarabağ müharibəsindən, II Qarabağ müharibəsinə (27 sentyabr-10 noyabr 2020-ci il) kimi Azərbaycan hekayəsində görünən mövzu, problem, ideya dəyişikliyi və bu dəyişikliyin yaranmasına səbəb olan hadisələrə diqqət yönəldək:

a) SSRİ-nin dağılması və müstəqilliyin əldə edilməsi (1991- ci il oktyabrın 18-i) ilə yüksələn milli ruh, millətçilik və azərbaycançılıq ideologiyasının ideoloji sütunlarının yenidən möhkəmlənməsi, Birinci Qarabağ müharibəsi ilə bağlı bədii nümunələrdə əvvəlcə özünü göstərən mübarizlik ruhunun, azadlıq ideyasının və bu ideya uğrunda aparılan mübarizə əzminin tədricən öz yerini üzüntüyə, kədərə, haqsızlığa, gücsüzlüyə qarşı üsyan hissinə verməsi;

b) Getdikcə uzanan, nəticəsiz qalan siyasi danışıqların təsiri ilə milli ruhdan, qələbəyə inamdan uzaqlaşma hissinin artması;

c) Özünəqapanma, güvənsizlik, inamsızlıq, ağrı, kədər, etiraz kimi hisslərin ifadəsinin hekayələrdə aktuallaşması;

d) Hekayələrdə siyasi mövzuların daha geniş yer alması;

e) Müharibə reallıqlarının, döyüş dəhşətlərinin hekayəyə gətirilməsi;

f) Qaçqınlıq statusu, onun vurduğu psixoloji zərbələrin obrazların xarakterinə təsir edəcək şəkildə dəyərləndirilməsi.

1990-cı illər nəsrini səciyyələndirən tənqidçi Tehran Əlişanoğlu qeyd edir: *“1990-cı illər bütövlükdə Azərbaycan ədəbiyyatında olduğu kimi, nəsrdə də təbəddülat dövrütək səciyyələndirilə bilər. Bu hər şeydən öncə daha çox Azərbaycan xalqının ictimai-siyasi həyatı, bunun ardınca tarixi-mənəvi durumunda baş verən köklü dəyişmələrlə: milli müstəqilliyin qazanılması, müstəqil dövlətçiliyin bərpası, milli varlığın dünyada cərəyan edən proseslərə bilavasitə qatılması kimi məqamlarla bağlıdır*” [28, s.32]. Yaradıcılıq nümunəsi olan hekayələrdə də müəlliflər və yaradılan obrazlar cəmiyyətdə baş verən siyasi hadisələrə biganə deyil. Azərbaycan

müstəqilliyini əldə etdikdən sonra çox vaxt keçmədən Birinci Qarabağ müharibəsinin də başlanması nəticəsində yaranmış sosial, mənəvi, psixoloji proseslərin təsviri hekayələrdə daha aktual şəkil almağa başladı. Çünki "*Qarabağ düyünü heç də lokal problem olmayıb, milli istiqlalımıza əngəl olan qüvvələr tərəfindən Azərbaycan xalqının qarşısına yuvarladılmışdı. Azərbaycan xalqı tarixin sınağından çıxaraq, istiqlalını, müstəqil dövlətini qoruya bildisə də, Qarabağ savaşı bitməmiş qaldı*" [28, s.114]. Birinci Qarabağ müharibəsindən sonra işğal altında qalan torpaqlar, nəticəsiz olan siyasi danışıqlar nəinki yaradıcılıq aktı sayılan hekayələrin mövzusuna, eyni ilə yazıçı təxəyyülü və oxucu qavramına da təsir etdi. Müharibənin məlum nəticələrinin səbəb olduğu psixoloji sarsıntı ilə yanaşı, milli xarakteri xarakterzə edən özünütəsdiq, inam, güvən, imkanlarının zəifləməsi millətçilik və milli ruhun formalaşma prosesinə mənfi tərəfdən təsir göstərmiş oldu. Çünki hər bir vətəndaş öz varlığını, milli mənsubluğunu, milli xarakterini nəinki bioloji kökləri ilə, genetik amillərlə, həmçinin ictimai, siyasi hadisələrdən doğan tarixi nəticələrlə təsdiq edir. Məhz Birinci Qarabağ müharibəsi, onunla bağlı hadisələr xalqın milli psixologiyasına və xarakterinə tam siyasi hadisələrdən doğan özünəqapanma, güvənsizlik, inamsızlıq xüsusiyyətləri gətirdi, şəxsiyyət problemi yaratdı. Ona görə də bu dövrü "milli xarakterin dəyişikliyə uğradığı dövr" kimi qiymətləndirmək olar. Məsələn, Məqsəd Nurun "Əmi" hekayəsində xaraktercə zəif olan obraz baş verənlərdə günahkar axtarışındadır. Obrazın düşüncəsinə görə, günahkar yalnız şəhər deyil, həm də işsizlikdir, sosial problemlərdir. Lakin xarakterin dəyişməsinə səbəb olan problemlər də açıq-aydın göstərilmir. Amma bunun qarşılığında vətəni düşmən işğalı altında qalan, mənəviyyatı, qüruru tapdalanan, öz faciəsini yaşayan bu obraz gələcəyə ümidsiz, cəmiyyətə qarşı inamsızdır. "*Bu məntiqə əsasən şəhərdə hamı yaşamaq üçün ya oğurluq edir, ya da nəşə çəkir, başqa yol yoxdur*" [44, s.138]. Faciənin nəticəsini isə yazıçı bir cümlə ilə canlandırır: "*Onu erkək tutun altından təcili yardım maşınına qədər xərəkdə aparan insanlar inanmazdılar ki, iki əmioğlu elə bircə gün əvvəl bu erkək tutun altındaca içib şəhərə çıxmış, bir-birinə demişdilər ki, "müxənnət müharibə olmaseydi, indi onlar da belə müxənnət şəhərdə pərən-pərən gəzməz, Qaragüneyin talasında – iri armudun altında, bax bu gün erkək tutun altında*

*oturduqları kimi – əllərindəki gərməşoy çubuğu yaşıl çəmənliyə çırpa-çırpa qoyun qırağında günlərini keçirər, nə oğurluq edər, nə nəşə çəkər, nə də bir-birlərinə qarşı bu qədər müxənnət olmazdılar*” [75].

Düşüncəmizə görə, mənəvi haqqı oğurlanmış olan, müharibə dəhşətləri ilə bərabər siyasi-sosial problemlərdən irəli gələn şəxsiyyətsizlik, psixoloji sarsıntı, xaraktersizlik yaşayan insanın gec-tez mənəvi tənəzzülə uğradığı məlumdur. Elə bu zaman milli köklər, mənəvi dəyərlərdən uzaqlaşmış, həyat qayğıları, məişət tələbləri, həyatın sosial problemləri ilə mübarizə aparan insan tipləri ədəbiyyatın hədəfinə çevrilir. Şəmil Sadiq də “Qazinin ayağı” hekayəsində müharibə mövzusunu bu motivlər üzərində işləyir. Hekayənin baş qəhrəmanı torpağını itirmiş, daha çox itkiyə, ağrı-acıya məruz qalmış, üstəlik də, itirdikləri qarşılığında rastlaşdığı biganəlik, laqeydlik və ümidsizliklə yaşayan, bir ayağıyla həyatına davam edən Qarabağ qazisidir. Yazıçı onu güclü, mətin obraz kimi qələmə verməyə çalışır, lakin təsir və təsvir məqamları yenə də azlıq təşkil edir. Müharibədən sonrakı vəziyyətin acı reallığı həm oxucuya, həm də yazıçıya məlum olsa da, hekayədə müharibə reallıqları, ölümlə üz-üzə qalıb “*Güllə yağışının altında yaralı vəziyyətdə qalan əsgər yoldaşını qurtarmaq üçün irəli atılması və komandirin: “Kənan, dayan, getmə!” əmrini eşitməsi və qaçması qarışıq şəkildə qulaqlarında eşidilir, gözlərində canlanırdı. Davam edirdi. O artıq yaralı dostuna yetişmişdi. Komandirin əmrlərini də eşitmirdi. Göydən yağan alovu hiss etmədən başını dostunun sinəsinə qoyub “bir az da döz, səni çıxaracam burdan”* [80], – deyən bu qəhrəmanın indiki “yazıq, çarəsiz” obrazı oxucuya heç də xoş təsir bağışlamır. Azərbaycan qəhrəmanının müharibənin çətinliyindən keçib cəmiyyətdə rastlaşdığı problemlərə sinə gələ bilməməsi, keçirdiyi psixoloji sarsıntılar qarşılığında ona qarşı biganəlikdən şikayətlənməsi nə bir Azərbaycan döyüşçüsünün, nə də Azərbaycan kişisinin obrazına xas xarakterik cəhət deyildir.

Yazıçı tərəfindən yaradılmış hər bir obraz nə qədər bədii təxəyyülün məhsulu olsa da, həm də milli mənlik şüurunun, milli xarakterin və psixologiyanın potensial daşıyıcısıdır. Məhz son dövrdə hekayələrdə milli-ideoloji yanaşmadan və psixoloji (müharibə) sarsıntılardan yaranan xüsusiyyətlərin qabarıq göründüyü xarakterlər

formalaşmağa başladı. Müharibə mövzulu hekayələrdə bu xarakterlər millilikdən uzaqlaşan, hətta milli maraqlara zidd gedən obrazlarla qarşı-qarşıya gətirildilər. Onu qeyd edək ki, müharibə mövzulu əsərlərdə milli xüsusiyyətlərin itkiyə məruz qalması və getdikcə zəifləməsi hekayədə, ümumilikdə isə bədii mətndə müsbət hal kimi qarşılanmır. Çünki indiyə qədər müəlliflərin milli xarakterin formalaşdırılması üçün istifadə etdikləri və qabartdıqları vətənpərvərlik, kişilik, qəhrəmanlıq, milli mənlik kimi milli xarakterin müəyyənedici ünsürləri yavaş-yavaş sıradan çıxmaqdadır. Və getdikcə sosial problemlərin fonunda yaradılan xarakterlərdə Vətən sevgisinin, vətənpərvərliyin bir qədər sönük göründüyü, arxa plana keçdiyi, sosial çətinliklərin məngənəsində sıxışdırıldığı müşahidə edilir. "*Borcum idi, yerinə yetirmişəm, vəssalam, zəhmət çəkin öz adınızdan danışın", –* deyərdi. *Bir az qeyri-adi görünsə də, Kənan belə adam idi. Sadəcə, ona verilmiş veteran maşını ilə gecələr taksi sürür, günlərini keçirərdi. Gündüzlər də kitab oxuyardı*" [80]. Öz fikirləri ilə şəxsiyyətini, vətəndaşlıq borcu haqqında düşüncələrini ifadə edən bu xarakterin daxilində üsyan, gələcəyə inamsızlıq da özünü büruzə verir. Güclü görsənməyə çalışan, ancaq yazıçı təsvirində aciz, gücsüz, küskün bir "qaçqın" obrazı olaraq təsvir olunan bu xarakter haqsızlıqla, onların səsini eşitmək istəməyən dünya, cəmiyyət, ətraf mühitlə səssiz mübarizədə, səssiz qarşıdurmadadır. "Milli mən"in mahiyyətinin qorunması məhz bu məqamda yazıçının əsas qayəsini təşkil edir. Yazıçı da oxucuya çatdırır ki, ədəbiyyatımızda və cəmiyyətimizdə ikrah hissi yaradan ümidsiz qaçqın xarakteri və onun acizliyi bu insanların öz seçimi deyil, tarixi-siyasi hadisələrin gedişatının nəticəsidir. Kim qaçqın olmaq istəyər ki? Tarixi kökləri, adət-ənənələrə bağlılığı olan, milli xarakterin mənəvi daşıyıcısı kimi güclü təsir bağışlayan bu obrazların sındığı, qırıldığı, zəif göründüyü məqam məhz sosial çətinliklərin qabardığı, qarşısında gücsüzlüklərini hiss etdikləri maddiyyat problemlərinin yaşandığı anlardır. Amma bir həqiqət də danılmazdır ki, ədəbiyyat həyatla, cəmiyyətlə birbaşa əlaqəlidir. Öz materialını da, qabartdığı problemləri də, yaratdığı obrazları və xarakterləri də əsasən həyatdan mənimsəyir. Ona görə də son dövrlərdə xüsusilə hekayə janrı vasitəsilə yaradılan obraz və xarakterlərdəki yazıq, zavallı qaçqın xüsusiyyətlərinin həddindən artıq qabardılması təsadüf sayıla bilməz. Nərgiz Cabbarlının dediyi kimi, müharibə

sonrası mərhələdə *"Bir sözlə, "qaçqın ədəbiyyatı"* [14, c.1, s.229] formalaşdı. Bu mənada, qaçqın obrazının ədəbiyyatda  zavallı, yazıq, zəif, mənəvi dəyərlərindən və köklərindən uzaq düşən qaçqın obrazı kimi görünməsi heç də arzuolunan hal deyil. Məsələn, Fəridə Hicranın "Novruz bayramı" hekayəsindəki Zümrüd nənənin dediyi kimi, "*Novruz bayramının zəngin tarixi, qəribə ənənələri var. Ulu babalarımız bu ənənələri, qanunları çox dəqiqliklə qoruyub saxlamışlar. Eh yazıq balalar, siz Ağdamda keçirtdiyimiz bayramı görə bilmədiniz...*" [47, s.66] kimi təsvirdə nəinki qaçqın həyatının çətinliklərini, həm də itirilmiş xatirələri, insanı torpağa, vətənə, kimliyinə bağlayan adət-ənənələrin yaddaş və təxəyyülündəki ağrı-acını da görürük, *"eh, kaş nənən bu günləri görməyəydi bala, xarı bülbülü də tanımadınız"* [47, s.67] ifadəsində isə milli-mənəvi dəyərlərlə zəngin keçmişi əlindən alınmış xalqın nümayəndəsi olaraq obrazın mənəvi-psixoloji yaşantılarına da şahid ola bilirik.

Qazanılmış xaraktersizlik, qaçqınlıq statusunun gətirdiyi acizlik, dəyərsizlik, güvənsizlik, inamsızlıq, cəmiyyətin mənfi münasibətinin formalaşdırılması Elçinin "Qarabağ şikəstəsi" hekayəsində də var. Hekayə həcminə görə daha çox povest janrına uyğun gəldiyi üçün onu povest kimi xarakterzə edənlər çoxdur. İsa Həbibbəyli Elçinin bir sıra hekayələrinin məhz bu üslubda qələmə alındığına işarə edərək yazır: "*...Elçinin hekayələrinin təsnifatına daxil etməsən də, yazıçının hekayələrində povestə doğru ciddi bir meyil vardır. Əvvəla, o, bir çox hekayələrində povest miqyasında düşünüb-daşınmış, povest mövzusunun hekayə formatına yerləşdirmişdir. Bununla belə, Elçinin bir sıra hekayələri həm həcminə, həm də əhatə etdiyi həyat materialına görə povestə daha yaxındır. Fikrimizcə, bu hekayələri təsnifat baxımından "hekayə-povestlər", yaxud "povestvari hekayələr" adlandırmaq olar"* [39]. Tehran Əlişanoğlu da bu əsəri hekayə adlandıraraq əsərin bədii-publisistik keyfiyyətlərini təhlilə cəlb edir: *"Hekayənin bədii-publisist enerjisi aşkardır, o oxucunu bir daha gerçək mənzərələrə dəvət edir, daha yaxından baxmağa çağırır, eyməndirir. Və düşündürür: belə olmamalıdır, amma belədir; acı da olsa, gülünc də olsa, belədir. "Qarabağ şikəstəsi" müharibə həqiqətlərinə kəskin etiraz doğuran bir əsərdir*" [27, c.2, s.277]. "Qarabağ şikəstəsi" adlı hekayədə erməni-azərbaycan münasibətləri, zaman və mənəviyyat məsələsi, yerli-yurdsuz problemləri tədqiqat

obyekti olaraq diqqəti cəlb edir. Hekayənin baş qəhrəmanı Cümünü sosial varlıq kimi yaşadan, ona mənəvi güc verən torpaqdan, milli kökdən məhrumluq xarakterindəki güc və inamı zədələmişdir. Bir azərbaycanlı kişisində görmək istədiyimiz əzmkarlıq, döyüşkən ruh, özünəgüvən və möhkəmlik qaçqınlıqla (yurdsuzluqla) əvəz olunmuşdur. Bu taleyi özü seçməsə də, zaman-zaman xarakter dəyişikliyinə məruz qalmışdır. Ədəbiyyatşünas Elçin Mehrəliyev Cümünün simasında "qaçqın" obrazını belə xarakterzə etmişdir: "*Yazıçının insana həm təbiətin bir parçası, həm də sosial-mənəvi varlıq kimi baxışı elmi-məntiqi, sosial, mənəvi, psixoloji cəhətdən əsaslandırılmış qənaət doğurur: insanı insan edən və daim öz şirəsi ilə qidalandırmaqla mənən ucaldan, ruhən yaşadan etnik kök, ilkin mühit, yurd-ocaq, el-oba sehri-möcüzəsi, doğma təbətin torpağının, suyunun, havasının həyat cövhəridir – insan bu sehr-möcüzədən, həyat cövhərindən aralı düşüncə kökündən qoparılmış gül kimi solmağa məhkumdur*" [61, s.23]. Cümünün yoldaşı Sonanın isə *"Biz insan deyilik, biz qaçqınıq!... Qaçqınıq!... Qaçqınıq!..*" [18] – deməsi həyatının mənasızlığını, ömrünün artıq puç olmuş, ümidsiz acı reallığını göstərir, düşdüyü vəziyyətlə barışan bir insanın faciəsini canlandırır. "*O vaxt – söhbət it əyyamında qalmış o gözəl illərdən gedir – Cümü Şuşada orta məktəbi bitirib, anasının yığıb bağladığı balaca çamadanı da götürüb həyatında ilk dəfə səfərə çıxdı, avtobusa minib Şuşa dağlarından endi, bu ilk səfərin möcüzəsi içində Xankəndinin böyründən ötüb Ağdamdan, Bərdədən keçdi, iyul günəşi altında od tutub yanan Yevlaxa gəldi, orada da qatara minib ümumi vaqonda qatar çarxlarının heç vaxt yadından çıxarmayacağı tuqqa-tuku ilə Bakıya – universitetə imtahan verməyə getdi"* [18]. Bu təsvirlərin reallığı hekayədə həm üstünlük təşkil edir, həm də hadisələrin birbaşa iştirakçısı olmuş obrazların etno-yaddaşa qayıdışını reallaşdırır. Bu kimi təsvirlərdə qaçqın həyatından əvvəl Qarabağın etnoqrafiyasını, tarixini, mədəniyyətini öz həyatlarında əks etdirən obrazların indiki iztirab və narahatçılıq dolu dünyası birbaşa müharibə reallıqlarına işıq tuta bilir. Məlum olduğu kimi, etnik-milli hisslər özünüdərketmənin əsas elementlərindən biridir. Orxan Fikrətoğlunun "Əbədi yol" hekayəsinin etnik-milli hisslərin daşıyıcısı olan qəhrəmanı da müharibədən sonra tez-tez xəyallarında, itirilmiş yaddaşının bir küncündə saxladığı və cənnət hesab elədiyi

arzular məkanı Şuşasına yola düşür. O itirdiyi əzizlərinə, sevdiyi, doğulduğu məkana, evinin hər küncünə, yediyi yeməklərin dadına, qoxusuna həsrətdir, sevgini, nifrəti, kişiliyi, mərdliyi qoyub gəldiyi Şuşasına nisgillidir. O, müharibənin ondan aldığı milli hisslərdən məhrumdur. Hansı ki, *"milli hisslər (milli mənsubiyyət hissi, milli qürur və ləyaqət hissi, milli fəxr) olmadan milli özünüdərk prosesi baş vermir"* [19, s.74]. O da dayanmadan düşünür: "*Nə var e bu qaramat şəhərdə? Girmişik it damına. Deyirik ki, evimiz var. Nə olsun ki, dam altındayıq. Biz yaşayırıq elə bilirsən?! Sevgimiz yoxdur, sevgimiz"* [35], – deyib vətəndən qoparılan insanın acı taleyini yaşamaqdadır. Hər dəfə Şuşa yadına düşəndə mühərriki qoşub, "Şuşa" deyib xəyallarında o doğma yerləri gəzib yenidən geri qayıdan bu obrazın mənəvi iztirablarının fonunda sən də bu itkini onunla bərabər duyur, hiss edir, onun halına acıyırsan, həm də insanı ümidsiz, aciz, xəyalpərəst, "xəstə edən" müharibəyə nifrət edirsən. Bax budur acı reallıq və bir insanın əsl faciəsi, müharibədən sonrakı "müharibəsi". Amma yazıçının mətn daxilində gizlətdiyi fəlsəfi bir məqam və hadisəyə olan fərdi yanaşma problemin daha fərqli tərəfini açır. Hər dəfə xəyallarında olsa belə Şuşaya getməklə soy-kökünə, torpağına bağlılığını ruhən xatırlayan, təkrarən yaşayan, onlara qayıtmaqla daxilən təmizlənən, rahatlıq tapan bir azərbaycanlı kişisini yaşadan məhz onun arzuları, gələcəyə inamı və gözəl duyğulardır. *"Başım xaşa qarışdı. Görəsən, Şuşanın havası necəydi? Dağları, dərələri təravətini saxlamışdımı? Xarı bülbülü yenə bitirdimi? Saf gülüşlü qadınları, fidan baxışlı qızları, çatmaqaş oğlanları, iri gözlü nənələri yenə salamlı-kəlamlıydılarmı? Geriyə dönməyə vaxtım olmadığı üçün gəzməyi gələn səfərimə saxladım"* [35]. Məhz bu xəyallardan məhrum olma, ümidlərin ölməsi əsl insan faciəsinin başlanğıcıdır. Çünki müharibə təkcə maddi itkiləri ilə deyil, həm də mənəvi itkiləri ilə insan psixologiyasına ziyan vurur. İnsanı şəxsiyyətindən, milli özünüdərkdən, xarakterindən uzaqlaşdıran mənəvi itkilər kimi. Orxan Fikrətoğlunun "Sonuncu əsgər" hekayəsində isə ruhi və fiziki vəziyyəti normal olmayan, müharibədən sonra psixoloji problemlər yaşayan bu dünyanın sonuncu əsgərinin "*qarğalarla bacarmıram, onlar dünyanı dimdikləyirlər"* [36], – deməsi bizi bir anlıq sarsıdır və ruhumuzu silkələyir. Hekayədə dərin psixoloji məqamlar çoxdur. "*Üzü də.*

*Şəkillərdə də elə bil yaddır. Özü deyil. Necə oldu bəs bizim bu uşaq? Hara getdi, görəsən? Ona nə oldusa, əsgərlikdən sonra oldu. Elə bil gədənin şəkli dəyişdi*" [36]. Əsgərin ağrı-acısına şərik olan, onunla bərabər bu "mənəvi yükü" daşıyan valideynlərinin ah-naləsi həm oğullarının simasında gələcəyə olan ümidsiz baxışlarıdır, həm də müharibəyə qarşı fəryad və etiraz səsləridir. Bütün bunlara rəğmən onların dumanlı yaddaşlarında yaşayan qayğısız günlər, sağlam övlad, onunla bağlı arzular və xatirələr hekayənin sonunda valideynlərin ən xoşbəxt günləri kimi təsvir edilir. Müharibənin reallıqlarından irəli gələn, ictimai-siyasi dalğadan doğan problemlərin təsiri ilə insan həyatına, onun daxili dünyasına, xarakterinə, sakit həyat tempinə qarışan sosial-siyasi və psixoloji təzyiqlər bu məqamda qaçılmaz görünür. Müəllif onları qabartmaqla qarşı-qarşıya qoyduğu Müharibə və İnsan obrazlarını canlı yarada bilir. Birinci Qarabağ müharibəsindən sonra siyasi-psixoloji problemlərin azərbaycanlı xarakterinə xas olmayan özünəqapanma, güvənsizlik, ümidsizlik kimi xüsusiyyətlər qazandırması bu obrazları milli özünüdərkdən, xarakteri möhkəm milli cizgilərə bağlılıqdan uzaqlaşdırır. Ona görə də milli hisslərin öz yerini ictimai-siyasi və sosial problemlərdən irəli gələn psixoloji sarsıntılara verməsi gec-tez mənəvi tənəzzülə səbəb olur. "*Qarabağ müharibəsinin cəmiyyət həyatında doğurduğu acılar eyni zamanda ədəbiyyatda hələ son sovet dönəmindən başlamış dekadans ab-havasının ömrünü uzatdı, daha da dərinləşməsinə rəvac verdi"* [40, c.1, s.83-86].

Vəfa Mürsəlqızının 2014-cü ildə Beynəlxalq Mahmud Kaşğarlı hekayə müsabiqəsində III yeri tutan "Namus" hekayəsi isə müharibədən sonra "müharibə" yaşayan obrazın faciəsi haqqındadır. Onun faciəsi müharibənin real dəhşətləri, erməni əsirliyi, işgəncələri ilə başlayıb bitməmişdir, onun faciəsi müharibədən sonra yaşamağa çalışdığı cəmiyyətdə rastlaşdığı biganəlikdən, onun qınağından azad olmaq üçün intihara cəhd etmək istəyindən başlamışdır. Mətanət Vahid "İlin hekayə yaradıcılığı" məqaləsində Nazilə obrazı haqqında yazır*: "Hekayədə Nazilənin daxilindən keçən ziddiyyətlər cəmiyyətin, çevrənin ziddiyyətlərini əks etdirərək mətnin əsas keyfiyyətinə çevrilir. Düşmən ona hər gün işgəncə versə də, öldürməyib, amma mənən məhv edib. Evdə özünü təmiz yataqda tapsa da, bədənindəki yaralar*

*sağalsa da, mənəvi yaraları daha da dərinləşir"* [103, s.169]. Zaman və məkana görə vacibliyini itirməyən bu günə də mövcudluğunu qoruyan bakirəlik və sədaqət, qadına məxsus "mental" dəyərlər, əxlaqi-etik çalarlar milli xarakterimizin səciyyəvi-spesifik xüsusiyyəti kimi öz aktuallığını saxlamaqdadır. Nazilə isə bir qadın kimi müharibənin qurbanı olmuş, bu mənəvi zinətini əsirlikdə itirmişdir. Onunla birlikdə həm də gələcəyini, ailəsinin sevgisini və arzularını da əldən vermişdir. O, əsirlikdən möcüzə nəticəsində azad olmuşdur. Əsirlikdə xilasını hər zaman xəyal edən Nazilə evə qayıtdıqda ətrafın qınaq və ikrah dolu nəzərlərindən azad olmağı daha çox arzulayır. Hətta qardaşının ona: "*Bə sən niyə özünü öldürməmisən, bacı?"* [70], – deməsi Naziləni ölümün ağuşuna atmağa təhrik edəcək qədər ağır sualtək səslənir. Göründüyü kimi, cəmiyyətin qınağından, elin sözündən və gözündən nəinki Nazilə, elə qardaşı da azad olmaq arzusundadır. Çünki bu hadisənin mənəvi-psixoloji yükü müasir dövrə görə, bəlkə də, köhnəlmiş sterotip adlandırılan, amma Azərbaycan qadınının ən dəyərli zinəti sayılan bakirəliyin mahiyyətini bir qədər də ağırlaşdırır. Amma hekayədə hadisə o qədər sarsıdıcıdır ki, artıq bu stereotipin mahiyyəti arxa plana keçir, onu ayrıca olaraq düşünə bilmirsən. Lakin bütün hallarda istisnalar mövcuddur. Naziləni uşaqlıqdan sevən Murad kimi. O bütün dedi-qoduya, deyilənlərə baxmadan, Azərbaycan kişisinin xarakterinə hopmuş bu stereotipi dağıdaraq sevgisinə sadiq qalır və Naziləyə evlənmək təklif etməklə bir qadının gələcəyə ümidlərini alovlandırır. Bununla da, milli xarakterə yeni bir çalar qazandırmış olur: "*– Getmə, Nazilə! – Yox, Murad, getməliyəm. Gecdir, çox gecdir. Düz doqquz il gecikmişəm. – Onda məni də apar. Susdu. Nə deyəcəyini bilmədi. İçində elə bil nəsə oynadı. – Səninləyəm, cavab ver! Aparırsan məni? – Bəs sən bu namussuzluğu götürə biləcəksən? – Nazilə, mən bu doqquz ildə hələ bu günkü qədər namuslu olmamışam. Günəş yavaş-yavaş üfüqdən boylanırdı*" [70]. Azərbaycan qadını güclüdür. Bütün çətinliklərə baxmayaraq, möhkəm və məğrurdur. Bu, əsl Azərbaycan qadınına məxsus keyfiyyətlərdir. Yalnız itirilmiş namusa qarşılıq olaraq heç bir zaman Azərbaycan qadını mübarizə aparmaq iqtidarında olmamışdır. Onun mənəvi yükü daha ağırdır. Nazilə isə bu yükü və ona ümid çırağı yandıran sevgini özüylə götürərək qınaq dolu baxışlarından uzağa, cəmiyyətdən görmədiyi şəfqət və

mərhəmətin axtarışına yollanır. Müharibə hekayələri kontekstindən yanaşdıqda Azərbaycan ədəbiyyatı üçün bu hekayəni son dövrlərdə yazılan və müharibəyə bir qədər fərqli rakusdan baxan, problemə yanaşması və yazıçı təhkiyəsi ilə ən uğurlulardan biri adlandırmaq olar.

Daha bir uğurlu hekayə Şərif Ağayarın "Şəkil" hekayəsidir. Qaçqın obrazından bəhs etsə də, hekayədə qaçqınlığa ifrat yanaşmaya rast gəlinmir. Mətanət Vahidin dediyi kimi, hekayəni mistik əhvalat üzərində qurulan dərin psixologizm müşayiət edir. *"Təhkiyə etibarilə 60-cı illərin ənənəvi nəsrinə bənzəsə də, motiv etibarilə yeni olan hekayədə babasının tünd xasiyyətinə görə ondan qisas almaq istəyən yeniyetmə oğlan onun cavanlıq şəklini divardan çıxarıb gözlərini oyur"* [102, c.2, s.349]. Hekayədə qaçqın həyatı, qaçqın obrazı olsa da, humanistlik, mərdlik aşılayan "ağsaqqal sözü"nü, "mental dəyərlər"i öz xarakterində cəmləşdirən bir baba obrazı da var. *"Babamı mən kor eləmişdim. Buna bütün varlığımla inanacaq qədər balaca, vicdan əzabı çəkəcək qədər böyük idim"* [2] sözləri ilə başlayan hekayədə balaca qəhrəman tərəfindən kobud, daim qəzəbli görünən, nifrətlə təsvir edilən bu baba, əslində, elə ailənin, evin ağsaqqalı və dirəyidir. Sadəcə, onun evi qorumaq üçün öz "qanunları" vardır. Balaca qəhrəman bunu yalnız müharibə başlayanda, onlar qaçqın düşəndə, əmisi əsgərlikdən qayıtmayanda başa düşür. Başa düşür ki, babası bütün varlığı, təmkini, idarəetmə bacarığı, uzaqgörənliyi ilə güclü və onlara bağlı insandır. "*Babam ağ atımızla danışan gündən çevrilib başqa adam olmuşdu. Deyəsən, doğrudan da, anam deyən idi. Onun mərhəmətli qəlbi vardı. Gözləri xeyli zəifləsə də, bircə gün rahat oturmurdu. Keçilərimizi otarır, həyət-bacanı qaydaya salır, ilan yuvalarının üstünü örtür, yıxıq tikililərdə salamat ağac, şifer axtarırdı. Səhərlərsə məni götürüb yağış suyu yığmağa gedirdi. Babam Hacı Süleyman torpaqlarını yaxşı tanıyırmış. Deyirdi, bir-iki həftəyə yağışlar kəsiləcək, göydən od yağacaq*" [2]. Bu mətndə biz nəinki babanın uzaqgörənliyinin, müdrikliyinin və böyüklüyünün şahidinə çevrilirik, həm də hekayəyə rəng qatan, fəlsəfi-poetik məzmun yaradan inanclar və etnoqrafik xüsusiyyətlərlə tanış oluruq. Həmçinin at kultunun da genetik kodlara əsaslanan milli xüsusiyyətini, varlığını, keçmişini və tarixini yaşadan, etibar, namus simvolu olaraq göründüyünü müşahidə edirik: "*Bəli, ağ atımız gəldi, əmim yox.*

*Babamı ilk dəfə onda ağlayan gördüm. Atın boynunu qucaqlayıb alnını yalmanına söykədi: Ay bivəfa, oğlumu neylədin? Mən onu sənə etibar eləmişdim...”* [2]. Bu təhkiyədə ata yüklənən məna da maraq doğurur. *“Cəbhədə olan əsgər, sadəcə, əsgər yox, oğuldur, atanın ümidi və davamıdır”* [60, s.151]. Bu cür hisslərin məngənəsində çırpınan bir atanın fəryadının, yaşadığı ağrı-acının fonunda at kultunun da mətnə daxil olması hekayənin fəlsəfi-psixoloji məzmununu daha da artırır. Həmçinin baba obrazının təsviri bədii əsərə münasibəti müəyyənləşdirən vasitələrdən olan dil, danışıq tərzi məsələsinə də diqqəti yönəldir. Belə ki “*obrazların dili təkcə yazıçının müəyyən etdiyi fikri ifadə etmək vasitəsi deyil, həm də onların fərdiləşdirilməsinə, daxili dünyasının açılmasına xidmət edir*” [51, s.58] fikrinə istinad etsək, həqiqətən də, bir obrazın dilinin, danışıq tərzinin situasiyaya uyğun olaraq onun xarakterini ifadə etdiyini, həm də dünyagörüşünü, idrak və əqidəsini müəyyənləşdirdiyini söyləyə bilərik. “Şəkil” hekayəsindəki baba hekayə boyunca əsl Azərbaycan kişisinə xas şəkildə mərd, qorxmaz duruşu, təmkinli davranışı ilə diqqət çəkir. Oğulsuz gələn atın boynunu qucaqlayaraq ah-nalə edib səbirsizlik nümayiş etdirmək əvəzinə, kişi xarakterinə məxsus tərzdə *“Ay bivəfa, oğlumu neylədin? Mən onu sənə etibar eləmişdim..”* [2] – deməklə kifayətlənir. Əgər o həmin situasiyada bu cümlə əvəzinə başqa, hər hansı bir başqa cümlə işlətsəydi, onun xarakter bütövlüyü pozulmuş olardı, xarakterinin tələb etdiyi təmkinlilik, mərdlik, cəsarət yoxa çıxardı. Göründüyü kimi, yazıçı bu məqamda yaratdığı xarakteri mənsub olduğu xalqın düşüncə və duyğu tərzinə uyğun olaraq təsvirini verməyi bacarmışdır.

Nəticə olaraq onu qeyd etməliyik ki, müasir Azərbaycan ədəbiyyatında müharibə mövzulu hekayələrdə ictimai-siyasi hadisələrin, müharibənin milli xarakterə təsiri problemi “Qaçqın statusu” daşıyan insanların torpaq itkisi, ümidsizlik, güvənsizlik, giley, etiraz, özünəqapanma kimi xüsusiyyətlərini qabartmaqla bərabər, müharibədən sonra yaranan sosial, mənəvi, psixoloji problemlər aspektindən də işıqlandırılmışdır. İşıqlandırılan problemlərin fonunda isə milli xarakter, milli psixologiya, azərbaycançılıq ideyası qəhrəmanlığın təcəssümündən daha çox məğlub edilmiş insan psixoloji durumunun təsviri şəklində meydana çıxmışdır. Buna da səbəb, öncədən qeyd etdiyimiz kimi, Birinci Qarabağ müharibəsində müvəqqəti

uduzmuş, torpaqları işğal altında qalmış bir xalq və dövlət olaraq hadisələrin insanların ruhuna, daxili aləminə, psixoloji-sosial durumuna təsiridir. Amma inanırıq ki, Azərbaycanda 27 sentyabr 2020-ci ildə başlayan və cəmi 44 gün çəkən Vətən müharibəsində (II Qarabağ müharibəsi) qazandığımız qələbədən sonra müharibə mövzulu hekayələrdə milli xarakterlərin ifadəsində müşahidə edilən acizlik və zəiflik xüsusiyyətləri aradan qalxacaqdır.

Türkiyə dövlətinin tarixi və mövcud siyasi vəziyyəti isə onu deməyə əsas verir ki, müharibə mövzusu hekayələrdə türk millətinin ruhuna, türkçülük ideyasına məxsus şəkildə təqdim edilmişdir. Belə ki istər o zaman, istər də indi hər hansı müharibə reallığını təsvir etməkdən əvvəl Türkiyə yazıçılarını düşündürən yalnız bir məqam var: o da obrazın daxili dünyası və göstərdiyi qəhrəmanlığın kult, etnopsixoloji düşüncə səviyyəsində təqdimini reallaşdırmaqdır. Onu qeyd edək ki, Türkiyə ədəbiyyatında müharibə mövzusuna müraciət və onun hekayələrdə təcəssümü Balkan müharibəsindən başlamış Birinci Dünya müharibəsi və Qurtuluş müharibəsi zamanlarına qədər və müharibədən sonrakı hadisələrin təsviri ilə reallaşmışdır. Türk tarixi faktlarına nəzər saldıqda görürük ki, Türkiyədə Türk-Yunan müharibəsi (1897) (digər adı ilə “30 gün müharibəsi”), (Balkan müharibəsi (1912-13), Çanaqqala müharibəsi (1915-1916), Qurtuluş müharibəsi (1919-1922) kimi yaddaqalan tarixi əhəmiyyətli müharibələr olmuşdur. Və bu müharibələrin zəngin məzmun əhatəliliyi o dövr haqqında yazılan bədii mətnlərdə geniş şəkildə təsvir edilir. Türkiyə ədəbiyyatında müharibə mövzusunun işıqlandırılması isə Balkan müharibəsindən sonra daha aktuallaşmışdır. O dövrün ən böyük yazıçısı Ömər Seyfəddin hekayədə müharibə mövzusunun başlanğıcını qoymaqla hekayə kimi kiçik janrda müharibə reallıqlarını tam və dolğun şəkildə təsvirə cəlb etməyin mümkünlüyünü sübut etmişdir. “*Müasir Türkiyə hekayəsinin qabaqcıl imzalarından olan Ömər Seyfəddin bir əsgər və yazıçı olmaqdan başqa, dövrün ziyalı insanlarından biridir. Dolayısı ilə hekayələrini qələmə alarkən əsgərlik xatirələri ilə bərabər, bir ziyalı olaraq Osmanlı dövlətinin qarşı-qarşıya qaldığı böyük problemlərdən də çıxış yolları göstərməyə çalışmış, bunu müxtəlif məsələlərlə bağlı yazdığı məqalə, köşə yazısı və hekayələrində dilə gətirmişdir*” [136, s.639]. Türk milli

kimliyinin və ideologiyasının başlanğıc və formalaşma dövrü isə əsasən "Milli mücadilə" dövrünə (1919-1923) və ya Qurtuluş müharibəsinin (1919-1922) gerçəkləşdiyi dövrə təsadüf etmişdir. Milli Mücadilə dövrü belə xarakterzə olunur: "*Milli mübarizə dövrü türk milliyətçiliyində vətənsevərlik təşviqatının ən məhsuldar aparıldığı dövrdür"* [153, s.415]. Faruq Qədri Timurtaş isə öz məqalələrində Türkiyə ədəbiyyatında müharibə mövzusu və Türkiyə xalqının vətənpərvəlik ruhunun, qəhrəmanlığının ta qədim dövrlərə təsadüf etməsindən söz açmışdır: *"Türklərdəki qəhrəmanlıq ruhu dastançılıq dövründən bəri davam edən "cahan hakimiyyəti" ideyasına əsaslanır*" [120, s.35]. Bütün tarixi faktlara rəğmən türklərdə müharibə ədəbiyyatı haqqında fikirlər çox geniş yayılmamış, özünə əsaslı özül yaratmamışdır. Hətta Türkiyədə müharibə ədəbiyyatının mövcud olmadığına dair fikirlər də səslənməkdədir. Amma bu fikrə tamamilə əks mövqedə dayanan və əsaslı yanaşmalarla bu fikri inkar edən tədqiqatçılar da az deyildir. Türkiyə ədəbiyyatında müharibə mövzusunun zəifliyinin səbəblərini bəzi məqamlarda dövlətin siyasi və aparıcı qüvvəsinin laqeydsizliyinə bağlayanlar da çoxdur. *"Xalqla ziyalılar arasında əsrlərdir davam edən ayrılıq uzandığı, ziyalının xalqın dilini, zövqünü, əxlaqi keyfiyyətlərini bilmədiyi müddətcə müharibə ədəbiyyatı formalaşa bilməz*" [120, s. 31] ifadəsi də səslənən fikirlərdən biridir. Türkiyədə müharibə ədəbiyyatı yaradan hekayə ustalarının fəaliyyəti həm də bu şəkildə təhlil edilir: "*Bu şəxslərin müharibə ədəbiyyatını – əvvəli və sonrasıyla birlikdə - müharibə dövrünün ədəbiyyatı kimi deyil, müharibə ocaqları söndükdən xeyli sonra yüksək sənət nümunəsi yaratmaq istəyi ilə qələmə alınmış əsərlərdən ibarət bir ədəbiyyat kimi qəbul etdikləri hiss edilməkdədir"* [172, s.1039]. Həqiqətən də, tədqiqata cəlb edilmiş Türkiyə hekayə ustalarının yaratdıqları bədii mətnlər müharibə reallığını əks etdirməkdən daha çox, estetik tələblərə cavab verməsi, yazıçı sənətkarlığı ilə fərqlənir. Bu hekayələrdə yazıçılar müharibəyə müxtəlif rakurslardan yanaşmışlar. Milli varlığın ifadəsi olan bu nümunələr türk insanının gerçəkliyə münasibətini özündə ehtiva edir. Belə hekayələrdən biri də "Qızıl şəfəqlər" hekayəsidir. Vətənlə bağlı hissləri və düşüncələri ifadə etmək heç də həmişə asan olmur. Amma vətənpərvərlik, vətəndaşlıq həyat prinsipinə, vətən qarşısında vəzifə borcuna çevriləndə vətən, millət

anlayışı öz təsdiqini tapmış olur. Türkiyə yazıçısı Sevin Sezgin "Qızıl şəfəqlər" hekayəsində 1915-ci ildə Birinci Dünya müharibəsi zamanı Osmanlı dövləti ilə İttifaq dövlətləri (İngiltərə, Fransa, Avstriya, Yeni Zelandiya) arasında baş vermiş Çanaqqala döyüşünün fonunda Türkiyə xalqının unudulmaz rəhbəri Mustafa Kamal Atatürk şəxsiyyətinin əzəmət və qüdrətini əks etdirir. Eyni zamanda bu xarakterin vətənpərvərliyi, millətçilik ruhu timsalında ümumtürk ruhunu da göstərir. "Gəncliyi güclü olan dövlət hər dövrdə güclüdür" fikri hekayədə öz təsdiqini tapmaqla bərabər, müəllif Türkiyə dövlətinin tarixini bilən, Türk dünyasının qüdrətinə inanan, qəhrəmanlığını bütün dünyaya çatdırmaq istəyən Mehmet adlı gəncin simasında müharibə mövzusuna, tarixə və etnoyaddaşa yenidən qayıda bilir. Yazıçı bu hekayədə Çanaqqala döyüşündə üzbəüz döyüşən iki düşmən döyüşçünün nəvələrini illər sonra qarşılaşdıraraq bu döyüşün əzəmətini yenidən xatırladır. Bununla o, Çanaqqala döyüşü ilə bağlı yaddaşlarda yaşayan emosiyaları, duyğuları, vətənpərvərlik və qürur hissini bir daha oyatmağı bacarır. *"Babası xatirələrinin sonlarında türk xalqının vətəni uğrunda necə döyüşdüyünü böyük bir heyranlıq və çaşqınlıqla danışmışdı. Özü də döyüş boyunca ulduza dönən gənc bir türk əsgərindən, Mustafa Kamaldan elə bir şəkildə danışmışdı ki...*" [156, s.68]. Bir zaman düşmən hesab edilən bir xalqın nümayəndəsinin dilindən bu fikirlərin səslənməsi yazıçı tərəfindən bir priyom olsa da, çox dəqiq işlənmiş, inandırıcı alınmışdır. Hekayədə buna bənzər priyomları saymaqla bitmir. Kiçik həcmli hekayədə ölkəsinin qəhrəmanlığını, tarixini hər sözə, hər kəlməyə sığışdıran yazıçının ustalığı yalnız alqışlana bilər. Conun ilk addım atdığı hava limanının Atatürkün adını daşıması, hekayə boyunca Atatürkün adının tez-tez çəkilməsi və unudulmaması, Mehmetin əldə etdiyi şəkillər, gündəliklər, babasının xatirələri, müharibənin baş verdiyi məkanlara ziyarət etməsi öz ölkəsinin qəhrəmanlığını, kimliyini, şəxsiyyətini təbliğ etmək baxımından maraq kəsb edir. Həmçinin Conun öz bildiklərinə və şahid olduqlarına əsaslanaraq türk xalqının qəhrəmanlığını dilə gətirməsi bir daha Türkiyə dövlətinin qüdrətini, Türkiyə xalqının qüvvətini sübut etmiş olur. Lakin yazıçı bütün bu vasitələrə rəğmən sanki baş verənlərdən, deyilənlərdən kənarda durur. Onun yazıçı olaraq şəxsi mənafeyi, fikirləri hiss edilmir, görünmür. Yalnız qəhrəmanların dioloqunda və hadisələrin

təəssüratından doğan nəticədə onun yazıçı və vətəndaş olaraq mövqeyini, vətəninə olan sevgisini, xalqına və milli kimliyinə sədaqətini hiss etmək olar. Əvəzində, özgüvən və ehtiram, böyüklük və qəhrəmanlıq, milli kimliyi bütövlük və millətə bağlılıq hekayədə yaradılmış Mustafa Kamal Atatürk şəxsiyyətində dəqiq müşahidə edilir. Böyük Türkiyə Cümhuriyyətini quran, türk kimliyini "Türk olduğumla xoşbəxtəm" deməklə təbliğ edən Atatürk məhz bu unudulmaz ifadəsi ilə özünü türk hiss edən hər bir vətəndaşın qəlbində yaşaya bilir. Hekayədən də bunun şahidi olmaq mümkündür. Türkün qəhrəmanlığı ilə yanaşı, milli xarakterindəki qonaqpərvərlik, vicdan hissinin güclü olması, humanistliyin təbliği Conun dilindən səsləndikdə daha real görünür və keçmişin təsviri qədər güclü alınır. *"İndi istər biz avstraliyalılar, istərsə də yeni zelandiyalılar sizi hörmətlə anırıq və sizin dostluğunuza böyük əhəmiyyət veririk. Müharibədə də indiki kimi qonaqsevər və sadə imişsiniz. Yaralı əsgərlərimizin yaralarını sarıdığınızı, onlarla yaxşı davrandığınızı bilirik*" [156, s. 73]. Yazıçı bununla Türkiyə xalqının milli psixologiyasına, milli xarakterindəki türk ərənliyinə və qəhrəmanlığına daha dərindən nəzər salır, "milli türk kimliyi"ni dövlətin başında duran xarakterin siyasi ideologiyası ilə bütövləşdirərək tamamlayır. Tuncər Baykara isə "Türk olduğunu hiss etməsk" adlı məqaləsində *"İnsanın özünün aid olduğu milləti, toplumu və ya etnik zümrəni bilməsi, onun fərqinə varması diqqətəlayiq bir xüsusiyyətdir"* [115, s.200] deməklə türk kimliyi məsələsini hər bir vətəndaş üçün həm sosioloji, həm də psixoloji bir gerçəklik olaraq qiymətləndirir. İnsanı müharibəyə səsləyən "mən"i də, qələbə inamı da türk əsgərlərində güclü olduğundan ən çətin döyüşlərdə belə zəfər onları daim izləmiş və qələbəyə ilhamlandırmışdır. "*Özündə milli ruhu və həqiqi vətənpərvərlik duyğusunu əks etdirən türkçülük məfkurəsini şərtləndirən əsas səbəb milli özünütəsdiq inamı idi"* [104, s.84]. Bu fikirlər bir türk insanının özünəinamının təsdiqlədiyi kimi, o özünə inanan insanların xarakterinin ədəbiyyata və hekayəyə olduğu kimi gəlişini də şərtləndirir. Məsələn, Zəhra Yamakın "Vətən sevgisi" adlı hekayəsində yaratdığı xarakter vətən qarşısında borcunu yerinə yetirərkən o qədər təbii və hisslərində səmimidir ki, onun vətən qarşısında duyduğu borc hissi, öz milli kimliyinə inamı Vətən naminə dostunu öldürəcək qədər güclüdür. *"Səni öldürmək üçün də, ölmək*

*üçün də böyük səbəbim var. Vətən, millət sağ olsun”* [108, s.19]. Bu zəfər isə həmin xarakterin taleyinə ən ağrılı və unudulmaz bir “ağır yük” olaraq yazılır. “Əvvəl vətən, sonra mən” düşünən qəhrəman vətən naminə atdığı addımın ağırlığını mənində hər zaman daşımalı olur. Vətən, qəhrəmanlıq haqqında yazmaq təkcə döyüşdən, müharibənin dəhşətli səhnələrindən yazmaq deyil, “Vətəni yaşatmaq elə sevgini yaşatmaqdır” ifadəsi də hekayənin əsas ana xəttini təşkil edir. Hekayədə nə döyüş səhnələri, nə itki verən, nə də qələbə qazanan tərəf vardır. Hekayədə yalnız uşaqlıqdan bir smit alıb yerindəcə yarıya bölüb yeyən “bir smitin iki yarısı” kimi təsvir edilən iki dostun həyatından bəhs edən xatirələrlə zəngin bir mətn vardır. Hekayədə yazıçı onların dostluqlarını, bir-birinə olan sadiqliyini təsvir etməklə bərabər, türkün milli xarakterinə, ideologiyasına, milli varlığına hopmuş vətən borcunu xüsusi olaraq qabartmışdır. Məlumdur ki, türk insanı (əsgəri) üçün Vətən sevgisi, Vətən borcu bütün sevgilərdən və borclardan daha üstündür. Onun qarşısında borc heç bir halda müzakirə edilə bilməz. Hekayədə yazıçı bu həssas nöqtəyə toxunmaqla, bir-birinə hədsiz, pak, təmiz münasibətlə bağlı olan iki dostu illər sonra düşmən olaraq qarşılaşdırır. “Vətən üçün ölmək də var, amma borcun yaşamaqdır” sözlərini hekayə boyunca daha çox dilə gətirən Həmid elə sonacan da bu sözünə sadiq qalır. “*Hər ikisinin silahı eyni vaxtda açıldı və ikisi də qarın üstünə yıxıldı. Həmid ürəyindən vurulmuş və yerindəcə ölmüşdü. Çingiz isə yaralanmamışdı. Həmidin hədəfi vura bilməməsi mümkün deyildi. Deməli, dostluğu uğrunda özünü qurban vermiş, Çingizin yaşamağını istəmiş, peşmanlığını bu şəkildə dilə gətirərək öz əməlinin cəzasını çəkmişdi*” [108, s.19]. Hansısa siyasi qüvvələrə qoşulan, Vətən xaini kimi axtarışda olan Həmidin hədəfində Çingiz olsa da, yenə də ona silah qaldırmır, Çingiz isə onu Vətənin xəyanətkarı, düşməni olaraq bu qarşılaşmada məhv edir. Vətən sevgini yaşatmaqla, bu sevgiyə sadiq qalmaqla müqəddəsləşir. Çingiz bu sevgini Vətən naminə öldürür. Həmid isə “*Vətən üçün ölmək də var, lakin borcun yaşamaqdır”* [108, s.19], – deməklə Çingizi yaşadır. Çingizi yaşatmaq isə Həmid üçün Vətəni sevmək qədər vacib olur. Bir çoxlarının qəbul etmədiyi müharibə hekayələrindəki vətənpərvərliklə humanistliyin vəhdəti bu hekayə ilə öz bədii və dəqiq ifadəsini tapmışdır. Bəs müharibə ədəbiyyatında humanistliyə yer varmı? “Axı

sənət nifrəti təbliğ edə bilməz!" kimi mübahisəli fikirlər hələ də öz aktuallığını itirməmişdir. "Vətən sevgisi" hekayəsində isə vətənpərvərlik də var, humanistlik də. Ən vaciblisi isə sənət var, sevgi var, yazıçının qələminin gücü var. Bütün həyati gerçəkliklərə söykənən uğurlu mətn var. Tarixi faktlara əsaslanaraq onu qeyd edə bilərik ki, Türkiyənin müharibələrdə iştirakı, əldə etdiyi zəfərlər, dünya siyasi arenasındakı mövqeyi lap qədimdən qəhrəmanlıqla yoğrulan güclü türkçülük ideologiyasına söykənmişdir. Hər qazanılan zəfər, qələbə Türkiyəni daha da gücləndirmiş, milli ideologiya ilə ümumilli prinsiplər sistemi yaratmışdır. Məhz buna görə də türklərin qəhrəmanlığından bir çox dastanlar yazılmış, əsərlər meydana gəlmişdir. Çanaqqala müharibəsi ilə bağlı səslənən *"Türk əsgəri cəbhəyə ölüm ilə həyat arasında bir fərq qoymayaraq getmişdir"* [121, c.23, s.115] fikri ona görə bu gün də öz aktuallığını qoruyur. Beləliklə, bütün buna bənzər tarixi faktlar və istinadlar onu deməyə əsas verir ki, türkçülük, azadlıq və vətən uğrunda döyuşən türk əsgərinin döyüş ruhunun ölməzliyi müharibə ədəbiyyatında əsas xətt olmuşdur. Apardığımız təhlillər onu deməyə əsas verir ki, Türkiyə yazıçılarının hekayələrinin əksəriyyətində qəhrəmanlığın təbliği və təsviri yazıçının təhkiyəsindən daha çox təsvirində və oxucunun gəldiyi nəticədə özünü doğruldur. Müasir dövrün yazıçılarından olan Əhməd Bükenin "Cazibə stansiyası" adlı kitabındakı hekayələrdə döyüş səhnələrinin təsvirindən, döyüşün gərginliyindən daha çox milliliyin, türkçülüyün fonunda türk əsgərinin qəhrəmanlığı, mübarizliyi, özünəinamı və əqidəsi əks etdirilir. Çağırış, üsyan və etiraz hissi təsvir olunur. Bu kitab həm də *"ictimai, siyasi hadisələrin yaşatdığı fərdi həyat dramlarını əks etdirir"* [169, s.292] şəklində xarakterzə olunur. Əhməd Bükenin bu kitabındakı "Qutu" hekayəsində isə qəhrəman üçün Vətən qarşısında borc, anaya, torpağa olan sevgidir, babasından qalan bir ovuc torpağa, onun daşına, suyuna, olan sevgi və hörmətdir. "*Arxamızda məzarlıqdır: ata yurdudur. Qarşımızda kəndimizdir: anam, qardaşlarım, qohum-qonşu..."* [117, s.21] – deyən qəhrəmanın atasının öldürülməsi səhnəsində yaşadığı ağrı-acıya, ədalətsizliyə, nifrətə qarşılıq olaraq həm də, Vətən, torpaq, məzarlıq motivlərinin poetikliyi, milliliyin təbliği, üsyan və çağırış səslənməkdədir. Budur millət, tarix içində yoğrulan türk insanının xarakterini formalaşdıran əsas amillər. Bu müəllifin

digər hekayəsi olan “Hər kəs ana quzusu”nda “*Ölmək yoxdur daha. Bax Pir Həsən məndən soruşmuşdu: əsgərmi böyükdür, Allahmı?”* [117, s.27] yazaraq adın və bu ada layiq olaraq missiyanı çiyinlərində daşıyan bir əsgərin Allah səviyyəsində müqayisə edilməsi, “Bayraq enməz, dövlət bitməz” hekayəsində isə “*Dövlətimiz hər yaranı sarımaq gücünə* sahibdir. *Məni də bu məqsədlə sizin yanınıza göndərdi. Böyük dövlətlərin böyük vəzifələri, böyük məqsədləri var. Ölüm belə bizi sizdən ayıra bilməzdi. Ayıra bilmədi də. Baxın mən buradayam və hər zaman da yanınızda olacağam”* [117, s.37] – deyən şüarlı, çağırışlı nitqində türk əsgərinin ruhuna, canına hopdurulan vətənə olan sevgi və özünəinamı təsvir olunan reallıqda özünü doğrultmuşdur. Məhz bu təsvirlərdə türk əsgərinin simasında xalqın genetik yaddaşı, milli özünəməxsusluğu da öz təsdiqini tapa bilmişdir.

Akif Kayanın “İslanmış kibritlər” kitabındakı “Qara”, “Bir qış nağılı”, “Əflatun” adlı hekayələrdə müharibəni görməyən, amma onu xatirələrində, ağrı-acısında, şüuraltı yaddaşında yaşadan qəhrəmanların həyat hekayəsini görmək mümkündür. Hekayələrdə yalnız obrazlar və onların xatirələri var. Bir də *“bu hekayələrin mərkəzində müharibənin gətirdiyi ağrı, yıxım, zülüm vardır”* [169, s.359]. Hekayədə xarakter cizgilərlə hadisələrin paralelliyi yox dərəcəsindədir. Yalnız “Qum” hekayəsini çıxmaq şərtilə. *“Əlimdə bir ovuc qum. Bərk-bərk tuturam. Qum saatı... Çuvalın dibində də qum... Bir ovuc... Anam, atam, bacım... Axıb gedərkən ovuclarımdan atam, anam, bacım... Bir ovuc qumu neçə il tuta bilərsiniz ki, əlinizdə?”* [133, s.11] – deyən qəhrəmanın bu sözlərdə bütün yaşadıqları, itkiləri, əzizlərindən xatirə qalan əlindəki bir ovuc torpaq öz bədii-poetik xüsusiyyəti ilə simvolik məna daşıyır. Atasından yadigar qalan qum saatı, müharibədən sonra isə əzizlərindən xatirə saxladığı bir əşya kimi öz məna yükü və fəlsəfəsi ilə bədiiləşir. “*Qum hekayəsində ailəsini müharibədə itirən uşağın gözündən müharibənin qəddarlığı gündəmə gətirilir”* [169, s.357]. Ümumiyyətlə, hekayədə torpaq türkü yaşadan, əzəli-əbədi dəyər kimi öz ifadəsini tapmışdır. Torpaq hər bir türk vətəndaşının səcdə etdiyi müqəddəslikdir. Onsuz o, cansız, əqidəsiz, gücsüz bir varlıqdır. Budur, yazıçı təxəyyülünün gücü ilə milli-tarixi keçmişə, millət olaraq onları var edən dəyərlərə qayıdış baş verir.

Hekayələrində müharibəni əks etdirən yazıçılardan biri Camal Şakardır. Onun əsərlərində müharibəyə baxış fərqli və maraqlıdır. *"Yazıçının ilk hekayələrindən bəri müharibə mövzusunu sıx bir şəkildə işlətdiyi müşahidə edilir. Qadın, kişi və uşaq gözü ilə yazılan hekayə öz hissələri ilə müharibənin səbəb olduğu psixoloji və ekoloji dağıntıları göz önünə gətirir*" [134, s.120]. Camal Şakarın "Mürəkkəb" kitabındakı "Keçidlər" adlı hekayəsində də hadisələr müharibəni xatirələrdə deyil, canlı olaraq yaşayan məktəbli bir qızın sözləri ilə təsviri edilir: "*Göz yaşları müəllimin köynəyinə tökülmüşdü. Yeridikcə, silkələndikcə müəllimin köynəyini isladan göz yaşları yanağını da bulaşdırırdı. Hər şey qarmaqarışıq idi. Qarmaqarışıq olurdu hər şey*" [162, s.17]. Bu təsvirlə müharibənin canlı görüntüsünü insanlara çatdırmaq istəyən italyan jurnalistin yaşadıqları çox təsirlidir: "*Evlərdən çıxarılan cəsədlər küçəyə toplanılırdı. Tanış görüntülər idi... Operator yenə də obyektivi ilə nələrisə gizlətmək istəyirmiş kimi görünürdü. Şərhsiz idi"* [162, s.15]. Bu təsvirlərin fonunda hər iki obrazın psixoloji sarsıntısı, emosiyaları, iç dünyalarındakı təlatümlər daha təsirli şəkildə işlənmişdir: "*Kaş ki bu, son olaydı, ey əziz oxucu...*" [162, s.19] yazıçının müharibəyə bu etiraz səsi isə sonda bu cür səslənir və ədalət hissinin bərpa edilməsinə çağırış kimi diqqət çəkir. Hekayədə, az da olsa, müharibənin real təsviri görünsə də, obrazların yaşadığı hadisələrin təsiri ilə yaranan millətçi və vətənpərvər xarakter tipi yaradılmamışdır. Bu isə təbii haldır. Əgər yaradılan hər bir əsər yazıçının təxəyyülünə və istedadına, hadisəni necə çatdırmaq istəyinə bağlıdırsa, bu halda mübahisə etməyə dəyməz. Apardığımız araşdırma və gəldiyimiz nəticə onu deməyə əsas verir ki, Türkiyə ədəbiyyatında müharibə mövzulu hekayələr son dövrlərdən bu günə kimi fərqli bir tendensiya üzrə inkişaf yolu keçmişdir. Belə ki Ömər Seyfəddin yaradıcılığı ilə ədəbiyyata gətirilən müharibə mövzulu ("Bomba", "Primo Türk çoçuğu", "Nəqarat" və. s.) hekayələrdə rast gəldiyimiz real döyüş səhnələri, döyüşlərdəki gərginlik, müharibənin baş verdiyi məkan və zaman, canlı müharibə təsvirləri son dövrdə yazılmış mətnlərə ötürülməmişdir. Bu model son zamanlarda Türkiyə hekayələrində özünü doğrultmur. Səbəb isə, çox güman ki, son dövrlərdə Türkiyə dövlətində müharibə şəraitinin olmamasıdır. Bu səbəbdən də bədii mətnlərdə, xüsusilə hekayələrdə son zamanlar daha çox insan psixologiyasına, onun

araşdırılmasına, insanın iç dünyasının işıqlandırılmasına diqqət yetirilir. Son dövrlərdə müharibə mövzulu hekayələrdə real müharibə təsvirləri olmasa da, müharibə qəhrəmanlarının daxili dünyasının təsvirinə, millətçilik cizgilərinə daha çox təsadüf edilir. Məsələn, Yaqub Qədri Qaraosmanoğlu yaradıcılığında əsası qoyulan tendensiya bu gün də davam etdirilir. Türklərin etnik, milli, tarixi köklərə bağlı olan güclü dəyərlər sisteminə malik olması, "millət", "vətən", "hürriyyət" anlayışlarına çağırışla insanların yaddaş və altşüurunda "güclü dövlət", "döyüşkən xalq" obrazının yaradılması bu tendensiyanın əsas nəticələridir. Onun "Milli savaş hekayələri" adlı kitabında Türkiyə tarixində önəmli dövr olan "milli mücadilə" dövründən bəhs edən, dövrün çətinlikləri, müharibənin ağrı-acısını yaşayan yoxsul təbəqənin başına gələnlər öz əksini tapmışdır. Yazıçı bir çox hekayələrində türk milli xarakterinin portretini yarada bilmişdir. Məsələn, "Dəhşətli bir xəyanət" hekayəsində türk milli xarakterindən məhrum olmuş obraz tənqid atəşinə tutulur. Hekayədəki obraz türk milli dəyərlərindən uzaqlaşmış, mənəvi tənəzzülə uğramışdır. "*Türk bir kişi ilə yunan bir qadın arasındakı münasibətdə yunan qadın kişinin öz dəyərlərindən uzaqlaşmasına, türk xarakterinin öz millətinə yaraşmayacaq hərəkət etməsinə yol açar. Nuri Əfəndi Despino adlı qadın üçün bütün maaşını xərcləyir. Anasına hər ay pul göndərdiyi halda artıq ondan pul ala bilmək üçün yollar tapmağa çalışır"* [152, s.89]. Yazıçı hekayədə obrazın xarakterinin bu istiqamətdə dəyişməsini milli kimliyə xəyanət kimi dəyərləndirir və bu xəyanəti dəhşətli hadisə tək təsvir edir. Belə obrazlar yazıçının yaradıcılığında azlıq təşkil etsə də, milli kimlik, milli xarakter keyfiyyətlərinin dəyərləndirilməsi və ötürülməsi baxımından böyük əhəmiyyətə malikdir. Yaqub Qədri yaradıcılığı ilə ədəbiyyata gətirilən milli ideologiyaya xidmət edən millətçi, vətənpərvər, iradəli, türkçü, zəfər və inamla addımlayan xarakterlərin təsviri isə son dövr hekayələrinə uğurlu bir şəkildə ötürülmüşdür. "*Müharibəni təsvir edən hekayələrində Yaqub Qədri kütlənin dəyərlərini, haqlarını, istəklərini insanı ucaldaraq müdafiə etmişdir"* [130, s.10].

Türkiyə ədəbiyyatında vətənpərvərlik hisslərini işıqlandıran hekayələrdən biri də Camal Şakarın "Öncə Vətən" hekayəsidir. Bu hekayədə Türkiyədə baş vermiş "İnegöl" adlı siyasi (terror) hadisə işıqlandırılmışdır. *"Polis avtobusundaydı...*

*Çiyinlərində ağır yük.. Ürəyi... sıxılırdı, dözə bilmirdi: "Qardaş", – dedi: – mən hər şeyi vətənimiz və bayrağımız üçün elədim!" – 12 noyabr, 2010"* [162, s.50].

Hekayədə yazıçı hadisə ilə bağlı bir neçə xırda detaldan başqa bu münaqişənin heç bir siyasi tərəfini əks etdirmir. Onun əsas məqsədi bu hadisələrdə "Öncə Vətən" deyib bütün sevdiklərindən uzaq düşən, amalı, borcu naminə vətən uğrunda mübarizə aparan türk gəncini göstərməkdir. *"Özümü Vətənimə və bayrağıma həsr etdim. Səninlə ola bilmərəm. Çox hərarətli günlər yaşayırıq. Vətənımin və bayrağımın mənə ən çox ehtiyac duyduğu bu günlərdə qəlbim hər şeyə qarşı bağlıdır"* [162, s.48] – deyərək sevgilisinə mesaj yazan bu gənc Vətəninin müdafiəsi üçün canından belə keçməyə hazırdır. Yazıçı Vətənə bağlı, millətinə ehtiram, bayrağına hörmət edən bir türk gəncinin vətəndaşlıq mövqeyini nümayiş etdirməklə əzəldən türk millətinə və ideologiyasına xas olan milli-mənəvi ideyaları göstərə bilmişdir. Bu aspektdən yazılan hekayələr sırasında məhz "Öncə Vətən" hekayəsinin adının çəkilməsi təsadüfi deyildir. Yazıçı hadisələr boyunca psixoloji sarsıntılar keçirən, narazılığını və etirazını ifadə edən qəhrəmanın *"Başı yüngülcə dumanlanaraq, "əşşi, mənmi qurtaracağam bu məmləkəti"* [162, s.49], – desə də, *"Bir bizmi girəcəyik bu yükün altına, biz – bir neçə gənc?"* [162, s.49] kimi inamsızlıq hisslərini və bu hisslərə qarşılıq olaraq qalib gələn Vətən sevgisini nümayiş etdirməklə, onun *"mən, sadəcə, Vətən üçün, Vətənimiz.... bayraq, bayrağımız uğrunda... mən hər şeyi arxada qoydum, öncə Vətən"* [162, s.53] – deyərək paralel şəkildə iki dəyişkən xarakterini göstərən, içindəki daxili səsləri və özüylə mübarizə aparan bir obrazın çarəsizliyini təsvir edə bilmişdir. *"Müharibə anlayışı cəmiyyətlərə və fərdlərə oxşar şəkillərdə təsir göstərməkdə və fərdlərin həm cəmiyyətlərə, həm də özlərinə yadlaşmasına səbəb olmaqdadır. Bir yandan müharibənin zalımlığı səbəbindən insanların məruz qaldığı çarəsizlik hissi, digər tərəfdən isə müharibənin lazımsızlığı həqiqəti ilə üzləşmələri onların fərqli hisslər yaşamasına səbəb olmuşdur"* [113, s.8] kimi fikir məhz bu obrazın daxili aləmini analiz etməyə yardımçı olur. Obrazları yaşadıqları hadisələrin içində düşdükləri psixoloji hallarla birlikdə təsvir etmək Camal Şakar yaradıcılığının əsas xüsusiyyətidir. Özünün də qeyd etdiyi kimi, *"Doğrusu, mən yaşananların insan üzərindəki psixoloji təsirini, bir də psixoloji təsirlərdən başlayaraq, geri dönərək*

*yaşanan hadisələr haqqında danışmağı daha düzgün hesab edirəm"* [147, s.100]. Hekayədə reallığı əks etdirən bir çox hadisələr həm Camal Şakarın siyasi baxışını, həm də bu hadisələrə yanaşmasını aydın ifadə edir. Onun nəzərində türk gənci sarsılmaz və iradəlidir. Onun üçün Vətən hər şeydən və hər kəsdən öndədir. Eyni motiv Nədim Gürsəlin "Buğda tarlasında ölüm" hekayəsində də təkrarlanır. Yazıçı hekayədə Türkiyə tarixi üçün əhəmiyyətli olan 12 sentyabr 1980-ci il (Hərbi çevriliş) hadisələrindən danışır. Türkiyə tarixi və milləti üçün böyük və unudulmaz olan bu siyasi hadisə hekayədə tarixi detalların köməkliyi ilə daha çox obrazların simasında, həyatında öz əksini tapır. Hekayədə təsvir və təhkiyə çox güclüdür. Türkiyə xalqının xarakterini ustalıqla qələmə alan Nədim Gürsəl qələmi müharibədə qazanılan millətçiliyi, şəxsiyyəti, qanla tarixi yaddaşa hopan əzmkarlığı, qəhrəmanlığı və dönməzliyi təbii təsvirlərlə əks etdirməyi bacarmışdır. Görünür, o, hekayənin həm qəhrəmanı, həm də yazıçısı kimi hadisələrə içdən və ağrılı yanaşa bildiyi üçün əsər uğurlu alınmışdır. Hekayədə müəllif dostu Şəhmuzla birlikdə baş verən siyasi hadisələrə birbaşa müdaxilə edə bilmədiyi üçün qələminə arxalanıb bu hadisələri işıqlandırmaq və müştərək roman yazmaq fikrinə düşür. Amma 1980-ci ildə baş verən hərbi çevriliş bu istəyi yarımçıq qoyur. *"Nə var ki, bu iş birliyi tam həyata keçmək üzrə olduğu zaman 12 sentyabr çevrilişi olmuş, dumanlı havada dolaşan qurda hazırlıqsız yaxalanmışdılar. Şəhmuzu çevrilişin baş verdiyi gecə tutmuşdular, onun da kitablarını topladıb haqqında həbs tələb edərək məhkəməyə vermişdilər"* [142, c.4, s.379-380]. Bu hadisəyə qarşı yazıçıda bir etiraz hissi baş qaldırır, o, nifrət dolu ifadələrlə hekayədə öz subyektiv münasibətini işıqlandırmış olur. Göründüyü kimi, türk insanı sözündən dönməz və qəhrəmanlığında sarsılmazdır. Nə olur olsun, mübarizəni aparmağa çalışacaqdır – istər silahla, istərsə də qələmlə.

Müharibə mövzusuna digər aspektlərdən yanaşdıqda Azərbaycan və Türkiyə hekayələri arasında oxşar və fərqli cəhətlər də ortaya çıxır. Belə ki fərqli zamanlar, fərqli nəsillər və fərqli təfəkkürlər olmasına baxmayaraq, eyni ideya, eyni mövzu, eyni obraz, üslub yaxınlığı bütün sahələrdə özünü göstərdiyi kimi, ədəbiyyatda da göstərir. Qədim dövrlərdən bəri eyni tarixi və mədəniyyəti paylaşan Türkiyə və Azərbaycan ədəbiyyatında araşdırılan dövrdə müharibə hekayələrində yaradılan

xarakterlərin bəzi xüsusiyyətlərində, bu xarakterlərin qaldırılan problemlərə, cəmiyyətə, hadisələrə, insanlara münasibətində maraqlı paralellik hiss olunur. Həmin paralelliyi aşağıdakı nümunələrlə əsaslandırmaq olar.

– Zamanında müharibə sınaqlardan keçən, xarakterdə formalaşan özünəinam, şücaət, qəhrəmanlıq, milliyətçilik hissləri müharibədən sonra da siyasi-sosial həyatda özünü büruzə verir. Bu xüsusiyyət Əhməd Bükenin "Cazibə stansiyası" adlı kitabında "Su – qovğa – Su" [117, s.65] hekayəsində təqaüddə olan hərbçi Albay ata ilə, Şərif Ağayarın "Şəkil" [2] hekayəsindəki baba obrazında oxşar şəkildə meydana çıxır. Hər iki hekayənin qəhrəmanlarında hiss olunan xarakterik milli cizgilər eyni obraz təəssüratı yaradır. Hər iki xarakter ətrafı dəyişməyə, cərəyan edən hadisələrin sonunun yaxşı qurtarmasına çalışır. Bu isə ümumilikdə araşdırılan dövr hekayələrində yaradılan milli xarakterlərdə milli mübarizlik xüsusiyyətinin, milli xilaskarlıq və milli qəhrəmanlıq xüsusiyyətlərinin, qismən də olsa, qorunduğu nəticəsinə gəlməyə imkan verir.

– Müharibə dəhşətlidir, ağrılıdır, müharibə həm də ananı övladdan, övladı anadan ayıracaq qədər ədalətsiz və qorxuludur. Camal Şakarın "Mürəkkəb" [162] adlı kitabındakı "Xəncər" hekayəsində övladını düşməndən qorumaq üçün onu təhlükəsiz yerdə gizlədən, ondan güclə ayrılmağa məcbur olan və düşmənin o andaca gülləsinə tuş gələn bir ananın başına gələnlər, Təranə Turanın real müharibə faktlarına əsaslanmış "Topxanadakı sükunət" [100, s.68-72] hekayəsində düşməndən qaçaraq gizlənməyə çalışan, qucağındakı övladın ağzını sinəsinə sıxmaqla səsini kəsməyə çalışan və bununla özü də bilmədən onu boğaraq ölümünə bais olan bir ananın fəryadı təsvir edilib. Eyni acını yaşayan ana obrazlarının həyat hekayələrində paralellik onların döyüşkən, mübariz ana kimi milli cizgilərini göz önündə canlandırır. Hər iki hekayədə ana obrazları fərqli hadisələrdən paralelliyə cəlb olunsalar da, onları birləşdirən müharibə dəhşətləri ana-övlad-müharibə həqiqətləri fonunda açılmaqla bərabər, xarakterlərini formalaşdıran xüsusiyyətlərin də diqqətə çatdırılmasına səbəb olur.

– Həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatında ta qədimdən bu günə kimi aktuallığını saxlayan azərbaycan-erməni, türk-erməni münasibətlərində humanizm,

insanlıq keyfiyyətləri kimi milli xarakterik cizgilərin hekayə janrına gətirilməsi son illərdə də aktuallıq daşıyır. Amma məlum səbəblərdən dolayı bu mövzunun aktuallığı Türkiyə hekayəsi ilə müqayisədə Azərbaycan hekayəsində daha çox üstünlük təşkil edir. Bu səbəbdən də Azərbaycan və Türkiyə hekayələri bu mövzu paralelliyində təhlilə cəlb olunmamışdır.

Beləliklə, Azərbaycan və Türkiyə hekayələrində siyasi hadisələr və müharibə mövzusunda milli xarakterin müəyyənləşməsi prosesi iki fərqli yanaşma şəklində müşahidə olunmuşdur.

a) Bir zamanlar torpaqlarının 20 faizi işğal altında olmuş bir dövlətin ədəbiyyatı olaraq Azərbaycan ədəbiyyatı son illərə qədər (27 sentyabr - 10 noyabr 2020-ci il II Qarabağ müharibəsi) əsas prioritet istiqamətlərdən biri kimi məhz müharibənin dəhşətlərini, faciəsini və qurbanlarını, müharibənin gətirdiyi ictimai-siyasi və sosial problemləri hekayələrdə işıqlandırmağa çalışmışdır. Bu cür mövzulu hekayələr arasında isə müharibəyə çağırış edən də, yazıq, zavallı qaçqın obrazını yaradan da, və yaxud xalqının milli dəyərlərini, xarakterini işıqlandıranlar da vardır.

b) Türkiyə ədəbiyyatının müharibə mövzulu hekayələrində əsas istiqamət isə müharibə səhnələri ilə yanaşı, sətiraltı bir ismarıcı (türkçülüyü, qəhrəmanlığı, türk oğlu, xüsusilə türk qəhrəmanlığının kult səviyyəsində təqdim olunmasını) çatdırmaq kimi bir məqsəd ifadə olunmuşdur.

Uzun illər ərzində Azərbaycan və Türkiyənin bütün sahələrdə yaranan qardaş və dost birliyindən ədəbi əsərlərə sirayət edən millilik, azadlıq, qəhrəmanlıq ideyalarının təbliği uğrunda aparılan *"Türk ruhu yüksəlsin, türk ərliyi bütün cahana varsın" fikri, milli istiqlal uğrunda mübarizə aparan Azərbaycan və Türkiyə xalqlarının duyğu və düşüncələrinə hakim kəsilən gerçəlik idi"* [104, s.80] ifadəsi hekayə janrında da milli ideyanın daşıyıcısı olan obrazlarda da öz təsdiqini tapmış olur. Bu ideyanın ədəbiyyatda formalaşması məsələsində fərqli yanaşmalar olsa belə, ümumtürk düşüncəsinə, dəyərlərinə, psixologiyasına, vətəni sevmək amalına bağlı olan amillər onları yenə də bir nöqtədə birləşdirə bilir.

## 2.2. Hekayələrdə milli psixologiya və qloballaşma prosesinin əksi

XX əsrin sonlarına yaxın daha da güclənmiş qlobal proseslər dünyada nəinki sivilizasiyanın keyfiyyət çalarlarını dəyişdi, həmçinin bütün sahələrə olduğu kimi, mədəniyyət və ədəbiyyata da öz təsirini göstərdi. Bir çox sahələrdə olduğu kimi, mədəniyyətdə də qloballaşma özünü sintez, ötürülmə, asılılıq şəklində büruzə verdi. Bu məsələyə Rəbiyyət Aslanovanın da yanaşması maraq doğurur: "*XX əsrin sonlarından etibarən qloballaşmaqda olan dünyada istər lokal, istərsə də qlobal mədəniyyətin taleyi problemini araşdıran tədqiqatları ümumiləşdirilməsi, burada üç istiqamət, yaxud ssenarinin mövcudluğunu ayırd etməyə imkan verir. Bunlar 1) qarşıdurma, 2)dialoq və 3)lokal mədəniyyətlərin qlobal hakim mədəniyyətə əriyib qarışması kimi səciyyələndirilən istiqamətlərdir*" [10, s.135]. Hər iki sivilizasiyanın qovşağında yerləşən Azərbaycan və Türkiyə də bu "yükü" öz çiyinlərində bu gün də daşımaqdadır. Bildiyimiz kimi, mədəniyyət anlayışı özü də dəyişməyən və daimi mövcud bir hadisə olaraq qiymətləndirilmir. Siyasi, sosial və iqtisadi quruluş zamandan və inkişafdan asılı olaraq dəyişə, digər mədəniyyətlərlə mübadilə etmək imkanına malik ola bilir. Əsas məqsəd özünəxas mənəvi-əxlaqi dəyərlərlə zəngin olan mədəniyyət təcrübəsini dünya mədəniyyətinə ötürməkdir. "*Mədəniyyət dəyişimlərində sağlam olan yol təsir edən qüvvələr olmadan, ana qəlib qorunaraq mədəniyyətin tələblərinə görə özü-özlüyündən yeni şəkil qazanmaq, başqa bir ifadə ilə desək, "inkişaf edərək" dəyişmək müddətinə malik olmuşdur*" [144, s.1279]. Amma bu hər zaman baş vermir. Çox zaman mədəniyyətlərarası münasibət sintez, dioloq şəkilində deyil, rəqabət və yaxud qarşıdurma formasında özünü göstərir. Qərbin Şərq üzərində hökmranlığı qloballaşmanın bu prosesdə əsas məqsədlərindən birini aşkara çıxarır. Aparılan araşdırmalar həm də onu göstərir ki, yalnız mədəni müxtəlifliyin fərqində olan və bu fərqliliklərə hörmət göstərən, mədəni müxtəlifliyi qarşılıqlı sintez yolu ilə həll edən ölkələr müvəffəqiyyət qazana bilir. Amma qloballaşmada Qərb modelinin nümunəvi model kimi bəşəriyyət üçün yeni bir proses olaraq təlqin etmək cəhdi bu prosesdə gizli məqamları açmağa sövq edir. Sintez yolu ilə deyil, hökmranlıq prinsiplərində isə nəticə daha təhlükəli olur:"*İnsanın mənsub*

*olduğu mədəniyyətdən uzaqlaşdırılması çox mürəkkəb hadisədir bu, təxminən, ağacın kökünün torpaqdan qoparılması və yaxud onun başqa ağaca calanması kimi bir haldır"* [68]. Nəticə etibarilə "dünya vətəndaşı" adlandırılan bir mexanizmin işlənməsinin başlanğıcı qoyulur. Səslənən fikirlərdən biri də budur ki, öz ölkəsinin vətəndaşı, öz millətinin nümayəndəsi olan dünya vətəndaşı ola bilməz. Həqiqət isə bunun tam əksini sübut edir. Çünki öz xalqına, soy-kökünə, milli-mənəvi dəyərlərinə, milli kimliyinə bağlı olan hər hansı bir şəxs nə mənəviyyata bağlı olan bəşəri dəyərləri, nə də milli dəyərləri xarakterzə edən mədəniyyəti inkar edə və ondan imtina edə bilər. Mədəniyyətin bir parçası sayılan ədəbiyyatın özü də bir sənət nümunəsi yaratmaqla bəşəri dəyərləri təbliğ və tərənnüm edirsə, onda *"insan mənəviyyatının ali qatında yaradılmış sənət dünya ölkələrinin hamısında özünə Vətən tapır. Ümumbəşəri mədəniyyətin qlobal düşüncə məkanını formalaşdıra bilən qüdrəti də bundadır"* [101, s.26] fikri bu məqamda öz təsdiqini tapmış olur. Amma bu proses çox hallarda istənilən düz xətt üzrə inkişaf etmədiyindən milli identiklik hissi, milli-mənəvi dəyərlərə sahiblənmək, millətin özünü tanıtmaq hissi kimi hallar daha çox olduğundan, qloballaşan dünyada milli kimliyi qorumaq instiktinə qarşı həm fərd, həm də kütlə olaraq mübarizənin mövcudluğu təhlükə yaradır. Ona görə ki, milli kimlik şəxsiyyətin müəyyən millətə mənsubluğunu ifadə etməklə yanaşı, sosial, mənəvi, psixoloji bir hadisə olaraq milli mədəniyyətin, milli-mənəvi dəyərlərin, tarixin, milli özünəməxsusluğun qorunub saxlanılmasında müstəsna rola malikdir. Onun əsl mahiyyəti xüsusilə Qərb və Şərq mədəniyyətlərinin qarşılaşdırılması prosesində ortaya çıxır. Bu prosesdə "Biz" və "Onlar" iddiası milli identikliyi müəyyən edən əsas mexanizm kimi çıxış edir. Nəticə etibarilə ya insan milli kimliyindən uzaqlaşaraq "dünya insan"ına çevrilir, ya da bu proseslə mübarizə apararaq öz kimliyini qoruyub saxlaya bilir. Amma nəticələr onu deməyə əsas verir ki, müasir dövrdə qloballaşmanın "dünya insan"ı formalaşdırmaq məqsədi artıq reallaşdırılmışdır. "Dünya insan"ı olmaq isə mahiyyət etibarilə millilikdən uzaqlaşmış, öz milli kimliyini unutmuş "dünya vətəndaşı" olmaq deməkdir. Bəs ədəbiyyatda bu proses özünü necə göstərir? Obrazların xarakterinə, daxili dünyasına qloballaşma necə təsir edir? Bu suala cavab olaraq bildirmək istəyirik ki, həm

Azərbaycan, həm də Türkiyə ədəbiyyatında yazıçılar bütün janrlarda olduğu kimi, hekayədə də qloballaşmanın mahiyyətinə yetərincə düzgün münasibət göstərə bilmişlər. Bu mənada qloballaşma probleminə ədəbiyyatda, xüsusilə hekayə yaradıcılığında 3 prizmadan yanaşıldığı müşahidə edilir:

a) *Qloballaşma və milli ədəbiyyatın qarşıdurması kimi.* Bu, müasir dövrdə hər iki tendensiya arasında aparılan açıq mübarizə şəklində özünü büruzə verir. Belə ki milli ədəbiyyatda milli xüsusiyyətlər qloballaşmaya, qloballaşma isə milli kimlik amilinə özünəməxsus impulslar ötürdüyündən hər iki tendensiyada əks-reaksiya müşahidə edilir. Bir çox hallarda qloballaşma ideyasının təsir cəhdlərini milli ədəbiyyat və milli dəyərlərin güclü və köklü olması əngəlləyir. Milli adət-ənənəyə bağlı mühafizəkarlıq dirənişinin qırılması isə ədəbiyyatdan milli kimlik, milli xarakter, milli ideologiya kimi amillərin yoxa çıxması təhlükəsinin artırır.

b) *Yaradıcı şəxsin qloballaşmaya münasibətinin ifadəsi kimi.* Bu münasibətdə yaradıcı şəxsin üzərinə böyük öhdəliklər düşür. Yazıçı öz bədii-fəlsəfi düşüncəsinə və fərdi milli keyfiyyətlərinə əsaslanmaqla ya milliliklə qloballaşma ideyasının vəhdətini, balansını yaradır, ya da modernləşməni və onun tələblərini bir proses kimi ədəbi mətnin strukturuna daxil edir. Qloballaşmanı əsas xüsusiyyət kimi götürərək öz qəhrəmanını millilikdən məhrum edərək dünya insanına çevirir. Təyyar Salamoğlunun da bu prosesə maraqlı yanaşması diqqət çəkir: "*Ədəbi təhlillərdə də çox vaxt milliliklə bəşərilik üz-üzə qoyulur, milliliyə "keçmişin qalığı", bəşəriliyə isə qloballaşan dünyanın tələbi kimi baxılır"* [81, s.118].

c) *Qloballaşmanın təsiri ilə yaradılan obrazların çoxalması kimi.* Qloballaşmanın təsiri ilə hekayədə "qlobal dünya insanı" modeli çoxalmaqdadır. Bu insan qloballaşan dünyanın tələblərinə, "çağırışına" doğru əminli addımlarla irəliləməkdə və "dünya insanı"na çevrilməkdədir. Bir çox hallarda bu xarakterlər özlərinin belə fərqinə varmadan milli kimliyini itirir, özünəgüvənsizlik, özgələşmə kimi sosial, mənəvi, psixoloji hallar yaşayırlar.

Ümumiyyətlə, qlobal düşüncə məkanında bu cür qlobal mövzuların öyrənilməsi XX əsr dünya ədəbi prosesinin ən aktual vəzifələrindən biridir. Onun əsas obyekti isə insan və onun psixoloji durumu və daxili dünyasıdır. Azərbaycan

yazıçılarından Elçin, Afaq Məsud, Azər Qismət, Mirmehdi Ağaoğlu, Türkiyə yazıçılarından Fərid Edgü, Nazlı Eray, Camal Şakar və başqalarının yaradıcılığında bu cür "dünya insanı" modellərinin mənəvi və ruhi dünyası araşdırılır və kifayət qədər uğurlu nəticələr əldə edilir. Bu sıralamanı daha da zənginləşdirmək mümkündür. Amma toxunmaq istədiyimiz əsas məsələ hekayə janrında milli xarakter problemini və qloballaşma prosesinin ona təsirini araşdırmaqdır. Qloballaşma prosesi ədəbiyyatda yaradılan milli xarakterə nəyi aşılayır, onu nədən məhrum edir? Biz bu suallara cavab tapmağa çalışacağıq.

Türkiyə hekayələrində qloballaşmanın təsiri ilə millilikdən uzaqlaşıb, milli özünüdərk problemi yaşayan obrazların mövcudluğu onu deməyə əsas verir ki, qloballaşma milliliyə söykənən amilləri zəiflətməklə obrazları "manqurtlaşma" ilə üz-üzə qoyur. Vətən, millət, milli təəssübkeşlik anlayışlarını onların qavramından çıxarır. Qloballaşmanın təlqin etdiyi "azadlıq", əslində, insanın öz mövcudluğundan uzaqlaşması deməkdir. Türkiyə yazıçısı Ayşə Kulinin "Gülizar" adlı hekayəsinin qəhrəmanı da millilikdən uzaqlaşma təhlükəsi yaşayan və bunun fərqində olmayan obrazdır. Usta Artur adlı obraz da türk qızının gözəlliyindən ilhamlanaraq onun manikenini yaratmaq arzusundadır. Usta Arturun xəyyallarını isə məhz Qərbin həyat tərzi və düşüncəsi ilə yaşayan Gülizarın "dünya insanı" olmaq istəyi puç etmişdir. Qərbə meyillilik Gülizarın özünün də gözəlliyini, xarakterini, istiliyini, mənəviyyatını, ruhunu, davranışlarını öldürməkdə, onu daxilən və zahirən getdikcə kobudlaşdırmışdır.

*"Mənim adım Gülü oldu artıq", – dedi Gülizar.*

*"O niyə elə olur ki?" – deyə Artur usta soruşdu.*

*"Artin əmi, bizim yerlərdə, yəni manikenlərin arasında Gülizar çox kəndçi adı kimi səslənir, – dedi, – qısaltdıq, Gülü etdik. Sən də mənə Gülü de artıq, oldumu?" – dedi Gülizar"* [138, s.562]. Milli kimliyə, dəyərlərə az və ya çox dərəcədə bağlılıq insanın həyat tərzində, xarakterində, vərdiş və davranışlarında özünü büruzə verməkdədir. Göründüyü kimi, hekayədə qloballaşma, Şərq düşüncəli obraza daha tez təsir etməkdə, onu öz dünyasından uzaqlaşdıraraq Qərb düşüncəli bir insana (obraza) çevirməkdədir. Bu dəyişim azad, yeni və maraqlı həyat bəxş etsə də, insanı

özündən, milli kimliyindən qoparmaqla milli ruh və kimlik harmoniyasını parçalaya bilir. Çünki insanı kökünə, xalqına, millətinə, keçmişinə bağlayan, şəxsiyyətini təyin edən əsas xüsusiyyət kimi milli kimlik Şərq insanının özünüifadə forması olaraq dəyər daşıyır. Bu mənada dəyərləri qorumaq və onu gələcək nəsilə ötürmək kimi mənəvi borcun şəxsiyyət üzərində təsiri Şərq aləmində daha güclüdür. Qərbdə isə mənəvi-əxlaqi dəyərlərə bağlılığın nisbəti və ya çəkisi məsələsindəki çatızmazlıq tez-tez rast gəlinən milli-mənəvi böhrana səbəb olur. Şərqdə bu prosesin tam əksinin müşahidə edilməsi Qərbin Şərqə (xüsusilə müsəlman dünyasına) qısqancılıq hissini artırır və bu qısqancılıq Qərb ölkələrinin Şərq ölkələrinə qarşı həm gizli, həm də açıq mübarizəsində özünü büruzə verir. Qərbdə Şərq dəyərlərinin bir fobiya olaraq qəbul olunması "qərbsayağı multikulturalizm" nümayişinə səbəb olur. Bu səbəbdən də, Azərbaycan və Türkiyə dövlətlərinin əsrlər boyu yaşadığı tarix, güclü dövlətçilik ideologiyası, gələcəyə nikbin baxış, ideologiyada millilik və millətçilik faktorlarının güclü olması, onların Qərb ölkələrindən fərqli olaraq milli model böhranlarından yan keçməyə imkan verir. Bəzi alimlərin fikrincə, qloballaşmanın məntiqini, məqsədini başa düşmək üçün ona qoşulmaq yeganə düzgün çıxış yoludur. Sual oluna bilər: bu qədər xoşagəlməz cəhətlərinə baxmayaraq, bütün dövlətlər niyə qloballaşma prosesinə daxil olmaq istəyir? Cavab sadədir: heç bir dövlət bu prosesin müsbət (görünən) tərəflərindən kənarda olmaq, qlobalistlərin ümidverici vədlərinə inanaraq bəşəriyyətin ümumi inkişafından geri qalmaq istəmir. Vahid Ömərov "Azərbaycançılıq və qloballaşma" adlı məqaləsində qeyd edir: *"Qloballaşma prosesinin özü ilə xeyir və yaxud şər gətirməsi barədə suala birmənalı cavab olmasa da, bir məsələ aydındır ki, əgər dövləti ənənəvi milli dəyərləri modernist dəyərlərlə birləşdirməyə qadir olmayan adamlar idarə edirsə, əgər dövlət öz inkişafının perspektivlərini aydın görə bilmirsə, o zaman qloballaşma o ölkəni uğursuz transformasiya edir"* [77, s.5]. Məlumdur ki, qlobal dünyadan kənarda qalmaq qorxusu ilə yanaşı, bu mübarizədə öz milli kimliyini qorumaq hissi də vardır. Kənar müdaxilələrə baxmayaraq, milli kimliklə yanaşı dəyərlərin tamamən dəyişməsi və assimlasiyası Şərq modelinə yad bir xüsusiyyətdir. Sabir Nuriyevə görə isə *"müasir qlobal siyasi proseslər köhnə təsəvvürlərdən, dünyamıza aid köhnə sterotiplərdən*

*azad olunduqca dünya inkişafının dialektikasını aydın ifadə edir*” [76, s.76]. Bu fikirlə bir şərtlə razılaşmaq mümkündür ki, həqiqətən də, əgər qloballaşma zamana uyğun olmayan, ağla-məntiqə sığmayan, dayanıqlığını itirən dəyərlərə qarşı mübarizə aparırsa, bu prosesdə cəhd yalnız inkişafla bağlıdır. Yox əgər bu cəhd xalqın simasını ifadə edən milli kimlik kimi dəyərlərin məhvinə yönəlibsə, deməli, vəziyyət tragik və qorxuludur. Bu səbəbdən də qloballaşmanı *“Bu qarşılıqlı əməkdaşlıq, iqtisadi münasibətlər, siyasi basqı, mədəni hücum, texnoloji üstünlük və Şərq ölkələrinin assimilyasiyasına qədər humanist pərdə arxasında fəaliyyət göstərən bir Qərb siyasətidir”* [33, s.89] kimi xarakterzə edənlərin fikirləri ilə razılaşmalıyıq. Ona görə də milli mənsubiyyətindən, dinindən, dilindən, hansı mənəvi dəyərləri daşımasından asılı olmayaraq, qlobalistlər dünyanı eyni qəlibə salmağa çalışmaqla hər xalqın özünəməxsusluğunu tədricən aradan qaldırır və millətlərin düşüncəsini dəyişməyə, manqurtlaşma siyasətini yeritməyə çalışırlar. Hər xalqın milli xarakterinə bağlı olan millilik çalarları qərbləşdirilərək milli mənəvi aşınmaya məruz qoyulur, beləliklə, “qlobal insan” tipi yaradılır. Qloballaşma isə son dövrlərdə elə bir səviyyədədir ki, onun təsiri artıq daha çox hiss olunmaqdadır. Müasir dövrün texnoloji prosesləri, texnoloji nailiyyətləri qloballaşmanın mənəvi sferaya təsirini aktivləşdirir. Bu axına qalib gəlmək üçün “kütləvi düşüncə mədəniyyətinə” lazımı vaxtda “yox” deməyi bacarmaq lazımdır. Bütün deyilənlərə rəğmən etiraf edək ki, Qərbin Şərqə təsir gücü nə qədər qüvvətli olsa da, Şərqin də Qərbə təsirini danmaq olmaz. Qərb hər dəfə qarşılaşdığı Şərq mədəniyyətindən (Şərqin mənəvi və sehrli təcrübəsindən) bəhrələnməklə, onun mədəni-mənəvi dünyasının yeniliklərindən istifadə edərək öz məzmun çalarını (daha çox incəsənət sahəsində) artırır. Qloballaşma üzərinə araşdırma aparmış Türkiyəli tədqiqatçı Dr. Mustafa Arslanın məqaləsində deyildiyi kimi, *“Qloballaşma – sahib olduqlarımızı paylaşmaq, bizdə olmayanı əldə etməkdir”* [114, s. 9] və qloballaşmada Şərq-Qərb konteksində dəyərlərin bir-birinə qarşılıqlı təsiri cəmiyyətlərarası, mədəniyyətlərarası münasibətlərin formalaşdırılmasında mühüm rol oynayır. Mübarizənin gücünə və təsirinə baxmayaraq, yalnız Şərq insanı özünəməxsus tarixi, genetikası, milli kimliyə və mənəvi dəyərlərə sadiqlik kimi keyfiyyətləri ilə Qərbin ortaya atdığı “dünya insanı” modelinə və “soyuq insanı”na

meydan oxumaqdadır. Qərblə Şərqin müqayisəsini qlobal sivilizasiya və Şərq dəyərləri kontekstində müqayisəyə gətirən görkəmli ədəbiyyatşünas Yaşar Qarayev də "*Şərqin ən böyük fəlsəfələri XX əsrdən hələ çox-çox qabaqkı yüzillərdə dünyada vüsət tapıb və həqiqi, əsl işığı və harmoniyanı həmişə daxili-mənəvi gözəllikdə, saflıq, mükəmməlik, halallıq yaşayan səmada və torpaqda tanıyıb"* [56, c.4, s.680] – yazaraq Şərq dünyasının nəzərə çarpan özəlliklərini qeyd etmişdir. Onlardan biri də türklərin əsrlər boyu bütün tarixi ərazilərdə inkişaf edərək zənginləşən vahid, yetkin adət sisteminin olmasıdır. Bunlar milliliyə bağlı toy adətləri və onun kimi milli-mənəvi dəyərləri xarakterzə edən digər mərasimlər, nəsillərdən nəsillərə ötürülən adət-ənənələrdir. Həm də o da məlumdur ki, müsəlman aləmində toy rəsmi nikah mərasimi olmaqla yanaşı, həm də xalqın milli xarakterini, mənəvi dəyərlərini, tarixi mədəni həyatını (qız bəyənmə, nişanlılıq, tanışlıq dövrü, toy öncəsi adətlər, toyun özü) və bir çox adət-ənənələri özündə əks etdirir. Bu adət-ənənələr isə Qərbdən fərqli olaraq, Şərq aləmindəki insani münasibətlərin möhkəmliyini artırır, qohum-əqraba arasındakı əlaqələri daha da yaxınlaşdırmaqla yanaşı, milli kimliyə bağlılıq baxımından müsbət məna kəsb edir. Ərdal Özün "Sular nə gözəlsə" adlı hekayəsi mahiyyətcə elçiliyi əks etdirsə də, məzmun baxımından səyahət xarakterlidir. Belə ki, hekayə Türkiyə hekayə yaradıcılığına məxsus süjetsiz, xatirə, hiss, arzu ve real gerçəkliklərdən ibarət yaradıcılıq işidir. Hekayənin qəhrəmanı gənc bir oğlan sevgilisinə elçi düşmək üçün yola çıxır. O, tanımadığı yerlərə ayaq basıb, ünvanı bilmədən, yalnız təsadüfi rast gələn insanlarla xoş münasibət qurub, axır ki, sevgilisinin yaşadığı "48" saylı evi axtarıb tapır. Gənc axtarışa çıxarkən ancaq evin yiyəsinin adını və ünvanını soruşmaqla yoluna davam edir: *"Buralarda Şəfik bəyin evi olacaqdı; onu axtarıram"* [148, s.568], obrazın yoldan ötənlərə ünvanlandığı bu sual, əslində, türklərin düşüncə tərzində formalaşan xarakteri, əxlaqı, vərdiş sistemini əks etdirir ki, əgər gedəcəyin evin ünvanını tanımırsansa, o evin böyüyünün, ağsaqqalının adını çəkməklə gedəcəyin ünvana yetişə bilərsən. Hekayənin mətnaltı strukturunda ifadə olunan bu milli cizgi həm o dövrün ictimai mühitini, adət-ənənəsini, mənəvi-dəyər səviyyəsini göstərmək üçün işlənmiş, həm də ümumtürk psixologiyasını milli mərasimlər (toy, nişan mərasimləri) fonunda əks etdirmişdir.

Qloballaşmaya qucaq açan hansısa Avropa ölkəsində bu faktlara rast gəlmək mümkün deyildir. Ona görə ki, Qərbdə Şərqdən fərqli olaraq mentalitet və xarakterin formalaşması xalqın etnopsixoloji tarixinə bağlılıqdan daha çox fərdi düşüncə ilə əlaqəlidir. Çünki "*Qərb mədəniyyəti üçün texnika və texnologiyanın inkişafının tezləşdirilməsi, dünyanın tez dəyişməsi xarakterikdir. Şərq mədəniyyəti isə daha çox insana, onun mənəvi kamilliyinə yönəlib, xarici dünyaya münasibət isə passivdir"* [97]. Amma etiraf etməliyik ki, müasir zamanın tələbləri və perspektivləri dəyişsə də, belə vacib olan və dəyişməyən bir nəticə varsa, o da bu milli-mənəvi dəyərlərə sadiqliyin ümumtürk mədəniyyətinin vacib amillərindən biri olduğuna inanmaqdır. Ona görə də türkoloq Muhsin Kadıoğlunun düşüncəsində "türk kimdir" sualı belə cavablandırılmışdır: *"Türklər tarixi keçmişinə sadiq olan, varislik ənənələrini qoruyub saxlayan millətdir: Türk olmaq tarixi ilə qürur duymaq deməkdir. Türk olmaq Atasını tanımaq, türkün və türklüyün atasına hörmətdə qüsura yol verməmək deməkdir..."* [131, c.59, s.37].

Bildiyimiz kimi, ümumtürk mədəniyyətinin bir parçası sayılan Azərbaycan da ortaq dünya mədəniyyəti sistemini formalaşmasında vacib rol oynamaqdadır. O, ortaq dünya mədəniyyət sistemini xalqının sosial-psixologiyası, zəngin tarixi düşüncə tərzi, bədii təfəkkür, etik-estetik baxışları ilə zənginləşdirməklə bərabər, milli özünüdərk siyasətini həyata keçirə bilir. Türkəçarəlik sisteminin özü də Şərq dünyasının mənəvi (mədəni) irsinə, Şərqin mistik fəlsəfəsinə bağlı olduğundan Azərbaycan xalqı onu öz həyat tərzində, düşüncəsində yaşadır. Vüqar Tapdıqlının "Ağaclar susanda" hekayəsində türkəçarəyə inam mexanizmi, inanc modeli Azərbaycanın mənəvi dəyərləri kontekstindən işlənməklə təsvir edilmişdir. Belə ki hekayədə nə obraz rəngarəngliyi, nə də hadisə var. Hekayədə sadəcə bu inancın daşıyıcısı olan insanın inamı öz əksini tapmışdır. "*Şərqlə bağlı klassik dəyərlərdə xalis mənəvi məqamın nisbətən daha böyük üstünlük təşkil etməsini mütəxəssislər onunla izah edirlər ki, klassik Şərqdə hikmət və fəlsəfə həmişə şəriətdən, təriqətdən və mərifətdən sonra gələn həqiqət anı və məkanı kimi doğula, var ola bilibdir"* [56, c.4, s.684]. Amma Qərb adamı belə yanaşmanı qəbul etmir. Ona görə ki, Qərb adamı Şərq adamından fərqli olaraq, hər hansı bir problemin həllinə biliyə əsaslanan elmi səviyyədə yanaşır

və *"yalnız faktlarla təsdiq edilmiş bilik qənaətbəxş hesab olunur"* [109] fikri Qərb dünyasının ideologiyası kimi çıxış edir. Nəticə etibarilə Şərqdə daha çox ənənəçilik, Qərbdə isə müasirliyin keyfiyyətləri mövcud olan reallığı formalaşdırır. Məsələn, Vüqar Tapdıqlının "Ağaclar susanda" hekayəsindəki Mələk xalanın otlardan düzəltdiyi dərmanlar qədim bir inanc sistemi olan xalq təbabətinə inamı əks etdirir. *"Qonşularımız, qəsəbənin adamları Mələk qarının otlardan düzəltdiyi məlhəmlərin xeyrini çox görmüşdü. Sağalmaz dərdlərə əlac tapırdı"* [98, s.83]. Hekayədəki bu inam və düşüncə həm də milliliyi öz simasında əks etdirən Mələk xalanın illərlə, əsrlərlə, nəsillərlə ötürülən adət-ənənəyə, inanc və dəyərə, ən əsası isə etnoyaddaşa olan sadiqliyidir. Etnoyaddaşa sadiqliyin özü, ona inanmaq, bu inamı təbliğ etmək yaşatmaqla birlikdə milliliyi, mədəniyyəti ifadə etməkdir. "*Milli kimliyi milli mədəniyyətin formalaşdırdığını söylədik; milli mədəniyyət də milli həyatın bütünüdür, – dedik*" [137, s.136]. Ona görə də türk dünyasında yayılan bu günə kimi davam edən türkəçarəlik xalq təbabəti sisteminin öyrənilməsi baxımından böyük önəm daşımaqla yanaşı, bu mənəvi irsə inam, inanc sistemi ümumşərq fəlsəfə düşüncəsinin bir hissəsi kimi araşdırılmalıdır. Bu fakt Azərbaycan xalqının millilik, etnoqrafik yaddaşının qorunmasında aktuallıq kəsb edir. "*Türkəçarəliklə bağlı mifik təsəvvürlərin öz ifadəsini tapdığı magiya və ovsunlar sistemi istənilən etnosun bütövlükdə yaşam tərzinin, onun mentalitetinin ən əski kod və simvollarını təşkil edir ki, bu simvollarda ifadəsini tapan həmin genetik kodlar mürəkkəb inanc, davranış və biliklər sistemi əmələ gətirir"* [42, s.3]. Beləliklə, Ərdal Özün təhlilə cəlb edilmiş "Sular nə gözəlsə", Vüqar Tapdıqlının "Ağaclar susanda" hekayələrində təsvir edilən milli-mənəvi dəyərlər qloballaşma prosesində xalqlar arasında baş verən sintez və mübadiləni həyata keçirməkdə əhəmiyyətli olduqları qədər də, ortaq dünya mədəni sistemini formalaşdırmaqdadır. Amma müasir dövrdə sağlam mədəni-mənəvi mühit formalaşdırmaq qloballaşma prosesində çox çətindir. Ona görə ki, bu gün Türk dünyasının milliləşməsi, ənənəçiliyi, mühafizəkarlığı ilə Avropanın novatorluğu və qloballaşma meyli birlikdə ya harmoniya yaradaraq dünya mədəniyyəti modelini formalaşdırmalı, ya da əks qütblərdən bir-birinə qarşı mübarizə aparmalıdır. Baş verən bu antitezanın özü qloballaşma prosesini hərəkətə gətirsə də, fəsadları da

vardır. Rahid S.Uluselin "Qloballaşma və müasir ədəbiyyatın fəlsəfi-estetik problemləri" kitabında qeyd edildiyi kimi, "*həmin meyillər çarpaz şəkildə əlaqələnəndə, yəni modernləşmə ənənədən gələndə, ənənəçilik ümumbəşəriliyə yol açanda, demək olar ki, ideal variant yaranır: bədii sənətin inkişafında optimuma çatılır. Bütün klassika, demək olar ki, bu optimumda yaranıb*" [101, s.134].

Yaqub Əlioğlunun *"Dul qadının ərini anma günü"* adlı hekayəsində obrazların milli xarakterini ifadə edən mənəvi dəyərlərə münasibət hər iki dünyanın (Qərb və Şərq) düşüncə tərzinə uyğun olaraq və dini dəyərlər (müsəlman və xristian) sistemi çərçivəsində müqayisəyə cəlb edilmişdir. Hekayədə ölüm ayağında olan müsəlman Kərim Sultanoviç xristian olan həyat yoldaşı Esmiraldanın dini və milli mənşəyinə bələd olduğundan dəfninin təşkilini sürücüsü müsəlman Paşaya vəsiyyət edir. Bu dünyada müsəlman dəyərləri və qanunları ilə elə də yaşamayan Kərim Sultanoviçin vəsiyyəti isə o biri dünyaya islami qaydalarla köçməkdir. Əlbəttə ki, Paşa mərhuma verdiyi sözün üstündə durur və tapşırdığı kimi də onun dəfnini təşkil edir. Lakin Esmiralda xanım yenə də dəfn mərasiminə öz qayda-qanunlarını diktə edir, həm mərhumun həyat yoldaşı, həm də müasir düşüncəli, varlı-pullu biznes-ledi kimi. O, özünün Qərb və xristian düşüncəsinə görə, ərinin ruhuna hörmət etməyərək, dəfni öz dini dəyərlərinə uyğun reallaşdırır. Burada mənəvi dəyərlər həm Şərq-Qərb dünyası kontekstindən, həm də müsəlman-xristian dinlərinin nümayəndələrinin dini-mənəvi dəyərlərə olan inam və hörmətinin nisbəti aspektindən müqayisəyə gətirilir. *"Paşa yas mərasimi ilə bağlı onun fikrini bilmək istədikdə Esmiralda xanım sərt bir səslə: – Bura bax, Paşa, mənim boş-boşuna işlərə xərcləyəcək pulum yoxdur, bildin? Özüm bir aydan sonra gəlirəm. Gəlib Kərim üçün bir anım günü təşkil edəcəm!"* [25, s.89]. Amma etiraf edək ki, İslam dini və mədəniyyəti digər dinlərin mədəniyyətinə, adətinə hörmət etməyi tələb etdiyindən bu düşüncəni daşıyan müsəlman qadını belə bir addım atmazdı. Ümumiyyətlə, İslam dini humanist bir din olduğundan tarixən yayıldığı bütün ərazilərdə aid oduğu xalqın milli və mənəvi dəyərlərinə hörmətlə yanaşmış və yanaşmaqdadır. Bu kontekstdən çıxış edərək Ziya Göyalpın türk xarakteri haqqında verdiyi doğru tərifi ümumtürk psixologiyasının formalaşdırdığı Azərbaycan xalqının da milli xarakterinə aid etmək mümkündür. "*Türkçülük bütün*

*eşqi ilə yalnız öz orijinal mədniyyətinə vurğun olmaqla bərabər, şovinist və fanatik deyildir. Avropa mədəniyyətini tam və nizamlı surətdə almağa girişdiyi kimi, heç bir millətin mədəniyyətə qarşı laqeydliyi və saymamazlığı da yoxdur. Əksinə, bütün milli mədəniyyətlərə qiymət veririk və hörmət edirik*" [37, s.17]. Əslində, milli dəyərlərə hörmət bəşəri bir keyfiyyətdir. Çünki hər xalqın milli xarakterinin vacib ünsürlərindən biri də ümumbəşərilik prinsipidir. Bu prinsip qloballaşmada ortaq mədəni dəyərlərin sintezi və mədəniyyətlərarası əlaqələrin formalaşmasında müsbət təsirini göstərməkdədir. Azərbaycanın görkəmli alimi Yaşar Qarayev ümumtürk təfəkkür tərzinin bir parçası hesab edilən azərbaycançılıq ideologiyasının əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanmasını vacib amil olaraq göstərmişdir: "*...onun etnik arxetipi də, bədii-estetik kodu da, ilkin mifik-fəlsəfi şifrəsi də millidir və həmişə bəşəridir və həmişə demokratikdir, eyni zamanda, həm millidir, həm də bəşəridir"* [56, c.4, s.692-693]. Onu da qeyd edək ki, hekayədəki dini dəyərlərə hörmət məsələsi nəinki milli-mənəvi özünüdərkin mahiyyətini ortaya qoyur, həm də dini ünsürlərlə zəngin etnomədəniyyətin, etnopsixologiyanın qloballaşan dünyada vacibliyini irəli sürür. Əli Əliyev bu məsələni bu cür şərh edir: "*Müəyyən olunmuşdur ki, etnomədəni yeniləşmə dini inanclardan, milli-etnik mədəniyyətdən imtina deyil, əksinə, bu köklərin müasir sivilizasiyaya uyğunlaşdırılaraq daha da dərinləşdirilməsidir"* [29, s.80]. Bu fikirlə razılaşmaq lazımdır, çünki, həqiqətən də, tarixi-ictimai hadisələrin təsiri ilə unudulan etnomədəniyyətə söykənən milli dəyərlər bu gün də qloballaşan dünyada milli özünüdərk hadisəsi olaraq mühüm komponentlərdən biri kimi çıxış etməkdədir. Aparılan tədqiqatlar həm də onu göstərir ki, qloballaşma prosesində ədəbiyyat qlobal məkanın böyük ədəbi prosesinə (ədəbi cərəyanlar kimi) daxil olmaqla, onun imkanlarından istifadə edir və özünəməxsus milli mədəniyyət sferası formalaşdırmağa çalışır. Bu zaman Qərb düşüncəsinə meyil edən qloballaşmanın obraza "dünya sənin vətənindir" fikrini aşılaması bir ümumi tendensiya kimi ortaya çıxır. Rahid S.Ulusel qloballaşmaya məhz bu aspektdən yanaşaraq nəticəni bu cür qiymətləndirir: "*Mədəniyyət (və eyni zamanda ədəbiyyat) milliləşdikcə universallaşmalı, universallaşdıqca milliləşməlidir. Çağdaşlaşmanın yeganə texnologiyası budur"* [101, s.31]. Həqiqətən də, belədir. Hər bir ölkənin

qloballaşmada mühafizə edilən özünəməxsusluğu və milliliyi bu prosesə öz töhfəsini verir və onu universallaşdırmaqda davam edir. Qlobal düşüncə tərzi artıq XX əsrin 2-ci yarısından sonra Azərbaycan və Türkiyə milli ədəbiyyatlarının mahiyyətinə təsir etməklə hər iki ölkənin ədəbiyyatında modernizm cərəyanının başlanğıcını qoydu. Sonra bu prosesdə ekzistensializm, sürrealizm, feminizm meyilləri də özünü göstərdi. Ədəbiyyatşünas Əlizadə Əsgərli "Azərbaycan ədəbiyyatında modernizm cərəyanı olubmu?" adlı məqaləsində İsa Həbibbəylinin fikirlərinə istinad edərək yazır: *"Akademik İsa Həbibbəyli modernizmin meydana gəlməsini Birinci Dünya müharibəsinin nəticəsi hesab edir, lakin onun Azərbaycan ədəbiyyatında təzahürünü 1960-cı illərlə bağlayır və onu bir sıra ədəbi cərəyanın bəhrəsi bilir (ekzistensializm, sürrealizm, futurizm, dekadentizm və s.), postmodernizmin doğuşunu da (II Dünya müharibəsi faktını da istisna etmir) bununla – 1991-ci il Azərbaycan müstəqilliyi ilə bağlı izah edir və onların xüsusi tədqiqata ehtiyacı olduğunu bildirir"* [32, s.22].

Türkiyənin tanınmış tədqiqatçısı Nəcib Tosunun araşdırmasına görə, Türkiyə ədəbiyyatında 1980-ci il hərbi çevrilişindən sonra baş verən siyasi hadisələr ədəbi proseslərə və cərəyanların yaranmasına təsir göstərdi. Azərbaycan ədəbiyyatından fərqli olaraq, Türkiyə ədəbiyyatında daha erkən başlayan qloballaşma prosesi ədəbiyyatda modern tendensiyaların formalaşmasını daha da aktivləşdirdi: "*Ədəbiyyatda belə bir dəyişim izlənildi: dərin bir qopma, qopmanın yaratdığı çaşqınlıq. Keçmişlə hesablaşma, əvvəlcə keçmiş üçün darıxma, söylənən ağılar, nostalji hissi. Sonra yalnızlaşma, ətrafın boşalması. Ardınca da arayış, boşluq duyğusu"* [171, s.59].

Tehran Əlişanoğlu "Milli modernizm ədəbiyyatının gəlişməsində Afaq Məsudun rolu" adlı məqaləsində milli modernizmi Afaq Məsudun yaradıcılığı əsasında təhlil etməklə Azərbaycan ədəbi prosesinin ümumi mənzərəsini təsvir edir: "*60-cıların cəmiyyət fəlsəfəsindən, fərd-cəmiyyət münasibətlərindən birbaşa fərdin fəlsəfəsinə keçmək məhz onlara müyəssər oldu. Milli və sosial ətrafa çox da aludə olmayıb, milli fərdi birbaşa dünya insanı modelində axtardılar və kəşf etdilər"* [26, s. 406]. Obrazlarının fərqliliyi ilə gündəmə gələn Afaq Məsudun "Qəza" hekayəsindəki qadın qəhrəmanı da millilikdən uzaqlaşıb modern olmağa çalışan obrazdır. "*Afaq*

*Məsud nəsrində insana, sosial fərdə məxsus bir çox məqamların – həyatın, ömrün, yuxu və gerçəklərin, cəmiyyətin, məişətin, için məcmuyu bacarıqla bir psixoloji fokusda toplaşır, çağdaş insanın daxili obrazı nəşət edir*" [28, s.59]. Hekayənin əvvəlində yazıçı tam tipik azərbaycanlı qadını və anası ilə bizi qarşılaşdıraraq, gündəlik ailə qayğılarını zərif çiyinlərində daşımağa məcbur qalan qadını belə təsvir edir: *"Əsəbi-əsəbi fikirləşdi ki, normal adamlar idmanı səhərlər eləyir. Sonra duşun altına girib çimir, səhər yeməyi yeyir və sair. O isə səhərlər xalatını əyninə keçirməyi zorla çatdırırdı. Üç uşağı yedirtmək, geyindirmək, ərini yedirtmək, geyindirmək..."* [65. s.71]. Hekayənin sonunda isə o, artıq "iç"ində kök salan milli varlığından xarakterindən qurtulmağa can atan bir obraz kimi "azadlığa", millikdən modernliyə adlamaq fürsətini gözləyir. Əli Əliyev bu psixoloji hadisəni belə şərh edir: *"İnsan psixologiyasının öz qəribəlikləri var; qadağa olunan şey cəzbedici olur. Bu isə Şərq insanının Qərb həyatına marağını artırırdı, lakin bu inteqrasiya o qədər də asan getmir. Onun özünəməxsus bir-sıra sosial, mənəvi, psixoloji çətinlikləri vardır*" [29, s.27]. "Qəza" hekayəsinin qəhrəmanı da stereotiplərdən qaçmaq istəyən bir azərbaycanlı qadını kimi daxili dünyasında tərəddüdlər keçirməkdə və ziddiyyətlər yaşamaqdadır.*"Azadlıq haqqında fikirləşdikcə beyninə o qədər təzə fikirlər, yeni həyat üslubları gəlirdi ki, onları üst-üstə, böyür-böyürə yığanda tamam ayrı həyat alınırdı, o da tamam ayrı adama oxşayırdı."* [65, s.79]. Belə bir sual yaranır: bütün azadlıq arzulayan qadınlar Avropa düşüncəli, Qərb təfəkkürlü, qloballaşan dünyanın qadınlarıdırmı? Təbii ki, yox. Sadəcə, onlar müasir dünyanın qadını olaraq stereotiplərdən kənar yeni düşüncəyə, intellektə sahib olmaq istəyən qadınlardır. Bütün hallarda istisnalar mövcud olduğundan, müasir Azərbaycan qadınının obrazı haqqında fərqli təsəvvür və yanaşmalar vardır. Fikrimizcə, yalnız azadlığını və arzularını ailə, milli dəyərlər çərçivəsində reallaşdıran qadınlar əsl Azərbaycan qadını obrazını yaradır.

Qlobalistlərin təbliğ etdiyi Qərb dünyasının isə qadına tamamilə fərqli yanaşması vardır. Onlar üçün qadın məsələsi ictimai bir problem kimi həll edilir. Bu səbəbdəndir ki, Qərbdə baş verən inqilabların nəticəsi olaraq, ilk dəfə qadınların kişilərlə bərabərhüquqlu olması məqsədi və cəhdi "feminizm" kimi siyasi-ideoloji

baxışın başlanğıcını qoymuşdur. Afaq Məsudun qadın qəhrəmanları bəzən də feminist mövqedən çıxış edən qadınlardır. *“Feminizm meyillərində mövcud olan ifratçı və təfritçi nəzəriyyələr səbəbi ilə modernizmdən yüksəkdə olan digər bir feminizm nəzəriyyəsini irəli sürürlər. Bu nəzəriyyənin xüsusiyyətlərindən biri nisbiliyə inanmaq və hər növ sabit əqidələri inkar etməkdir”* [54]. Nəticələr göstərir ki, feminizm qadın hisslərinə qarşı birtərəfli mövqe nümayiş etdirməklə yanaşı, vücudunun digər keyfiyyətlərini məhv etmək xüsusiyyətlərinə də malikdir. Bu problem Azər Qismətin “Amerikasayağı arzu” hekayəsinin də mövzusudur. Belə ki bir zamanlar birinci ərinə yalvarışla “*qurban olum məni boşama”* [59], – deyən Nigar ərindən boşanmaqla ikinci dəfə ərə gedərək yaşamaq üçün Amerikaya köçür. Bildiyimiz kimi, qloballaşan dünyada Amerika həyat tərzinin təbliği, Amerikasayağı düşüncə formasının kütləvi şəkildə şüurlara yeridilməsi, təbliğ edilən sakit həyatın, maddi rifahın zəmanət verilməsi onlarda, bir növ, özgüvən hissini artırmış olur. Bunun səbəbidir ki, Nigar Amerikaya köçməklə həyat tərzini, düşüncəsini dəyişir və arzusuna çatır. Ürəyində qalan “bircə arzusu” var, o da elə Amerikasayağı arzudur. Bu arzu, Vətəninə qayıtmaqla reallaşdırmaq istədiyi bir arzudur. Bu arzu, ədəb-ərkandan uzaq, Şərq qadınına yaraşmayan tərzdə geyinib, davranış və qeyri-etik nitqi ilə ətrafdakıların diqqətini özünü çəkməyə nail olmaq, illərdir arzuladığı özünütəsdiq cəhdini həyata keçirməkdir. “*Qadın qışqırdı. Və onun etdiyi hərəkət hamının matını qurutdu. Qadın arxasını ərinə tərəf çevirib əyildi, donunun ətəyini lap yuxarı qaldırıb* - *orasına qoşaəlli sillə vurub "ala eeeeeee”,* - *deyə qışqırdı...”* [59]. Yazıçının qeyd etdiyi bu təsvirdəki açıq-aydın, önəmli cizgilər onu deməyə əsas verir ki, qərbləşmə, “dünya insanı” olmaq istəyi, Şərq düşüncəli və təfəkkürlü insana nə qədər cəlbedici görünsə də, qloballaşmanın rasionalizmdən daha çox mənəviyyata təsiri ağır nəticələr verə bilər. Bu mənada Azər Qismət də bu hekayəsi ilə qloballaşan dünyada millilikl ə modernlik paralelində dəyişən obrazını müzakirə obyekti edə bilir. Azərbaycanlı yazıçı İlqar Fəhminin “Səndən nigaranam” hekayəsində düşüncəsi, dünyagörüşü, davranış və danışığı ilə əsl Azərbaycan kişisini xarakterzə edən Əbdül kişi isə ənənə (özü) və yeniliyin (həyat yoldaşı) diktə etdiyi iki zamanın, qlobal dünyanın tələbləri və reallıqları arasındadır. Nə əvvələ qayıdıb öz xarakterini yerid ə bilir, nə də indiki

zamanın tələbi ilə ayaqlaşmağı və razılaşmağı bacarır. Bu ikilik onu məhv edir. Qadına verilməyən azadlıq, onunla bağlı ənənəvi sterotiplər bu hekayədə zamanın, qlobalizmin diktə elədiyi yeniliklərlə əvəz olunur. Əbdül kişinin xarakterindəki milllik yeniliyə meydan oxuya bilmir. Qlobal dünya, müasir dünyanın tələbləri ilə dəyişən qadın düşüncəsinin qarşısında aciz qalan baş obraz geri çəkilmək məcburiyyətində qalır. Qloballaşmanın sterotiplərə meydan oxuması qadına verdiyi azadlıq düşüncəsi, öz fikrini, biliyini təqdim etmək cəhdi və müasir zamanın diktə etdiyi qanunlar bu hekayədə də diqqət mərkəzindədir. *“Amma o, adi ədəbiyyat müəllimi idi, bundan o tərəfə getməyə nə həvəsi, nə də enerjisi vardı. Özü də bunu başa düşürdü. Amma görürdü ki, arvadının enerjisi aşıb-daşır, günü-gündən irəli gedir, yüksəklərə qalxır, onunçün də çəkildi kənara. Arvad kölgəsində dolanmağı sığışdırmadı özünə”* [34, s.110]. Bu hekayə də qlobal dünyanın dəyərlərinin təbliği aspektindən maraq kəsb etməkdədir.

*“Pula inanmaq, praqmatizm, riyakarlıq, özünü yuxarılarda görmək Qərb fəlsəfə və məntiqinin də bizə bulaşdırdığı xəstəliklərdəndir. Məni türksayağı sevginin, öz sevgimizin iqliminə çəkmək istəyirsən. Türksayağı sevgimizə dönək deyirsən. Uzun illərdən bəri uzaq qaldığım türksayağı sevgiyə təkrar qovuşmanın dadını yaşadırsan mənə”* [7, s.89] – bu sözləri deyən yazıçı Mustafa Akgünün “Türksayağı sevgi” hekayəsində qlobalizmin qurbanı olan Sərvət adlı qəhrəmandır. Obraz qloballaşan dünyaya, Qərb yaşayış tərzinə inteqrasiya etməklə qloballaşmanın, daha doğrusu, Qərb fəlsəfəsinin təsirini öz həyatında yaşayır. Bildiyimiz kimi, qərbsayağı yaşanılan həyat və qarşılıqlı asıllıq elə qloballaşmanın vədləridir. Şərq cəmiyyətinə Qərb dəyərlərinin sirayət etməsi kəskin reaksiyaya səbəb olur və millilik hisslərinin təsdiqini gücləndirməyə çalışır. Bu proses hekayədə müflisləşmiş Sərvətin həyatından da yan keçmir. Türksayağı etirafı ilə dostunun yarasına məlhəm olmağa çalışan Bəxtiyarın *“Ürəyimiz pula ibadət edənlərin, sərvətə inananların və göstəriş düşkünlərinin ürəkləri kimi deyil. Eqoizm, riya, dünya sevgisi, qürur kimi duyğulardan uzaqdır. Bu kimi çirkli duyğuları soyunub. Səni bunlardan arınmış ürəklə sevirəm, Sərvət. Səni çılpaq ürəklə sevirəm. Bu sevgi Şərq üsulu sevgidir. Bu türksayağı sevgidir”* [7, s.190] sözləri isə onun Sərvətə olan etirafıdır, sadiqliyidir,

türksayağı sevgisidir. Bu hekayədən belə nəticə alınır ki, qloballaşmada Qərb özünün müsbət halları ilə (cəmiyyətin demokratikləşməsi, informasiya yeniliklərinin yüksək sürətlə yayılması və s.) dünyanı daim təşviş və həyəcanda saxlasa da, mədəniyyətdə milli-mənəvi dəyərlərin mövcudluğu baxımından zəfər çələngini Şərq dünyasına verməli olur. Eynilə Nevzat Kösoğlu da "Qloballaşma və milli hayat" kitabında qeyd edir: "*Tarixi təcrübəmiz və türk dünyasındakı açılmalar dəyərləndirilə bildiyi təqdirdə bizim də dünyaya təklif edəcəyimiz dəyərlər vardır"* [137, s.125]. Qərblə Şərqin qloballaşan dünyada mövcud fərqlərinin aradan götürülməsi həlli mümkün olan səviyyədə deyildir, fikrini də deyə bilmərik. Ona görə ki, qloballaşma nəinki Qərbin, həm də Şərqin məhsulu olmaqla bərabər, kompleks şəklində həyata keçirilən ictimai tərəqqidir.

Bildiyimiz kimi, qloballaşan dünyada yeni texnoloji uğurlar, kompüter texnologiyasının fasiləsiz inkişafı insanların təkcə həyat tərzinə deyil, davranışına, xarakterinə, bütünlükdə varlığına təsir edir. XXI əsrin həm də bəlası adlandırılan texnoloji yeniliklərə alüdə olan insanların mənəvi tənəzzülü artıq bir çox aktual problemləri ortaya qoyur. Firuz Mustafa "Qloballaşma və mədəniyyət" adlı məqaləsində "*Təkcə bu faktı xatırlatmaq kifayətdir ki, "adi" mobil telefonlar XXI yüzilliyin sifətini, sosial-iqtisadi-siyasi mənzərəsini xeyli dəyişdirmişdir. İndi rabitə-kommunikasiya vasitələri insanların təkcə məişətinin deyil, düşüncə tərzinin də bir hissəsinə çevrilmişdir"* [68], –deməklə ümumi mənzərəni təsvir edə bilir. Firuz Mustafanın fikirləri ilə səsləşən özünün "Virtual arvad" hekayəsindəki qlobal düşüncəli obrazı da qloballaşmanın gətirdiyi kompüter yenilikləri ilə üz-üzə qalaraq virtual aləmin toruna düşür. Şərq insanına yad olan vərdişlərlə (virtual aləmdə tanış olduğu qadın, virtual aləmdə doğulan övladı, üstəlik, aliment) o, virtual aləmin oyuncağına çevrilir. Bir qədər yumor üslubunda yazılan bu hekayə acı həqiqəti ilə gündəmi zəbt edir. Hətta sonda obraz problemdən qurtulmağın çıxış yolunu Avropa məhkəməsinə müraciətdə görür. Yenə də son ümidini onu bu dərdə salan Qərbə bağlayır, ondan asılılığı tükənmir. *"İndi yeni sənədlər toplamaqla məşğulam; bu günlərdə Avropa Məhkəməsinə müraciət edəcəyəm. Deyirlər, belə bir qurum var. Özümə savadlı bir vəkil də tutmuşam. Kaş mənim şikayətimə virtual aləmdə*

*baxmasınlar”* [67, s.353] – deyir. Qloballaşan dünyada Qərbə meyillilik məsələsi bu məqamda özünü yenə də doğruldur. Ümumiyyətlə, mahiyyət etibarilə texnikanın müsbət tərəfləri insanların həyat şəraitinin yaxşılaşdırılması üçün hesablansa da, göründüyü kimi, hekayədəki hadisələr ürəkaçan deyil. Bütün texnoloji xidmətlərin müqabilində insan həm psixoloji problemlər yaşayır, həm də insanlarla ünsiyyətdən uzaqlaşıb yenə də son ümidini texnikaya bağlayır. Bu da nəticə etibarilə sosial varlıq olan insanın özünə, milli özünüdərkinə qarşı çevrilmiş olur, xarakterindəki milli sosial-mənəvi cizgiləri zəiflədə bilir.

Camal Şakarın “Bir tip” adlı hekayəsindəki qəhrəmanın da həyatına, daxili aləminə təsir etmiş texniki vasitələr onu sosiallaşdırsa da, özünüdərkdən, dəyərlərdən imtina etməsinə, ailəsindən uzaqlaşmasına səbəb olur. *“Outlooku açdı. Trenyoldan, Markofonidən, Morpihodan, Limangodan fürsət mailləri də yağırdı....”* [162, s.97]. Camal Şakarın bu hekayəsi dövrün tələblərinə görə müasir texnologiyanın termin və anlayışlarıyla əhatə olunmuşdur. Bunlar internet, sosial media və yeni texnoloji ünsiyyət vasitələridir. Yazıçı bunlardan istifadə etməklə hekayədəki "müasir insan" obrazını yaratmış, xüsusən də insanların modernizm toruna düşdükləri vəziyyəti təsvir edərək onları real həyatdan, öz kimliyindən uzaqlaşdırmasına səbəb olan Qərb həyat tərzini tənqid etmişdir.

Camal Şakarın “Pıçıltı” adlı digər hekayəsindəki müasir qadın tipi də modern həyatın yetişdirdiyi obraz olaraq bədbəxtliyi, səbəbsiz ağrı və acıları ilə qlobal dünyanın insanıdır. Hekayədə modern həyatın, qlobal dünyanın bir çox cəhətləri süjet boyunca obrazın modern həyatını simvolizə etməkdədir. O, milli-mədəni dəyərlərdən uzaqlaşmış, milli özünüdərkə yadlaşmış bir obrazdır. *“Qanadlarımı toxundurdum, oyandı qoca şəhər, qocalmış İstanbul, bir toxunuşla oyandı, dalğalandı və xəbərdarlıq edildi insanlara...* ” [163, s.90] – deyən şeytan dünya gözəlliklərindən uzaqlaşmış bu qadını artıq heç nə ilə təəccübləndirə və ovsunlaya bilmək iqtidarında deyildir. Göründüyü kimi, “dünya insanı”na şeytanın xisləti və hiyləgərliyindən daha çox qlobal dünyanın təsiri daha güclüdür. Nəticə etibarilə, Camal Şakar hekayələrində insanı və dünyanı dəyişən bu qloballaşma prosesi insanı özünüdərkdən, xarakterdən, mənəvi dəyərlərdən uzaqlaşdıraraq həm mədəni

müxtəliflik aşılayır, həm də ziddiyyətli məqamları ilə insan həyatını öz toruna salmağı bacarır. Beləliklə, Camal Şakarın hər iki hekayəsində (“ Bir tip” və “Pıçıltı”) obrazın keçirdiyi daxili sarsıntı, tənhalıq psixoloji problem kimi diqqət mərkəzindədir. Bu prosesdə ən qorxulu vəziyyət isə hər iki obrazın texniki kommunikasiya vasitələrinin əhatəsində olması deyil, insanlardan uzaq düşməsi, öz kimliyindən, insanlarla ünsiyyətdən uzaqlaşaraq özgələşməsi, tənhalaşması, nəhayət, milli özünüdərkdən uzaqlaşmasıdır. “*Çünki tənhalıq halətinin yaranması insanın informasiyaya olan tələbatının ödənilməməsindən deyil, ünsiyyət prosesində emosional tələbatlarının ödənilməməsindən yaranır”* [15, s.82]. Bu mənada, qloballaşmanın xoşməramlı görünən məqsədləri (texnologiyanın inkişafı) nə qədər də insanın gələcəyi üçün hesablansa da, bu prosesin əksinə çevrilməsi hallarına da tez-tez təsadüf edilir.

Mirmehdi Ağaoğlunun “Alman malı” adlı hekayəsində isə qloballaşmaya digər və fərqli aspektdən yanaşılır. Bildiyimiz kimi, qloballaşma gündəlik həyatımıza, məişətimizə fərqli əlamət və detallarla daxil olur. Məsələn, müasir dövrdə insanlar inkişafetmiş ölkələrin həyat tərzindən tutmuş, istehsal etdikləri məhsula kimi hər hansı bir yeniliyə maraqlıdırlar. “Alman malı” hekayəsindəki obraz kimi. Hekayədə yeni alman cinsindən olan inəyə sahiblənən obraz inanır ki, bu inək onun öz ölkəsinin yetişdirdiyi inək cinsindən daha etibarlı və effektlidir. Sonradan hətta Almaniyadan gözlənilmədən qız övladının da xəbərinin gəlməsi obrazın hər ikisinə olan gözləntilərini yüksəldir. O, inanır ki, hər iki “alman malı” onu həyatını dəyişəcəkdir. Nəticə etibarilə, obrazın hər ikisinə olan marağı və ümidi onu artıq Qərbə inteqrasiyaya, qloballaşmanın şirinliyinə aldanan birisinə çevirir. Aydındır ki, bu asılılıq elə qloballaşmanın xidmətlərindən biridir. Əvvəlcə Şərq mentalitetinə uyğun olaraq nikahdankənar övladının üzə çıxmasından ehtiyat edən bu obraz sonradan bu “malla” Almaniyanın ona gələcəkdə verəcəyi müsbət tərəfləri də düşünməyə başlayır. Bu istək isə artıq onda “Qlobal insan” olmaq arzusunu oyadır. Övladının gəlişinə qonaqlıq verir. Əvvəl hamının bundan xəbər tutmasından ehtiyat etsə də, sonradan xəbərin yayılmasına etiraz etmir, hətta sevinir də. Azərbaycan kişisinə xas olan millilik cizgiləri – ailə bütövlüyünün qorunması, həyat yoldaşına sadiqlik hissi

hekayədə Qərb düşüncə tərzinin təsiri ilə getdikcə mövcudluğunu itirir, zəifləyir. Hekayədə obrazın alman övladının həm də "vegeterian" olması Qərb düşüncəsi, Qərb həyat tərzinin detallarının təsvirə daxil olmasını daha da gücləndirir. Bütün hadisələr bundan sonra başlayır. *"Halı xarab olmuş Anna mızıltı ilə elə hey "Ich bin Vegetarierin" "Ich bin Hindu" ("mən vegeterianam, mən hinduistəm") desə də, onun dediklərini anlamaq olmurdu"* [3]. Sonradan Annanın eşqinə bütün ev əhli ətdən imtina edir, tərəvəz və göyərti məhsulları qida rasionunda ön plana keçir. Bu kənardan görünən sadə bir hadisə deyil, əksinə, vegeterianlığın özü elə Qərb həyat tərzinin, mədəniyyətinin təbliğidir.

Nazlı Erayın "Hardayam, mən, hardayam? adlı hekayəsi "sürrealizm"in bir nümunəsidir. Hekayədə qəhrəman zaman və məkan arasında hərəkət etməklə mətndaxili konstruksiyanın predmetinə çevrilir. Yazıçı təhkiyəsi və üslubu obrazın tamamilə Qərb düşüncəli birisi olduğuna işarə edir. *"Unutmuşam ətrafımı, öz dünyama dalmışam eləcə yürüyərkən yoxuşdan aşağı. Görənlər, kim bilir, nə deyəcəklər? Görənlər, kim bilir, nə deyəcəklər? Haradayam mən, haradayam?"* [135, s.252]. Göründüyü kimi, məkan və zaman keçidlərində hərəkət edən obrazın cümlələrində fikirlərin qeyri-səlisliyi, məntiqi ardıcıllığın pozulması, mürəkkəb xaos, şüuraltı düşüncələrin axını aydın görünməyən həyat yaşantıları müşahidə edilir. Bu isə əsərdə sürrealizmin izləridir. Hekayənin bu üslubda yazılması artıq onu və obrazı Şərq dəyərləri və ənənələri strukturundan uzaqlaşdırır.

Beləliklə, qloballaşma qarşısıalınmaz bir prosesdir. O, mənəviyyata, əxlaqa, xarakterə, bir sözlə, insanın psixoloji vəziyyətinə mənfi təsirləri ilə hər zaman gündəmdədir. Bu proses insanın daxil olduğu dünyanı dəyişir, beynində xaos yaradır. Obraz öz dünyasında həqiqət axtarışına çıxır. Çox hallarda buna nail olmadıqda isə qlobal dünyada özünü kiçik, lazımsız, gücsüz, köməksiz hesab edir, tərkidünyalığa, özgələşməyə meyil göstərir, ölüm hissi onun üçün adiləşir, psixoloji sarsıntı ilə üz-üzə dayanır. Qeyd edilən xüsusiyyətlər qloballaşmanın mənfi cəhəti kimi nəzərə alınmalıdır. Bu proses obrazı etnik kökündən, milli-mənəvi dəyərlərdən uzaqlaşdırır, insan yalnız öz problemləri ilə baş-başa qalır, qlobal dünyada özünü axtarır, tapmağa çalışır, buna nail olmadıqda isə intihara cəhd edir. Bu prosesə Azərbaycan

ədəbiyyatında “ekzistensializm”, Türkiyə ədəbiyyatında isə çox zaman “varolusçuluk akımı” adı ilə rast gəlinir. Onu həm də “özgələşmə ədəbiyyatı” olaraq adlandırırlar. Bu cərəyanın əlamətləri 12 sentyabr 1980-ci ildə baş verən hərbi çevrilişdən sonra bir çox obrazların xarakter dəyişikliyində özünü daha çox büruzə vermişdir. Məsələn, Əhməd Uslunun məqaləsində deyili*r: “80-ci illərdən sonra yaranan hekayələrdə də bezmiş, həyatdan sıxılmış bir insan özünə bir çıxış yolu axtarır. Bu çıxış keçmişə dönmək və keçmişlə hesablaşmaq şəklində ola bildiyi kimi olduğu mühitdəki vəziyyəti qəbul edib özünə qapanaraq ölüm qorxusu ilə yaşamaq və ya intihar etmək şəklində müşahidə edilir”* [173, s.582]. Emin Güzəlin “Bir həyat, üç gün və ölüm” adlı hekayəsinin adsız qəhrəmanı da məhz qlobal düşüncənin, tendensiyanın yaratdığı bütün xüsusiyyətləri özündə birləşdirən obrazdır. O, həyatın rəngarəngliyindən, ətrafdakı hadisələri və özünü doğru-düzgün qiymətləndirmədən uzaqlaşan bir obrazdır. Obraz, özünüdərkin və sualların axtarışındadır. O yaşadığı həyatı çərçivəyə almış, amma fikir və düşüncələri sərhədsizdir. *“Sıxıldı....Yuxuya getməzdən öncə öləcəyini düşündü, ölümünü, öldüyünü, ölü olduğunu xəyalından keçirdi”* [128, s.122]. O yalnız bu günü düşünür, gələcəyə ümidsizdir. O hər hansı məqsədə nail olmaq arzusunda deyildir. Bu da ondan irəli gəlir ki, obraz istədiklərini həyata keçirmək üçün hər zaman Şərq dünyasının təbliğ etdiyi, özünüdərk, gələcəyə inam, islami və mənəvi dəyərlərə bağlılıq bacarığından məhrumdur. Qloballaşmanın konsepsiyası emosional hallarda əzilən, bu halından bezən və azad olmağa can atan kimdənsə asılılığı inkar edən insanı yaratmaqdır. Dəyərlərinə bağlı olan, onda istinad nöqtəsi tapan insandan uzaqlaşmaqdır. Bu cür yanaşma isə Şərq təfəkkürünə, Şərq insanının düşüncə tərzinə, onu soy-kökünə bağlayan dəyərlərinə, milli xarakterinə ziddir. Eyni prosesi Azərbaycan yazıçısı Vaqif Sultanlının “Ada” hekayəsindəki qəhrəman da yaşamaqdadır. Hekayənin adsız qəhrəmanı olan bu obraz yataq xəstəsi, əsəbləri gərilmiş, dünyadan, yaxın və əzizlərindən uzaq düşən, həyata özgələşən bir tipdir. Onu bu məşəqqətli həyatdan, əzablardan qurtaran bir dərmanı var – yuxu və yenə də çəpik səsləri. *“O, qismətini bir dəfə yaşamışdı. Bir daha o günlərə qayıtmaq, ona verilən ömrü təkrar yaşamaq istəmirdi. Keçmişini xatırlayarkən həyəcandan içi quruyurdu...”* [157]. Onun ölüm haqqında düşüncələri, o biri dünya ilə bu dünya

arasında yaşanılan ziddiyyətli fikirləri, real həyata pessimist yanaşması obrazın həm də daxili dünyasındakı təlatümləridir. Bu hal-vəziyyət, psixoloji durum Şərq insanı üçün yad bir hadisədir. Ona görə ki, Şərq insanı sosial varlıqdır. O yalnız sosial aləmdə, cəmiyyətdə və ailədə xoşbəxt ola bilər. Bu psixoloji halla isə bu qəhrəman "Şərq insanı" adını qazanmaqdan məhrumdur. "*Qərbdən fərqli olaraq Şərqdə hər zaman fərdin maraqları deyil, ailənin, birliyin, dövlətin maraqlarının vacibliyi qeyd olunur, hakimiyyətə tabe olmaq tərbiyə olunurdu* " [97] fikri bir daha Şərq dünyasının, daha doğrusu, ümumtürk aləminin fəlsəfi-estetik düşüncəsini, mənəvi dəyərlərə olan dayanıqlığını sübut etmiş olur. Beləliklə qloballaşmada milli özünüdərkə, milliləşməyə yanaşma belə bir nəticəni ortaya qoyur:

a) Qloballaşmanı Şərq və Qərb dəyərləri kontekstindən kənarda müzakirə etmək mümkün deyildir. Ona görə ki, qloballaşma prosesinə hansı aspektdən yanaşsaq, yenə də hər iki dünyanın dünyagörüşü öz mahiyyətini yaratdığı fərqli tipik xarakterlər vasitəsilə qloballaşmaya Şərq–Qərb prizmasından yanaşmanı tələb etdi.
b) Qloballaşmada müasir dünyanın Şərq aləminə təbliğ etdiyi dəyərlər nəticəsində ədəbi prosesdə milli cizgilərin işlənmə mexanizmi öz rakursunu dəyişərək, Qərb dəyərləri ilə müqayisə şəkilində aparıldı. Bu isə yaradılan xarakterlərin mahiyyətindəki fərqi ortaya qoydu.
c) Həm Azərbaycan, həm də Türkiyə hekayəsinin müasir ədəbi prosesin inkişafedici tendensiyalarından bəhrələnməsinə baxmayaraq, bu hekayələrdə milli-mənəvi özünüdərkə, milli yaddaşa söykənən dəyərlərə alt şüurda formalaşan ümumtürk əxlaqı və mənəviyyatı prizmasından yanaşma da müşahidə edildi.
d) Azərbaycandan fərqli olaraq Türkiyə qloballaşma prosesinə daha erkən qoşulmaqla milli kimlik problemini daha tez yaşamış, amma qloballaşmanın bütün nöqsanlarına baxmayaraq, bu gün də müasir ədəbi tendensiyalara meyillilik Türkiyə ədəbi prosesində daha aktual şəkildə davam etməkdədir. Ona görə də Ayşə Kulinin "Gülizar", Camal Şakarın "Bir tip", "Pıçıltı" hekayələrindəki modern obrazlar, Afaq Məsudun "Qəza", Azər Qismətin

“Amerikasayağı arzu” hekayələrindəki obrazlardan fərqli olaraq, qloballaşmaya tez qucaq açan, daha doğrusu, “dünya insanı” olmağı mahiyyətcə və düşüncə olaraq daha düzgün yanaşma ilə qəbul edən obrazdırlar. Beləki adlarını öncə sadaladığımız Azərbaycan hekayələrində qlobal obrazların qloballaşmaya meyilliyi Türkiyə hekayələrindən fərqli olaraq daha primitiv şəkildə, ailə-məişət səviyyəsində təsvir olunmuşdur. Amma hər iki tərəfin milli-mənəvi dəyərlər, milli kimlik aspektindən itirdikləri isə onların ümumi cəhəti olaraq müəyyənləşdirilmişdir.

Qeyd edilən bütün nüansları nəzərə alaraq belə nəticəyə gəlmək olur ki, qloballaşma prosesində biz yenə də ümumtürk və islami dəyərlərimizi qorumalı, onu qloballaşmada özünü müdafiə vasitəsi kimi istifadə etməli, həm də millətlərarası mədəni əməkdaşlıqda təbliğ etməliyik.

### 2.3. Milli xarakter sosial problemlər müstəvisində

Həm Azərbaycan, həm də Türkiyədə baş vermiş qlobal, ictimai-siyasi və sosial hadisələrin ədəbiyyata təsirini hekayələrin məzmununda da müşahidə etmək mümkündür. Bu hadisələrin təsviri və reallığı hekayələrdə öz əksini tapmış və tapmaqdadır. İstənilən cəmiyyətin inkişafı prosesində sosial problemlərin insan psixologiyası və xarakterinə təsirinin ağır nəticələri həmişə ədəbiyyatın diqqət mərkəzində olmuşdur. Yazıçı şəxsiyyətini və istedadını da nəzərə almaqla, tədqiqatımızın əsas obyekti olan sosial problemlərin fonunda milli-mənəvi özünüdərklə paralel milli dəyərlərə, milli xarakterə bağlılıq məsələsi hekayələrdə məhz bu səbəblərdən araşdırılmışdır. Qloballaşma dövrünün ədəbiyyata gətirdiyi yeniliklərə və prinsiplərə baxmayaraq, sosial problemlərin təsviri və həyati gerçəkliklər müasir Azərbaycan və Türkiyə hekayələrinin əsas məzmununu təşkil etməkdədir. “*Doğrudan da, əgər bədii əsərdə, xüsusən də nəsr əsərində müasirlərin mənəvi-əxlaqi münasibətləri bütün reallığı ilə təsvir edilirsə, bunun özü müasir cəmiyyətin başlıca problemlərinə toxunmaq deyilmi?!...”* [46, s.23-24]. Vaqif Yusifli

yalnız həyati reallıqlara bağlı olan hekayələri uğurlu sənət nümunəsi hesab edir: *"İstər roman olsun, istər povest, istərsə də hekayə – nəsrin başlıca vəzifəsi həyat həqiqətini dolğun əks etdirməkdir"* [110, s.31]. Hekayə janrının məhdud ədəbi imkanlarını səbəb gətirən yazıçıların çoxu hekayələrdəki hadisələri ya adi məişət səviyyəsində təsvir edir, ya da obrazın hisslərini, duyğu və düşüncələrini ifadə edən zaman psixoloji amili əsas götürürlər. Bütün hallarda yazıçı istedadını nəzərə alsaq, hekayə janrının bədii imkanları haqqında fərqli baxışlara da rast gəlmək mümkündür. Hekayə janrının ədəbi imkanlarını Dursun Əli Tökel belə səciyyələndirir: *"Hekayə özü özlüyündə olan bir mətn deyildir; özü bir başqa şey üçündür və o başqa şey də nəsihət, irfani bilgi və zərb məsəllərdən bir hissə almaqdır"* [168, s.47]. Bu o deməkdir ki, hər bir janr kimi hekayə janrı da öz bədii strukturu ilə müəyyən estetik tələblərə cavab verməlidir. Amma hər hansı problematikanı işıqlandırmaq baxımından estetikadan öncə yazıçı istedadı və hekayənin bədii strukturunun imkanları müzakirə edilməlidir.

Rasim Özdənörən "Hekayə yazmaq" adlı məqaləsində yazır: " .... *hekayə ustası o durğunluğun, səssizliyin, əvvəli və sonu bəlli olmayan bir gül toplama müddətinin içərisində, hətta o müddətin bir anı içində bütün bir həyatın gizləndiyini bizə göstərə bilər"* [151, s.153]. Müəllif bununla hekayə janrının həyati gerçəkliyi əks etdirmək imkanlarının çox olduğunu qeyd edir.

Görkəmli ədəbiyyyatşünas alim Məmməd Arif "Hekayənin imkanları" adlı məqaləsində yazır: "*Əlbəttə, hekayə povesti və romanı əvəz edə bilməz, bunu ondan tələb edən də yoxdur. Amma hekayəni bir o qədər də imkansız hesab etmək olmaz*" [62, s.97]. Tədqiqatçı alim bu sözləri söyləyərək hekayə janrının Azərbaycan nəsrinə qazandırdığı nümunələri sadalamış, onun mövzu və ideyası haqqında maraqlı fikirlər irəli sürmüşdür. Bu dəyərli fikirlərə istinad edərək qeyd etmək istəyirik ki, əvvəlki dövrlərlə müqayisədə son dövrdə sosial problemlərin təsvirinə həsr edilmiş hekayələrin artması hekayə janrının ədəbi imkanlarının genişlənməsi deməkdir. Belə ki, sosial, mənəvi, psixoloji problemlərin təsviri sayəsində insan xarakterinin uğradığı dəyişikliklər, sosial problemlərin insan mənəviyyatına və ruhuna göstərdiyi təsir ön plana çıxmışdır.

Hər iki ölkənin hekayələrini sosial problemlər aspektindən təhlil etdikdə yazıçıların problemə yanaşmasında iki fərqli yanaşmanı görmək mümkündür:

a) Sosial problemlərin adi məişət, çılpaq, primitiv səviyyədə olan təsviri (Azərbaycan hekayəsində sosial hadisələrin çoxu adi ailə-məişət səviyyəsində təsvir olunsa da, müəlliflərin çox az qismi psixoloji məqamlara da diqqəti yönəldir.) (Varis "Zalımlar, babam və əncir ağacı", Firuz Mustafa "Ağır yük", Kamil Əfsəroğlu "Nırx").

b) Sosial problemlərin psixoloji səviyyədə olan təsviri (Türkiyə hekayələrində hadisələr daha çox təəssürat, xatirə, insanın daxili dünyasını araşdırmağa istiqamətlənən psixoloji aspektlidir. Hadisəni təsvir etmək, onu canlandırıb, hekayə imkanlarından istifadə edərək çatdırılması son dövr Türkiyə hekayələri üçün xarakterik cəhət kimi müşahidə edilməmişdir. Onun əvəzinə bu hekayələrin forma və məzmununa avanqard, modernist, ekzistensialist, sürrealist ədəbi-fəlsəfi yanaşma daxil olmuşdur). (Nəcati Güngör "O mənim xalamdır", Aykut Ərtoğrul "Susqunluq", Jale Sancaq "Sevda və Alişan").

Tədqiqatın əsas təhlil obyekti olan milli xarakter problemini biz həm də sosial, mənəvi, psixoloji aspektdə işlənmiş hekayələrin təhlilində axtarmağa çalışacayıq. Çünki milli xarakterin inkişafına təsir göstərən amillər sırasında məhz sosial, mənəvi, psixoloji proseslər də qeyd edilməkdədir. Dünyada baş verən qlobal hadisələrin yaratdığı mənəvi psixoloji problemlər isə bu prosesdə ən ağrılı hal kimi xarakterzə edilir. Çünki şəxsiyyətin psixoloji təhlükəsizliyini, sakit, rahat yaşayış rifahını pozan qlobal dünyanın tələbləri bilavasitə insanın mədəni, mənəvi, əxlaq davranışlarına və həyat tərzinə təsir etdiyindən onun nəticəsi daha təhlükəli hesab olunur. Ailədaxili və maddi, cinsi ayrıseçkilik və yaxud feminizm dəyərlərinin qüvvətlənməsi, sosiallaşma, təbəqələşmə kimi problemlər də milli identiklik və milli xarakter kimi fərdi və yaxud sosial, mənəvi, psixoloji sarsıntının yaranmasının səbəbləri kimi qiymətləndirilə bilər.

Bildiyimiz kimi, bütün zamanlarda ədəbə, əxlaqa xidmət edən ədəbiyyat insanın daxili "mən"ni dəyişən, mahiyyətini alçaldan, xarakterini cılızlaşdırıb şəxsiyyətinə kölgə salan amilləri həmişə tənqid etmişdir. Təəssüflər olsun ki, bu sadalanan amillər son dövr hekayələrin mövzu və ideyasında yüksək bədiilik, ictimai

məzmun qazanmır. Bu da ondan irəli gəlir ki, müasir dövrdə artıq qlobal dünyanın diktə etdiyi qanunlar və qanunlar çərçivəsində dəyişən, formalaşan insan tiplərinin obrazları daha çox maraq kəsb etməkdədir. Elə Lalə Həsənova da problemi dərindən araşdıran bir ədəbiyyatşünas kimi məqalələrinin birində qeyd edir: *"Bu səbəbdən də, son illər yaranan əsərlərdəki obrazlara nəzər saldıqda əsərin bədii strukturunda dekorasiya rolunu oynayan personajlar silsiləsi yaranır"* [45, s.248]. Müasir dövrün keşməkeşli həyatını, problemlərini sadə, səlis, operativ yolla oxucusuna çatdıran hekayə janrı imkanları çərçivəsində məişətdən, adi həyat tərzindən tutmuş, sosial, siyasi problemlərə qədər olan hadisələri də işıqlandırır. Ona görə də qlobal dünyanın, müasir cəmiyyətin tələblərinə baxmayaraq, özünüdərk, mənəvi-əxlaqi dəyərlər kimi keyfiyyətlər qədimdən bu günə kimi bir çox sosioloqları düşündürdüyü kimi, müasir dövrdə də yazıçıların da diqqət mərkəzindədir. Türk dünyasının görkəmli alimi, böyük şəxsiyyət Ziya Göyalp da "Türkçülüyün əsasları" kitabında türk insanının qədim, mədəni-tarixi keçmişi haqqında qeyd etmişdir. O bildirmişdir ki, *"şahid olduğumuz kimi, başqa millətlər çağdaş mədəniyyətə daxil olmaq üçün keçmişlərindən uzaqlaşmağa məcburdurlar, halbuki türklərin çağdaş mədəniyyətə daxil olmaları üçün yalnız əski keçmişlərinə dönüb baxmaları yetərlidir"* [37, s.124]. Böyük mütəfəkkirin sözləri ilə razılaşmalı oluruq, çünki mədəni əxlaq, vicdan fərdlərdə şəxsiyyət anlayışını formalaşdırır. Bu isə ümumtürk dünyasına məxsus olan vacib mənəvi dəyər kimi bu gün də müasir cəmiyyət üçün milli və estetik ideal olaraq qalmaqdadır. Milli xüsusiyyətlərin təzahürünün təbliği Türkiyə yazıçısı Nəcati Güngörün "O mənim xalamdır" adlı hekayəsində "yaxşılığı unutmaq türk milli xarakterinə yad bir xüsusiyyətdir" şəklində öz əksini tapmışdır. Hekayədə xalasının himayəsində böyüyən gənc bir müddətdən sonra bu diqqətdən məhrum olur. Uşaqda bir qədər qısqanclıq və eqoizm hissi formalaşdığından xalasından inciyir, anasına şikayət edir, hər kəsdən uzaqlaşma, yadlaşma, psixoloji sarsıntı keçirir. Ana isə övladına: *"Bir-birimizi unutduq, bəlkə, amma insanlığını əsla unutmaram"* [135, s. 260] – deyərək yaxşılığın unudulmasını türk insanına yaraşmayan xarakter olduğuna işarə edir. Həcmcə kiçik hekayə olmasına baxmayaraq, yazıçı ibrətamiz ideyası ilə oxucunu maarifləndirməyə çalışır. "Yaxşılıq itmir" el misalı birbaşa humanizm

prinsipinə bağlı olduğundan, yaxşılığın insanlardan bir-birinə ötürülərək dövr etməsi, yeni duyğular yaratması, gözəl yaşantıya çevrilməsi və əksər hallarda yenidən özünə qayıtması anlamına gəlir. Milli-mənəvi özünüdərkin vacib keyfiyyətlərindən olan humanizm prinsipləri həm də *"ümumbəşəri dəyər və əxlaq prinsipi olmaqla, insana hər cür qayğı göstərilməsinə, cəmiyyətin ümumi qaydaları ilə yaşayan hər bir fərdin mənəvi maraqlarının təmin olunmasına xidmət edir*" [79, s.115]. Ona görə də humanizmə bağlı daxili keyfiyyətlərimizi artırmaq istəyiriksə, bizi kamilləşdirən, ümumtürk dəyərləri zəngin olan keçmişə qayıtmağımız daha doğru hesab olunur. Çünki tarixə, kökə, mənəvi dəyərlərə, adət-ənənəyə bağlı olan nə varsa, hamısı türklərin milli xarakterinə çevrilir və nəsildən-nəsilə ötürülür. Ailə-məişət fonunda açılan bu fikir türkün xeyirxahlığa münasibətini əks etdirir. Ayrı-ayrı dövlətlər olmasına baxmayaraq, qədim dövrlərdən eyni tarixi, mədəniyyəti, dili, dini inancları və s. paylaşan Türkiyə və Azərbaycan bu cür ortaq mənəvi dəyərlərin təbliğində də birlik nümayiş etdirir. Bu səbəbdəndir ki, vahid türk düşüncəsi və fəlsəfi-estetik dəyərləri çox zaman Türkiyə və Azərbaycan milli xarakterində ortaq nöqtələrin olduğuna işarə edir. Məsələn, Azərbaycan yazıçısı Varisin "Zalımlar, babam və əncir ağacı" adlı hekayəsində ailə bütün müsbət milli keyfiyyətləri, böyüyə ehtiramı, ağsaqqal sözünə və özünə olan hörməti ilə təsvir olunmuşdur. *"Babam bu yaşında evə qazanc gətirməsə də, sözün əsl mənasında, evimizin dirəyidir. Haçan ki gülümsəyərək əlini saqqalına çəkdi, demək, işlərin gedişatı yaxşıdır, həyat öz axarıyla, qaydasınca davam etməkdədir"* [105, s.13]. Müəllif hekayədə xalqının gözəl, özəl keyfiyyətlərini, milli cizgilərini nümayiş etdirməklə yanaşı, dili, üslubu, obrazlı təhkiyəsi ilə də xalqının özünüifadə cəhdini uğurlu ifadə edə bilmişdir. Hər bir fərdin yetkinləşməsi və milli özünüdərk prosesində vacib rolu olan milli, ülvi və saf olan dəyərlərə bağlılıq bu hekayədə balaca obrazın simasında görünür və onun genetik yaddaşından pozulmayacaq qədər möhkəm və dayanıqlı hesab olunur. Hekayələrdəki belə təsvirlər də ailədə və cəmiyyətdə əxlaqi, mənəvi dəyərlərin mahiyyətcə gücünü, önəmini artırmaqdadır. Çünki böyüyə hörmət, xalqının dəyərlərinə bağlılıq azərbaycanlıların və türklərin mədəni-mənəvi borcu kimi milli xarakteri əxlaqi-mənəvi məzmunla dolğunlaşdırır. "O mənim xalamdır", "Zalımlar,

babam və əncir ağacı" adlı bu iki hekayədə bəşərilik, insanilik kimi keyfiyyətləri, milli rəngarəngliyi də müşahidə etmək mümkündür. Lakin bu hekayələrin arasında mənəvi məzmunda uyğunlaşma, paralellik olsa da, psixoloji ovqatın təsvirində fərqlilik nəzərə çarpır. Belə ki, Nəcati Güngörün "O mənim xalamdır" hekayəsindən fərqli olaraq Varisin "Zalımlar, babam və əncir ağacı" adlı hekayəsində obrazların daxili dünyası, mənəvi-psixoloji aləmi o dərəcədə də məzmun və məna qazanmamışdır. Bu hekayənin obrazları məişət hadisələrinin fonunda gündəlik yaşayış tərzi və mövcud məlum vəziyyətdən doğan əhvali-ruhiyyənin əks etdirilməsi ilə yadda qalırlar. Onların psixoloji ovqatının təsvir edən detallar isə azlıq təşkil edir. Bu zaman belə bir sual ortaya çıxır? Bütün hekayələrdə obrazın daxili dünyasi, psixoloji-fəlsəfi ovqatı təsvir edilməli və təhlil obyekti olmalıdırmı? Fikrimizcə, mümkün qədər hə. Çünki öz psixoloji, ruhi, mənəvi və fiziki tərəfləri ilə bir çox elm sahəsinin tədqiqat predmeti olsa da, bütün bu tərəflər birlikdə ədəbiyyatın araşdırdığı, anlamağa, dərk etməyə çalışdığı mövzudur. Və qlobal proseslərin dəyişdiyi və "qlobal insan" tipinə çevirdiyi insan modeli ədəbiyyat üçün (elə cəmiyyət üçün də) öz dəyişimi ilə böyük maraq kəsb etməkdədir. Əhməd Uslunun "1980-ci ildən sonra türk hekayəçiliyində xarakter tipologiyası" adlı məqaləsində müasir həyatın sosial problemlərinin təsirindən doğan nəticələr bu cür xarakterzə edilir: *"Müasir həyatın səhv işləyən sistemi, siyasi təzyiqlər qəhrəmanları tənhalaşdırır. Ətrafı ilə bütün ünsiyyəti kəsən qəhrəman özünə qapanır"* [173, s.583]. İnsanlar çox hallarda məhz bu sosial-ictimai problemlərin təsiri ilə həyatın və zamanın diktə etdiyi şəxsiyyətə çevrilirlər. Bu problemlərin təsiri ilə insanı ucaldan mənəvi dəyərlər, nəsildən-nəsilə ötürülərək zamanla itir və yaxud dövrə görə dəyərsiz və mənasız şəkil alır. Bu mənada dövrün sosial-ictimai, psixoloji-sosial problemlərini real mənzərələrlə, konflikt və dioloqların vasitəsilə oxucusuna çatdıran, hekayələrində təbəqələşmənin acı nəticələrini göstərən, ailə və məişətdəki problemlərin real mənzərələrini yaradan, dövrün həyat həqiqətlərini ustalıqla əks etdirən həm Azərbaycan, həm Türkiyə yazıçıları insanların xarakterində baş verən dəyişiklikləri məhz bu problemlərə bağlayaraq, mənəvi dəyərləri, milli xarakteri qorumaq və ya itirmək kimi fəlsəfi-psixoloji məqamları əks etdirməyi bacarmışlar.

Təbəqələşmənin yaratdığı sosial problemləri Aykut Ərtoğrul özünün "Susqunluq" adlı hekayəsində də işıqlandırmışdır. Təbəqələşmənin acı real görüntüsü və əxlaqi dəyərlərdən uzaq olanlar bu hekayədə tənqid atəşinə tutulur. Hekayədə nəvəsi ilə avtobusa minən yaşlı bir nənə ünvanı dəqiqləşdirmək üçün sürücüyə yaxınlaşmaq istərkən ani olaraq onların oturacağına əyləşən iki qadının əxlaqdan, tərbiyədən, hörmətdən kənar dioloqunun şahidi olur.

*"– Burada biz otururduq.*

*Səsi güclə eşidilirdi. Qadınlar yanakı səsin gəldiyi tərəfə baxdılar.*

*– Nə?*

*– Bizim yerimizdir......*

*Hər yükünü tutan özünü şəhərə verəndə belə olar da... Kənddən gəldim şəhərə.*

*– Adamın gərək savadı olsun ey, əzizim, savadı"* [123, s.41].

Yazıçı hekayədə şəhər və kənd həyatının üstün və çatışmayan cəhətlərinin təsir etdiyi psixoloji məqamlara diqqəti yönəldir. Təbii ki, hər mübahisəli məqamda istisnalar vardır. Amma bu hekayədə təsvir edilən acı reallıq budur ki, şəhər həyatının bütün kontrol və rahatlıqlarına baxmayaraq, sosial problemlər insanın psixologiyasını, duyğu və xarakterini, şəxsiyyətini dəyişdirmək qüvvəsinə malikdir. Əhməd Uslu da məqaləsində şəhər və kənd həyatının fərqliliklərini, təbəqələşmənin nəticələrini 12 sentyabr 1980-ci il hadisələrinə bağlamaqla, fərdlərdə formalaşan xarakteri, psixoloji nüansları da qeyd etməyi unutmamışdır. *"Kənd həyatının qarışıqlığı, çətinliyi insanları ünsiyyətsizliyə və tənhalığa sürükləyir. Müasir həyat özünün gətirdiyi iqtisadi və sosial həyat şəraiti, ya da şəraitsizliyi ilə birgə insanları davamlı olaraq yadlaşdırır. Onlar zamanın və məkanın sürətli inkişafı ilə ayaqlaşa bilmirlər"* [173, s.583]. Əgər hərbi çevriliş Türkiyə sosial həyatında təbəqələşməyə səbəb kimi göstərilirsə, Azərbaycanda Birinci Qarabağ müharibəsindən sonra başlayan təbəqələşmə həm də "qaçqın status"lu insanların cəmiyyətə, ədəbiyyata obraz şəkilində daxil olması ilə xarakterzə olunur. Azərbaycanlı yazıçı Firuz Mustafa da "Ağır yük" adlı hekayəsində sosial problemlərin səbəblərindən biri kimi təbəqələşməni, sosiallaşmanı mənəvi dəyərlərə təsir edəcək şəkildə təsvir edir. Hekayədə kənddən gəlmiş Məsmə obrazı və Talıb kişinin mənəvi zənginliyi, həyati

təcrübəsi, təlim-tərbiyəsi hekayənin digər obrazlarla müqayisəsində nəzakət və mədəniyyət nümunəsidir. Xüsusilə Məsmə obrazında əsl Azərbaycan qadınına məxsus milli mentalitetimizə dayalı keyfiyyətlərin təsviri təkcə Şərq əxlaq və mənəvi dəyərləri ilə ahəngi və harmoniyanı nümayiş etdirmir, həm də yazıçının milli özünəməxsusluğa, milli kimliyə olan sadiqliyini göstərir. Hekayələrində qadın həyatını xüsusi vurğulamaq Firuz Mustafanın yaradıcılığında məxsus özəllik deyil. Onun hekayələrində qadına məxsusi bir hörmət, ehtiram, nəvaziş hiss olunur ki, bu da, təbii ki, müəllifin şəxsi keyfiyyətlərinin göstəricisidir.

*“ – Bu qədər də adam olar?*

– *Hələ harasını görürsən ki?.. İtərsən camaatın arasında, gəl qolumdan yapış.*

*Məsmə güllü yaylığını əli ilə səliqəyə salaraq dedi:*

*– Əşi görən olar birdən. Camaatın zurna-nağarısından qurtara bilmərəm. Deyərlər, Məsmə ayağını qırağa qoyan kimi dönüb şəhərli oldu, əriynən qol-qola gəzir...”* [67, s.16]. Yazıçı hekayədə şəhərdə yaşayıb şəhər həyatını yalnız geyim tərzi ilə ölçən, mənəviyyatca zəif olan şəhərli qadınlarla, kənddən gələn, amma nəcibliyi, əxlaqı, davranışı və insanlığı ilə seçilən Məsmə obrazının və yoldaşının müqayisəsini verməklə onu göstərməyə çalışmışdır ki, şəhər həyatının nə qədər də ictimailəşmə, dünyagörüşü, təhsil imkanları baxımından üstünlüyü varsa da, şəhərdə ictimai-sosial problemlərin həlli yolları daha çətindir. Çünki şəhər həyatının özünəməxsus özəllikləri insanları öz cəlbedici ağuşuna alır, lokal və qlobal şəkildə (sosial münasibətlərə ziyan vurmaqla) onların milli mənliyinin, şəxsiyyətinin dəyişməsinə səbəb olur. Belə hekayələrdə bu kontekstdə baş verən hadisələri yetərli şəkildə anlamaq üçün dünyada baş verən qloballaşmanın mahiyyətini xarakterə təsir edəcək formada təhlil etmək zərurəti yaranır. Qlobal dünyada insan sosiallaşmanın, təbəqələşmənin səbəbkarı kimi özü də fərqinə varmadan onun qurbanına çevrilə bilir.

Məlumdur ki, ailə və ailədaxili münasibətlər bir sıra funksiyaları özündə cəmləşdirməklə yanaşı, sosial birliyin təməlini qoyaraq insan-cəmiyyət münasibətlərinin ilkin formalaşma mərhələsində mühüm rol oynayır. Bu tarazlığın pozulması isə ailə daxili problemlərdən başlamış, sosial-ictimai münasibətlərə kimi

bir sıra sosial, mənəvi, psixoloji problemlər yaradır. Ailə dəyərlərinin qorunmasında cəmiyyəti və dövləti məsulliyətli və aktiv olmağa çağıran Ramil Vəlibəyov yazır: "*Bütün bunlarla yanaşı, sosial-ictimai institut kimi ailə bir sıra mühüm funksiyaları da həyata keçirir. Onların sırasında şəxsiyyətin sosiallaşması, mədəni irsin yeni nəslə ötürülməsi, ailə üzvlərinin sosial və emosional müdafiəsi, iqtisadi və təsərrüfat, sosial status, rekreativ, asudəlik və digər funksiyalar var*" [106, s.10]. Ailədaxili münasibətlərdə ailə üzvlərinin sosial və emosional müdafiəsi fikrini xüsusilə vurğulamaq lazım gəlir. Məlumdur ki, insanın psixoloji və sosioloji tələbatlarının inkişafı əvvəlcə ailədə baş tutur. Bunlar möhkəm olduqda insanın bir şəxsiyyət kimi formalaşması, xarakterinin müəyyənləşməsi prosesi unikal bir forma alır, cəmiyyətlə fərd bütövlüyünü birləşdirmiş olur. Əks təqdirdə isə insan sosial varlıq kimi mövcudluğunu inkar edərək yadlaşır, şəxsiyyətsizləşir və spesifik xarakterik cizgilərini itirmiş olur. Hicran Hüseynova da "Azərbaycan ailə modeli: ənənələr və müasirlik" adlı məqaləsində məhz bu həssas və vacib məqama toxunmaqla qeyd edir: "*Bir məsələni də qeyd etmək istərdim ki, ailədə münasibətlər sisteminin düzgün olması zəruridir. Əgər ailədə münasibətlər normal olarsa, o zaman insanlar da cəmiyyətdə müəyyən mövqe tuta bilərlər. Əgər tarazlıq pozularsa, həm problemi törədən, həm də yaranmış problemdən əziyyət çəkən insan (istər qadın, istər kişi, istərsə də uşaq olsun), cəmiyyətdə özünü təsdiq etmək üçün çətinliklərlə üzləşir*" [50]. Müzəyyən Çelik "Gəlin" adlı hekayəsində hadisələrə məhz bu prizmadan yanaşmışdır. Müzəyyən Çelik "Gəlin" adlı hekayəsində sosial problemlerin səbəbini cinsi ayrıseçkiliyə, etik problemlərə, sosial problemlərə bağlayır. Öncədən qeyd etdiyimiz kimi, ailədaxili münasibətlərin özündə doğru, dürüst psixoloji münasibətlərin olmaması mənəvi-psixoloji nəticələrə səbəb olur. Bu hekayədə sosial problemlərin yaratdığı şəxsiyyətsizliklə dəyərlərin dəyişməsi və bunun faciəsini yaşayan bir qadının həyatı acı reallıqla işıqlandırılmışdır. Hekayədə Şəngül xarakter zəifliyinin (ailə, qohumlar nəzərdə tutulur), şəxsiyyətsizliyin qurbanı olaraq "gəlin", "ana", "qadın" kimi öz statuslarını itirmişdir. Bir çox mənəvi itkilərdən, zərbələrdən sonra iki övladı əlindən alınaraq məcbur ata evinə göndərilən zaman gəlinin arxasınca səslənən fikirlər birbaşa onu yollayanların şəxsiyyətini, xarakterini, mənəvi-əxlaqi

simasını tənqid və müzakirə obyektinə çevirir. *“Yavuzun evində kimsə Şəngülün yoxluğunu hiss etmədi. Əşyalarını Yavuzun əsgərlikdən qalma bez çantasına dürtüşdürüb dünürbaşı ilə yolladılar”* [146, s.141]. Tənqid atəşinə tutulanlar da elə müti, cahil bir mühitdə boy atıb, davranışları, mühakimələri və taleləri ilə bu mühitin psixologiyasını şərtləndirən obrazlardır. Hekayədə faciə isə daha dərindir: Yalnız, kimsəsiz qalan, güvənsizliyini itirən qadının ümidsizliyi, anasız qalan övladların naməlum gələcək taleyi və bir ailənin sonu. Bu problemlər sosial mühitdə doğulur, ağır nəticələri isə mənəvi-sosial problemlər yaradır. Qadına, anaya olan mənəvi dəyərlər dəyişdikcə qadın xarakter, iradə zəifliyi kimi keyfiyyətlər qazanır, özünəgüvənsizlik, inamsızlıq, şəxsiyyətsizlik kimi problemlər yaşamağa başlayır. Əgər sosial problem və ya xaraktersizliyin hansının daha ilkin nəticələr verdiyinə baxsaq, sosial problemlərin yaratdığı xaraktersizlikdən daha çox mənəvi böhran keçirmiş bir fərdin yaratdığı sosial problemlər ağır nəticələr verir. Çünki bir fərd sosial mühitdə özünü vətəndaş, şəxsiyyət kimi görmürsə, o zaman cəmiyyətdə sosial, mənəvi, psixoloji problemlər artmağa başlayır. Yox əgər ailədaxili münasibətlər, sevgi, qayğı, birlik kimi dəyərlər bir fərdin ətrafında cəmlənibsə, bu həm ailənin möhkəmliyini xarakterzə edir, həm də güclü bir vətəndaş yetişdirmiş olur. Çünki cəmiyyətdə möhkəm ailə modeli, həm də güclü xarakterə məxsus vətəndaş deməkdir. Əhməd Uslu isə ailə böyüklüyünü belə xarakterzə edir: *“Ənənənin ən güclü təmsil edildiyi yer olan ailə hekayə qəhrəmanlarının dönüb qayıtdığı yerdir”* [173, s.594]. Həqiqətən də, bir fərdin qorunması bir şəxsiyyətin, bir sosial varlığın mənəvi-psixoloji uçurumdan xilas edilməsi deməkdir.

XX əsr həm Azərbaycan, həm də Türkiyə dövləti üçün siyasi-sosial hadisələr baxımından yaddaqalan və ciddi problemlərin yaşandığı bir dövr oldu. Bu problemlər bir çox sahələrdə müxtəlif prizmalardan işıqlandırıldığı kimi, ədəbiyyatda da öz əksini tapdı. Siyasi hadisələrin ədəbiyyatda əksi məsələsi birmənalı qarşılanmasa da, bəzən açıq şəkildə, bəzən isə obrazların yaşadığı psixoloji sarsıntılar şəklində bədii əsərlərdə ifadə olunmuşdur. Azərbaycanda 1990-cı illər Birinci Qarabağ müharibəsi və müharibədən sonra torpaq itkisi, qaçqınlıq həyatı, insanların qarşılaşdığı sosial problemlərin insan psixologiyasında, mənəviyyatında qoyduğu iz hekayələrdə aktual

mövzu olaraq işlənmişdir. Türkiyədə XX əsrin sonları baş verən və "Türk cəmiyyətində böyük qırılmalara səbəb olan siyasi bir hadisə" adlandırılan 1980-ci ildə baş verən hərbi çevriliş Türkiyə xalqının həyatında və ədəbiyyatında böyük dəyişikliklərlə yadda qaldı. Dövrün xüsusiyyətlərini özündə birləşdirən bu hadisə insanların sosial həyatına da təsir edəcək şəkildə tənhalaşma, özünəqapanma, yalnızlıq, gələcəyə inamsızlıq kimi psixoloji hadisələri də gətirdi.

Tədqiqatın əsas obyekti olan milli xarakter probleminin tədqiqi həm də siyasi-sosial hadisələri işıqlandıran hekayələr əsasında aparılmışdır. Siyasi-sosial amillərdən yaranan sosial, mənəvi, psixoloji problemli hekayələrdə zəif xarakterli obrazlara da rast gəlmək mümkündür. Kamil Əfsəroğlunun "Axşambazarı" hekayəsinin qəhrəmanı Mirişin simasında siyasi amillərin təsiri ilə yaranan sosial problemlərin ağuşunda xaraktercə cılızlaşan xarakterlərin yaranmasının şahidi oluruq. Kamil Əfsəroğlu "Axşambazarı" hekayəsindəki Miriş obrazında siyasi-sosial vəziyyətin çətinliyini (torpaq itkisinin nisgili, qaçqınlıq həyatı, işsizlik) mühitlə qəhrəmanın qarşıdurması kimi göstərmiş, onun mənəvi tənəzzülünü alçaldılmış və arxada qalan qaçqın ömür yolu ilə birgə işıqlandırmışdır. Mirişin vizualist arzuları və az müddət ərzində tanış olduğu birinə yalan danışması ona utancaqlıq hissi gətirməklə yanaşı, özünəgüvənsizlik və inamsızlıq kimi xarakterik cəhətlərini də ortaya qoymuşdur. *"Dilia qıyıq bataydı sənin, Miriş, özü də əyrisinnən! Şeytan hardan gəlib qəlbia soxuldu? Dilinnən tutub dartan yoxudu ha, niyə ağzıa gələni danışırdın? Bitdi Qasımın oğlu nə vaxtdan milyoner olub? Uçuq daxmadan savayı nəyin vardı sənin ?"* [21, s. 96] deyən obrazın simasında müharibə dövründən sonra yurdundan qaçqın düşmüş bir insanın torpaq itkisinin acısı ilə birlikdə yaşadığı mənəvi psixoloji sarsıntı hekayədə işıqlandırılmışdır. Torpaq itkisi, yarımçıq qalan arzular, qaçqınlıq həyatı Miriş obrazını xaraktercə zəiflətmiş, onun xəyal dünyasını əlçatmaz, reallığı isə qəbuledilməz etdirmişdir.

Ölkədə baş verən siyasi-ictimai hadisələr birbaşa sosial problemlərin yaranması ilə özünü büruzə verməkdədir. Bildiyimiz kimi, sahibsizlik, maddi problemlər, insanlar arasında mənəvi bağların qırılması, daşınması ağır olan mənəvi yükün verdiyi acıq və aqressiya hissləri bilavasitə sosial problemlərin ifadəsidir.

Ədəbiyyatın tədqiqat obyekti olan insan sosial varlıq olaraq psixoloji və sosioloji durumu, milli özünüdərk problemi ilə hər zaman yazıçıların da diqqət mərkəzində olmuşdur. Bu mənada Türkiyə yazıçısı Jalə Sancağın "Sevda ilə Alişan" adlı hekayəsində maddi çətinliyin, sahibsizliyin yaratdığı sosial problemlərin yaranma səbəbləri tam göstərilməsə də, hadisələr bir ailənin yaşadıqlarını, sosial problemlərini əks etdirmək baxımından maraq kəsb edir. Hekayədəki Arifə obrazı bir qadın, ana olaraq maddi və mənəvi yükdən azad olmaq arzusundadır. Onun bu arzusunu doğuran səbəblər fərdi xarakter daşısa da, yaşadıqları müasir dövrün acı reallıqlarını öz çiyinlərində daşıyan bir çox qadınların həyat hekayəsidir. Onun azad olmaq istədiyi mənəvi yük, əslində, türk qadınının xarakterinə, qorunan milli ailə dəyərlərinə və qanunlarına yaddır. Amma sosial problemlərin ağuşundan azad olmağa çalışan bu qadın sadiqlik, cavabdehlik kimi hisslərdən də uzaqlaşmağa can atmaqdadır. Bir çox yazıçıların hekayələrindəki qadını, xüsusilə ana obrazını xarakterzə edən Türkiyə tədqiqatçısı Əhməd Uslu məqaləsində *"Türk qadını genetik funksionoloji daşıyıcıdır"* [173, s.593] deməklə ana adının üzərinə qoyulan öhdəlikləri daha da artırır. "*Hekayələrdə, bir qayda olaraq, qadının analıq funksiyası üzərində dururlar. Ailə quruluşunu ayaq üstündə saxlayan, evdən kənara can atan ailə üzvlərinin geri qayıdıb gəldikləri yer ana qucağıdır"* [173, s.593]. Nəcib Tosun isə bütün hallarda "ana" obrazını ailə modelinin yaradıcısı və qoruyucusu kimi təqdim etməkdədir. *"Həyatdakı məğlubiyyətlərdən sonra dönüb geri qayıtdıqları yer ananın qəlbidir. Hər şey onun qəlbində sakitlik tapır"* [169, s.45]. Bu mənada, hekayədə sosial, maddi çətinliyin ucbatından ana obrazının milli-mənəvi dəyərlərin qoruyucusu kimi müəyyən hisslərə sahiblənməsi əvəzinə, öz mənəvi azadlığını arzulaması birmənalı qarşılanmır. Sevda isə Arifənin qızı, Alişanın bacısı olaraq ona qayğı göstərən tək insan kimi mənəvi yükdən azad olub, öz həyatını sərbəst yaşamaq arzusundadır. *"Həyat məni tanımır. Kimsə məni tanımır. Görməzliyə vururlar özlərini. Bax bu otaqda dustağım. Halbuki bir andaca çıxıb gedə biləcək haldayam"* [141, c.5, s.400], – deməklə yazıçı oxucusuna Sevda kimi bir çox insanların da arzularından imtina edərək sosiallıqdan uzaqlaşaraq, içinə qapanaraq yaşadığı mənəvi-psixoloji sarsıntını onun həyəcanları və yaşantıları ilə birlikdə çatdırmağa

çalışır. Alişan isə ana qayğısından məhrum olmuş, yaşadıqları və məhrumiyyətləri ilə şəxsiyyət kimi formalaşmaqda olan bir fərd olaraq "mən"ni ortaya qoymaq əvəzinə, şəxsiyyətsizlik, gələcəyə inamsızlıq, ümidsizlik, özgələşmə kimi hallar keçirməkdədir. Hər üç obraz maddi çətinliklərin sosial problemlərin ağır nəticələrini öz çiyinlərində daşımaqdadır. Onun problemi adi ailə-məişət səviyyəsində təqdim olunsa da, nəticələrin doğurduğu acı reallıqlar daha dərin məna kəsb etməkdədir. Jalə Sancaq səbəbləri açıq şəkildə göstərməsə də, psixoloji nəticələrə diqqət çəkməyi bacarmışdır: özünəinamsızlıq, şəxsiyyətsizlik, xaraktersizlik. Məhz bu çatışmazlıqların fonunda yazıçı özünü bir şəxsiyyət, bir insan kimi görmək istəyən, amma bunu doğruldacağına inanmayan obrazların həyatını işıqlandırır, cəmiyyətdəki sosial, mənəvi, psixoloji problemlərə diqqəti yönəltməyi bacarır. Jalə Sancaq öz hekayəsində yaratdığı obrazların sosial problemlərdən azad olmaq istəyini əks etdirməklə yanaşı, onların səadət və xoşbəxtlik uğrunda bir fərd olaraq mübarizəsini də işıqlandırmağa cəhd etmişdir.

Milli-mənəvi özünüdərk hissi insan xarakterini zənginləşdirməklə yanaşı, özünə inam bacarığını da artırır və insan şəxsiyyətini daha əsaslı şəkildə formalaşdırır. Müasir dövrdə məhz sosial və siyasi hadisələr insan xarakterini və şəxsiyyətini zədələyəcək qədər böyük qüvvəyə malikdir. Birbaşa insan psixologiyasına və xarakterinə təsir edən siyasi-sosial problemlər Kamil Əfsəroğlunun "Nırx" hekayəsinin də mövzusuna çevrilmişdir. Hekayədə I Qarabağ müharibəsi zamanı qaçqın düşmüş Temir adlı xlor satan bir kişinin simasında "qaçqın statusu" daşıyaraq həm maddi çətinlik yaşayan, həm də mənəvi sarsıntı keçirən bir qaçqın həyatından danışılır.*"Qaçqınlığın başında günləri-ayları sayırdı, indi illərin hesabını aparır. Şəhər yerinə heç alışa bilmirdi, özünü qıraq adam yerində görürdü, deyirdi, nə qədər olmasa, rayonnuyuq, kəndçisayaq davranırıq, yerli adamlar da bunu həzm eləmir"* [21, s.341]. Yazıçı kiçik bir hekayəyə çox böyük problemlərin ifadəsini sıxışdıra bilmişdir. Bütün məhrumiyyətləri, itkiləri ilə bərabər, tez-tez alçadılmış şəxsiyyəti ilə həm özünə, həm də yaşayışına nifrət edən Temir, özünün də dediyi kimi, insanların sərt baxışından, sözlərindən təngə gəlmiş, amma əlindən gələcək bir şey olmadığından taleyi ilə barışmağa məcbur olmuşdur. *"Yığcam bir hekayədə müəllif,*

*bu personajın çətinlikləri ilə yanaşı, yerli insanların ona münasibətinə də diqqət ayıra bilir*" [44, s.138]. Digər sosial problemlərdən fərqli olaraq siyasi ünsürlərin gətirdiyi problemin nəticələri daha ağırdır deyə bilərik. Çünki bu problem maddi və mənəvi nəticələri ilə insan şəxsiyyətində daha dərin izlər qoya bilir. Şəxsiyyətin alçaldılması ilə insan öz mövcudluğunu şübhə altına alır, özünü şəxsiyyət kimi görə bilmir, insanlardan uzaqlaşır, özgələşir, mənəvi uçuruma yuvarlanır. Onu da qeyd edək ki, sosial problemlər həm insanı maddiyyatdan mənəviyyata sürükləyir, həm də mənəvi dəyərləri itirmiş insanların və cəmiyyətin qurbanına çevirir. Türkiyə yazıçısı Zəyyad Səlimoğlu "Daş İskələ üzərində ayaqlar və..." adlı hekayəsində sosial fərqliliyindən istifadə edərək hakim mövqedə olanların, maddiyyatdan mənəviyyata sürüklənərək uçuruma düşən, cəmiyyətin qurbanına çevrilən Osman dayının yaşadıqlarını oxuculara çatdırıla biləcək qədər uğurlu şəkildə canlandırmışdır. Müəllif hekayədə kiməsə görə ev, isti ocaq, kiməsə görə isə qazanc yeri olan "Daş İskələ" adlı məkanın fonunda kimsəsiz, yalnız olan qoca Osman dayının çarəsizliyini, öz yüksək statusundan istifadə edib daha çox qazanc əldə etmək məqsədilə bu məkanı onun əlindən almağa çalışan qayıqçı Təməl Rəis və oğullarının davranışını, şəxsiyyət və xarakterlərindəki çatızmazlığı çox dolğun şəkildə təsvir etmişdir. Yazıçı bu ədalətsizliyin fonunda mənəvi dəyərlərin heç bir önəm daşımadığı bir zamanda yaşadığımıza da işarə etmişdir. Hekayədə Təməl Rəisin etikadan kənar, kobud davranışı da diqqətə çatdırılır: *"Təməl Rəis yenidən bir baxır çuxura düşmüş gözləri ilə Osman dayıya. – Gedəcəksənsənsə, həm də çox tez, lap elə bu axşam, günəş batmadan çıx get. Qayıqlarını da götür. Hə... Bura mənim olacaq, mənim yerim olacaq. Sən çıx get*" [140, c.2, s.613]. Osman dayının çarəsizlikdən doğan fəryad dolu baxışları, sosial fərqlilikdən doğan xarakter zəifliyi, dəyərlərin dəyişməsi problemini hekayəyə gətirməklə yanaşı, maddidən-mənəviyyata uçuruma yuvarlanan Təməl Rəis obrazının qazanc, maddi maraq həvəsi hekayədə tənqid edilmişdir: *"Osman dayının surəti alaqaranlıqda sarı bir ləkə kimi görünürdü. Bir soyuq dolaşırdı bütün iliklərində, evindəki əşyaların qayığa necə daşındığını böyüyən gözləri ilə izləyirdi. Bir göz qırpımı içərisində Osman dayı ilə bağlı heç bir şey qalmadı qayıqxana divarının dibində. Kürəyini divara dayadı, səssiz, nəfəssiz qaldı, bircə özü*" [140, c.2.

s.616]. Bu qarşılaşmada göründüyü qədəri ilə doğruluqla, ədalətlə, həqiqətlə yoğrulan türk xarakteri, milli-mənəvi dəyərlərə bağlı olan bir xalqın mənəvi keyfiyyətləri müasir dövrün sosial problemlərinin işığında artıq dəyərsiz hal almaqdadır. Türkiyəli tədqiqatçı Cəmilə Sümeyra da "Son dövr türk hekayəçiliyində insan və sosial həyat" adlı məqaləsində 80-ci illərin iqtisadi, siyasi səbəblərindən qaynaqlanaraq yaranan sosial problemlərin təsirini bu cür qiymətləndirmişdir: *"Aparılan siyasətlərin pul qazanmağı hər şeydən üstün bildiyi və ictimaiyyətə də güclü təsir göstərdiyi müşahidə edilən 80-ci illərdən sonra pul ən vacib dəyər halını almışdır"* [159, s.73]. Son dövrdə yazılmış bir çox Türkiyə hekayələrində bu hadisə tam mənzərəsi ilə təsvir edilməsə də, hadisənin təsiri obrazların üzləşdiyi sosial problemlərdə, emosional və psixoloji yaşantılarda öz əksini tapır. Zəyyad Səlimoğlu "Daş İskələ üzərində ayaqlar və..." adlı hekayəsində də 1980-ci illərdən sonra yarana problemlərin nəticələrini sosial münasibətlər məzmunundan çıxış edərək göstərməyi bacarmışdır.

Eyvaz Zeynalov "Gilas ağacı" adlı hekayəsində isə milli xarakterin, milli ruhun dəyişməsində, şəxsiyyət kimi özünə olan hörmət hissinin itirilməsində, maddiyyatdan mənəviyyat uçurumuna yuvarlanaraq mənəvi-psixoloji sarsıntı keçirən obrazın yaşantılarını onu əhatə edən dözülməz mühitin sosial problemləri ilə əlaqələndirmişdir. Hekayənin qəhrəmanı əvvəl tarix müəllimi işləyən, indi isə imkanlı ailələr üçün it bəsləyən Balaqədeş kişi öz xarakterinə məxsus mənliyi, şəxsiyyəti, hörmət və ehtiramı, şərəfi maddi rifahının yaxşı olması naminə indiki işinə dəyişməyə məcbur olmuşdur. O, öz faciəsini görə-görə, bilə-bilə, dərk edə-edə yaşayan obrazlardandır. *"Balaqədeş gözdə-qulaqdaydı, dediyinə görə, gəzdirmək üçün daha bir it tapsaydı, məktəbi, müəllimliyi birdəfəlik atacaqdı. Çünki it gəzdirməklə dərs demək, məktəb tutmurdu. Zənciri qolunda itlə küçədə təsadüfən müəllim yoldaşları, illah da şagirdləri ilə qarşılaşanda allahdan özünə ucuz ölüm arzu edirdi. Bilmirdi, qaçıb başını hansı yırtıq-deşiyə soxsun..*" [111, s.114]. Bu səhnə obrazın dediyi kimi, çox acınacaqlı bir qarşılaşmadır. Göründüyü kimi, sosial problemlər, xüsusilə maddi rifahın aşağı səviyyədə olmasının çətinlikləri xalqı psixoloji və mənəvi cəhətdən şikəst edir. Hissiyyat, mənəviyyat, dəyərlər yox olur. Nəticə etibarilə maddiyyat mənəviyyata qalib gələndə isə cəmiyyət də məhv olur.

Ona görə də müasir zamanın, qlobal dünyanın yenilklərinə baxmayaraq, insan nə qədər də bioloji-cismani varlıq olaraq mənəviyyat və genetik kodların daşıyıcısı olsa da, sosial problemlərin təsiri ilə xaraktercə dəyişikliyə uğramaq təhlükəsini yaşamaqdadır. Türkiyə yazıçısı Akif Kaya isə "Qoxu" adlı hekayəsində sosial problemlərin yaratdığı mənəviyyat probleminə başqa prizmadan yanaşmışdır. Onun qəhrəmanı xaraktercə daha güclü və mətindir. Hekayədə kitablarına həddindən çox bağlı olan, onlarla öz dünyasını və gələcəyini quran obrazın öz oğlunun əməliyyatı üçün kitablarını sataraq, övladını xilas etməsi səhnəsi sosial, maddi problemlərin nəticəsinin faciəsi olaraq dəyərləndirilməkdədir.

*"– Kitabları satdım, artıq almayacağam", – demək istədi...*

*– Sənin üçün qatlana bilərmişəm", – demək istədi.....*

*– Mən zorla dözüləcək bir insan olmaq istəmirəm", – demək istədi...*

*– Kimə qarşıdır bu küskünlük, qırğınlıq...*

*– Özümə qarşı...*" [133, s.32 ] – deməklə bir tərəfdən övladını xilas edən atanın qüruru ilə, digər tərəfdən, kitablarından uzaqlaşdırılan atanın bu dünyaya küskünlüyü və nifrəti psixoloji aspektlər prizmasından dolğun və təsirli işlənmişdir. Xüsusilə incə bir məqamı qeyd edək ki, obrazın mənəviyyatını zənginləşdirən, güclü edən məhz bu kitablar dünyası sosial problemlərin ağırlığına baxmayaraq, onu mənəviyyatca yüksəldir, həyatın ən çətin sınağından çıxmaqda mübariz olmağa səbəb olur. Sosial problemlərin qurbanlarından biri də Kamran Nəzirlinin "Gülə bilməyən adam" hekayəsinin maddiyyatdan mənəviyyata yuvarlanmış qəhrəmanı Rüstəm müəllimdir. Hekayədə qloballaşan dünya ilə ayaqlaşa bilməyən obrazın həyatı diqqət mərkəzindədir. Otuz ildən çox cəmiyyətə vicdanla, ləyaqətlə xidmət edən, müəllim sənətinə sevgi və qayğı ilə yanaşan Rüstəm müəllimin, demək ki, bu dövrə görə sənətinə və insanlara olan münasibəti heç kimə lazım deyilmiş. Ona görə ki, dəyişən zamana, dəyişən tələblərə uyğun gəlməyən Rüstəm müəllimin insani keyfiyyətləri və mətin, güclü xarakteri artıq gündəm mövzusu deyildir. *"–Bax görürsüz, özünüz də təsdiq etdiniz... İndi bizə yeni əsrin müəllimləri lazımdı... Müəllim deyəndə ki, əslində, bazarda müəllim olmur. Bazar özü formalaşdırır hər kəsi... Bəs sərbəstlik budu da? Ona görə də Rüstəm müəllim, inciməyin, sizi işdən azad etmişəm.*" [73, s.154].

Maddiyyatın mənəviyyatdan daha çox aktual və vacib olduğu bir dövrdə bazar iqtisadiyyatının tələblərinə cavab verməyən Rüstəm kişi kimi ləyaqətli, dürüst, güclü xarakterə sahib olanlar cəmiyyətdən, sosial mühitdən uzaqlaşdırılaraq sosial, mənəvi, psixoloji problemlər yaşamaqdadırlar. Bu məqamda Rüstəm müəllimin itirdiklərindən daha çox, onu kimilərini itirən cəmiyyətin gələcəyi oxucunu düşünməyə vadar edir. Məhz qlobal, siyasi, sosial və bir çox hadisələrin nəticəsi olaraq qloballaşan dünyada bazar iqtisadiyatının tərəqqisi (az vaxt, əmək sərf edərək daha çox iqtisadi fayda və mənfəət), həm də gətirdiyi mənfilikləri ilə (mövcud potensiala cavab verməyənlərin səmərəsiz realizə edilməsi) cəmiyyətin bütün sahələrində özünü reallaşdırmaqdadır. Bu problemi işıqlandıran ədəbiyyat sahəsi isə həmişəki kimi humanizmin, şəxsiyyətin milli-mənəvi özünüdərkinin tərəfindədir.

*"İntihar isə mənəvi-psixoloji bir problemdir, yalnız sosial problemlərlə əlaqələndirilməsi məqbul sayıla bilməz"* [44, s.44], – deyən Lalə Həsənovanın fikrinə əsaslanaraq qeyd etmək istəyirik ki, Şərif Ağayarın "Məsmə üçün dua" adlı hekayəsi ilə Güray Süngünün "Qaçacaq yer yoxdur" adlı hekayəsindəki intiharlar məhz siyasi-sosial problemlər aspektindən tədqiqata cəlb edilmişdir. Belə ki Şərif Ağayarın bu hekayəsində İkinci Dünya müharibəsinin (Böyük Vətən müharibəsi) ağır psixoloji nəticələrini yaşayan, atasız (atası müharibəyə getmiş, qayıtmamışdı), maddi çətinliklə böyüyən Məsmə adlı obrazı həyatın sonrakı illərində həm də sosial, mənəvi, psixoloji problemlərlə sınağa çəkilmişdir. Məsmə obrazı kimiləri tənqidçi Nərgiz Cabbarlı "ədəbiyyatdan intihara" adlı kitabında qeyd etdiyi kimi, həllini tapa bilmədiyi suallardan artıq yorulmuş, intihara doğru addımlayan səbəblərlə birgə həyat sürən obrazlar hesab edir: *"Yalnız müharibənin dəhşətlərini görən, yaşayan hər kəs intihara əl atmır ki... Nə də hamı müharibəni eyni faciə ilə yaşamır. Burada hər bir şəxsiyyətin psixoloji gücü, fəlakətlərə qarşı dayanmaq qüdrəti və mənəvi dözümlülüyü vacib rol oynayır"* [13, s.109]. Məsmə obrazı həm də ağrılı-acılı, itkilərlə dolu qadın həyatı (zorlanmış, yenidən ərə verilmiş, övladsızlıq və s.) ilə milli tipdən, milli simadan, milli özünüdərkdən məhrum olmuş obrazdır. İtkilərin, yalnızlığın gətirdiyi iztirab dolu yaşantılar ona milli-mənəvi özünüdərki unutdurur, bir varlıq olaraq özündən imtina edib, intihar etməsinə səbəb olur. "*Bismillahi rəhmani rəhim..."*

*Məsmənin ölüm xəbəri fin qəsəbəsinə həyəcan siqnalı kimi yayıldı. Hamı on dörd nömrəli evin həyatinə yığışdı. Cənazəni çəpərin küncündə quraşdırılmış yuyat çadırından çıxarıb üzü qibləyə çevirəndə molla əllərini göyə açıb oxumağa başladı*" [1].

*"Arvadımı öldürüb bağçada basdırdım. Yarım kisə unum var idi. Pəncərənin qarşısında oturub yağan qarı seyr etdim. Qaranlıqda nöqtə-nöqtə sayrışırdı göy üzü. Sıxılmırdım, heç sıxılmırdım. Səadətimi xilas etmişdim... Özüm öz sahibim..."* [160, s.32], – deyən Güray Süngünün "Qaçacaq yer yoxdur" adlı hekayəsinin Bəkir adlı qəhrəmanıdır. O, həm cinayətkar, həm də intihar etməyə cəhd edən bir obraz olaraq yalnızlığın, özgələşmənin, özü-özündən qopuşun, psixoloji sarsıntının nəticəsini dəyişə bilmir və intihar edir. Hekayəsi və qəhrəmanları haqqında müəllif Güray Süngünün özünün maraqlı açıqlaması diqqəti çəkir: "*"Qaçmağa yer yoxdur" hekayəsi, ilk baxışda, müasir dünyanın çıxılmazlıqları ilə bağlı şərhə başlamaq üçün əlverişli hekayədir. Amma bu, əslində, müasir dünya ilə əlaqəli vəziyyət deyil. Bundan beş yüz il əvvəl də öz təbii mühitindən yavaş-yavaş qopan bir insan var idi və o da sonunda çarəni özünü kənara itələyən hər kəsi kənara itələməkdə, özündən uzaqlaşdırmaqda görürdü. Bunun da sonu cinayət olurdu, intihar olurdu"* [149]. Güray Süngünün dedikləri əslində hərbi çevrilişdən qopan, real siyasi gerçəkliyin bir parçasıdır. Ümumiyyətlə, bu hadisə həm də insanları sosiallaşmadan, öz mövcudluğunu sübut edən dəyərlərdən, millilikdən uzaqlaşdıraraq intihara sürükləyən səbəblərdən başlıcası kimi göstərilir. *"Xüsusilə 12 sentyabr çevrilişi insanın özünə qapılmasına, gələcəklə bağlı inamsızlığına, hər şeyə şübhə ilə baxmasına səbəb olmuşdur. Bunun nəticəsində isə insanlara şəxsiyyət böhranı ilə bərabər dərin bir bədbinlik və bədbəxtlik hissi hakim kəsilmişdir"* [158, s.23]. Həqiqətən də, insanın sosial varlıq, şəxsiyyət olaraq özünü unudub, ruh və mənəviyyatını tərk edərək həyatla vidalaşması bir fərd və cəmiyyət üçün sosioloji və psixoloji nəticələr baxımından ağırdır.

Zaman, cəmiyyət, ictimai mühit dəyişdikcə sosial, mənəvi, psixoloji davranışlar, cəmiyyətin sosial-mənəvi həyatının zəruri meyilləri öz istiqamətini dəyişməyə məcbur olur. Həm Azərbaycan, həm də Türkiyə yazıçıları öz hekayələrində bu dəyişimin nəticələrinə cəmiyyətdə obrazın (xüsusilə qadının)

özünüifadə problemi kimi yanaşmağa çalışırlar. Daha çox qadın yazıçıların müraciət etdiyi bu mövzular son dövrlərdə də öz aktuallığını saxlamaqdadır. Bütün dövrlərdə qadına ümumbəşəri və əxlaq prinsipləri çərçivəsində yanaşılma, qadının cəmiyyətdə rastlaşdığı problemlər, gender siyasəti və bununla bağlı yaranan digər sosial problemlər həmişə yazıçıların diqqət mərkəzində olmuşdur. Zaman və qəhrəmanlar dəyişsə də, mövzu zamanla səsləşir, amma qadınlar bu gün də sterotiplərin, "yazılmamış qanunların" ağır nəticələrini yaşayırlar. Gülşən Lətifxanın "Pıspısa" hekayəsindəki kimi. Mövzunun aktuallığı hər zaman maraq kəsb edir: *"Müasir hekayələrdə qoyulan məsələlərdən biri də qəhrəman və onu əhatə edən mühit problemidir. Əsərlərdəki qəhrəmanların mühitdə rastlaşdığı müxtəlif xasiyyətli insanlarla ünsiyyəti, mənəviyyat, əqidə və düşüncələrinə, davranışlarına öz təsirini göstərir. Mühitlə qəhrəmanın qarşıdurması elə güclənir ki, birbaşa konflikt yaranır. Qəhrəman bəzən mənəvi, bəzən də fiziki cəhətdən sarsılır"* [49, c.1. s.307]. Gülşən Lətifxanın hekayəsindəki Pıspısa obrazı bir qadın olaraq arzuları, gəncliyi, kəşməkeşli həyatı, mehriban olmayan, sevgi üzərində qurulmayan ailəsi (əyyaş atası, sevməyən əri və ailəsi) və ətrafındakıların ona laqeyd, biganəli münasibəti ilə diqqət çəkir. Pıspısa obrazı hekayədə ilk öncə dəyərlərdən, hörmətdən uzaq olan qadın kimi yalnız evin bütün ehtiyaclarını ödəyir (ev işləri, övlad böyütmək, nəvələrə qulluq). Onun qadın kimi daxili dünyası, arzuları, sevgisi heç kimi maraqlandırmır. O, mütidir, acizdir. Əhatəsində olan cəmiyyət isə qəddardır. O bir fərd, şəxsiyyət kimi mövcud deyildir. Özünə hörmətdən, milli-mənəvi özünüdərkdən uzaqdır. Bu mənada, onun psixoloji sarsıntısı, ağrı-acısı ədalətsiz sosial cəmiyyətdə heç kimə maraqlı deyil. Eyni problemə, amma fərqli aspektlərdən yanaşma Zeynəb Yalçının "Qəhvə fasiləsi" [107, s.29] (sterotiplərin ağır nəticələri), Coşqun Mutlunun "Hüzndür şəhərin küçələri" [69, s.79] (milli mentalitet, ailədaxili zorakılıq, geri düşüncə, nadanlıq, savadsızlıq) adlı hekayələrində müşahidə edilməkdədir. Bu hekayələrdə qızların erkən nikahın qurbanına çevrilməsi, təhsildən uzaqlaşdırılması, hüquqların tapdalanması onları sterotiplərin qurbanına çevrilməsi vəziyyətini daha da dərinləşdirir. Onların simasında milli-mənəvi özünüdərkdən uzaqlaşdırılmış, milli xarakterik cəhətlərini itirən qadınların sosial-mənəvi problemləri hekayələrdə yenə

diqqət mərkəzinə gətirilir. XX əsrdə baş verən ictimai-siyasi dəyişiklik feminizim kimi siyasi-ideoloji baxışın dirçəlişinə, qadınların ruh və mənəvi yüksəlişinə təsir göstərdi. Bu dirçəlişi Türkiyədə 80-ci illərdən sonrakı proseslərə bağlayan Yıldız Ramazanoğlu "qadınların yazma halı" məqaləsində qeyd edir: *"Səksəninci illərdən sonrakı dövrdə çevrilişlərdən ümidini kəsən kişilərin əksəriyyəti pul qazanmağa və karyera qurmağa yönəldiklərindən gündəlik həyatla bağlım məsələlər diqqətdən kənar qalmış ola bilər və buna görə də əsl həyatın yaşandığı bu sahəni hekayələrdə tarixə keçirməyi daha çox qadınlar öz boyunlarına götürmüş oldular"* [155, s.107]. Müstəqillik qazanmış Azərbaycan dövlətində isə ictimai-siyasi hadisələrin təsiri və Avropa meyillərinin axınının nəticəsi olaraq qadınların həyatında, psixologiyasında və dünyagörüşündəki köklü dəyişikliklər artıq hiss olunmağa başlanıldı. Bu dirçəliş ədəbiyyatda qadın yazıçılarının ədəbiyyata axını və qadın mövzusunun ədəbiyyata təsir göstərməsi ilə özünü büruzə verirdi. Mətanət Vahid qeyd edir: *"Çağdaş qadın nəsri, o cümlədən hekayələrimiz də radikal feminizmdən uzaqdır, bununla belə, qadının taleyi, qisməti, payına düşən acılar qadın yazarlarımızı hər zaman düşündürür"* [102, c.2 s.360]. Göründüyü kimi, sterotiplərin qurbanına çevrilən qadınların sosial problemləri, feminist dəyərlərin cərəyan elədiyi bir dövrdə azalmamış, əksinə, daha da artmışdır. Ona görə də qadın və sosial problem mövzusuna zaman və situasiyaya görə fərqli aspektlərdən yanaşma diqqət çəkməkdədir. Bu yanaşmada xarakter fərqliliyi də diqqətdən yayınmır. Bu gün də cəmiyyətdə feminizm konsepsiyasını qəbul etməyərək, qadınlarla kişilərin təbiətcə fərqliliklərini səbəb gətirərək, nəinki fiziki, həm də psixoloji sferada uyğunluq olmayacağına əmin olanlar da kəmiyyətcə çoxluq təşkil edir. Bütün bu yanaşmalara rəğmən feminizm məsələsi dövrün tələblərinə uyğun olaraq iki istiqamətdə şaxələnir. 1. Qadın mənəviyyat, əxlaq, milli düşüncə normalarına uyğun olaraq qadındır, anadır, həyat yoldaşıdır. 2. Dövrün, zamanın tələbindən doğan, qlobal dünyanın qadın qəhrəmanıdır. Bu iki yanaşmada qadının taleyi fərdi problem kimi yox, cəmiyyətin sosial problemi kimi dəyərləndirilməlidir. Azərbaycan yazıçısı Məzahim İsmayılzadənin "Havalı" hekayəsindəki qadın qəhrəman məhz qlobal dünyanın qəhrəmanıdır. Bu qadın ailədə və cəmiyyətdə hakim mövqedən çıxış etdiyindən

Azərbaycan qadınına məxsus kübarlıqdan, incəlikdən, milli özünüdərkdən məhrumdur. Müasir, qlobal dünyanın qadını olaraq həyat yoldaşına Azərbaycan ailə dəyərlərinə və mentalitetinə uyğun olmayan tərzdə yanaşmaqdadır. "*–Sən mənim paxıllığımı çəkirsən! İstəmirsən, gözün götürmür ki, bu qədər qazanıram, əynini-başını alıram, ayaqqabını, corablarını mən alıram, ancaq sən mənim qədrimi bilmirsən. Bu azmış kimi, hələ paxıllığımı çəkirsən*" [53, s.267]. Həmçinin ailənin maddi durumunun da onun ixtiyarında olması obraza aşırı özünəinam hisslərini və hökmranlıq xarakterini qazandırır. Bu qadın müasir dövrün, qlobal dünyanın obrazı olaraq bütün güc potensialını həm evdə, həm işdə nümayiş etdirməyi bacarır. Türkiyə yazıçısı Buket Uzunerin isə "Öncəki və sonrakı qadın" hekayəsində müxtəlif zamanlarda bir kişinin həyatına daxil olan iki qadının yaşadığı həyat tərzi, şəxsiyyətinə münasibət, həyata baxış mövqeyi onların psixoloji, milli özünüdərk aspektindən əks etdirilmişdir. "Öncəki və sonrakı qadın" hekayəsinə feminist bir münasibət" adlı məqalədə isə iki qadın belə xarakterzə edilir. *"Birincisində istismar, ikincisində azadlıq var. O ya öz kimliyini sona qədər əridib məhv edəcək, ona çevriləcək, ərinin bir "quyruğu" kimi yaşayacaq, ya da azad bir qadın – fərd kimi yaşamağı seçəcəkdir..."* [116, s.274]. Hekayədə kişinin yüksək eqosu, narsist mövqeyi qadınların özünüdərk və təsdiq potensialını göstərmək imkanını mümkünsüz edir. *"Əslində, bura artıq nə sənin, nə də mənim evimdir. Bu ev özünə bənzədib əzə bilmədiyi insanların burada yaşamasına imkan verməz. İndi isə... yaxşı bilirsən ki, özünün bir parçasına çevirdiyi səninlə yaşamasının səbəbi elə budur"* [174, s.84], – deməklə yazıçı cinsi bərabərsizlik yaşayan qadınların sosial, mənəvi, psixoloji sarsıntılarını oxucularına çatdırmağı vacib bilir. Bu qadınlar qlobal dünyanın obrazları deyillər, onlar əxlaq, milli düşüncə normalarına uyğun yaşamaq istəyən, eyni zamanda müti və acizliyi seçmək istəməyən qadınlardır. Bu qadınlar həmçinin özlərinə qarşı etik, etnik, milli-mənəvi dəyərlərə hörmət və münasibətdən məhrumdular. Nəticə ondan ibarətdir ki, həm sterotiplərin tələbi, həm də müasirliyin ümumtürk psixologiyasına yad olan cəhətləri hər zaman qadının milli özünüdərkə dayalı xarakterinə, milli cizgilərinin itməsinə mane olmaqla yanaşı, onun psixoloji dünyasına da təsirsiz ötüşməmişdir.

Beləliklə, sosial problemlərdən irəli gələn cəmiyyətə qarşı inamsızlıq, özünəgüvənsizlik, intihara cəhd, şəxsiyyətsizləşmə, xarakter cılızlaşması, maddidən-mənəviyyata uçurum, dəyərlərin dəyişməsi kimi psixoloji əlamətlər insan şəxsiyyətini, etnik köklərini, xarakterik cizgilərini zədələməklə söylənilən reallıqların bədii mətndə tədqiqini də artırmışdır. Xüsusilə müasir dünya insanı üçün bu problemlərin həlli istiqamətləri vacib hesab olunduğundan, araşdırma da məhz bu problemlər üzrə aparılmışdır. Ona görə də nəinki sterotip və gendər problemi, həm də ailədaxili münasibətlər, maddi, ictimai-siyasi, sosial-ictimai problemlər, sosial təbəqələşmə Azərbaycan və Türkiyə yazıçılarının gözü ilə cəmiyyətin sosial-ictimai hadisəsi olaraq hekayələrdə öz əksini tapa bilmişdir. Bu fəsildə əldə olunan əsas müddəalar Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komisiyasının tövsiyə etdiyi elmi jurnallarda [85, s.178-185; 90, s.145-149; 91, s.277-287; 95, s.197-201], həmçinin xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında [89, s.357-365; 179, s.113-119], ölkədaxili [86, s.445-447; 93, s.216-219] və xaricində [165, s.230-237; 166, s.497-505] keçirilən beynəlxalq konfransın materiallarında öz əksini tapmışdır.

# NƏTİCƏ

Aparılmış tədqiqat zamanı aşağıdakı nəticələr əldə edilmişdir.

- Tədqiqat işində hekayələrin təhlili belə nəticəyə gəlməyimizə əsas verir ki, milli xarakter anlayışı nə qədər nisbi olsa da, ictimai-siyasi hadisələr onun mətndə formalaşmasına, meydana çıxmasına və dəyişməsinə təsir göstərir. Bu səbəbdən də Azərbaycan və Türkiyə hekayələrində milli xarakterin yaradılmasına fərqli aspektlərdən yanaşılmışdır. Belə ki Türkiyə ədəbiyyatında "milli xarakter" anlayışının görünməsinə də, elmi-nəzəri aspektdən təhlilinə də, demək olar ki, az rast gəlinir. Bunun səbəbi Türkiyənin Azərbaycandan fərqli olaraq tarixin müəyyən mərhələlərində milli ideologiyasına, dövlətçilik və milliyətçilik ruhuna təzyiqlər olmaması, hər hansı bir siyasi təzyiqin altında "milli xarakter" məfhumunun qabarıq şəkildə ifadəsinə bir o qədər də ehtiyac duyulmamasıdır. Ona görə də, bu məfhum Türkiyə ədəbiyyatında janrın və ya qəhrəmanın poetik ruhunda və modelində hiss olunmuşdur və olunmaqdadır. Azərbaycan ədəbiyyatında isə bu problemə yanaşma tamam fərqlidir. Bunun da tarixdən məlum olan bir sıra siyasi səbəbləri vardır.
- Tədqiqatda müəyyən edilmişdir ki, dövrün ictimai-siyasi hadisələri, dünyada gedən qlobal hadisələr, problemlər, sosial-psixoloji hadisələr hekayələrdə nəinki fərqli, dəyişkən xarakterli obrazların meydana çıxmasına, eyni zamanda da milli xarakterlərin tənəzzülə uğramasına səbəb olmuşdur. Dissertasiyada 1995–2015-ci illər ərzində həm Azərbaycan, həm də Türkiyədə baş vermiş ictimai-siyasi hadisələr, qloballaşan dünya və onun təsiri araşdırılmış, "milli xarakterin keyfiyyətinin dəyişməsi" şəklində ümumi nəticə əldə edilmiş, mətnlərdə bunun təzahürü təhlil edilmişdir.
- Azərbaycanda baş vermiş 1988-1994-cü illəri əhatə edən I Qarabağ müharibəsi hadisələrinin hekayələrdə əksi, qaçqın statusu, qəhrəmanların daxili dünyası, özünəqapanma, daxili sarsıntı, güvənsizlik, "qaçqın" adına bağlı olan xoşagəlməz münasibətlər obrazlarda xarakter dəyişikliyinə, milli xarakter cizgilərinin itirilməsinə, mənəvi dəyərlər, milli kimlik, özünüdərkdən uzaqlaşmaya səbəb olmuşdur. Məhz bu dövr o baxımdan tədqiqat işində aktuallıq kəsb edir.

- Türkiyə hekayəçiliyində isə 1980–ci illərdən başlayan hərbi çevrilişin iqtisadi-siyasi, sosial, mənəvi, psixoloji problemləri 1990-ci illərdən sonra ədəbiyyata da təsirsiz ötüşmədi. Bu hadisələrin gətirdiyi bir sıra iqtisadi-siyasi yeniliklərə baxmayaraq, hekayələrdə yalnızlıq, özünəqapanma, güvənsizlik kimi psixoloji problemləri olan milli xarakterlər yaradıldı. Bu proses son dövrə kimi də bir sıra hekayələrin mövzu və ideyasına öz təsirini göstərməkdədir.

- Müasir dövr obrazlarının xarakterindəki milli çalarların əvvəlki illərdəki obrazların xarakterində göstərilən milli çalarlarla az səsləşdiyi, az yaxınlıq olduğu, fərqliliyin çoxluğu da gözdən yayınmamışdır. Fərqlilik isə özünü artıq qloballaşan dünyanın yaratdığı qlobal dünya insanı modelində göstərməkdədir. Onda Qərb düşüncə və yaşayış tərzinə meyil açıq görünür. Müasir zamana və qlobal dünyanın tələblərinə görə milli xarakterin xüsusiyyətləri də dəyişmişdir. Artıq milli xarakterdən daha çox xarakterində "milli cizgilər" olan xarakterlər daha çox diqqət çəkir.

- 1995-2015-ci illərdəki yazılan həm Azərbaycan, həm də Türkiyə hekayələrində diqqəti cəlb edən əsas məsələlərdən biri də milli xarakter problemin Şərq-Qərb kontekstində, qlobal dünya və onun qlobal problemləri fonunda işıqlandırmaq və bu hadisələrin təsiri ilə dəyişən obraz xarakterlərini tədiqiqata cəlb etmək olmuşdur. Belə ki, həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatında qloballaşan dünya ilə dəyişən, qərbə meyl edən obrazların xarakterlərindəki milli-mənəvi tənəzzül problemi müasir hekayəçilərin də diqqətini cəlb etmişdir. Təhlildən yaranmış nəticə onu deməyə əsas verir ki, obrazların qərbə meyilliyi, qlobal dünyanın tələblərinə cavab verib, qlobal insan olmaq istəyi onları etnik-milli köklərdən uzaqlaşdırmış, qərbə meyillik şərq insanına mənfi tərəfləri aşılamışdır. Bu vəziyyətdə həmin insan yenilikləri qəbul edir, həm də əzəldən özününkü olan keyfiyyətləri isə itirməyə başlayır. Həmçinin qloballaşan dünyanın yeni texnoloji nailiyyətləri də insanın xarakterinə, davranış və varlığına da təsir etdiyindən, bu yeniliklərə alüdə olan obrazların mənəvi tənəzzülü artıq bir çox aktual problemləri də ortaya qoya bilir. Bu baxımdan Afaq Məsudun "Qəza", Azər Qismətin "Amerikasayağı arzu", Mustafa Akgünün "Türksayağı sevgi", Ayşə Kulinin "Gülizar", Camal Şakarın "Bir tip", "Pıçıltı" adlı hekayələrindəki xarakterlər məhz milli-mənəvi dəyərlər, milli-etnik

köklərə dayanıqlı vərdişlər və davranışlardan uzaqlaşaraq qlobal dünyanın obrazları olmağa can atırlar. Bu sıralanmanı daha da zənginləşdirmək mümkündür, amma gəldiyimiz nəticə ondan ibarətdir ki, qloballaşan dünya xarakterə nəyi aşılayır və ondan nəyi məhrum edir suallarına cavab tapılmışdır. Tədqiqatda həmçinin qərbdə baş verən inqilabların, qərbə meyilliyin nəticəsi olaraq yaranan "feminizm" kimi siyasi-ideoloji baxışın bir sıra nəzəri və ifratçı təsiri də qadın xarakterindəki mühüm və incə məqamlara da təsir etmişdir. Qadınların feminizm və ənənə dəyərləri arasındakı qarşıdurmada həmçinin dərin psixoloji hallar yaşamasının, təbiətcə özünə yadlaşıb, özündən, milli kimliyindən uzaqlaşaraq mənəvi sarsıntı keçirdiyinin də şahidi oluruq. Onlar bunu yeni tendensiya, müasirlik hesab etsələr də bu yalnız bir tərəfli mövqe nümayişidir, digər tərəfdən isə qadının milli keyfiyyətlərinin tənəzzülüdür. Ona görə də şərq-qərb mədəniyyətlərinin müharibəsində ümumbəşəri keyfiyyətlərin qorunması şərtilə hekayə janrında milli xarakter probleminin araşdırılması tədqiqatın əsas qarşıya qoyulmuş müddəası olaraq diqqət mərkəzində olmuşdur.

- Tədqiqatda gəldiyimiz nəticələrdən biri də sosial problemlər müstəvisində milli xarakterin dəyərləndirilməsi mərhələsində üzə çıxan nəticə və səbəblərdir. Bildiyimiz kimi, istənilən cəmiyyətin inkişafi prosesində sosial problemlərin insan psixologiyası və xarakterinə təsirinin ağır nəticələri ədəbi prosesin həmişə diqqət mərkəzindədir. Qloballaşan dünyanın mənəvi-psixoloji problemləri bundan əlavə ictimai-sosial, maddi, ailədaxili problemlər sosial problemlərin yaranmasının səbəbləri kimi göstərilmişdir. Bu problemlərdən yaranan obrazlardakı şəxsiyyətsizləşmə, özünəgüvənsizlik, intihara cəhd, xarakter cılızlaşması, maddiyyatdan-mənəviyyata uçurum kimi milli identikliyə, xarakterə təsir edəcək amillərin hər biri ayrı-ayrılıqda hekayələrdə təhlildə, həyat hadisələri fonunda işıqlandırılmışdır. Bu mərhələdə kənd və şəhər həyatı mövzusu, təhsilsizlik, sterotiplər, bu fərqlilikdən yaranan konfliktlərin xarakter və davranışa təsir edəcək məqamları sosial, mənəvi, psixoloji hadisələrdə diqqəti cəlb etmişdir. Bu problemlər Firuz Mustafanın "Ağır yük", Aykut Ərtoğrulun "Susqunluq", Müzəyyən Çelikin "Gəlin", Gülşən Lətifxanın "Pıspısa", Zeynəb Yalçının "Qəhvə fasiləsi" adlı hekayələrində nümayiş olunmuşdur.

- Tədqiqat zamanı xüsusilə milli cizgilər problemi üzərində dayanılıb və əhəmiyyəti vurğulanıb. Milli xarakter, onun ifadə üsulları, zamana və məkana görə aktuallığı obrazların və hadisələrin fonunda göstərilib.

- Qeyd edilən bu təhlil və tədqiqlər (1995-2015-ci illər üçün) müasir Azərbaycan və Türkiyə hekayəsinin ədəbi mənzərəsini yaratmaqla yanaşı, onun həm Azərbaycan, həm də Türkiyə ədəbiyyatı kontekstində özünəməxsusluğunu və əhəmiyyətini göstərə bilmişdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində


1. Ağayar, Ş.Z. Məsmə üçün dua: [Elektron versiya] / - Bakı, - 11 mart, 2020. URL: https://kulis.az/news/29238
2. Ağayar, Ş.Z. Şəkil: [Elektron versiya] / - Bakı, - 11 avqust, 2015. URL: https://kulis.az/news/13153
3. Ağaoğlu, M.M. Alman malı: [Elektron versiya] / - Bakı, - 17 avqust, 2013. URL: http://yarpaq.az/az/mirmehdi-aaolu-alman-mal-hekaye/
4. Ağbaba, A. Mifologiya. Dərslik. / A. Ağbaba, elmi red., M.Qasımlı. - Sumqayıt, - 2008. - 59 s.
5. Axirətə inam Allaha və Peyğəmbərə imanla birlikdə İslam inanc əsaslarının təməlini təşkil edir: [Elektron versiya] / - Bakı, - 14 mart, 2016. URL: http://www.trt.net.tr/azerbaycan/proqram/2016/03/14/axir-t-inam-allaha-v-peyg-mb-r-imanla-birlikd-islam-inanc-saslarinin-t-m-lini-t-skil-edir-450378
6. Akçuraoğlu, Y. Türkçülüyün tarixi / Y.Akçuraoğlu, türkçədən uyğ. və ön sözün müəllifi A.Kəngərli. - Bakı: Qanun, - 2010. - 271 s.
7. Akgün, M. Türksayağı sevgi // Həyatın rəngləri (almanax). Çağdaş Türkiyə yazarlarının hekayələri / Azərbaycan dilinə uyğ: C.Qədir. - Bakı: Mütərcim, - 2018. - s. 174-190.
8. Alışanlı, Ş. Ədəbi-bədii düşüncənin sərhədləri / Ş.Alışanlı, red. T.Əlişanoğlu. -Bakı: Sabah, - 2010. - 360 s.
9. Apaydın, T. Övliya qəbri // Türk hekayələri antologiyası. Trans. kor., R.Həmidov. - Bakı: Qafqaz, - 2015. - s. 281-288.
10. Aslanova, R. Qloballaşma və mədəni müxtəliflik / R.Aslanova. - Bakı: Elm, - 2004. - 264 s.
11. Babayev, T. Adət-ənənələrimiz. Qonaqpərvərlik - xalqımızın baş ucalığı, şöhrət tacı // Xalq. - 2010, 26 sentyabr. - s. 7.

12. Buyruqçu, M. Bir günün hekayəti // Türk hekayələri antologiyası. Trans. kor., R.Həmidov. - Bakı: Qafqaz, - 2015. - s. 296-303.
13. Cabbarlı, N. Ədəbiyyatdan intihara / N.Cabbarlı, red., E.İsgəndərzadə. - Bakı: Vektor, - 2006. - 200 s.
14. Cabbarlı, N. Yeni nəsil ədəbiyyatı: [3 cilddə] / N.Cabbarlı, red., G.Cəmaləddin. - Bakı: Elm, - c. 1. - 2006. - 380 s.
15. Cabbarova, L.M. Müasir şəraitdə tənhalığın sosial-psixoloji problemləri: / psixologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2002. - 201 s.
16. Cəfərov, N. Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları. / N.Cəfərov, V. Sərdərov, A. Cəfərov, red., D.Osmanlı. - Bakı: Elm və təhsil, - 2016. - 216 s.
17. Davudoğlu, Ə. Qumru // -Bakı: Azərbaycan, - 2006. № 7, - s. 78-83.
18. Elçin. Qarabağ şikəstəsi: [Elektron versiya] / - Bakı, - 1 noyabr, 2019. URL: https://aydinyol.aztc.gov.az/newsview/1848/QARABAG-ShIKESTESI
19. Etnopsixologiya. Dərslik. / Ş.Babayeva, C.Aliyev, Ə.Əliyev [və b.] - Bakı: ADPU-nun mətbəəsi, - 2020. - 346 s.
20. Əfəndiyev, E. Tənqid və Ədəbiyyatımızın problemləri / E.Əfəndiyev, red. və ön sözün müəl., K.Talıbzadə. - Bakı: Yazıçı, - 1981. - 360 s.
21. Əfsəroğlu, K. Tüfəng açıldı / K.Əfsəroğlu. - Bakı: Qanun, - 2015. - 368 s.
22. Əhməd, M. Aldanmış çalğıçılar // - Bakı: Azərbaycan, - 2013. № 12, - s. 153-154.
23. Əhmədov, B. XX yüzil Azərbaycan ədəbiyyatı: Mərhələlər, İstiqamətlər, Problemlər / B.Əhmədov, elmi red., İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, - 2015. - 552 s.
24. Əlibəyova, G. Xarakter və Tip // - Bakı: Azərbaycan, - 1975. № 7, - s. 194-206.
25. Əlioğlu, Y. Dul qadının ərini anma günü // - Bakı: Azərbaycan, - 2012. № 11, - s. 85-102.
26. Əlişanoğlu, T. Ə. Milli modernizm ədəbiyyatının gəlişməsində Afaq Məsudun rolu // - Bakı: Tənqid. net 2016 / 2017, - 2018. № 12, - s. 405-408.
27. Əlişanoğlu, T.Ə. Müstəqillik dövrü hekayəsinin inkişaf dinamikası // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / Elmi red., İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, - c. 2. - 2016. - s. 271-311.

28. Əlişanoğlu, T. Müstəqillik illəri Azərbaycan ədəbiyyatı. Dərslik. / T.Əlişanoğlu, elmi red., R.Qeybullayeva. - Bakı: Qanun, - 2013. - 216 s.
29. Əliyev, Ə. Qloballaşma və millilik / Ə.Əliyev. - Bakı: ADPU, - 2020. - 169 s.
30. Əliyev, M. Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi / M.Əliyev, elmi red., R.Xəlilov. - Bakı: Elm və təhsil, - 2018. - 168 s.
31. Əliyev, M. Ədəbiyyat Nəzəriyyəsi. Dərslik. / M.Əliyev, elmi red., B.Nəbiyev. -Bakı: Elm və təhsil, - 2012. - 480 s.
32. Əsgərli, Ə.B. Azərbaycan ədəbiyyatında modernizm cərəyanı olubmu? // Kaspi. - 2019, 11 fevral. - s. 22.
33. Əzizli, B. Son yüzilliyin türkçü ideoloqu Muhsin Kadıoğlu / B.Əzizli, elmi red., B.Əhmədov. - Bakı: Mütərcim, - 2020. - 416 s.
34. Fəhmi, İ. Səndən nigaranam // - Bakı: Azərbaycan, - 2009. № 2, - s. 101-112.
35. Fikrətoğlu, O.F. Əbədi yol: [Elektron versiya] / - Bakı, - 24 noyabr, 2017. URL: https://www.kulis.az/news/20474
36. Fikrətoğlu, O.F. Sonuncu əsgər: [Elektron versiya] / - Bakı, - 19 mart, 2018. URL: https://kaspi.az/az/sonuncu-esger
37. Göyalp, Z. Türkçülüyün əsasları / Z.Göyalp, tərc. ed., E.Mustafaoğlu. - Bakı: Maarif, - 1991. - 175 s.
38. Həbibbəyli, İ. Azərbaycan ədəbiyyatı dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri / İ.Həbibbəyli, elmi red., Ə.Salamzadə. – Bakı: Elm, - 2019. - 452 s.
39. Həbibbəyli, İ.Ə. Hekayə rapsodiyasından daha dərin qatlara: [Elektron versiya] / - Bakı, - 25 aprel, 2021. URL:https://525.az/news/166916-hekaye-rapsodiyasindan-daha-derin-qatlara-meqale
40. Həbibbəyli, İ.Ə. Müstəqillik ədəbiyyatının mövzu və tendensiyaları / İ.Həbibbəyli, T.Əlişanoğlu // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / Elmi red., İ. Həbibbəyli. - Bakı: Elm və təhsil, - c.1. - 2016. - s. 83-86.
41. Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman [ 10 cilddə] / İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, c. 2. - 2017. - 1068 s.
42. Həkimova, N. Azərbaycan xalq təbabəti: nəzəriyyə və təcrübə / N.Həkimova. - Bakı: Elm və təhsil, - 2015. - 304 s.

43. Həsənova, S.Ş. Müasir Azərbaycan hekayəsində psixoloji təhlil: (1970-80-ci illər): / filologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, 1995. - 129 s.
44. Həsənova, L. Çağdaş ədəbi paradiqma: İcmallar, Məqalələr, Düşüncələr / L. Həsənova. - Bakı: Avropa, - 2018. - 274 s.
45. Həsənova, L.T. Nəsr // - Bakı: Ədəbi proses 2015, - 2016. - s. 244-258.
46. Həsənzadə, L.H. 50-60-cı illər Azərbaycan nəsrinin poetikası (İsa Hüseynovun yaradıcılığı əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2007. - 132 s.
47. Hicran, F. Hekayələr...Oçerklər....Miniatürlər..../ F.Hicran. - Bakı: Elm və təhsil, - 2010. - 84 s.
48. Hüseynov, A. Müxtəlifliyin birliyi / A.Hüseynov. - Bakı: Yazıçı, - 1983. - 214 s.
49. Hüseynova, M. Qadın yazıçıların yaradıcılığında müasirlik problemi // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [ 2 cilddə] / Elmi red. İ. Həbibbəyli. - Bakı: Elm və təhsil, c.1. - 2016. - s. 298-314.
50. Hüseynova, H.K. Azərbaycan ailə modeli: ənənə və müasirlik: [Elektron versiya] / - Bakı, - 13 may, 2017. URL: http://www.kaspi.az/az/azerbaycan-aile-modeli-eneneler-ve-muasirlik
51. Xələfov, V. Xarakter və dil // - Bakı: Ulduz, -1979. №10, - s. 58-61
52. İkinci, M. Ümid arısı / M.İkinci. - Bakı: Mütərcim, - 2015. - 64 s.
53. İsmayılzadə, M. Sunami. Roman, Hekayələr / M.İsmayılzadə. - Bakı: BMB, - 2014. - 272 s.
54. İstismarçı qərb dünyasının qadına və onun azadlığına dair nəzəri necədir?: [Elektron versiya] / - Bakı, - 19 aprel, 2012. URL: https://www.islamquest.net/az/archive/question/fa14501
55. Qarayev, Y. Seçilmiş əsərləri: [5 cilddə] / Y.Qarayev, elmi red., Ş.Alışanlı. - Bakı: Elm, - c. 2. - 2015. - 629 s.
56. Qarayev, Y. Seçilmiş əsərləri: [5 cilddə] / Y.Qarayev, elmi red., Ş.Alışanlı. - Bakı: Elm, - c. 4. - 2016. - 776 s.
57. Qasımzadə, Q. Ədəbiyyatda millilik və beynəlmiləllik / Q.Qasımzadə, red., M.Cəfərov. - Bakı: Elm, - 1982. - 272 s.

58. Qasımlı, S. Türkiyə ədəbiyyatında yeni hekayəçilik (XIX əsrin ikinci yarısı - XX əsr) / S.Qasımlı, elmi red., T.Məlikli. - Bakı: AFPoliqrAF, - 2019. - 272 s.
59. Qismət, A. Amerikasayağı arzu: [Elektron versiya] / - Bakı, - 15 avqust, 2014. URL: http://yarpaq.az/az/amerikasayai-arzu-hekaye/
60. Mehrəliyev, E. Müharibə və ədəbiyyat / E. Mehrəliyev. - Bakı: Azərnəşr, - 2000. - 228 s.
61. Mehrəliyev, E.Ə. Yazıçının yurd həsrəti (Elçinin “Qarabağ şikəstəsi” hekayəsi üzərində düşünərkən) // - Bakı: Azərbaycan, - 2008. № 5, - s. 20-25.
62. Məmməd, A. Sənətkar qocalmır / A.Məmməd, tərt. ed., A.Dadaşzadə, elmi red. və ön sözün müəl. Elçin. - Bakı: Yazıçı, -1980. - 368 s.
63. Məmməd, T. Milli kimlik və bədii mətn / T.Məmməd, red., P.İsayeva. - Bakı: Elm və təhsil, - 2020. – 144 s.
64. Məmmədov, C. Türk millətinin psixologiyası barədə: [Elektron versiya] / - Bakı, - 12 mart, 2014. URL: http://kaspi.az/az/turk-milletinin-psixologiyasi-barede
65. Məsud, A. Yazı. Roman, esse, hekaye / A. Məsud. - Bakı: Qanun, - 2005. - 432 s.
66. Musayeva, F.V. Anarın bədii nəsrində xarakter problemi: / filologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2004. - 122 s.
67. Mustafa, F. Hekayələr kitabı / F.Mustafa, red., V.Əhmədoğlu. - Bakı: BMB, - 2015. - 448 s.
68. Mustafa, F.Q. Qloballaşma və mədəniyyət: [Elektron versiya] / - Bakı, - 9 noyabr, 2017. URL: https://www.yazyarat.com/yazi/qloballasma-ve-medeniyyet-2017-11-09-151512
69. Mutlu, C. Hüzndür şəhərin küçələri // Həyatın rəngləri (almanax). Çağdaş Türkiyə yazarlarının hekayələri / Azərbaycan dilinə uyğ: C.Qədir. - Bakı: Mütərcim, - 2018. - s. 79-85.
70. Mürsəlqızı, V. Namus: [Elektron versiya] / - Bakı, - 21 dekabr, 2014. URL: http://kultur.az/?p=7461
71. Nağıyeva, S. Müasir ədəbiyyatda mövzu müxtəlifliyi və milli xarakter // - Bakı: Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, - 2013. № 3 (87), - s. 188-190.
72. Nəcəfoğlu, N. Səhra gəmisi // - Bakı: Azərbaycan, - 2010. № 11, - s. 131-136.

73. Nəzirli, K. Miras / K.Nəzirli. - Bakı: Mütərcim, - 2014. - 432 s.
74. Niyarlı, M. Qızıl Qaval / M.Niyarlı. - Bakı: Nurlan, - 2005. - 224 s.
75. Nur, M. Əmi: [Elektron versiya] / - Bakı, - 9 noyabr, 2010. URL: http://yarpaq.az/az/meqsed-nur-emi-hekaye/
76. Nuriyev, S. Müasir sivilizasiya və milli inkişafın xüsusiyyətləri / S.Nuriyev. - Bakı: Çaşıoğlu, - 1998. - 88 s.
77. Ömərov, V. Azərbaycançılıq və qloballaşma // Azad Azərbaycan. - 2013, 30 aprel. - s. 5.
78. Ömərov, V. Azərbaycançılıq və milli xarakter: [Elektron versiya] / - Bakı, - 4 fevral, 2012. URL: http://www.anl.az/down/meqale/ses/2012/fevral/229827.htm
79. Rəşidzadə, L. Əli İldırımoğlu yaradıcılığında milli-mənəvi özünüdərk / L.Rəşidzadə, elmi red., R.Əliyev. - Bakı: Elm və təhsil, - 2017. - 334 s.
80. Sadiq, Ş.K. Qazinin ayağı: [Elektron versiya] / - Bakı, - 29 aprel, 2015. URL: http://shamil-sadiq.blogspot.com/2015/04/qazinin-ayag.html
81. Salamoğlu, T. Azərbaycan ədəbiyyatı: mübahisələr, həqiqətlər / T.Salamoğlu, elmi red., Ə.Tanrıverdi. - Bakı: "Orxan" NPŞMMC, - 2016. - 320 s.
82. Surət, xarakter, tip: [Elektron versiya] / - Bakı, - 13 yanvar, 2016. URL: http://qisadersmuhazireleri.blogspot.com/2016/01/surt-xarakter-tip.html
83. Şəfizadə, S.T. Azərbaycan hekayəsində milli xarakter anlayışı (1995-2015-ci illər) // - Bakı: Poetika.izm, - 2021. № 1, - s. 57-61.
84. Şəfizadə, S.T. Azərbaycan və Türkiyə hekayələrinin ədəbi cərəyanlar istiqamətində dəyərləndirilməsi // Klassik Azərbaycan ədəbiyyatı və incəsənətinin milli özünütəsdiqdə və Mərkəzi Asiyadakı mədəni tərəqqidə yeri. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin yaradılmasının 80-ci ildönümünə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, - Bakı: - 23-25 dekabr, - 2020, - s. 229-230.
85. Şəfizadə, S.T. Çağdaş Azərbaycan və Türkiyə hekayələrində milli özünəməxsusluq // - Bakı: Filologiya və sənətşünaslıq, - 2020. № 2, - s. 178-185.
86. Şəfizadə, S.T. Fərdi-psixoloji problematikada milli xarakter dəyərləndirilməsi (Müzeyyen Çelik "Gelin" və Qılman İlkinin "Gəlin" hekayələri əsasında) // Türk

dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri beynəlxalq elmi konfrans, - Sumqayıt: - 20-21 may, - 2021, - s. 445-447.

87. Şəfizadə, S.T. Firuz Mustafa "At günü" və Şevket Bulutun "Kuyruğu Kesilen At" hekayələrində at obrazı milli xarakterin atributu kimi // Gənc Türkoloqların I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Müasir Türkoloji Tədqiqatlar: Problem Və Prespektivlər" mövzusunda Beynəlxalq Elmi Konfrans, - Bakı: -21 -22 noyabr, - 2016, - s.155-156.
88. Şəfizadə, S.T. F.Mustafa və M.Buyruqçunun hekayə yaradıcılığında milli xarakter // Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 93 illiyinə həsr edilmiş Gənc tədqiqatçıların IV beynəlxalq elmi konfransı, - Bakı: - 29-30 aprel, - 2016, - s. 1323-1324.
89. Şəfizadə, S.T. Qloballaşan dünyanın qadın xarakterində oynadığı rol (Müasir Azərbaycan və Türkiyə hekayələri əsasında) // - Elazığ: Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD), Prof. Dr. Tuncer Gülensoy Armağanı, - 2021. V cild, № 2, - s. 357-365.
90. Şəfizadə, S.T. Milli xarakter Şərq-Qərb kontekstində (Azərbaycan və Türkiyə hekayələri əsasında) // - Bakı: Müqayisəli ədəbiyyatşünaslıq Beynəlxalq elmi jurnal, - 2019. № 1, - s. 145-149.
91. Şəfizadə, S.T. Siyasi-sosial problemlər kontekstində milli xarakter dəyərləndirilməsi (Müasir Azərbaycan və Türkiyə hekayələri əsasında) // - Bakı: Filologiya məsələləri, - 2021. № 3, - s. 277-287.
92. Şəfizadə, S.T. Təhkiyədə milliliyin ifadə üsulları (Azərbaycan və Türkiyə hekayələri əsasında) // - Bakı: Dil və Ədəbiyyat beynəlxalq elmi-nəzəri jurnal, - 2018. №3 (107), - s. 309-311.
93. Şəfizadə, S.T. Türk qadınları yazarların gözü ilə (Firuz Mustafa və Mustafa Kutlunun hekayələri əsasında) // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri XV beynəlxalq elmi-praktiki konfransın materialları, - Bakı: - 02 may, - 2016, - s. 216-219.
94. Şəfizadə, S.T. Türkiyə hekayəsində milli xarakter anlayışı // - Bakı: Filologiya məsələləri, - 2021. № 9, - s. 361-368.

95. Şəfizadə, S.T. I Qarabağ müharibəsindən sonra hekayələrdə sosial-psixoloji problemlərin əksi // - Bakı: Gənc tədqiqatçı, Elmi-praktik jurnal, - 2021. VII cild, № 2, - s. 197-201.
96. Şərifova, S. Klassiklər və müasirlər söz müstəvisində / S.Şərifova. - Bakı: Elm və Təhsil, - 2018. - 568 s.
97. Şərq və Qərb mədəniyyəti anlayışına konseptual baxış: [Elektron versiya] / -Bakı, - 15 yanvar, 2020. URL: https://scwra.gov.az/az/view/news/9315/sherq-ve-qerb-medeniyyeti-anlayishina-konseptual-baxish-
98. Tapdıqlı, V. Ağaclar susanda // - Bakı: Azərbaycan, - 2010. № 2, - s. 83-85.
99. Turaboğlu, X. Müasir Azərbaycan hekayəsinin ideya istiqamətləri və problematikası // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / Elmi red., İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, - c. 2. - 2016. - s. 312 - 343.
100. Turan, T. Topxanadakı sükunət // - Bakı: DGYTB. Qəlbdəki və Qələmdəki Qarabağ 1, - 2016. - s. 68-72.
101. Ulusel, R. Qloballaşma və müasir ədəbiyyatın fəlsəfi-estetik problemləri / R.Ulusel, elmi red., B.Nəbiyev. - Bakı: “Qoliaf Qrup” QSC, - 2010. – 168 s.
102. Vahid, M. Hekayənin indiki zamanı // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı: [2 cilddə] / Elmi red., İ.Həbibbəyli. - Bakı: Elm və təhsil, - c. 2. -2016. - s. 343-363.
103. Vahid, M. İlin hekayə yaradıcılığı // - Bakı: Ədəbi proses 2014, - 2015. - s. 164-184.
104. Valehov, C.F. XIX əsrin sonu XX əsrin əvvəlində Türkiyə ədəbiyyatında milli məfkurə: / filologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2004. - 141 s.
105. Varis. Zalımlar, babam və əncir ağacı // - Bakı: Azərbaycan, - 2014. № 12, - s. 12-18.
106. Vəlibəyov, R. Ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir // Yeni Azərbaycan. - 2011, 23 aprel. - s. 10.
107. Yalçın, Z. Qəhvə fasiləsi // Həyatın rəngləri (almanax). Çağdaş Türkiyə yazarlarının hekayələri / Azərbaycan dilinə uyğ: C.Qədir. - Bakı: Mütərcim, - 2018. - s. 29-34.

108. Yamak, Z. Vətən sevgisi // Həyatın rəngləri (almanax). Çağdaş Türkiyə yazarlarının hekayələri / Azərbaycan dilinə uyğ: C.Qədir. - Bakı: Mütərcim, - 2018. - s. 9-23.
109. Yunq, K. Q. Şərq təfəkkürü ilə Qərb təfəkkürünün fərqi, tərcümə edəni: Paşa Əlioğlu: [Elektron versiya] / - Bakı, - 28 noyabr, 2008. URL:http://yarpaq.az/az/kqyunq-serq-tefekkuru-ile-qerb-tefekkurunun-ferqi/
110. Yusifli, V. Ədəbi mənzərə // - Bakı: Ədəbi proses 2014, - 2015. - s. 11-52.
111. Zeynalov, E. Gilas ağacı // - Bakı: Azərbaycan, - 2008. № 9, - s. 110-120.
112. Zeynalova, D.V. İsmayıl Şıxlının yaradıcılığında milli özünüifadənin bədii inikası (yazıçı və folklor problemi əsasında): / filologiya üzrə fəlsəfə doktoru dis. / - Bakı, 2005. - 128 s.

**Türk dilində**

113. Akdoğan, M. S. İngiliz ve Amerikan Savaş Romanında Yabancılaşma: Ernest Hemingway ve Graham Greene: / Ankara Üniversitesi Sosyal Bilimler Enstitüsü Batı Dilleri ve Edebiyatları İngiliz Dili ve Edebiyatı Anabilim Dalında yapılan yüksek lisans tezi / -Ankara, 2013. - 105 s.
114. Arslan, M. Küreselleşme sürecinde kültürün trajedisi ve türk kültürü: [Elektron versiya] // - 9-15 Nisan, 2006. URL: http://turkoloji.cu.edu.tr/HALKBILIM/mustafa_arslan_kulturun_trajedisi_turk_kulturu.pdf
115. Baykara, T. Türk olduğunu hissetmek (Türk hissetmemekte Direnenler) // - Ankara: Türk yurdu, - 2012. cilt 32, sayı: 295, - s. 200-203.
116. Bildirici, Z. Buket Uzuner'in "Önceki ve Sonraki Kadın" Hikâyesine Feminist Bir Bakış / Z.Bildirici, R.Gülendam // Sosyal Bilimler Araştırma Dergisi, -İstanbul: - 2013. Sayı:30, - s. 269-277.
117. Büke, A. Cazibe İstasyonu / A.Büke. - İstanbul: Can yayınları, - 2017. - 87 s.
118. Çelik, B. Kaldığımız yer / B.Çelik. - İstanbul: Can Sanat Yayınları, - 2015. - 143 s.

119. Dönmez, Ö. F. Yol // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Çağdaş Misir Öyküsü, - 2009. Sayı: 31, - s. 14-19.

120. Duman, H. Yeni Türk Edebiyatı`nın kaynakları: Savaş ve Edebiyat (1828-1911) / H. Duman, S.Güreşir // Turkish Studies - İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic, - Ankara: - 2009. 4 (1) - I Winter, - s. 29-77.

121. Durmuş, G. Peyami Safa`nın Romanlarında Dünya Savaşlarına Yönelik Tahliller // - Kıbrıs: Uluslararası Kıbrıs Universitesi, folklor/edebiyat, - 2017 / 2. Cilt: 23, sayı: 90, - s. 113-128.

122. Erol, K. 1980 Sonrası Türk Öykücülüğünde Cemil Kavukçu ve Temmuz Suçlu Adlı Öykü Kitabının Tutunamayan Karakterlerinde Kimlik Bunalımı // - Van: YYÜ Eğitim Fakültesi Dergisi (YYU Journal of Education Faculty), - 2013. Cilt: X, Sayı: 1, - s. 264-294.

123. Ertuğrul, A. Mümkün Öykülerin En İyisi / A.Ertuğrul. - İstanbul: Dedalus, - 2013. - 128 s.

124. Ertürk, G. Ölüm-Kalem meselesi // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Çağdaş Misir Öyküsü, - 2009. Sayı: 31, - s. 40-42.

125. Gümüş, S. Öykünün Kedi Gözü / S.Gümüş. - İstanbul: Can Sanat Yayınları, - 2012. - 143 s.

126. Güngör, E. Kültür Değişmesi ve Milliyetçilik (Milli karakter I): [Elektron versiya] / 17 aprel, 2007. URL:https://www.ulkucudunya.com/index.php?page=haber-detay&kod=578

127. Güngör, E. Kültür Değişmesi ve Milliyetçilik (Milli karakter II): [Elektron versiya] / 17 aprel, 2007. URL:https://www.ulkucudunya.com/index.php?page=haber-detay&kod=579

128. Güzel, E. Bir Hayat, Üç Gün ve Ölüm // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Dosya: 80 sonrası Türk öykücülüğü, - 2005. Sayı: 9, - s. 120-122.

129. Haluk, E. Papatya Kokulu Hikayeler / E.Haluk. - İstanbul: Yakamoz Kitab Yayınevi, - 2014. - 352 s.

130. İleri, S. Türk Öykücülüğünün Genel Çizgileri // - Ankara: Türk Dili dergisi. Türk öykücülüğü özel sayısı, -1975. Sayı: 286, - s. 2-29
131. Kadioğlu, M. Türklük Bilgisine Giriş // - İstanbul: Türk Dünyası Tarih və Kültür Dergisi, - 2009. Cilt: 59, sayı: 272, - s. 37-41.
132. Karpat, K. Kimlik sorununun Türkiye`de Tarihi, Sosyal ve İdeolojik Gelişmesi // Türk Aydını ve Kimlik Sorunu, hazırlayan: Ş.Sabahattin. - İstanbul: Bağlam Yayıncılık, - 1995. - s. 23-38.
133. Kaya, A. İslak Kibritler / A.Kaya. - İstanbul: Metamorfoz Yayıncılık, - 2012. - 136 s.
134. Kayaoğlu, İ. Birey ve Toplum İlişkisi Ekseninde Cemal Şakar`ın Hikayeleri ve Hikayeciliği: / Fırat Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edebiyatı Anabilim Dalı Yeni Türk Edebiyatı Bilim Dalında yapılan yüksek Lisans Tezi / - Elazığ, 2018, - 220 s.
135. Kıbrıs, İ. Cumhuriyet Dönemi Türk Edebiyatı Yeni Türk Edebiyatı / İ.Kıbrıs. - Ankara: Anı Yayıncılık, - 2004, - 378 s.
136. Koçak, A. Savaşın Gölgesinde Yazılan Hikayeler: Ömer Seyfettin`in Hikayelerinde Savaşın Yansımaları // - Çanakkale: Çanakkale Araştırmaları Türk Yıllığı, - 2015. Yıl 13, sayı: 18, - s. 637-656.
137. Kösoğlu, N. Küreselleşme ve Milli Hayat / N.Kösoğlu. - İstanbul: Ötüken Neşriyat A.Ş, - 2002. - 184 s.
138. Kulin, A. Gülizar // İnsanlar İçində Bir İnsan Sait Faik Hikaye Armağanı Antolojisi (1955-2007), hazırlayan; Duruel N. - İstanbul: Yapı Kredi Kültür Sanat Yayıncılık Ticaret ve Sanaye, - 2007. - s. 557-565.
139. Külahlıoğlu, A. 1945-1960: Savaş sonu öyküleri // Türk Edebiyatı Tarihi 4. editör: T.S.Halman, editör yardımçısı: O.Horata [ və b.] - İstanbul: TC Kültür ve Turizm Bakanlığı Yayınları, - 2006. s. 450-455.
140. Lekesiz, Ö. Yeni Türk Edebiyatında Öykü 2: [5 cildde] / Ö.Lekesiz. - İstanbul: Şule Yayınları, - c. 2. - 2017. - 661 s.
141. Lekesiz, Ö. Yeni Türk Edebiyatında Öykü 5: [5 cildde] / Ö.Lekesiz. - İstanbul: Şule Yayınları, - c. 5. - 2017. - 606 s.

142. Lekesiz, Ö. Yeni Türk Edebiyatında Öykü 4: [5 cildde] / Ö.Lekesiz. - İstanbul: Şule Yayınları, - c. 4. - 2017. - 589 s.
143. Lekesiz, Ö. Öykücülüğümüzde Dönemler // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Türk Öykücülüğü Özel Sayısı, - 2005. Sayı: 46/47, - s. 18- 26.
144. Mahiroğulları, A. Küreselleşmenin Kültürel Değerler Üzerine Etkisi // - İstanbul: Sosyal Siyaset Konferansları Dergisi, - 2005. Sayı: 50, - s. 1275-1288.
145. Mert, N. Modern Öykünün Serüveni: 1940`tan Günümüze // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Türk Öykücülüğü Özel Sayısı, - 2005. Sayı: 46/47, - s. 93-123.
146. Müzeyyen, Ç. Gelin // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Dosya: Tek Kitapla öykücü, - 2014. Sayı: 62, - s. 138-141.
147. Öz, A. Cemal Şakar`la Öykü Üzerine Söyleşi.....// - Ankara: Hece Aylık Edebiyat Dergisi. Söyleşi: Cemal Şakar`la Öykü Üzerine.. Işık Yanar`la Roman Üzerine..., - 2011. Sayı: 170, - s. 98-105.
148. Öz, E. Sular Ne Güzelse // İnsanlar İçində Bir İnsan Sait Faik Hikaye Armağanı Antolojisi (1955-2007), hazırlayan; Duruel N. - İstanbul: Yapı Kredi Kültür Sanat Yayıncılık Ticaret ve Sanaye, - 2007. - s. 566-574.
149. Öz, H. K. Güray Süngü ile Söyleşi: [Elektron versiya] / - 1 Aralık, 2010. URL: https://edebistan.com/soylesiler/guray-sungu-ile-soylesi
150. Özdenören, R. Kent İlişkileri / R.Özdenören. – İstanbul: İz Yayıncılık, - 2011. - 200 s.
151. Özdenören, R. Öykü yazmak // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Türk Öykücülüğü Özel Sayısı, - 2005. Sayı: 46/47, - s. 152-153.
152. Polat, M.E. "Kurtuluş Savaşı Dönemi Öykülerinde "Dedikodu" nun İşlevi Ve "Öteki"nin Anlatısı" : / Karadeniz Teknik Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili Ve Edebiyatı Anabilim Dalı Türk Dili Ve Edebiyatı Proqramında Yüksek Lisans Tezi / - Trabzon, 2014. - 134 s.
153. Polat, M.E. Milli Seferberlik Hallerinde Dedikodunun İşlevsel Gücünden Yararlanan Edebiyat: Kurtuluş Savaşı Dönemi Öyküleri // - İstanbul: Akademik

Bakış Uluslararası Hakemli Sosyal Bilimler Dergisi, - 2018. Sayı: 65, - s. 407-426
154. Poyraz, H. Milliyetçiliğin Değerleri. Değerlerin Milliyetçiliği // - Ankara: Türk yurdu, - 2012. cilt 32, sayı: 295, - s. 276-282.
155. Ramazanoğlu, Y. Kadınlarda Yazma Hali // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Dosya: 80 sonrası Türk öykücülüğü, - 2005. Sayı: 9, - s. 106-111.
156. Sezgin, S. Kızıl Şafaklar // Atatürk ve Çanakkale Öyküleri, hazırlayan: A. Gülseren. - Antalya: Baygenç Ajans yayınları, - 2016. - s. 68-74.
157. Sultanlı, V. Ada: [Elektron versiya] / - Baku, - 19 mayıs, 2017. URL: https://www.dergizan.com/2017/05/19/ada-vaqif-sultanli/
158. Sümeyye, B. Cemal Şakar`ın Öykülerinde Yapı ve Tema: / Fatih Sultan Mehmet Vakıf Üniversitesi Lisansüstü Eğitim Enstitüsü Türk dili ve Edebiyatı Proqramı Yüksek Lisans Tezi / - İstanbul, 2019. - 382 s.
159. Sümeyra, C. Son Dönem Türk Öykücülüğünde İnsan Ve Toplumsal Hayat // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Dosya: 80 sonrası Türk öykücülüğü, - 2005. Sayı: 9, - s. 69-75.
160. Süngü, G. Kaçacak Yer Yok // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Dosya: 80 sonrası Türk öykücülüğü, - 2005. Sayı: 9, - s. 24-32.
161. Şahin, S. Amcamın Evi // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Çağdaş Misir Öyküsü, - 2009. Sayı: 31, - s. 49-52.
162. Şakar, C. Mürekkep / C.Şakar. - İstanbul: İz Yayıncılık, - 2017. - 102 s.
163. Şakar, C. Portakal Bahçeleri / C.Şakar. - İstanbul: İz Yayıncılık, - 2015. -112 s.
164. Şefizade, S.T. Azerbaycan ve Türk Hikayelerinin Konu ve İçerik Açısından İncelenmesi Üzerine (1995-2000 yılları) // Uluslararası Türk kültür ve Sanatı Sempozyumu, - Ankara: 29-30 Ekim, - 2020, - s. 144-165.
165. Şefizade, S.T. Sosyo-Politik Olaylar Bağlamında Milli Karakter Sorunu ((2000-2015 yılları) Azerbaycan ve Türk hikayelerine göre) // Osmaniye Korkut Ata Üniversitesi 2. Uluslararası Dil ve Edebiyat kongresi, - Konya: - 18-20 Kasım, - 2020, - s. 230-237.

166. Şefizade, S.T. Milli Karakterin Sosyal Sorunlar Bağlamında Değerlendirilmesi (Azerbaycan ve Türk Hikaye Örneklerine Göre) // IV Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu, - Ankara: - 17 Aralık, - 2020, - s. 497-505.

167. Şefizade, S.T. Türk Edebiyatında Milli Karakter Kavramını Şekillendiren Unsurlar // Osmaniye Korkut Ata Üniversitesi 3. Uluslararası Dil ve Edebiyat kongresi, - Konya: - 6-8 Ekim, - 2021, - s.149 -151.

168. Tokel, D.Ali. Zihniyet Ve Kaynakları Açısından Hikayemize Bakmak // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Türk Öykücülüğü Özel Sayısı, - 2005. Sayı: 46/47, - s. 42-52.

169. Tosun, N. Günümüz Öyküsü / N.Tosun. – İstanbul: Dedalus Kitap, - 2015. - 382 s.

170. Tosun, N. Modern Öykü Kuramı / N.Tosun. - Ankara: Hece Yayınları, - 2018. - 359 s.

171. Tosun, N. Seksen Sonrası Türk Öyküsünde Yüzleşme, Yalnızlık, İçe dönüş... // - Ankara: Hece Aylık Edebiyat Dergisi. Dosya: 80 sonrası Türk öykücülüğü, - 2005. Sayı: 9, - s. 59-68.

172. Ulucutsoy, H. Türk basınında savaş edebiyyatı tartışmaları 1913-1941 // -Ankara: Türkish Studies İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic, - 2018. 13/28, - s. 1023-1040.

173. Uslu, A. 1980 sonrası Türk hikayeciliğinde kişi(ler) tipolojisi // - Ankara: Turkish Studies İnternational Periodical for the Languages, Literature and History of Turkish or Turkic, - 2016.11/15, Summer, - s. 577-608.

174. Uzuner, B. Ayın en çıplak günü / B.Uzuner. - İstanbul: Remzi Kitapevi, - 1998. -152 s.

**Rus dilində**

175. Желтова, Н. Ю. Поэтика русского национального характера (теоретический аспект) // - Тамбов: Вестник ТГТУ, - 2004. Том 10. № 3, - с. 875-883.

176. Загидуллина, Д. Ф. Словарь литературоведческих терминов и понятий / Д. Ф.Загидуллина, В. Р.Аминева, М.И.Ибрагимов - Казань: Магариф, - 2007. - 231 с.
177. Лихачев, Д.С. О национальном характере русских // - Москва: Вопросы философии, - 1990. № 4, - с. 3-6.
178. Чекашкина, Н. И. Художественное осмысление темы Великой Отечественной войны в современной мордовской прозе: 80-90-е гг. XX века: / Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. / - Саранск, 2004. - 24 с.
179. Шафизаде, С. Процесс глобализации и проблема национального характера» в контексте «Восток –Запад» (На примере современных турецких и азербайджанских рассказов) // - Днипро: Вісник Університету імені Альфреда Нобеля. Серія: Філологічні науки, - 2021. № 1 (21), - с.113-119.
180. Эйхенбаум, Б. Литература: Теория. Критика. Полемика / Б.Эйхенбаум. - Ленинград: Прибой, - 1927. - 303 с.